Hüseynbala
Mirələmov

Gəlinlik paltarı

roman

Yenidən işlənmiş ikinci nəşri

BAKI – 2009

Redaktor: Ağacəfər Həsənli
Rəssam: Arif Hüseynov

Hüseynbala Mirələmov. «Gəlinlik paltarı»
(roman, yenidən işlənmiş ikinci nəşr)
Bakı, «NURLAR» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2009, 368 səh. İllüstrasiyalı.

Yazıçı-dramaturq və ictimai-siyasi xadim Hüseynbala Mirələmov lirik psixoloji səpkidə yazdığı «Gəlinlik paltarı» romanı ilə dövrümüzün acı həqiqətləri, real həyati motivləri, insanların, xüsusilə gənclərin müxtəlif ölçülü təfəkkür və əqidəsi, onların dünyaya baxışlarını təbii boyalar vasitəsi ilə oxucularına təqdim edib.

Yenidən işlənərək ikinci dəfə nəşr olunan «Gəlinlik paltarı» romanı sənədli nəsr əsəri deyildir, amma kitabda təsvir olunan hadisələr günümüzün gerçəkliyi, insanlar isə bizim müasirlərimizdir.

Hadisələr oxucunun gözləri qarşısında baş verib cərəyan edir. Hüseynbala Mirələmovun bu əsəri istər insani, istərsə də milli dəyərlərə, o cümlədən kişilik adına şərəf gətirməyən mənəviyyatsız xislətə, sözün həqiqi mənasında, insan alverinə qarşı mübarizəyə bir çağırışdır.

Gəlinlik paltarından, ana olmaq səadətindən məcburi imtina edən qızların acı taleyi hər bir vicdanlı ürəyi ağrıdan bəladır. Gənc qızları min bir hiylə ilə aldadanlar, pis yola çəkənlər, alıb-satanlar isə həm ulu Tanrı qarşısında, həm xalq qarşısında, həm də dövlətin qanunları qarşısında mənəvi və cinayət məsuliyyəti daşıyırlar. Bu, aktuallığı baxımından hər bir cəmiyyətə xas olan amildir.

İnsanları ayıqlığa, həssaslığa, paklığa, saflığa, ülvi hislərə sahib olmağa, böyük məhəbbətə səsləyən «Gəlinlik paltarı» romanı ilk nəşrində geniş oxucu kütləsinin diqqətini cəlb etmiş, hədsiz bir maraqla oxunmuşdur.

Qeyd etmək lazımdır ki, roman qardaş Türkiyədə tanınmış yazıçı Yasemin Bayer tərəfindən türk dilinə tərcümə olunaraq geniş yayılmışdır. Rusiya nəşrlərində rus dilində əksini tapan «Gəlinlik paltarı»nın digər dillərə də çevrilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan, Asiya və Afrika ölkələri Yazıçılar Birliyinin üzvü olan Hüseynbala Mirələmov Fransanın «Napoleon», Ukraynanın «Zolotaya Fortuna» qızıl medallarına, Rusiyanın N.A.Kosıgin adına, Azərbaycanın Yusif Məmmədəliyev, akademik Həsən Əliyev, Rəsul Rza adına mükafatlarına, «Qızıl qələm», «Qızıl dərviş», «Qızıl kəlmə» ədəbi təltiflərinə layiq görülmüşdür.

ISBN: 978 – 9952 – 450 – 24 – 8

© H.Mirələmov, 2009

Maddi zənginləşmə, mənəvi yoxsullaşma… və gəlinlik paltarı

Azərbaycan cəmiyyəti artıq neçə illərdir ki, qarşısıalınmaz bir sürətlə yeni iqtisadi, ictimai-siyasi, mənəvi münasibətlər sisteminə daxil olmaqda, indiyə qədər adət etmədiyimiz bir miqyasda və keyfiyyətdə yaşamaqda, ənənə ilə novatorluğun yeni tənasübünü mənimsəməkdədir. Xalqın və demək olar ki, hər bir insanın həyatında baş verən qlobal dəyişikliklərin, təbəddülatların, gözlərimiz qarşısında bütün statistik aydınlığı, konkretliyi ilə qurulan yeni yaşam texnologiyalarının doğurduğu mənəviyyat mənzərəsi, etiraf etmək lazımdır ki, milli ədəbi-estetik idrakda lazımi surət və genişlikdə öz inikasını hələ ki, tapmır. Əlbəttə, ədəbiyyatın ətrafda cərəyan edən mürəkkəb hadisələri dərk edib bu və ya digər səviyyədə sənətkarlıqla əks etdirməsi üçün müəyyən zaman tələb olunduğunu «bəhanə gətirmək» mümkündür. Lakin müşahidələr göstərir ki, haqqında söhbət gedən həmin əlahəzrət zaman bəzən o qədər uzanır ki, ədəbiyyat cəmiyyətə təsir göstərmək, ona mənəvi harmoniyasını bərpa eləməkdə kömək etmək funksiyasını itirməklə, müəyyən mənada tarixi-ənənəvi missiyasından məhrum olur.

Azərbaycanın siyasi, ideoloji, iqtisadi müstəqillik əldə etdiyi, suveren demokratik dövlət qurduğu illərdə, milli mənəviyyat məsələləri ümummilli lider Heydər Əliyevi həmişə heyrət olunacaq qədər dərindən narahat edirdi. O, yaxşı bilirdi ki, demokratiya bəşəriyyətin icad etdiyi nə qədər üstün həyat tərzi olsa da, onun beynəlmiləl, qlobal xarakteri daxil olduğu cəmiyyətə mürəkkəb mənəvi problemlər gətirir. Müxtəlif sahələrdə sürətlə böyük «uğurlar qazanan» insanlar bir qayda olaraq, həmin «uğurlar»ın əxlaqi məsuliyyətini daşıya, adət olunmamış iqtisadi, siyasi şəraitlərin psixoloji təzyiqinə dözə bilmədikləri üçün ilk mərhələlərdə cəmiyyət ciddi mənəvi çətinliklərlə üz-üzə qalır. Müşahidələr göstərir ki, həmin problemlər, çətinliklər maddi uğurların birinci növbədə və birbaşa daxil olduğu iqtisadiyyat, yaxud idarəçilik sahələrini əhatə etməklə qalmır, maddi təminata həmişə ehtiyacı olan, cəmiyyətin mənəvi-ruhi sağlamlığı üçün bilavasitə məsuliyyət daşıyan təhsilə, mədəniyyətə, incəsənətə də dağıdıcı təsir göstərir. Və ətrafda baş verən anlaşılmaz hadisələrin təzyiqi altında inləyən ədəbiyyat nəinki həmin hadisələrin ideya-estetik şərhini vermək funksiyasını itirir, hətta ilk və başgicəlləndirici zərbələrdən özü də məhv olmaq təhlükəsi ilə üzləşir.

...Ancaq müəyyən sükutdan, tərəddüdlərdən sonra Azərbaycan yazıçısının söz demək, ətrafda cərəyan edən hadisələrin mənəvi mahiyyətinə varmaq zamanı, deyəsən, gəlib çatmışdır… Diqqəti cəlb edən ilk irihəcmli əsər Anarın

«Ağ qoç, qara qoç»u oldu. Azərbaycan ədəbiyyatının canlı klassikinə çevrilmiş Anardan sonra ikinci dəyərli əsəri adı professional ədəbi-ictimai mühitə yalnız son illərdə daxil olmuş Hüseynbala Mirələmov yazdı… Əlbəttə, hər cür müqayisə qüsurludur, mənim məqsədim də hər hansı bir müqayisə aparmaq deyil. Burada söhbət ondan gedir ki, ölkədə gedən tarixi mənəvi-ideoloji proseslər yalnız təcrübəli ədəbiyyatı deyil, əgər belə demək mümkündürsə, «təcrübəsiz ədəbiyyatı» da böyük mətləblərdən istedadla danışmağa vadar etməkdədir.

«Ağ qoç, qara qoç» nə qədər ciddi mənəvi-əxlaqi problemlər qaldırsa da, siyasi romandır. Hüseynbala Mirələmovun haqqında bəhs edəcəyimiz «Gəlinlik paltarı» romanı isə bilavasitə mənəviyyat problemlərinə həsr olunmuşdur. Əsərdə bir neçə ailənin taleyi timsalında bütövlükdə Azərbaycan cəmiyyətində baş verən sosial-psixoloji proseslər təsvir edilmişdir.

«Gəlinlik paltarı»nın müəllifi hər şeydən əvvəl belə bir fəlsəfi həqiqəti təsdiq edir ki, dərk olunmamış, qeyri-məhdud azadlıq, volyuntarist, hüdudsuz demokratiya ümumictimai və fərdi-insani mənəviyyat üçün olduqca böyük, bir sıra hallarda isə tamamilə qarşısıalınmaz təhlükədir. Və həmin təhlükənin qarşısında dayana biləcək əsas qüvvə xalqın yüz, hətta min illər boyu ən müxtəlif tarixi şəraitlərin təsiri altında yaratdığı adət-ənənələr, etnoqrafik «özünümüdafiə» sistemidir… Əlbəttə, mənsub olduğu xalqın, cəmiyyətin mentalitetini, mənəvi dünyasını yaxşı bilən yazıçı üçün haqqında bəhs olunan

ədəbi həqiqəti bir daha təsdiq etmək o qədər də böyük ifadə-yaradıcılıq məharəti sayıla bilməz. Hüseynbala Mirələmovun əsas yazıçı müvəffəqiyyəti ondan ibarətdir ki, zəmanəmizin hadisələrinə həmin həqiqətin məntiqi ilə baxa bilmiş, ictimai həyat polifoniyasındakı saxta ladları saf ladlardan ayıraraq, onları doğuran antienerjinin mənbələrini aşkarlamağa çalışmışdır. Müəllifin dərin inamına görə, insan volyuntarist demokratiyanın təsirinə daha çox o zaman məruz qalır ki, yetişdiyi ailə mühiti onu öz milli-mənəvi kökünə, insanı insan edən tarixi dəyərlərə, mənsub olduğu xalqın «mühafizəkar» olduğu qədər də tərbiyəvi olan mentalitetinə möhkəm bağlamır.

Şübhəsiz, hər bir insanda – hansı millətə mənsub olursa-olsun, azadlıq, müstəqillik duyğusu kifayət qədər təbii, kifayət qədər səmimi bir duyğudur. Lakin hər bir sahədə olduğu kimi, azadlıqda da ifrata varmaq elə böyük təhlükələr törədir ki, onun xeyrindən çox ziyanı olur. Və «Gəlinlik paltarı»nın qəhrəmanı Fənayənin faciəli taleyinin əsas səbəbi də məhz bu cür qeyri-məhdud, heç bir mənəvi-əxlaqi dəyərlə motivlənməyən azadlıqdır desək, elə bilirəm ki, səhv etmərik… Həmin «azadlığı» Fənayə öz valideynlərindən – atası Qadirlə anası Zinayədən «əxz eləmişdi». Həyat tərzi, ailə əxlaqı heç bir əndazəyə sığmayan bu insanlar təbiətən sərbəst olan qızlarını öz yaşam prinsiplərindən çıxış edərək, demək olar ki, tamamilə taleyin ümidinə buraxmışdılar. «İctimai nəzarətdən kənar» şəhər həyatı, bunun ardınca isə dərk olunmamış demokratiyanın doğurduğu mənəvi hərcmərclik, «güclülər»lə «zəiflər»in mübarizəsindən törəyən

xaos isə Fənayənin «azadlıq» instinkti qarşısında daha geniş fəaliyyət meydanı açmışdı…

Yada salaq ki, müasir Azərbaycan ədəbiyyatının tarixinə «60-cılar» kimi daxil olmuş yazıçılar insanın daxili-ruhi azadlığının müdafiəsinə qalxarkən zahirən Fənayənin sələfi sayıla biləcək obrazlar yaradır, onların qeyri-ənənəvi həyat tərzində insan azadlığının müəyyən imkanlarını, elementlərini axtarırdılar. Bu baxımdan Anarın Təhminəsi ilə Fənayə arasındakı varisliyi inkar etmək mümkün deyil. Lakin onu da inkar etmək olmaz ki, Təhminə qeyri-ənənəvi həyat tərzi ilə «sovet cəmiyyəti»nin əxlaqi normalarına, yaşam standartlarına qarşı çıxırsa, Fənayənin mübarizəsi hər cür normaya, dəyərliliyindən asılı olmayaraq, hər hansı standarta qarşıdır… Təhminə nə etdiyini, demək olar ki, vaxtında bilir, hərəkətlərində nəyi instinktlə, nəyi ağılla etdiyinin fərqinə varır. Fənayə isə onu bütünlüklə çulğamış, mənliyinə hakim kəsilmiş fərdi azadlıq instinkti – eyforiyasının təsiri altındadır. O, öz xoşbəxtliyini cəmiyyətin zaman-zaman kəskin yasaqlar qoyduğu münasibətlərdə axtarmaqdan çəkinmir. Və təhlükəlisi isə budur ki, Fənayəni əhatə edən cəmiyyət onun qeyri-məhdud «azadlıq» hislərinə müəyyən məhdudiyyət qoymur, əksinə, ən müxtəlif təzahürlərdə həmin «azadlığ»ı müdafiə edir… Təhminə güclüdür, ətrafdakı insanlara azadlığın, qeyri-məhsuldar standartlardan çıxmağın nümunəsini verir. Fənayə isə öz «azadlığı»nın təminatçısı ola biləcək «gücü» axtarır, təbiətindən gələn bir mənəvi məsuliyyətsizlik, macəraçı xəyalpərəstliklə bu «gücü» Harisdə tapdığına

inanır. Yalnız Harisə münasibətində deyil, ümumiyyətlə, yanıldığını ruhunun çox-çox dərinliyinə sıxışdırılmış və hələ tamamilə məhv olmamış müqəddəs enerjinin gücü ilə dərk etdikdən sonra isə onun intihardan başqa çarəsi qalmır…

Yazıçı mənsub olduğu xalqın milli-mənəvi dəyərlərinin daşıyıcısı olan ailələrin, insanların keçdiyi həyat yollarını da təsvir edir. Məlum olur ki, dövrün, zəmanənin dəyişməsi onların möhkəm ənənəyə əsaslanan taleyində qeyri-adi tə-bəddülatlar yaratmaq iqtidarında deyil. Fənayənin həyatın müxtəlif çətinliklərinə, hətta amansız sınaqlarına məruz qalmış yaşıdları Sərraf da, Fədai də ona görə güclüdürlər (Fənayə buna inanmasa belə) ki, azadlıq hissini özlərində dağıdıcı bir instinkt kimi deyil, qürur, mənəvi müstəqillik mənbəyi kimi daşıyırlar.

Hüseynbala Mirələmov sadə yazır, əgər belə demək mümkünsə, elə əzəldən – ilk hekayələrini qələmə aldığı 60-cı illərdən mürəkkəb, çoxcümləli və şaxəli nəsr təhkiyəsindən imtina etmişdir. Ancaq görməmək mümkün deyil ki, onun sadə, mürəkkəb konstruksiyasız təhkiyəsində bir genişlik var. Hər bir cümlə mətnin aparıcı ideyasına xidmət edir və bu səbəbdən də heç bir cümləni həmin mətndən çıxdaş eləmək olmaz.

Azərbaycan nəsrində, xüsusilə sovet dövründəki nəsrdə gizlətmək lazım deyil ki, monoton bir üslub hegemonluq edirdi və bu üslubun diqtəsi ilə çox zaman bir yazıçının dilini, işlətdiyi bədii təsvir vasitələrini və məcazlar sis-temini digər bir yazıçının dili, bədii təsvir arsenalından

seçmək, fərqləndirmək o qədər də asan olmurdu. Dildə bu cür avtoritar, hegemon üslub fərdi üslubların meydana çıxmasına, özünü müstəqil fərdi üslub hadisəsi kimi göstərməsinə maneçilik törədirdi. Yaxşı ki, 60-cı illərdən başlayaraq, Azərbaycan nəsrində fərdi üslublar yaratmağa meyil gücləndi. Yalnız belə olduğu təqdirdə – ədəbi dilin ayrı-ayrı fərdi üslublarda təzahürü prosesində ümumi dil mədəniyyətindən, onun inkişaf dialektikasından söhbət gedə bilər.

Hüseynbala Mirələmov öz əsərlərində yaratdığı dil ərazisi də müasir Azərbaycan ədəbi dilinin çox geniş (şimallı, cənublu) ərazisinin kiçik bir hissəsidir. Azərbaycan ədəbi dilinin özünəməxsus şəhdi-şəkəri, məna və forma incəlikləri bu kiçik dil ərazisində də öz ifadəsini, təcəssümünü tapa bilir.

Hüseynbala Mirələmovun yaratdığı obrazlar həyatın, reallığın özündən gəlir. Bəzən bu obrazlar o qədər real görsənir ki, elə bil naturadan üzü köçürülüb. Bu prosesdə hətta o, bəzi hallarda bədii ümumiləşdirmə kimi çox vacib bir kateqoriyadan imtina etmiş olur. Obrazı bütün düşüncə tərzi, əxlaqi-mənəvi-sosioloji parametrləri ilə əsərdə canlandırır, sanki onu təqdim edərkən malalama, cilalama missiyasını unutmuş olur, amma sənətdə belə hallar da olur. Məsələn, «Gəlinlik paltarı»nda o, əsas qəhrəmanı Fənayəni içindəki bütün ehtirasları, bir insan kimi bütün müsbət-mənfi xüsusiyyətləri, necə deyərlər, «boyaların qatışığında» təsvir edir. Bəlkə də, belə yaxşıdır. Əsas odur ki, əsərdə təbiilik balansı pozulmur.

Hüseynbala Mirələmovun nəsri müasir Azərbaycan ədəbiyyatının həm 60–70-ci illərdəki, həm də bugünkü durumu ilə çox sıx bağlıdır. Əgər belə demək mümkünsə, o da şərti olaraq işlədilən «Yeni Azərbaycan nəsri»nin sırasındadır. Yəni onun nəsr əsərləri də «altmışıncıların» yaratdıqları əsərlərin kontekstində qiymətləndirilməlidir. «Altmışıncılar» bədii ədəbiyyatda böyük hərflərlə yazılan İNSAN axtarışına çıxmışdılar və bu axtarışlarda Hüseynbala Mirələmov da öz sözünü dedi. Nümunə üçün onun «Tənha durna uçuşu» kimi çox gözəl bir hekayəsinin adını çəkmək olar.

Ancaq Hüseynbala Mirələmovu biz daha çox ədəbiyyatımız üçün ən vacib olan bir mövzunun – Qarabağ mövzusunun müəllifi kimi tanıyırıq. Bu mövzuya müraciəti ilə o, təkcə öz vətəndaşlıq – azərbaycançılıq missiyasını yerinə yetirməklə qalmır, həm də ədəbiyyatın missiyasını yerinə yetirmiş olur. Çünki sözün həqiqi mənasında bu gün Qarabağ mövzusu tək-tük yazıçıların yaradıcılığında öz bədii həllini tapır ki, o yazıçılardan biri də Hüseynbala Mirələmovdur. Elə «Gəlinlik paltarı» romanında da Hüseynbala Mirələmov bu əsas mövzunu unutmur, Fədai obrazı vasitəsilə belə bir həqiqəti təlqin edir ki, mənəviyyat və daxili azadlq problemi Vətən və Torpaq kimi müqəddəs anlayışlardan təcrid olunmamalıdır.

Hüseynbala Mirələmov həm ideya-məzmun, həm də ifadə-formaca kifayət qədər mükəmməl bir əsər yaratmış, mənəvi-əxlaqi normalara sədaqətlə etinasızlığın, etnoqrafik yaddaşla yaddaşsızlığın, ailə qarşısında məsuliyyətlə,

məsuliyyətsizliyin günümüzün təcrübəsində hansı səviyyədə qarşı-qarşıya durduğunu, bir mütəfəkkir yazıçı məharətilə açıb göstərməklə yanaşı, xalqın hər cür əxlaqi volyuntarizmə müqavimət göstərməyə və qalib gəlməyə olan tükənməz mənəvi gücünə inamını ifadə etməkdən çəkinmir. Və romanın başlığına çıxarılmış «Gəlinlik paltarı» ifadə-obrazı bədbin, eyni zamanda həyati səhnələr, epizodlarla xeyli zəngin olan əsərin nikbin ideyasının və müəllifin nikbin ideyalarının unudulmaz simvoluna çevrilir.

Nizami CƏFƏROV
Azərbaycan MEA-nın müxbir üzvü,
filologiya elmləri doktoru, professor

Çəni-çiskini könül küsdürən boz ay geridə qalmış, özünün rəngsiz, bozumtul xatirələrini də arxada qoymuşdu. Mart da çıxmışdı, dərd də. Yer-göy büsbütün oyanmışdı. Belə xoş ətirli yaz günlərinin birində, Bakıdan çox da uzaq olmayan balaca qəsəbəni toy səsi bürümüşdü. İçəridən və çöldən vurulan parlaq boyaların təzəlik qoxusu hələ də çəkilib getməyən yeni tikilmiş bu şadlıq sarayının geniş pəncərələrində, demək olar ki, hər gecə al-əlvan toy işıqları alışıb-yanırdı. Maşallah, toy toya calanırdı.

Sərrafın toyu yeni sarayda düzənlənən üçüncü, ya da dördüncü məclis idi. Ağ köynək, qara şalvar, qırmızı pencək geyinib, qırmızı da qalstuk taxan gənc musiqiçilər kollektivinin düzüb-qoşduğu oynaq rəqs havasının səsi aləmi başına götürsə də, oynayanların ayaq tappıltısını, qarmaqarışıq danışıq səslərini batıra bilmir, gitaranın ən yanıqlı simindən qopan zil akkordlar cərgə ilə şadlıq evinin yan-yörəsində əkilən cavan söyüd ağaclarının ay işığına bələnmiş yarpaqlarına toxunur, oradan da sel kimi baş alıb bu balaca qəsəbənin az qala sonuncu məhəlləsinə çatırdı.

Qara şalvarla ağ köynək, qırmızı pencək geyinib, qırmızı qalstuk taxan gənc musiqiçilər kollektivi ilə üzbəüz çilçıraqlı gen salonun əks tərəfində, lap başda – Sərrafla Sadiqə qoşa əyləşmişdi. Sərraf zil qara kostyumdaydı, Sadiqə təpədən-dırnağacan ağa bələnmişdi; göylərdə uçan pənbə buludlar kimi, yeri yarıb çıxan iri-iri qönçəli zanbaqlar kimi ağ idi Sadiqə… Təzə yağan, yolu-rizi, çölü-çəməni, yalları-yamacları, ağacları, dağları bürüyən qara bənzər ağappaq Sadiqənin varlığı yanan ağ şam kimi istiydi, alışıb-yanırdı…

Nə olsun ki, qonaqlar şadlıq sarayına yığışmışdılar? Nə olsun ki, bu toy, bu məclis qəsəbənin gedişli-gəlişli yerində, divarları parıldadıb «gümüşə döndərən» boyasının rəngi tam qurumamış bu füsunkar, bu təzə «məkan»da qurulmuşdu? Əslində qəribə bir

sa

Sadiqənin xeyir işinin əsas ünvanı bu gəlimli-gedimli dünyada işıqlı, cavan ruhu qalan Qabilin ocağıydı, Sərrafın ata yurduydu. Gənc əri erkən rəhmətə gedən, üç uşaq və ehtiyac adlı dərdli, bəlalı sakinlə bir dam altında tənha qalan, kirpiyi ilə od götürüb balalarını zillətlə boy-başa çatdıran Həyatın ailəsində çalınırdı bu toy. Həyat ömrü boyu əlinin zəhmətinə güvənmişdi. Bəlkə də elə buna görə qəsəbədə hamı Həyatın – bu bəxti gətirməyən qadının ailəsinə xüsusi rəğbətlə yanaşırdı. Elə bu gün Sərrafın xeyir işinə hamı qəlbən sevinirdi, şad olurdu…

İndi toyun şıdırğı vaxtı ona gözaydınlığı, xeyirdua verən adamlara dönə-dönə dil-ağız eləməkdən yorulmayan Həyat, hərdən gizlin-gizlin, hərdən açıq-aşkar çilçıraqlı salonun yuxarı başında qoşa şam kimi işıq saçan balalarına baxır və oynamaq istəyirdi, gözlərindən süzülən göz yaşlarını bu divarlar arasına sığmayan möhtəşəm xoşbəxtliyin mirvarisi kimi hər kəsə pay vermək istəyirdi. Kimsənin görmədiyi bir tərzdə xəyalən əllərini göylərin dərgahına uzadıb şükranlıq eləyirdi: «Allahım, kəramətinə şükür!». Daha heç nə demirdi. Ayrı vaxt uc-uca düzdüyü, varlığından qopub gələn duaları yadına sala bilmirdi. Sözlər qeybə çəkilmişdi. Sanki Həyat hər gün əzbərdən dediyi, Tanrıya üz tutub söyləyərkən qətiyyən əziyyət çəkmədiyi ilahi kəlmələri də sözbəsöz, hərfbəhərf adamlara paylamışdı. Bu gün

Həyat özünün ilahi duaları ilə təkbətək deyildi. Bu günün dualarını yalnız o deyil, xeyir işin işığına yığışan neçə-neçə doğma adam, qohum-əqrəba, yaxınlar – hamısı sanki xorla oxuyurdu.

Toyun qızğın vaxtı Həyat qəhərlənmişdi: «Kaş sağ olaydın, ay Qabil! Bu günü görəydin! Niyə qurban olduğum qismət eləmədi ki, bu günü sən də görəsən? Məsləhətinə şükür, İlahi!»

Qonaqlar getdikcə seyrəlirdi, demək olar ki, ən yaxın, ən doğma adamlar qalmışdılar; qohumlar, bəyin dostları, gəlinin rəfiqələri…

Əlbəttə, onlar sona qədər qalacaqlar. Son isə burada deyil, Sərrafın ata yurdunda olacaqdır…

Hələ gündüzdən ərinin əmisi oğlu Saleh kişi xətrini bacıdan əziz tutduğu Həyata tapşırmışdı, toyu elə vədə qurtarın ki, gəlini qapıda, öz ocağımızda da qarşılayaq.

* * *

Heyva ağacının altında alnına və boynunun ortasına xına yaxılan, boğazı qırmızı lentli qurbanlıq qoç bağlanmışdı. Artırmada sinəsini irəli verib dayanan Saleh kişi nümayişkaranə bir halda gülümsəyə-gülümsəyə bıçağı bülöv daşına sürtürdü. Onun bu cür bıçaq itiləməyində həm də qəribə, yupyumşaq bir ritm vardı. Elə bil Saleh kişi bıçaq itiləmirdi, sevinirdi, qol açıb oynayırdı.

Gecə yarıdan keçəndə şadlıq evi qəsəbənin gəliş-li-gedişli yerində qaldı. Xidmətçilərin yır-yığışından sonra qab-qacaq çaqqıltıları da kəsiləcək, növbəti toya qədər şadlıq evini intizarlı bir sükut bürüyəcəkdi…

Maşın karvanı Sərrafgilin qapısı ağzına yetişdi. «Vağzalı» səsi ətrafı bürüdü. Bəylə gəlin öndə – ehmal, bir az da utancaq addımlarla həyətə girdilər. Demək olar ki, onlardan başqa hamı oynayırdı. Həyət geniş olduğu üçün hər kəsə meydan vardı. Bir dəstə qonşu uşağının həyətə doluşmasından kimsə xəbər tutmamışdı. Onlara görə toyun ən ləzzətli yeri elə burası idi və uşaqlar bu xeyir işə böyüklərdən heç də az sevinmirdilər.

«Vağzalı» çalınırdı… Allah bilir, bu ecazkar musiqi nə zamandan yaranmışdı? Məlum olan bu idi ki, həmin anlar «Vağzalı» yaz mehi kimi qanadlanıb uçur, insanları indiyəcən yaşamadıqları, bilmədikləri yeni duyğular dünyasına qovuşdururdu. Sanki yeniyetmələri böyüdür, cavanların ruhunu bədənindən oynadır, yaşlıları yaşanmış illərin o tayında qalan bal kimi şirin, əlçatmaz gənclik çağlarına aparır, ən əziz xatirələri cana gətirirdi. Bəlkə elə buna görə də bu dəqiqələrdə Sərrafla Sadiqənin toyunda əl-qol ata-ata oynayanlar «Vağzalı»nın bitməsini istəmirdilər, heç istəmirdilər. Musiqinin sehri Həyatın onsuz da səliqə-sahmanlı həyətini baş-dan-başa nura qərq etmişdi. Ağaclardan asılmış elektrik lampalarının işığı ilə göy üzündə bax, elə bu

günün gəlini Sadiqə kimi alışıb-yanan Ayın gümüşü şəfəqləri sonsuz məhəbbətlə bir-birinə qovuşmuşdu. Və bu aydınlıq içində adamların mehribanlığı, xoş niyyəti, sevinc dolu baxışları, gülər üzləri Həyatın – əziyyətli həyat yaşasa da, cavanlığını, təravətini qoruyub saxlamış ananın qəlbində əsrarəngiz duyğular oyadırdı.

Sərraf Sadiqənin qolunu bir az da özünə sarı sıxdı. Onlar su üstündəki yelkənli qoşa qayıq kimi şənlik eləyən adamları yara-yara, sanki həyatın axarına doğru üzürdülər. Bəylə gəlinin hər bir addımı, hər bir hərəkəti «Vağzalı»ya bələnirdi. Adamlar – oynayanlar da, əl çalanlar da ehtiramla qırağa çəkilib cavanlara yol verir və hamı bəylə gəlini yaxından görmək istəyirdi. Təbii ki, sehr, əfsun dolu bu əsrarəngiz aləm, qocaların əlçatmaz, ünyetməz köhnə xatirələrini, cavanların isə hələ təzə-təzə oyanmaq istəyən sevdalı duyğularını təkrar-təkrar tərpədirdi.

Ağappaq, parıltılı saplarla işlənmiş gəlinlik paltarı Sadiqənin yaraşıqlı əndamına kip oturmuşdu. Elə bil bəmbəyaz don təzə gəlinin varlığına toxuna bilən bəd nəfəsdən, sərin mehdən belə ehtiyatlanaraq, gənc qızı bərk-bərk bürümüşdü. Bu paltar ona çox, lap çox yaraşırdı, onu olduğundan xeyli uca göstərirdi. Baxana elə gəlirdi ki, gəlinin üzü kimi, damarlarında axan qan da ağappaqdır, köksündə döyünən ürəyi də ağappaqdır və ayna kimi bərq vuran bu ağappaq

ürəyin içində yalnız və yalnız bircə adamın siması, doğma üzü əks olunurdu. Bu ağ dünyanın hakimi Sərraf idi. Və yəqin ki, bu hakimiyyət heç zaman bitməyəcəkdi.

Həyəcanlı görünən bəylə gəlin sanki bir-birilərini çoxdan tanıdıqlarını unutmuşdular. Özgə bir aləmdən qətiyyən bələd olmadıqları yeni bir aləmə qədəm qoyduqları an sanki tilsimə düşmüşdülər. Qarşıda cütlüyü gözləyən qismətin nədən ibarət olduğunu kimsə deyə bilməsə də, indi onlar heç zaman olmadıqları qədər xoşbəxt idilər…

* * *

Yaşı yetmişi haqlamış Saleh kişi cavanlıq şövqü ilə qoçu bir göz qırpımında qamarlayıb böyrü üstə yerə uzadaraq üzünü qibləyə çevirdi. Əlində bıçaq, pəncəsi qoyunun ayaqları üstünə dirənmiş halda başını dikəldib, önündə cüt dayanan bəylə gəlinə nəzər saldı. Onlar necə də xoşbəxt idilər! Bir zaman o da belə xoşbəxt olmuşdu! Əlli il öncə! Hanı indi o bəxtiyarlıq? Eh, gidi dünya…

Amma yox, Saleh kişi hər zaman həyatın dəyərini, nikbin fəlsəfəsini bilən adam olub. Düşünüb ki, kim deyirsə dünya beş günlükdür, qələt eləyir, dünya yüz illikdir, min illikdir, sonsuzluğa qədərdir, amma gərək bu nəhayətsizliyi dərk etməyə ağlın ola, Allah adama gözəlliyi görən göz verə…

Gözlər Saleh kişinin əlindəki bıçağa, bir də ayağının altındakı qoça dikilmişdi. Elə bil yeni ailənin xoşbəxtliyinin uzun illər sarsılmadan davam etməsi üçün sonuncu fərman veriləcəkdi. Özü də bu fərman indicə qanı axıdılan qurbana görə yuxarıdan – göy üzündən gələcəkdi. Bəlkə də elə Saleh kişi yaradanın dərgahında danışırdı, o mübarək fərmanın nazil olmasını gözləyirdi deyə, qoçu kəsməyə tələsmirdi.

Qədimdən gələn bu adətlərin icrasını dinməzcə seyr edən xoşbəxt cütlük, indi həm də özlərini yeni, müqəddəs bir ailənin təməlqoyma mərasimindəki kimi hiss edirdilər. Sonu görünməyən, bəlkə də bilinməyən bu cığır, onları günəşin şəfəqlərinə qərq olmuş gülüstana da apara bilərdi, dibsiz zülmət uçuruma da. Bu fani dünyada hər şey olur, hər şey… lakin bu məqamlarda Sərraf Sadiqənin qolundan elə ülvi duyğu ilə yapışmışdı ki…

Saleh kişi «bismillah» deyib bıçağı qoçun boğazına çəkdi:

– Allah bu qurbanı qəbul eləsin, xoşbəxt olasınız! Heç vaxt «nə edim?» «necə edim?» deməyəsiniz! – dedi.

Sərrafın ata qohumu, ətli-əndamlı Xanım xala barmağını ehmalca toy qurbanının isti qanına batırıb yanındakı uşaqların, özünün və Həyatın alnına sürtdü:

– Allah qəbul eləsin, xoşbəxt olsunlar! – dedi.

Toy adamları buna bənd imiş kimi qırağa çəkilib bəylə gəlinə yol verdilər. Həyat irəli durdu:

– Bircə dəqiqə hövsələnizi basın, – deyib əlindəki xonçanı başı üzərinə qaldırdı, ala-bəzək konfetləri, noğulları xışmalayıb bəylə gəlinin, camaatın başına səpələdi.

Yeniyetmələr noğul-nabatı göydəcə tutmağa çalışdılar, yerə düşənlər uşaqlara qismət olurdu. Həyat şirniyyatı elə şövqlə səpələyirdi ki, ala-bəzək konfetlər, noğullar arxa cərgədə duranların da yanağına, çiyninə toxunur, tutan tutur, əldən çıxanlar qələbəlikdə itib-batırdı.

Qızılı zərli kağıza bükülmüş bir konfet, rəfiqələri ilə şənliyin nisbətən sakit, hay-küysüz səmtində dayanan Fənayənin yanağına toxunub yerə düşdü. Yanındakı qız konfeti dərhal yerdən götürüb Fənayəyə uzatdı.

– Al, sənin qismətindi…

Fənayə konfeti aldı. Bu zaman gənc qızın sifətində həsrət dolu kədərli duyğular o qədər ani dövr etdi ki, bir kimsə bunu duymadı.

Yanağına toxunub yerə düşən, indi isə ovcunda sıxdığı konfet qızın bütün varlığını titrətdi. Həyəcandan içi uçunurdu. Nəyisə hiss etdirib biabır olmaqdan ehtiyatlansa da, özünü ələ ala bilmirdi. Bu iztirab bəxtəvər toy saatlarında belə qəlbini göynədir, məclisi onun üçün cansıxıcı edirdi.

…Sadiqə ayağının altına atılan boşqabı nazlana-nazlana dikdaban ayaqqabısı ilə bir neçə dəfə

döyəcləyib sındıraraq dəhlizə, oradan da gəlin otağına adladı. Sadiqənin ər evinə daxil olması ilə göy üzündəki Ayın tala-tala buludların arxasında görünməz olmasının arası bir an çəkdi, bəlkə də lap eyni anda baş verdi. Həyətin işığı azaldı, çöl qaraldı. Havanın tutqunlaşması hamının üzünü gecənin siyah kölgəsinə bürüdü. Fənayənin də çöhrəsinə qaranlıq çökdü...

Fənayə Sadiqə ilə bir qrupda oxumuşdu. Bu toya da tələbə yoldaşları ilə birlikdə gəlmişdi və xeyir işə təşrif buyuranlar arasında Fənayə yeganə qonaq idi ki, içində bitib-tükənməyən təlaş gəzdirirdi. Həmin təlaşı bəyaz gəlinlik paltarında nəcib mələyə bənzəyən Sadiqə ilə özü arasında olan dərin uçurumun xofu yaradırdı. Bütün varlığını uçuntu bürüyən Fənayənin sanki ayaqları tutulurdu, bədənini yerdən qoparıb dizləri üstündə daşıya bilmirdi.

Son təbriklər, son xeyir-dualar… Bəy də pillələri qalxıb qapının arxasında görünməz olmuşdu. Adamlar iki-bir, üç-bir çəkilib gedirdilər. Uzaqdan gələnləri həyət qapısının ağzında balaca maşınlar gözləyirdi. Əslində buradan hər yan yaxındı, on beş-iyirmi dəqiqə çəkir, ya çəkmir ki, gedəcəyin yerə çatırsan.

Fənayə də şəhərə gedənlərdən biriydi. Nədənsə, bütün toylar, bax, elə hay-küylü, sevinci aşıb-daşan bu məclis də ona süni təsir bağışlayırdı. Ona elə gəlirdi ki, bu boyda vurhavur gəlinlik paltarını geyinib onu camaata göstərmək üçündür. Yekə-yekə arvad-

lar, kişilər üçündür toy. Ona görə övladlarına toy edirlər ki, bəyə bəylik kostyumu, gəlinə gəlinlik donu geyindirsinlər. Hər halda bu, Fənayəyə belə gəlirdi və məhz həmin xoflu düşüncənin qəlbinə sıxıntı gətirdiyinə əmin idi…

Onu bir şey təəccübləndirirdi; Sadiqənin əyninə geyindiyi gəlinlik paltarındakı bu cür bəyazlığı indiyə qədər nə pambıq kimi qarda, nə də ağappaq çiçəklərdə görməmişdi.

* * *

Fənayə bir anlıq özünü ağappaq gəlinlik paltarında təsəvvür etməyə çalışdı, xəyalında toy-büsatı quruldu. Dərhal da çöhrəsi payız buludu kimi bozarıb tutuldu. Xəyalda gəlin obrazı yaratmağa nə var ki? Gərək gənc, özünə yaraşan sevimli bir insan da qədəm basıb gedəcəyin yolda qolundan yapışa. Yoxsa, nahamar həyat yolları heç də asanlıqla davam etmir...

Kədəri bir az da qatılaşdı, təkcə bəyi gözə dəyməyən sağ böyrü deyil, ürəyi, ruhu da bomboş idi. Yalnız bu an – Həyat ananın xonçadan səpələdiyi konfetlərdən biri yanağına toxunub yerə düşəndə, ruhundakı sıxıntı azcana tərpənən kimi oldu və qəribədir ki, həmin an Fənayə nəinki diksinib özünə gəlmədi, əksinə, həyatının necə gəldi yaşanmış günləri, hadisələri, ömür parçaları daha sürətlə beyninin

içində fırlandı, onsuz da olmayan kefinə dübarə acı soğan doğradı. Tələbəlik illəri hiss olunmadan bir an kimi ərisə də, ürcahına çıxanlar, başına gələnlər az deyil, bəlkə də çoxdu, həddən ziyadə çoxdu. Nələr olub, kimdi onlar? Boşluq yavaş-yavaş dolur, orada adamlar sıralanırdı. Onlar elə-belə yoldan ötən deyil, Fənayənin dünyasında hər biri öz izini qoymuş adamlardı. Fərqi yoxdu, o izlər gül kimi təravət verir, yoxsa güllə yarası kimi əzab… Əsas odur ki, iz var. Bəli, var… Budu bax, lap öndə Haris dayanıb. Ondan iyirmi yaş böyük Haris. Bu da rəssam Yusifcan. Fənayə ona Yucin deyirdi. Drayzerin Yucini ilə Yusifcanın arasında nə oxşarlıq gördüyünü özü də bilmirdi. Aralarında bənzəyiş yoxdu. Bəlkə adlar haradasa qulaq qafiyəsidir ona görə? Bəlkə də… Sonra professor Məhər, sonra şair Əlfi, sonra isə başqaları… Yaxşı ki, yada düşənlərin heç olmasa, adlarını unutmayıb. Bu nədir? Ürəyi çiliklənib elə bil. Heç kim hiss etməsə də, canı tora düşən quş kimi çırpınır. Adətən, adam yuxuda boğulma hisləri yaşayanda, bu hala düşür. İki-üç dəqiqəlik sarsıntı bütün varlığına yorğunluq gətirdi. Vaxt ona dəhşətli dərəcədə uzun göründü. Bəlkə onu qara basır? Artıq bu dünyada olmayan Haris, əlçatan qədər yaxınlıqda dayanıb, sanki daş kimi donub, qızın halının necəliyi onun üçün fərq etmir. Həyatını məhv etmiş Fənayəyə kömək əli uzatmağı cəhənnəmə, sanki onu dartıb öz yanına apar-maq niyyətindədir. Yoxsa, niyə daş kimi tərpənməz

dayanaraq bərəlmiş gözlərini köhnə «sevgilisi»nə zilləsin? Bir az arxadan Yusifcanın başı görünür. O da yerindən tərpənmir, gözünü Harisin gözlərindən də çox bərəldərək baxır. Yusifcanın başı üstündən Məhər, ondan yuxarıda Əlfi gözünü ona dikib. İkrah dolu baxışları var Əlfinin. «Axı, bu gəlinlik paltarını sən də geyinə bilərdin», – görəsən, təəssüf, peşmançılıq duyğuları ilə bərabər, kinayə və istehza hisləri ilə də ona zillənən baxışların sahiblərindən hansı birisi dedi bu sözləri? Bunu araşdırmağa Fənayənin halı nə gəzirdi?

Kimsə qolunu dartdı. Qızlardan biriydi, bu ona işarə idi ki, daha getmək vaxtıdı. Toy bitdi, onun qolunu çəkən rəfiqəsi Fənayənin canına tutulan toydan necə xəbər tuta bilərdi? Nəhayət, bu zalım toy bitəcəkdimi?..

Həyat ana oğlanlara, qızlara xeyir-dua verib deyirdi: «Sərrafın, Sadiqənin sağ əli sizin başınıza, ay mənim balalarım!..»

Xeyir işin gənc iştirakçıları deyə-gülə «İçərişəhər» metrosunun qarşısına çatanda, saat birə yaxınlaşırdı. Kimsə təklif elədi ki, aşağı enib parkda gəzsinlər. Ancaq qara-qura fikirlər Fənayənin beynini hər an məşğul edirdi. Qəfil yadına düşdü ki, həyətlərinin girişində nohurlanan gölməçədən adlayanda palçığa batacaq, ayaqları islanacaq. Hündür daş hasarlı həyət qapısının ətrafı xeyli çökək olduğundan göydən bir-iki damcı düşən kimi, gölməçə əmələ gəlirdi.

Fənayənin atası ora-bura çox əl atmış, mənzil istismar sahəsində dönə-dönə cəngi-cidala çıxmışdı ki, bu biabırçılığa son qoysun, di gəl, faydası olmamışdı. Kişi imkanı yaxşılaşandan sonra bu zəhlətökən problemə əncam çəkmək üçün xeyli xərc də çəkmişdi. Amma nəticə hasil olmamışdı. Heç kimi qınamalı da deyildi. Yer çökək idi, elə buna görə də çirkli su bura yığılırdı. Sonda əlac ona qalmışdı ki, ara-sıra mişar daşı düzsünlər ki, ayaqları palçığa batmadan həyətə keçə bilsinlər. Həm ağır, həm də zəhlətökən bu işə tədricən öyrəşdilər. Hay-küylü toyun yorğunluğundan sonra Zaurun bir qədər havada gəzişmək təklifi Fənayənin ürəyindən oldu.

* * *

Fənayə universitetin jurnalistika fakültəsinin üçüncü kursunda oxuyurdu. Bu qrupun bəxtindən tələbələrin çoxu qızlardı. Onlardan yalnız biri Fənayəyə daha yaxın idi; Rahibə ilə universitetə bir gəlib, bir gedərdilər. O günü Fənayə yaxşı xatırlayır.

Rahibənin dalınca əmisi gəlmişdi. Rahibə maşına əyləşəndə, əmisi yaxında duran qızlara səsləndi:

– Gəlin, sizi də aparım…

Tələbə qızlar tərəddüd etdilər. Rahibə dönüb əmisinə baxdı. Qəfil təklif ona da qəribə gəldi. 40-45 yaşlı Haris yaraşıqlıydı, şux qaməti vardı. Rahibənin sonradan dediyinə görə, Haris hər gün

idmanla məşğul olurdu. Od parçası kimi qaynar olan bu cavan kişi uzun illər prokurorluq orqanlarında çalışmışdı. Yenə də Rahibənin məlumatına görə, hansısa bir cəncəl iş üstündə əmisinin prokurorluq karyerasına nöqtə qoyulmuşdu. İşdən hali olan qohumlar deyirmiş ki, yenə də şükür ki, o cür dolaşıqlığın içindən başını salamat qurtarıb. Haris bu barədə danışmağı sevmir, yadına düşəndə isə hövllənir, az qalırdı başına hava gəlsin. O, bir müddət işsiz qalandan sonra xarici şirkətlərdən birində hüquq məsləhətçisi vəzifəsinə işə düzəlmişdi.

Harisin ailə həyatında iki mühüm hadisə baş vermişdi. Tez evlənmişdi deyə, yetişmiş qızını ərə vermiş və həqiqi təfsilatı yalnız özünə məlum olan səbəbə görə qızının toyundan bir il sonra da arvadından ayrılmışdı. Ortada gəzən söz-söhbət isə bu idi ki, arvadı Harisin yüngül həyat tərzi sürməsinə dözməmiş, gedib oturmuşdu təzəbinə qızının evində. Haris elə bil bunu çoxdan gözləyirmiş kimi, o vaxtdan indiyənəcən arvadının dalınca bir dəfə də olsun getməmiş, elə bu səbəbdən qızının da evinə ayaq basmamışdı. Tək yaşayırdı. Əslində buna tək yaşamaq demək olmazdı. Elə həftə olmazdı ki, köhnədən tanıdığı qadınlarla görüşməsin. O qadınlardan bəziləri hətta günlərlə Harisin evində qalardı. Heç qonşulardan da utanıb çəkinməz, ər-arvad kimi davranardılar. Haris şirkətdə babat əməkhaqqı alsa da, əvvəlki qazanc, dəstə-dəstə pullar hələ ki, əlçatmaz xülya olaraq qa-

lırdı. Qadın məşuqələri çox idi, hər görüş bir ətək xərc aparırdı. Elə buna görə də qərara gəlmişdi ki, adi təsadüflərin, köhnə münasibətlərin səbəbinə açılan qapılardan həyatına dolan qadınları nəhayət ki, seyrəltsin, necə deyərlər, «bu bucağa kül töksün». Bundan sonrakı ömrünü normal yaşasın…

Haris centlmensayağı təklifini yenidən təkrar etdi. Onun davranışında ərk vardı, sözünün havadan asılı qalmayacağına inam vardı.

– Utanmayın, doluşun maşına ay qızlar, deyirsiniz indi Rahibə tək getsin? Darıxar axı, – deyə israr elədi.

Harisin ərkyanalığı, eyni zamanda ən əsas səbəb onun qıraq adam deyil, rəfiqələrinin əmisi olması öz işini gördü. Qızlar maşına yaxınlaşdı. Haris bir idmançı cəldliyi ilə düşüb qapını açdı. Rahibə qabaqda, əmisinin yanında, Fənayə ilə qızlar dal oturacaqda əyləşdilər. Haris hərdən güzgüdə qızlara baxır, onlardan hansı biriylə göz-gözə gələndə, sanki dərin təmaslara gedən yola işıqucu axtarırdı. Çiynindən aşıb kürəyinə tökülmüş qızılı saçları, ovsunlu baxışları Fənayəni digər qızlardan fərqləndirirdi. Fənayə də güzgüdə Harisin baxışını «tuturdu». «Deyəsən, qızların ən yolayaxını elə budur; Fənayə…» Haris sol əlini maşının pəncərəsindən azca bayıra çıxardı.

Yazın ilıq nəfəsi ovcuna, əlinin üstünə toxunub içində xoş duyğular oyatdı. Yolboyu şam ağaclarının,

bəzək kollarının arxasında sıralanan qızılgüllər qönçələmişdi, açılmaq istəyirdi. Haris maşını saxladı. Düşdü, güllüyə yaxınlaşdı. Yaxası yarılıb açmaq istəyən qönçələrdən bir neçəsini saplaqdan üzüb geri qayıtdı. Rahibə əmisinin bu hərəkətini bəyənmədi. Bir az sıxıldı da. O, qardaşı qızının sıxıntısını duydu, amma özünü o yerə qoymadı:

– Özümü saxlaya bilməyib dərdim, ancaq deyəsən…

Fənayə dilləndi:

– Əcəb elədiniz, gül dərilmək üçündür…

Qızlar maşından düşdülər. Fənayə bir-iki addım atmışdı ki, büdrədi. Az qala yıxılacaqdı. Maşının yanında dayanmış Haris, elə bil onun büdrəyəcəyini əvvəlcədən bilirdi. Cəld qızın qolundan yapışdı. Çox ani oldu bu. Sanki Fənayəyə heç nə üz vermədi, eləcə Haris əlindəki gül topasını qızın sinəsinin üstünə qoydu. Fənayənin ruhu yerindən oynadı. Gözləri od tutub yandı, parıldadı, kirpikləri aramsız-aramsız döyündü.

Onun belə həyəcanlanması Harisin də içində nəyisə tərpətdi. Hətta ona elə gəldi ki, ürək döyüntülərinin səsini eşitdi…

Fənayəni qrupdakı oğlanlar az cəlb edirdi, çoxundan heç xoşu da gəlmirdi. Bəzisinə yeri gəldi-gəlmədi «uşaqsan» və ya «kəndçisən» – deyib acılayırdı. Və qəribə də olsa, çox istəyirdi ki, Zahir və ya bir başqası onun bu könül bulandıran sözlərinin qabağında bir

söz desin, ya bir cavab qaytarsın. Ötkəm oğlanlar onun kumiri idi. Onun varlığı hökmlü bir kişiyə tabe olmaq istəyirdi. Yoxsa, bu qızbibi kimi yumşaqxasiyyətli oğlanlar… Aparıb hamısını tökəsən dənizə...

Fənayə çoxdan belə idi. Birinci kursdan… Üzünü görmədiyi, adını eşitmədiyi güclü, qüdrətli bir kişinin həsrəti gecəni, gündüzü ona haram eləmişdi. Dincliyini əlindən almışdı.

«Bu oğlanlar abır-həya düşgünüdü. Heyif deyil cəsarətli kişilər?!»

Onunla üzbəüz dayanıb kəlmə kəsmək istəyəndə, oğlanların dili batırdı. Fənayənin gözəlliyi qarşısında avazımış tələbə üzləri həyəcandan qızarıb vələs nara dönürdü. Bəzən oğlanlardan hansısa özündə güc tapıb ona yaxınlaşırdı. Di gəl ki, qızın qəlbini ovlamaqdan söhbət gedə bilməzdi. Hələ ki, bu dəli ceyran ən sərraf ovçuların da toruna düşmürdü. Fənayə ehtiraslı, odlu, alovlu idi. Bir yandan da Tanrı ona fitri istedad vermişdi. Əla şeirləri ilə universitetdə keçirilən bütün ədəbi-bədii gecələri bəzəyirdi. Dinləyənlər alqışlamaqdan doymurdular. Onu azad ruhun tərənnümçüsü hesab edənlər də vardı. Doğulub tərbiyə aldığı mühitsə, bəlkə də başqalarına acınacaqlı təsir bağışlaya bilərdi.

Anası – Zinayə adlı qadının həyatında övlad üçün örnək ola bilən əməllər demək olar ki, yox idi. Onun yüngül həyat tərzi keçirdiyini hamı kimi Fənayə də bilirdi. Amma ananın cəmiyyətdəki imici,

onun yüngül ehtirasa qurban verilən, hər cür abırhəya hissini tapdayıb əzən həyat tərzi Fənayəyə bir nöqtə qədərincə də təsir göstərmirdi. Bu məsələdə qız tamam lal, kor və kar idi. Başqaları nə danışır danışsın, özləri bilər.

Fənayə nə qədər laqeydliyin buz örtüyünə bürünsə də, anasının həyat tərzi onun düşüncələrinə, duyğularına, xasiyyətinə tuşla döyülmüş yazılar kimi həkk edilmişdi. Sadə bir misal; qızın zəif kişilərə nifrəti yüz faiz anasından gəlirdi. Digər tərəfdən o, tam bu fikrin tərəfdarı idi ki, qadın azad olmalıdır. İstər sevər, istərsə də nifrət edər, öz işidir. Hətta haçansa atasını qətiyyən sevməyən anasından soruşmuşdu ki, ürəyin, canın istəməyən adamla necə yaşayırsan, necə bir yastığa baş qoyursan? Bax, elə həmin vaxt cəsarətli Fənayə anasından bir tük qədər çəkinməyərək, düşüncəsini bütün çılpaqlığıyla ortaya qoymuşdu. Ana demişdi ki, neçə vaxtdan bəri atanla bir dam altında yaşayıb, bir yatağa uzansam da, özümü sanki məşuqumun yanında hiss edirəm, mənim yardımçım xəyallarımdır. «Mən belə şeyə qətiyyən yol vermərəm, – demişdi Fənayə. – Ruhum haradadır, canım da orada olmalıdır». O, anasının «Həyatın bic axarı var, hərdən adamı dişinə alıb elə əyri-üyrü yerlərə aparır ki, heç cin də xəbər tutmur. Bir də görürsən ki, iş işdən keçib. Ələk ələnib, xəlbir də göydə fırlanır» fikrinin əleyhinə çıxmışdı. İşə bax ki, bəzən Zinayənin ürəyində qızına

qarşı qibtə, hətta paxıllığa bənzər bir yaşantı baş qaldırıb cücərirdi. Qızın qətiyyətinə heyrətlənir, haldantəbdən çıxır, özünü Fənayə ilə tutuşdururdu. Məhz belə məqamlarda ona elə gəlirdi ki, çox illəri nahaq yerə güdaza verib, gəncliyindən yetərincə bəhrələnməmişdir və buna görə də qısqanır, əsəbiləşirdi…

Zinayə qamətdə, yaraşıqda qızından geri qalmayan işvəkar bir xanım idi. Çoxunun ağlını başından çıxarmışdı. Məclislərdə xüsusi görünən Zinayə, günəş kimi hərarətli, parlaq idi. Cəsarətlilər yaxına gəlib nəsə bir söz soruşur, gözəllər gözəlinə yaxından baxmaq, hətta bu qadının huşu başdan alan ətrini duymaq səadətinə yetirdilər. Hünəri çatmayan kişilər isə eləcə oradan-buradan, küncdən-bucaqdan oğrun-oğrun marıtlamaqla kifayətlənirdilər. Demək olar ki, əksəriyyət bu qadının qəribə adını ilk dəfə eşidərkən heyrətlənirdi. Əslində isə təəccüblənmək üçün əsaslı səbəb yox idi.

Zinayənin özünün dediyinə görə, adının birinci hissəsini anasının, ikinci hissəsini isə atasının adından götürüblər: Zinaida və Yəmən. Qızına adı özü qoyub, guya ki, yaraşdırıb; Zinayə–Fənayə…

* * *

Onu anası qarşıladı:

– Boy, qızılgüllərin içində itmisən ki!.. Bunları kim verdi sənə?

Fənayə övladdan daha çox bir dost, rəfiqə ovqatıyla:

– Axır ki, mənə də bir gül verən olacaqdı, ya yox? – dedi və çiyinlərini oynada-oynada şaqqanaq çəkib güldü. Sonra boynunu qucaqlayıb anasının üzündən öpdü.

Zinayə məhz indi, onun isti nəfəsi üzünə toxunanda anladı ki, qızı yetkin bir xanımdır, özü də çox yaraşıqlıdır. Od kimi qaynar, həyat eşqi ilə dolu...

Fənayənin bir qadın kimi yetişməyi anaya xoş gəldi. Gül söhbətini təzələmədi.

Fənayə neçə gün öncə öz bağçalarından dərilən, güldanda büzüşüb soluxmuş çiçəkləri atdıqdan sonra qabın bulanıq suyunu dəyişdi. Təzə güllərin saplağını ehmalca suya saldı, güllər onu dərib verənə – Harisə oxşayırdı, şux, təravətli və məftunediciydi. Oğrun-oğrun qızına göz qoyan Zinayə gülümsədi; canı yanmış qəşəngdi, Allah qismətini versin!..

Zinayənin atası Yəmən azərbaycanlı, anasının anası ermənidi.

Partiya işçisi olan Yəmən ayrı-ayrı rayonlarda məsul vəzifələrdə çalışmış, Qarabağda tələtümlü hadisələr başlayan zaman qəflətən vəfat etmişdi. Bunun ardınca anası Zinaida da ömrünü başa vurmuşdu. «Anası çıxan ağacı balası budaq-budaq gəzər», – deyiblər. Zinayə anasına çəkmişdi. Açıq-saçıq qız idi, sərbəstliyi xoşlayırdı. Cəzbedici görkəmi, şirin danışığı oğlanların ürəyinə sarı yağ kimi yayılan Zi-

nayə, xoşladığı kişilərlə heç nəyi vecinə almadan əylənir, bəzən isə onları tərəddüd etmədən bir günün içində atır, unudurdu. Cavan-cavan oğlanların onun arxasınca sürünmələrindən qürrələnir, ləzzət alırdı. Ağıllı, ciddi oğlanlara rast gələndə barmağını dişləyir, «yox, əzizim, bizimki tutmaz, məndən kölə olmaz sənə» fikriylə ondan uzaqlaşırdı. Ancaq necə oldusa, Qadirə ilişdi. Məsələ belə olmuşdu; məclislərin birində rastlaşdığı ucaboylu Qadiri görəndə gülüb göz vuraraq demişdi:

– Ay oğlan, başını azca aşağı əy, tavana dəyməsin, həm də de görək, yuxarılarda hava necədir?..

Qadir həqiqətən ucaboylu olduğu üçün yetərincə qız pərəstişkarı vardı. Qadirin cavabı çox yubanmadı:

– Heç siz də boydan kasıb deyilsiniz…

Zinayə də boydan yarımışdı. Bu sözə bənd imiş kimi ürəkdən güldü.

– Boy, aa… heç fikir verməmişəm, mən də uca boyam ki, ancaq sən lap Qulliversən, – Zinayənin filoloji təhsili köməyinə gəldi.

Qadir gözlərilə onu oxşadı.

– Bu məclisdən Qulliverə bir Liliput qismət olsa, dünya dağılar?

Zinayə dəqiq bilirdi ki, təptəzə macəra başlayır və indiyə qədər baş verən eşq dastanları bu macəranın yanında heç nədir. Əlini sonsuz bir lütfkarlıqla ona tərəf uzatdı.

– Zinayə …

– Qadir …

Qadir qızın əlini əlinə alıb buraxmadı.

– Qəribə adınız var, indiyə qədər belə ad eşitməmişəm, mənası nədir?

– Çox bilsən, tez qocalarsan…

– Elə mənalar var, onu anlamaq üçün qocalmaq nədi, lap ölməyə də dəyər, Zinayə xanım.

Zinayə yenə güldü.

– Yox aa? Sözə bax ey!..

Ucaboy oğlan onun «saqqızını oğurlaya» bildi. Məhz həmin gün Zinayəyə elə gəldi ki, o hər zaman olduğundan ucadır, yüksəklikdə gəzib-dolaşır. Sanki ilk görüşdə «Qulliver» deyə zarafatlaşdığı Qadir, şanabarmaqlı əlləri ilə yupyumşaq qoltuğu altından yapışıb onu yuxarı, başı üzərinə qaldırmışdı. O, bu dünyaya həmin ucalıqdan baxırdı. Sonralar qəribə də olsa, gündə bir oğlanla gəzib-dolaşan Zinayə, Qadirə xüsusi hörmət bəslədi. Bu ucaboy oğlanı başqalarından uca tutdu. Onunla evlənməyə razılıq verdi.

Zinayənin valideynlərinin canı sağ olsun! Toyları təmtəraqlı keçdi, məclisdə çox hörmətli adamlar, böyük mənsəb sahibləri iştirak etdi. Zinayəni seçməkdə Qadirin məqsədi vardı; imkanlı yerə söykənmək istəyirdi. Cəmiyyətdə yer və mövqe qazanmağın yolunu «adamın imkanına» bağlayırdı. İnsafən, Zinayənin gözəlliyi də bu evlilikdə az əhəmiyyət da-

şımırdı. Ailənin imkanlı olması oğlanı əməllicə təmin edirdi. Belə yerdə deyiblər ki, doşab aldım, bal çıxdı. Zinayə macəranın əvvəlindən Qadirin qısqanc olmadığını duydu. Amma hər necə olsa da, bəzən Zinayənin həddini aşması, başqa sözlə, onu adam yerinə qoymaması Qadirin beynini oynadır, təbdəntəbə salırdı.

Ancaq görünür, ləyaqət qanda olur. Bəzi adamlar bu ali keyfiyyətin varlığından xəbər tutmadan dünyanı tərk edib gedir.

Qadir qoşulduğu mühitin qaydalarını tez mənimsədi. Onsuz da uzun olan bədəni üstündən arıq boğazını bir az da irəli uzadaraq qayınatasının hesabına irəlilədi, vəzifə pillələri ilə qalxdıqca, quzuya döndü. Zinayənin bir sözünü iki eləmədi. İki övladı oldu: Fənayə və Nadir. Fənayə ilə Nadirin arasında iki yaş fərq vardı.

Qadir torpaq sahəsi aldı, ev tikdirdi. Fənayənin on yaşının tamamında mülk evinə köçdülər. Əslinə qalsa, bu, Zinayənin istəyi idi.

Ümumi yaşayış evinin ikinci mərtəbəsindəki mənzilin dörd divarı arasında bağrı çatlayırdı, elə bil uçmaq istəyən quşun qanadlarını iplə sarımışdılar…

* * *

...Həmin gün Fənayə havalı kimi gəzdi. Hara baxdısa, Harisin ona zillənən qaynar baxışlarını gör-

dü. Otağına çəkildi – Haris burada idi. Əli ilə gözünü bağladı – Haris gözlərinin içindəydi.

Qız əslində Harisin xəyalının gözü önündən çəkilib getməsini istəmirdi də. Elə bil ki, illərdən bəri həsrətini çəkdiyi adam birdən-birə peyda olmuşdu. Harisin yaşı, ailə vəziyyəti vecinə deyildi.

Kəmfürsət qüvvə inanılmaz bir inadkarlıqla onun gözlərini, dodaqlarını, bədəninin bütün əzalarını Harisə tərəf dartıb aparırdı. Yerə-göyə sığmırdı qız. Soyunub yatağına girmək istədi. Açıq qolları, yarıçılpaq parlaq sinəsi, allanmış çöhrəsi ilə güzgü önündə durdu. Gözləri sinəsini güclə örtən köynəyin altında qaralan iki nöqtəyə zilləndi. Yumşaq barmağı ilə qurumuş üzüm dənəsini, kişmişə oxşayan gilələri sıxdı. Qapını bağlayıb-bağlamadığını yoxlamadı, çarpayının üstünə sərildi. Ona elə gəldi ki, yorğan-döşək istidir. Əslində isə bu onun öz bədəninin hərarəti, öz canının odu, atəşi idi.

Fənayə yumşaq yatağın üstündə ilan kimi qıvrılıb açıldı. Könlünün gözü Harisin surətindən savayı bir kimsəni görmürdü. Arabir qrup yoldaşları Zaurun, Faiqin sifətləri xəyalında zəif bir şam kimi işarıb sönsə də, Harislə bağlı düşüncələrindən saçan gur işığın yanında onlar kölgə kimi görünürdülər.

Xəyallar ürəyini üzdü, üzdü… Nə zaman yuxuya getməyindən xəbər tutmadı. Yuxuda da Harisi gördü. Gördü ki, Haris onu qucaqlamaq istəyir, ancaq

çəkinir. Pıçıltılı həzin səsini də eşitdi. Haris ona deyirdi:

– Yetişmiş nar kimisən, Fənayə, sıxsam, əzilərsən…

Sübh tezdən oyandı. Gördüyü yuxudan yadında elə həmin cümlə qalmışdı. Bu sözləri o, neçə il əvvəl eyvanda anasını hərarətlə sinəsinə sıxan yad adamdan da eşitmişdi. O vaxt anası həmin yad adama demişdi ki, qorxma, sıx, hələ indiyəcən şirəmi çıxaran olmayıb.

Fənayə heç vəchlə anasını qınamırdı. Başqa zəruri tələbatlar kimi, insanın intim istəyi də ödənilməlidir. İnsan bioloji varlıqdır, o bir çox irsi keyfiyyətlərin daşıyıcısıdır. Ailə ona görə qurulmur ki, insanın istək və arzularının qarşısına sədd çəksin. Yaxşı olar ki, qadın elə ailədə rahatlıq tapsın. Əgər ər bu zövqü ona vermirsə və onu bir başqa ünvanda tapmaq mümkündürsə…

O, aşiq olmuşdu, düşünürdü ki, göydə yazılan qismət yerdə yaşanır.

Pəncərənin önünə gəldi. Cikkildəşə-cikkildəşə bir-birinə məhəbbət izhar edən sərçələrə baxdı. Fənayəyə elə gəldi ki, yer üzündə nə qədər canlı varsa, hamısını sevgi yaşadır…

Hamama keçib üzünə su vurdu. Mətbəxdən qabqacaq səsi gəlirdi. Anası orada idi. Hamamın qapısını çəkib bağladı. Soyunub duşu açdı. İlıq suyun altına girdi. Gur çilənən su saçlarını islatdı, çiyinlərindən,

kürəyindən, sinəsindən axıb bədəninin bütün məsamələrinə ləzzətli bir dinclik payladı. Üz-gözünü, boyun-boğazını, balaca və qəşəng qulaqlarının içini, sinəsini şampunladı. Şampun bahalıydı, xoş ətri vardı. Əli ayrı-ayrı əzalarına toxunduqca, bədəninin hamarlığından və yumşaqlığından xoşhallanır, varlığından zövq alırdı. Sinəsini qabağa verdi. Su döşlərinin arasından süzülüb göbəyinin üstündən axdı, mərmər kimi baldırlarına toxundu, incə ayaqlarının ucundan fasiləsiz şoralandı. Elə bil bu qənirsiz pəri bədəninin parlaq çılpaqlığı ilə təbiətin yaratdığı bütün gözəlliklərə meydan oxuyurdu. Fənayə ilıq su içində alışıb-yanırdı, elə bil atlasa bürümüşdülər onu, işıq saçan atlasa. Özü-özünə vurulan bu gözəlin indiki görkəminin özgə bir bənzətməsi ola bilməzdi. Sadəcə, əfsanəvi ilahə dağ şəlaləsinin altında yuyunurdu, şə «yonduğu» bu qiymətli «heykəli» öz paklığına qərq edirdi. Fənayə güzgüdən gözünü ayıra bilmirdi, öz gözəlliyinə dönə-dönə valeh olurdu, bədəni ilahi rəssamın fırçası ilə yaradılmış kimi qənirsiz idi. Kiçik, yumru, şux döşlərinin giləsi palıdı rəngə çalırdı. Həmin o palıdı rəngə çalan gilələrdən də su damcılayırdı. Əllərini döşlərində, göbəyində gəzdirib seyrək tükə bürünmüş «zöhrə dağcığı»nın üstündə saxladı. Və… Ona elə gəldi ki, Harislə birləşib artıq. Bu təmas az qala Fənayənin huşunu başından aldı. Bu duyğu elə bil özünün yox, Harisin idi. Hələ də başına, bədəninə gur su çilənən

qız, bütün varlığını titrədən sonsuz bir həsrətin, qəhərin təsiri altında dözə bilməyib, ağladı. Bu, bəxtiyarlıq, vüsal qəhəri idi. Qız xoşbəxtliyin astanasında dayanmışdı. Tale bu qapını onun üzünə açacaqdımı? Harisə qovuşa biləcəkdimi?..

Qurulanıb hamamdan çıxanda, üzü qaymaq kimi yumşaq, bədirlənmiş ay kimi işıqlı idi. Pəncərədən həyətə boylandı. Bu yarım saatın, qırx dəqiqənin içində dünya sanki bir az da dəyişmişdi, fəsillər gözəli yazın ecazkar ruhu dörd yanı bürümüşdü. Qısaca zaman içində bu boyda dəyişmə baş verə bilərdimi? Yoxsa, Fənayəyə elə gəlirdi? Nə bilmək olar, bəlkə elə qəfil sevgi də qəfil ölüm kimidir – qaşla göz arasında olur?..

Düşüncələr onu hara aparır? Bu yolun sonunda nə var? Üzünə təzə gülümsəyən bu həyat ona nə vəd edir? Görəsən, doğrudanmı bu onun düşündüyü xoşbəxtlikdir? Bilmirdi, sadəcə olaraq, bilmirdi… Yazla birgə gələn dəli sevda şair qızın köksündəki ən incə titrəyişlərlə birgə söz çələngini də oyatdı:

Gör nə qədər sevinc, qəm
Dalğalanır üzümdə,
Yuyunmaq istəyirəm
Bir sevgi dənizində.

Yuyarmı günahımı
Bu dənizin suları?

Varsansa, ey İlahi,
Yetir mənə baharı.
Sevirəm dalğaları
Vüsalın səsi kimi,
Həsrət batır sularda
Dəniz ləpəsi kimi…

Fənayə xəyalən öz Harisinin obrazının adda-budda cizgilərini bir araya gətirməklə, tam bir surət yaratmağa cəhd etdi. Hələlik bu obrazın görüntüləri Rahibənin dediklərinə əsaslanırdı: «Əmim onu dedi, əmim belə elədi…» və sair və ilaxir…

Xəyalındakı güclü, qətiyyətli, bir anda qadınların qəlbini ovlamağı bacaran fövqəl kişi ilə yenicə meydana çıxan Harisi tutuşdurdu. Fənayəyə görə, bənzəyişlər az deyildi.

Artıq bütün varlığını sarsıdan düşüncələr Fənayənin yuxusunu ərşə çəkmişdi. Onu dünyaya bağlayan duyğu, fikir qapılarının hamısı qapanmışdı, bircə qapı açıq idi və o açıq qapının önündə yalnız Haris dayanmışdı.

Bir yandan da saysız-hesabsız suallar, suallar… Fikri dağınıq olsa da, həmin suallara tələsmədən, bircə-bircə, məntiqi ardıcıllıqla cavablar axtarırdı. Fənayə özünü nə zamansa oxuduğu müxtəlif əsərlərin ədəbi qəhrəmanları ilə, daha çox da qadın obrazları ilə müqayisə edirdi. Və sonda belə qənaətə gəlirdi ki, düzünə qalsa, indiki zamanın tələbləri çərçivəsin-

də yarı Şərq, yarı Avropasayağı yaşayan bu şəhərin qadınları ayrı cür yox, elə onun kimi olmalıdır. Fənayə durduğu yerdə «əti pişiyə yedizdirən» qızlardan deyildi. Bu məsələlərdə anasını təkrarlamaq fikrindən çox uzaqdı. Yaddaş isə gur sulu bulaq kimi axır, ötən illərin sanki kino kadrlarını sürətlə ötürə-ötürə indiyə gətirirdi. Budur, anasının gizli görüşdüyü adamlar. Anası Fənayəni uşaq sandığı üçün qızını nəzərə almadan onlarla görüşür, min oyundan çıxırdı…

* * *

Bir dəfə atası Yessentukiyə müalicəyə getmişdi. Fənayə yatağına uzansa da, yatmamışdı. Anası isə yan otaqda aşnası ilə eyş-işrətlə məşğuldu. Çox zaman o, hansı bir kişiyləsə bu otağa çəkilir, hətta qapını arxadan bağlamırdı da. Deyirdi, birdən uşaq yuxudan qalxar, qorxub qışqırar. İndi Fənayə çox dəqiq xatırlayır ki, həmin gün o, yatağından dəli kimi qalxmış, anası ilə mazaqlaşan kişinin üstünə cummuş, onunla savaşmışdı.

Köhnə xatirələrdən biri də uçub gəldi. Bir dəfə anasının «qonağı» xeyli oturdu. Ana balasını yatızdırmağa çalışsa da, Fənayənin tərsliyi tutdu, yatmaq istəmədi.

Qadın:

– Ay qız, niyə yatmırsan? – soruşdu.

Qız cavab verdi:

– Yatmıram, qoy bu kişi çıxıb getsin!..

– Axı, niyə getsin?

– İstəmirəm sənin üstünə uzansın…

Doğrudur, bu söhbətdən sonra «qonaq» çıxıb getdi. Daha Fənayə xəbər tutmadı ki, o yenidən qayıdıb gəldi, ya yox? Hər halda, bu söhbətdən sonra anası özünü yığışdırdı, daha onu uşaq yerinə qoymadı.

Köhnə əhvalatlar nədənsə, bu dəfə ona utanc gətirmədi, əksinə, əlini ağzına tutub xısın-xısın güldü. İki fincanı yanaşı qoyub özünə və qızına çay süzən Zinayə, Fənayənin səbəbsiz güldüyünü görəndə, təəccübünü gizlətmədi:

– A qızım, deyəsən, gözün baxa-baxa yuxu görürsən?!

– Hə, ana, bal kimi şirin yuxu görürəm.

– Amma unutma ki, çox şirin yuxular sonradan zəhərə dönür, adamın tüstüsü təpəsindən çıxır.

– Siftəsi şirin, sonrası acı yuxular çoxmu yandırıb səni?

Zinayə səksənən kimi oldu. Deyəsən, bu qız ananın həyatının ən sirli, ən gizli məqamlarından da xəbərdardı.

Əri – Qadir işə sübh tezdən gedirdi. Çalışdığı şirkətin iş rejimi belə idi. Doğrudur, Qadir işə tez getməyindən narazı idi, amma qoyulan qaydaya əməl etməyin zəruriliyini anlayırdı. O, fərasətli, ba-

carıqlı işçi olduğundan yaxşı maaş alırdı. Əgər Qadir evə dolanışıq gətirməsəydi, Zinayə onu heç adam yerinə qoymazdı. Qadir yaxşı qazanmağı bacarırdı. Elə buna görə də, Zinayə Qadirin geyim-keciminə xüsusi diqqət yetirirdi. Qadirin paltarları həmişə təmiz və səliqəli olurdu. Zinayə Qadiri işə yola salanda, adətən, onun qalstukuna əl gəzdirir, ora-burasını bir balaca da olsa, çəkib düzəldir, köynəyinin, pencəyinin şaxlığını yoxlayırdı. Hərdən Qadir qapıdan çıxanda Zinayəni öpmək istəyərkən, Zinayə nazlanıb başını yana əyir, bu zaman uzaqbaşı Qadirin nəfəsi onun boyun-boğazını yalayırdı.

İndi qızının belə sual verməyi Qadiri gətirib qoydu Zinayənin gözünün önünə. Özündən asılı olmayaraq, sanki bu söhbətdən kiminsə duyuq düşüb-düşmədiyini yoxlayırmış kimi, ətrafı gözdən keçirdi. Nadir dərsə getmişdi. Evdə ikisi idi. Zinayə istədi qızı ilə lap açıq danışsın. Di gəl ki, cürət eləmədi. Handan-hana dilləndi:

– Təki, sonra əlin boşa çıxmasın.

Anasından incidi, Fənayənin canı sıxıldı, sanki anası dedi: «Qoy əti hansı pişik yeyir-yesin, təki, sən o pişiklərdən birini tutub saxlamağı bacar…»

Bu sayaq fikirlər Fənayəni dünəndən bəri üzürdü. Qonşu qızlardan biri, məktəbli ola-ola, on altı yaşında ərə getmişdi, məlum olmuşdu ki, hamilədi. Bir ildən sonra uşağını qucağına qoyub dalından bir təpik vurmuşdular. Anası o qız barəsində demişdi ki, əti pişiyə

tez yedizdirib… İndi bunların heç biri Fənayənin eyninə deyildi. Harisin odlu baxışlarını üzündə, gözündə, yarımaçıq sinəsində hiss etsə də, bundan xoşlansa da, özünü ötəri duyğuların əsiri hesab eləmirdi. O, hətta istədiyi bir kişiyə ərə getsə belə, ev qadını olmaq istəmirdi. Bu cür sadəlövh düşüncələrə gülməyi tuturdu. Bütün hallarda gənc xanımın duyğularının son ucunda güclü, çox güclü bir kişiyə qovuşmaq təşnəsi dururdu.

Bir fincan səhər çayı içdi. Qalxıb universitetə getməli idi. Bədənnüma güzgüsünün qabağında dayanıb saçlarını səliqəyə saldı. Nazik, bəyaz kofta və qara yubka mütənasib bədəninə necə kip oturmuşdusa, elə bil qız ilan boğazından çıxmışdı. Pilə kimi yumşaq telləri birər-birər, dalğalı söyüd saçaqları kimi çiyinləri üstünə səpələnmişdi. Bir az göyə çalan ala gözləri par-par alışıb-yanırdı. Dodaqlarına yüngül rəng çəkib, boynuna, qulağının arxasına fransız ətri vurdu və güzgüdən anası səmtə boylandı. Hiss etdi ki, anası nəsə soruşacaq. Elə də oldu:

– Allah qoysa, səfərin ha tərəfədi?

Sualın mənasını anladı, əlbəttə, anası qızının görüşə, yoxsa universitetəmi getdiyini xəbər alırdı.

Fənayənin ipək saçları arasından görünən gözəl sifəti bir az da allandı. Dinmədi.

* * *

Həyət qapısından çıxanda, çirkab suyuna batmasın deyə, ara-bərədəki quru yerlərlə, divarın lap dibi ilə getməyə çalışdı. Tində murova gələn dişi pişiyin yanını kəsdirən erkəklər vahiməli səslər çıxara-çıxara diş qıcayırdılar. Dişi pişik sinəsini irəli verib tükünü qabartmış iri erkək pişiyin kürəyinə sürtünür, zolaqlı başı ilə pırpız erkəyin boynunu-boğazını oxşayırdı. Başqa vaxt olsaydı, pişiklər qorxub qaçar, hərəsi bir tərəfə atılıb gözdən itərdilər. İndi isə sanki Fənayəni görmürdülər. Çox güman ki, ayrı vaxt olsaydı, Fənayə də ayaqlarını yerə şappıldadıb pişiklərə acıqlanar, onları qovardı. Bu dəfə pişiklərin yanından ehmalca keçdi. İçində duyduğu yüngül ikrah hissi ilə pişik yığnağından uzaqlaşmaq istədi. Pırpız pişiyin yanında islanmış cücəyə dönən cavan erkəklərə baxmaq lap zülm idi. Heç bilmədi, necə oldusa, Allahın bu bədbəxt canlılarından uzaqlaşdığı anda tələbə yoldaşlarını – Faiqi, Zauru, Zahiri xatırladı və ani xatırlamanın əcaibliyini hiss edib, «heç gör hənanın yeridi?..» – deyə düşündü.

Harisə vurulubmu, yoxsa, bu ötəri həvəsdi? Əgər bunu soruşan olsaydı, yəqin ki, Fənayə cavab tapa bilməzdi. Ortada olan həqiqət bu idi ki, dünəndən gənc xanımın xəyalı qanad açaraq Harisin yanına uçmuşdu. Haris onun varlığına hakim kəsilmişdi.

Fənayə uçum-uçum uçunur, canına vəlvələ salan hissiyyatlara ad tapa bilmirdi. Bircə onu bilirdi ki, ixtiyarı öz əlində deyil. Ancaq yox, qəlbinin də-

rinliyində buludlu səmada ara-sıra çaxan şimşəyə-bənzər şübhəli qığılcımlar da oynaşırdı. «Bəlkə heç Haris onun barəsində düşünmür. Allah bilir, nə qədər məşuqəsi, əyləncəsi var. Hərə bir marağın quludu; biri siqaret sümürür, başqası araq düşgünüdü. Bu da qadın xəstəsidi yəqin. Bəlkə belə deyil, qocalmayıb ki… Cavan adamdı, gözünün qurdunu öldürməlidi, ya yox? İnanma ki, hər qadın onun qəlbinə yol tapsın. Onların Harisə vurulmağı da hələ nəsə demək deyil. Nə olsun ki, Harisi sevirlər? Sadəcə, «pişik əti yeyib və gedib». Yerdə isə qəribə macəraların yandırıb-yaxan xatirələri qalıb… Bunun ayrı bir adı yoxdu».

Fənayə Harisi əsl kişi sayırdı, onu qadın düşgünü gözündə görmək istəmirdi. Bəs, kimdi o? Sərsərimi, eşqlə ləbələb dolu könül səyyahımı, ya bəlkə gözəllik ovçusu?! Bu səyyah, qadınlar dünyasını dolaşa-dolaşa ruhunun ram olacağı, könlünün rahatlıq tapacağı, isti bir nəfəsin qızdıracağı əfsanəvi ada sorağındadır. Bu ada yalnız və yalnız göylər qədər geniş, dəryalar qədər dərin sevginin cəmləşdiyi insan qəlbi ola bilər. Səyyahlar dövri-qədimdən belə olublar; dünyanın gözəl-gözəl ölkələrini diyarbədiyar gəzib dolaşsalar da, cənnət mənzərəli yerlərdən keçsələr də, onlara elə gəlib ki, arzu etdikləri füsunkar məkanı tapmayıblar… O məkan dünyanın hansı yerindəsə var, mövcuddur, fəqət, ayaq dəyməyən yerdədir!.. O məkan sanki qadınların qəlbindəki qırxıncı otaqdır. Sirli, soraqlı…

Zaman ötəcək, lap ömür də bitəcək, amma o mübhəm məkana bəlkə də heç vaxt heç kimin ayağı dəyməyəcək. Bu, heç vacib də deyil, sadəcə insan qədəmi qismət olmayan o könül adasının xəyaldakı surəti yetər ki, dünya var olsun və insanın məhəbbət ruhu əbədi yolçuluğuna davam eləsin…

* * *

Haris qardaşı qızını lap axırda, evlərinin qapısı ağzında düşürüb geri qayıtdı. Maşını qaraja salıb mənzilinə qalxdı.

Nə zamandan bəri subay yaşayan Harisə məxsus bu mənzilin divarları demək olar ki, «qonaq» qadınların nəfəsi ilə isinirdi. O, tez-tez həmin qadınlara zarafatla deyirdi: «Siz mənim evimin hərarətisiz».

Bu sözləri ciddi demirdi, «qonaq»lar da söz yiyəsinin uydurmasına bir elə də dərindən baş qoşmurdular. Haris özünün qaynar «mənzil meyxanası»nda gah gecələr səhərə kimi musiqi sədalarına dalaraq şam işığında süzür, gah da videoda seks filmlərinə baxıb bəxtəvərlik və şəhvətli duyğuların təsiri altında ömür sürürdü. Ancaq indi mənzil həqiqətən soyuqdu. Haris təəccübləndi, axı, bayırda hava isti idi. Bircə-bircə otaqları gəzib dolaşdı. Ev zəngindi, burada insanın rahat yaşaması üçün demək olar ki, hər şey vardı. Çatmayan nədi bəs? Az qala divarlar adamın üstünə gəlir, otaqlar dil açıb tənə edirdi.

Haris xəyal içində Fənayəni xanimanının ən gözəl guşəsində gördü, istədi onun əlindən yapışıb ehmal addımlarla otaqları bircə-bircə gəzsinlər. Eyvana çıxsınlar, binaların arasından görünən dənizə baxsınlar.

Sinəsi sıxıldı, deyəsən, darıxdı. Özünü ovundurmaq üçün yenə xəyallar aləminə baş vurdu. Ona elə gəldi ki, bu an Fənayəni qucaqlayıb yataq otağına sarı aparır.

Fənayə quş kimi yüngül idi, özü də qəhqəhə ilə gülür və tələsə-tələsə üst paltarlarını soyunub, hara gəldi tullayırdı. Haris özünü enli, yumşaq çarpayının üstünə atanda, alnı nəsə bərk bir şeyə toxundu. Əli ilə başını tutdu, hirsli-hirsli donquldandı. Neçənci dəfə idi ki, kəlləsi çarpayının başlığına çırpılırdı. Hər dəfə də özünü söyürdü. «Qonaq» qadınlar başının zədəli yerinə soyuq su qoyur, sonra da elə həmin yerdən öpürdülər. Haris heç nə olmamış kimi başına gələni bir anda unudurdu. İndi gözü ilə ona gəl-gəl eləyən Fənayə ixtiyarını əlindən almışdı. Fikir dəryasına qərq olmuş Harisin daxilində iki hiss qarşı-qarşıya durmuşdu. Biri doğma, məhrəm, pak bir əlin hərarətini istəyirdi. Digər hiss isə ilan kimi qalxıb ovunu gözləyən şəhvət duyğusu idi.

O, tək idi. Bir vaxtlar rahatlıq kimi dəyərləndirdiyi təkliyin acı küləyi indi bədənindən giziltili cərəyan kimi keçdi. Haris üzgün baxışlarla yataq otağının divarlarına nəzər saldı. Ona elə gəldi ki, bu təklik bü-

tün varlığına qorxuqarışıq bir səmimiyyət gətirmişdir. Səmimiyyət insan ruhunun rahatlığı, arxayınçılığıdır. Görəsən bu duyğu onun qəlbində, ruhunda sona qədər yer tapa biləcəkdimi? Bu mümkün idimi? Yaxşı ki, indi Fənayə ruhən bu evdə idi. Artıq o, Harisin həm bu evinə, həm də qəlb evinə köçmüşdü…

Televizoru qoşdu. Vəhşi savanna heyvanlarını göstərirdilər. Yırtıcılar nəcib heyvanların lap böyründə idilər, lakin onlara dəyib-toxunmurdular. Amma yox… Şirlərdən biri qəfil sıçrayıb ceyranın boğazından yapışdı. Haris üşəndi, şirdən zəhləsi getdi. Pultun düyməsini basıb televizoru söndürdü. Yadına düşdü ki, günorta yediyinin üstündədi, şam eləməyib. Evdən bir tin aralıda, bağçanın içindəki yeməkxanada «toqqasının altını bərkidə» bilərdi, amma fikrindən daşındı. Başqa vaxt olsaydı, tanış qadınlardan birinə zəng edər, bu gecəsini də özü demişkən, mənalı başa vurardı. Di gəl ki, Fənayənin parlaq surəti yay günəşi kimi gur işıq saçaraq, o biri qadınların xatirəsini də, özlərini də kölgəyə döndərib yox etmişdi.

Orta məktəbi bitirəndən sonra sənədlərini qoltuğuna vurub əyalət şəhərindən paytaxta gələn Harisin arxasıyarıq pencəkdən savayı, ayrı bir «varidatı» yox idi.

Universitetin hüquq fakültəsinə qəbul olunub, oranı əla qiymətlərlə başa vurduqdan sonra, media nümayəndələri demişkən, təyinatla istintaq orqan-

larında işə göndərildi. Fərasətli, bacarıqlı olduğu üçün vəzifə tutdu, yüksəldi, qohum-əqrəbanın karına yetişdi. Nə qədər dost-tanışı, özlərinin də etiraf etdikləri kimi, onun sayəsində vəzifə sahibi oldu. İndi onların çoxu heç bilmir ki, Haris haradadı, dolanışığı necədi? Bir dəfə arvadından üzülhaüzüldə oradan-buradan danışıb onun qohumlarına da bir vaxt əl tutduğunu dilə gətirdi. Arvadı minnət götürməyib dedi:

– Elə gün ağlayan idin, özünə bir gün ağlayaydın da…

Arvadı ayrı bir məsələyə yox, məhz onun təkliyinə işarə vururdu. İndi tale həm fürsət yaratmış, həm də onu yol ayrıcında qoymuşdu. Ya bu təklikdən birdəfəlik xilas olmalı, ya da arı kimi «çiçəklərdən şirə çəkməyinə» davam eləyib özünü «koldan-kola, güldən-gülə vurmalıydı». Amma o necə «arı» idi ki, şairlər demişkən, dili «baldan» uzaq düşmüşdü, şirə üzünə həsrət qalmışdı?

Görəsən, sərgərdanlıq içində, hər gün bir xanımın dizləri arasında keçən belə yaşayış tərzi bu gün olmasa da, sabah onu bezdirməyəcəkdimi?

Fənayənin meydana çıxmağı, bir göz qırpımında könül qapılarını taybatay açıb içəri girməyi Harisin həyatını əməlli-başlı dəyişmişdi. Nə zamandan bəri onu süstləşdirən ruhundakı boşluğu «doldurmuş», yeni bir ərəfəni bu tənha kişinin lap yanına, burnunun ucuna gətirib çıxarmışdı.

* * *

Fənayə qərarının sonuncu nöqtəsini qoydu; ağır psixoloji böhran geridə qaldı. Onun daxilində həqiqətən də döyüş getdi, özündən başqa bir kimsəyə bəlli olmayan döyüş. Və başqalarının yaxın düşə bilməyəcəyi sədləri vurub dağıtdı. İndi onu idarə edən yeganə düşüncə sərbəst və xoşbəxt olmağıyla bağlı idi. Könlünün hökmdarını qəlbinin taxtına çıxartmaq məqamı yetişmişdi.

Fənayə sərbəst böyümüşdü. Qərar qəbul edəndə, kiminsə razılığının olub-olmamasının fərqində deyildi. Harisi Fənayə özü görüb bəyənmişdi və qərarı da canının istəyi ilə özü vermişdi. Buna qəti qərar deyirlər. Fənayə qapalı ailə sıxıntılarını öz taleyinə yük etmək istəmirdi. Düşünürdü ki, ailə içində keçən həyat cansıxıcı qayda və qanunları ilə insanın sərbəst yaşamaq istəyinə mane olur.

Fənayə avtobus dayanacağına çatanda hələ qarışıq düşüncələrin təsiri altında idi. Qəzet köşkünü gördü. Yadına düşdü ki, «Ay işığı» jurnalında şeirləri çap olunmalıdı. Qarabağ müharibəsi əlili olan qəzetsatan oğlan qızı görən kimi, «Ay işığı» jurnalının təzə nömrəsini vitrindən götürdü. O, Fənayənin şairə olduğunu bilirdi. Hər dəfə təzə yazısı hansısa bir qəzetdə, ya jurnalda çap ediləndə Fənayə sevinə-sevinə bu köşkə gəlmiş, axtardığını alıb getmişdi. Gec, yaxud tez gəlməyinin fərqi yox idi, çünki əlil oğlan

ona lazım olan qəzet, jurnal nüsxələrini alta qoyub saxlayırdı.

Köşkün azca yana çəkilib aralanmış dar pəncərəsindən üç dənə manatlığı içəri uzatdı. Əlində jurnal tutmuş qəzetsatan oğlan gözlərini Fənayəyə zilləmişdi, baxışlarında heyranlıq vardı. Fənayə jurnalı alandan bir xeyli sonra da onun gözləri yol çəkdi, əli havadan asılı qaldı. Bəlkə də başqası olsaydı, Fənayə onu acılayardı, amma indi heç nə demədi, gülümsəyib uzaqlaşdı. Qəzetsatan köşkün içində o gedən tərəfə baxa-baxa donub qaldı. Belə məsələlərdə həssaslıq baxımından Fənayəyə yəqin ki, bir kimsə çata bilməzdi. Oğlanın duyğularını anlayırdı. Həm də bu duyğuların əndazəsini aşıb fanatik bir heyrət səviyyəsinə yüksəldiyini də görməmək mümkün deyildi. Yazıq qəzetsatan oğlan!..

Amma yox, bu qəzetsatan oğlan «az aşın duzu» deyildi. Nəzərləri nə zamansa ölümlə üz-üzə gəlmiş bir insanın varlığını andırırdı. İşə bax ki, Fənayənin ən lovğa oğlanları belə muma döndərən baxışları bu oğlanı əridə bilmirdi. Başqalarından fərqli olaraq, qəzetsatan oğlan öz yerini-yurdunu yaxşı bilir, boş-boş qürrələnmirdi. Nədənsə, Fənayə ona başqaları kimi istehza ilə baxmırdı.

Qızın baxışları altında əriyən oğlanların gücsüzlüyünü görmək çox gülməlidir. Fənayəyə görə, onların hamısı tamah quludur. Tamahına qul olanların siyahısı isə xeyli uzun idi. Şeirlərini dərc edən redaktorlar,

onlara mühazirə oxuyan gənc elmlər namizədi Nazir müəllim, universitetdəki poeziya axşamlarından sonra tanış olmaq istəyən yuxarı kurs tələbələri… Onların necə də mənasız, yöndəmsiz, həris baxışları var idi!..

Qəzetsatan oğlan isə onlarla müqayisə edilməyəcək dərəcədə tamahsızdı. Onun gözlərində zərrə qədər də ehtiras yoxdu, əksinə, heyranlıq vardı və bu heyranlıq da taleyi bəd gələn əlil oğlanı Fənayənin gözündə ucaldırdı. Bu ucalığı xoşbəxtlik saymaq olardımı, bax, bunu Fənayə bilmirdi.

Ayağı büdrədi. Bəlkə qəzetsatan oğlanın baxışları onun yolunu bağlayırdı? Yoxsa, Fənayəni qarşıda hansı uçurumlar, hansı çirkablar gözlədiyini bu baxışlar bilirdi?..

Fənayə ayağı büdrəyən nöqtəyə baxdı. Ayaqqabısı asfalta batıb qalmış məftil tora ilişmişdi. Üz-gözünü turşutmaqdan başqa əlindən heç nə gəlməsə də, hirsindən acı-acı gülümsündü. Bircə bu fikirlərdən yaxa qurtara bilsəydi… «Yox, cavan oğlan, mən sənin yemin deyiləm. Bəlkə də sən yaxşı adamsan, qanlıqadalı müharibədən çıxmısan, amma eşq aləmi, qadın uğrunda savaş ayrı savaşdı, yazıqsan, bu işə baş qoşmasan yaxşıdı». Özündən asılı olmayaraq, başını silkələdi. Dayanacaqda duran adamların sifətini süzdü. Küçəni adlayıb avtobusa yaxınlaşdı və elə bu vaxt Harisin maşını səkiyə yan alıb dayandı.

Haris:

– Səni gözləyirəm, – dedi.

Fənayə açıq-aşkar sevinc içində maşına sarı atıldı.

– Xoş gördük.

– Xoş gününüz olsun.

– Niyə gec gəldiniz?

– Necə yəni gec? Bəyəm görüş təyin eləmişdik?

– Yox… Amma lap tezdən gəlib burada gözlədim ki, sizi görə bilim.

– Bəlkə bu gün dərsə getməyəydim?

– Lap ilin üç yüz altmış beş gününü gözləyəcəkdim!

Fənayə güldü, Haris də güldü. Fənayə qabaqda, Harisin yanında oturan kimi, maşın işə düşüb yolla irəlilədi. Fənayə jurnalı vərəqləməyə başladı, səhifələrini bircə-bircə çevirsə də, fikri Harisdə idi. Sanki onun «hansı yuvanın quşu» olduğunu öyrənmək istəyirdi. Gəldiyi ilk qənaət bu oldu ki, Harisi gündəlik həyatı yormayıb.

Fənayənin o qədər də həyat təcrübəsi yox idi, gözüaçıqlığının səbəbkarı anasıydı. Harisi isə görübgötürmüş adam saymaq olardı. Gör neçə yaş böyükdü Fənayədən. Amma yaşla deyil ki… Harisin həyatında ona dilxorçuluq gətirən bir boşluq, bir mənasızlıq hökm sürürdü. Öz taleyindən demək olar ki, razı deyildi. Bu arada belə bir gözəlin peyda olması bəndə işi yox, olsa-olsa Allah mərhəməti idi. Bax, elə indi onun qar kimi bəyaz əllərindən yapışıb ən uzaq okeanın o tayındakı bir cənnət məkana yetmək istəyirdi. Amma

istəmək başqa, həqiqət başqa. Əvvəlcə o, Fənayə ilə arasında mövcud olan sədləri uçurmalıydı.

– O nə jurnaldı elə?

– «Ay işığı». Burada şeirlərim çap olunub.

– Doğrudan? Hə, Rahibə deyirdi axı, sən şairəsən.

Haris maşını dünənki parkın yanında, gül dərdiyi yerdə saxladı. Əslində əli ilə jurnalı tutmaq istədi, bir də gördü qızın biləyindən yapışıb.

Üstümə ilıq yaz yağışı yağmasa…
Səbrim bu bahara, bu yazacandı.
Əllərim didim-didim,
Dizlərim cırmaq-cırmaq.
Bu zirvəni qalx dedin;
Yeridim oymaq-oymaq,
Yolum bu düzə, yarıyacandı.
Ağlayıb kədərdən keçirəm,
Səssiz, hıçqıra-hıçqıra.
Piyaləmə süzüləni
Şərbət bilib içirəm
Ümidin bağlarını qıra-qıra;
Ömrüm xəzana, payızacandı.

Haris şeiri pis oxumadı. Görünür, başı çıxır, intonasiya, vurğu yerli-yerində səsləndikcə, misraların yaratdığı hərarət, məhrəmlik onların arasındakı yaş fərqini unutdururdu. Fənayə özünü göyün yeddinci

qatında – ulduzların arasında görürdü. Ona elə gəlirdi ki, Harisin xəyalları bu aləmdən ağ bir yolla uçub gedən xəyallarını təqib edir. Həmin xəyallara nəfəs verib onları göylərə qaldıran, üstəlik Harisin də xəyallarını yanına qoşub uçurdan bəs, hansı sirr idi?

Yoxsa, sevgi deyilən elə budur, bir yol görməklə hökmünü verib? Bəlkə min illər boyu şairlərin qəlbinin odunu sözə çevirən, ən dahi sənətkarlar tərəfindən belə bənzətməsi yetərincə bulunmayan eşq odu, məhəbbətdir bu?

Haris xəyalları göylərdə gəzən, bir dəli sevdanın ləzzətindən məst olan qızın əllərinə toxundu. Fənayənin bu halı ona da sirayət etdi. İçinin həyəcanı başına vurdu, üzü pörtdü. Bir an sonra… Min ilin həsrətlisi kimi bir-birindən qopmaq istəmirdilər…

Qəfil ürpəndirici maşın siqnalının səsi hər ikisini səksəndirdi. Deyəsən, irəlidə maşın toqquşdu. Ağlagəlməz qısa vaxt ərzində adamlar qəzanın baş verdiyi yerə toplaşdı. Bir azdan yol polisi də gəldi.

Fənayə özünü yığışdırdı. Doğrudanmı, hər şey bitdi? Doğrudanmı, ixtiyarı əldən getdi? Bəlkə onun taleyi də qəzaya uğradı? Əgər belədirsə, bəs, onun harayına kimlər gələcək? Allahın bənzərsiz gözəllik bəxş etdiyi bu insan sanki suallardan, «niyələrdən», «bəlkələrdən» dolub-daşan dərya kənarında, yaxud qara bir uçurum önündə dayanmışdı. Lakin gözəlliyindən və gənclik ehtirasından başqa heç bir güvənci olmayan qızın harayını bir kimsə eşitmirdi.

İki dəmir minik burun-buruna dəyib səs salan kimi, aləm tökülüb gəlir, amma gül kimi təravətli bir ömrü dibindən dartıb qoparmaq istəyirlər, bir kimsə vecinə almırdı.

Birdən Fənayəyə elə gəldi ki, adamlar maşınlara sarı yox, məhz onlara sarı yüyürürlər. Nə olub ki? Bəlkə qəzaya düşən Harisin maşınıdır? Onlar niyə başıaşağı qalıblar? Maşının təkərləri göydə fırlanır? Günahın hamısı məndədir. Mən niyə bu adamın böyründəyəm? Kimdi ki, bu? Mən onu sevirəm yəni? Lap qabaqdakı, deyəsən, həmin o qəzetsatan oğlandı. Taytıya-taytıya gəlir. O, neyləyə bilər? İndi çevrilən maşını düzəldib dörd təkər üstünə qoymağa gücü çatarmı? Bu qəza nədən törəndi? Harisin ağlını başından kim aldı, özümü, şeirimi? Bəs, onun qızlıq qururunu qoruyan inadı hara uçub getdi? Haçan və həm də necə oldu ki, o özünü Harisin ağuşuna atdı?..

Haris yarıbayılmış vəziyyətdə olan Fənayənin qolunu çəkməsəydi, o hələ uzun müddət suallar selinə qərq olacaqdı. Maşın yerində idi. Heç kim onlara baxmırdı. Qəzetsatan oğlan yox idi. Harisin bir əli onun belində, o biri əli çiynində idi.

Fənayə təzədən onu qaynar öpüşlərə qərq etmək istəyən Harisi sakitləşdirə bilmirdi, ancaq özünü toplayıb ondan aralanmağa gücü çatdı. Qəribədir, elə bil qəzetsatan oğlanın sifəti Harislə Fənayənin arasından bir portret kimi asılmışdı. Qəzetsatan oğlandan acığı gəldi. «Niyə o, mal kimi baxır? Niyə bu

maşını itələyib aşırmır? Niyə Harisi parçalayıb qanına qəltan eləmir? Niyə Fənayəni boğub daşa-divara vurmur? Yox, bu sənin işin deyil, qəzetsatan oğlan!» Nəfəsi təngiyir, az qala boğulurdu. Başı bərk ağrımağa başladı. Haris maşının qapısını açıb düşdü, onun da qolundan tutub aşağı düşürtdü. Yanaqları allanmış Fənayəyə hava dəydikdən sonra, bir az sakitləşdi. Bu dəfə yağışdan çıxıb yağmura düşdü, indi də Zinayənin xəyalı onunla üzbəüz dayanmışdı:

«– Nə olub, ay qız, sənə demədimmi qismət göydən gəlir?»

«– Yaxşı, sən deyən olsun, amma məndən heç nə soruşma, hər şeyi özün görürsən ki…»

«– Açan gül vədəsində dərilsə yaxşıdı, onsuz da solacaq».

Fənayə anasının üzündəki istehzanı duydu. Və birdən ona elə gəldi ki, anası çürümüş meyvədir, pis qoxu verir və o çürümüş meyvə düşən yerin yanından keçənlər yollarını dəyişməyə məcbur olurlar…

Daha Fənayə onunla yanaşı addımlayan Harisə baxmırdı, əlini elə bərk düyünləmişdi ki, uzun, manikürlü dırnaqları az qalırdı ki, ovcunun ətini deşib qanatsın. Fənayənin içində yenə iki hiss çarpışırdı. Ürəyinin başında, mərmər sinəsinin altında canki alışıb çartaçartla yanan ocaq vardı. Və sanki ehtiras, hansısa sel isə dayanmadan o ocağa doğru "tələsirdi". Görəsən, o sel varlığını çulğalamış odu söndürə biləcəkdimi?

* * *

Həmin gün Harisin təkidlərinə baxmayaraq, Fənayə onunla heç yerə getmədi. Yalnız parkda gəzib dolaşdılar. Fənayəni bürüyən sarsıntı keçib getmişdi. Amma həmin sarsıntını azaldan səbəb, bayaqkı öpüşün məstliyi hələ canındaydı. Harislə parkda gəziş-diyi anlarda bu addımı ilə iç dünyasının uçub-söküldüyünü, yoxsa arzuladığı möhtəşəm sarayın qurulduğunu ürəyində təhlil etməyə çalışırdı. Söz yox ki, indi o, bütün bu olanlara görə özünü günahkar hesab etmirdi. Əgər atdığı addım təbiidirsə, özünü heç nəyə məcbur etməyibsə, deməli, günahkar deyil. Baş verən hadisəyə görə heç kəs onu qınaya bilməz. Özü də özünü qınamağa bəhanə tapmırdı. Bu iş kimin başına gəlmir ki? Yüngülcə utanc hiss eləsə də, bu, şimşək çaxışı kimi ani və ötəri idi, görünürdü, dərhal da qeyb olurdu. Fənayə gözəl qız idi, əvvəl-axır könlünü bir oğlana verməli idi, ya yox? Ancaq kimə? Ona nağılların sehrli qəhrəmanı kimi baxan qəzetsatan oğlana, qruplarındakı Zaura, Zahirə, Faiqə, yoxsa Sərrafa?..

Sərraf İqtisadiyyat Universitetində oxuyurdu. Televiziya müsabiqəsi zamanı tanış olmuşdular. Universitetin jurnalistika fakültəsinin tələbələri bir il əvvəl həmin müsabiqədə İqtisadiyyat Universitetindən gəlmiş komandaya uduzmuşdu. Tələbə-iqtisadçıların kapitanı Sərraf, tələbə-jurnalistlərin kapitanı

isə Fənayə idi. O vaxtdan Sərrafla Fənayə arasında dostluq münasibəti yarandı. Sərraf Fənayə ilə bərabər Rahibənin də xətrini istəyir, Sadiqəylə də həmişə salamlaşıb hal-əhval tuturdu. Sərrafın hərəkətləri hər cür yüngüllükdən uzaqdı. Hərçənd, ürəyindən keçirdi, amma bir dəfə də olsun Sərrafın baxışlarını öz üzərində hiss eləməmişdi.

Fənayə Harisdən ayrılandan sonra şəhərin mərkəzinə qədər piyada getdi, xeyli gəzdikdən sonra dayanacağın birində ayaq saxladı. Bu vaxt ona cavan bir polis nəfəri yaxınlaşdı.

– Xanım, havayı yerə burada dayanmayın.

– Niyə?

– Görmürsünüz ki, daha bu küçədən avtobus işləmir?

Doğrudan da, küçə bomboş idi. Ancaq bu, nədənsə Fənayənin diqqətini cəlb etməmişdi. Qız getmək istəyəndə, gənc polis vəzifə başında olduğunu unudub dedi:

– Bəlkə sizi yola salım, tanış ola bilərikmi?

– Niyə əziyyət çəkirsiniz? – Fənayə ağızucu dilləndi. Gənc polis əməlli-başlı qəmiş idi, gözündə şəhvət parıldayırdı. Bunu görməmək mümkün deyildi. Fənayə ürəkdən güldü. Gənc polis gülüşü razılıq əlaməti bilib bir az da şirnikdi. Fənayə ilə yanaşı daha inamla addımlamağa başladı.

– Axı, nəyə görə düşünürsünüz ki, mənimlə belə asanca tanış ola bilərsiniz?

– Tək-tənha dayanmısınız, belə başa düşdüm ki, darıxırsınız. Bəlkə kimisə gözləyirsiniz?..

Bəllidi ki, Fənayə ayıq-sayıq qız olduğundan şəhərin dəbini də yaxşı bilirdi. Tək-tək, iki-iki dayanan qızlara maşınlı «müştərilərin» necə «girişmələrinə» fikir vermişdi. Bəzən təbiətindəki macəra axtarmaq həvəsi özünü göstərirdi, müştəri gözləyən qız roluna girib yaxınlaşmaq istəyənləri dolayırdı. Bu günün isə ovqatı tamam başqa idi. Bu gün o biri günlərə bənzəmirdi. Bəlkə elə buna görə də bilmirdi ki, polisi acılayıb başından rədd etsin, yoxsa onunla bir qədər də yol gedib məzələnsin? Fənayə variantlardan hansını seçəcəyini sonraya saxladı, üzünü polisə çevirdi:

– Cavan oğlan, çiyninizdə paqon var, amma özünüzü uşaq kimi aparırsınız.

Fənayə kifayət qədər ciddi idi, hətta sifətində qəzəb vardı.

– Üzr istəyirəm. Mən elə bildim ki…

Fənayə üzrxahlıq edən polis işçisinin son sözlərini eşitmədi, iti addımlarla uzaqlaşdı.

* * *

Sərraf işə düzəldiyindən yay tətilində heç yerə getməyəcəkdi. Bunu bilən Fənayə tez-tez ona eşitdirirdi ki, yayı dəniz qırağında keçirərik. Əslində, Fənayə bu sözü yay vaxtı şəhərdə qalan qrup yoldaşlarının hamısına deyirdi. Sərraf düşünürdü ki, əgər

xoşbəxtlik hər cür qayğıdan azad olmaqdırsa, onda dünyada Fənayədən xoşbəxt adam yoxdur…

…Sərraf üçaylıq körpə olanda atası Qabil vəfat etmişdi. Sərrafın özündən başqa, qardaşı və bacısı da vardı. Ucqar bir kənddə üç uşaqla tək qalan Həyatın qəlbindən qara qanlar axırdı. Evləri obanın ortasında, balaca təpənin üstündə idi. Bu yerlərdə qara yel payız girəndən əsməyə başlayır, özü ilə quduz soyuq gətirirdi. Kasıb daxmanın dəlmə-deşiklərini köhnə-köşkül paltar-palazla tutsalar da, soyuq oradan-buradan içəri soxulur, nimdaş yorğan-döşəyin içində uşaqları üşüdür, titrədirdi.

Payızda rəhmətə gedən Qabil, elə bil ev-eşiyin isti havasını da özü ilə aparmışdı. Həyata görə payız çox soyuq başlamışdı, yəqin qış da sərt olacaqdı. Qışın soyuğunda yorğan-döşəyin arasında bir-birinə qısılan balalarına baxanda düşünürdü ki, bəlkə bu dünyanın heç şirin tamını dadmayıb? Bəxtsizlik, çətinlikləri dəf edə-edə yaşamaq, elə onun əzəli və əbədi qismətidir? Hərdən heyva kimi saralan uşaqlarının bugün-sabahlıq olacağı ağlına gələndə, onu dəhşət bürüyürdü. Evin his basmış divarlarından ehtiyac və əlacsızlıq yağırdı. Bəzən olurdu ki, Sərrafı əmizdirmək üçün döşünü əli ilə sığayırdı, amma boş, südü sovulan məmələrdən uşağın ağzına bir şey getmirdi. Körpə Sərraf çığırır, ac qarnı yemək istəyirdi. Həyat dolmuş gözlərini körpəsinin üzünə zilləyir, sanki

bu qanmaz körpəyə dilsiz baxışları ilə əlacının kəsildiyini anlatmaq istəyirdi. Səhər-səhər qapını açan qonşular uşaqların, xüsusən də Sərrafın salamat qalıb-qalmadığını soruşurdular.

Qabilin ölümündən bir-iki ay sonra, əmisi oğlu Saleh Həyatı və uşaqları da götürüb Bakıya bitişik olan bu qəsəbəyə, öz yanlarına gətirdi. Düz elədi, çünki qonşu payı ilə qarın doymazdı. Saleh kişi fərli iş sahibi olmasa da, ancaq istəmirdi Qabilin ailəsi məhvə doğru getsin. Fikirləşirdi ki, Allah yol açar, Həyatın da əli bir işə ilişər.

Bir xeyli get-gəldən sonra, Həyatı məktəbə xidmətçi götürdülər. Qəsəbədə bu işi görənlərə süpürgəçi deyirdilər. Hər ay maaş alacaqdı. Ərinin ölümündən sonra maaşının faizini də uşaqlara təqaüd kəsmişdilər. Həyat Sərrafı Saleh kişinin həyat yoldaşı Güllü arvadın yanında qoyub işə gedirdi. Uşaqlar bir-iki qışdan çıxandan sonra tanış-bilişlər dedilər ki, daha bunlara ölüm yoxdur; hava ilə, su ilə yekələcəklər.

Bir dəfə həkim gəlib qəsəbədəki uşaqları suçiçəyi xəstəliyinə qarşı peyvənd edirdi. Anası Sərrafın əlindən tutub həkimin yanına apardı. Həkim cərgəylə düzülmüş uşaqların qolunu əlindəki ağ, parıltılı alətlə cızır, elə həmin alətlə stəkandakı mayedən cızılmış yerə sürtürdü. Qolları cızılan uşaqlar ağlayırdılar, Sərraf isə heç nə olmamış kimi kirimişcə dayanmışdı.

Peyvənddən iki gün sonra Sərrafın qolu qızarıb köpəşidi. Sonra da həmin cızılan yer açılıb yara oldu.

Uşaq qızdırmayla yorğan-döşəyə düşdü. Gəlib-gedənlər Həyata hamısı «göz-nəzər işidir», – deyirdilər. Güllü arvad hansısa bitkinin suyunu qaynadıb Sərrafa içirtdi. Uşaq sakitləşib yuxuya getdi. Tərləyib ayılanda qızdırması düşdü.

Sərraf lap körpə vaxtlarında baş vermiş bir çox hadisələri birbaşa xatırlaya bilmirdi. Belə vaxtlarda anasının şirin-şirin, ipək kimi yumşaq səslə danışdığı əhvalatlar, onunla bağlı macəralar köməyinə çatırdı. Bax, o zaman bu tələbə oğlan həmin uşaqlıq dövrünə qayıdır, o kasıb birotaqlı daxma da, təkcə otaqların sayına görə fərqlənən məktəb də, bu məktəbdə xidmətçi işləyən anası da gəlib gözünün qabağında dururdu. Və elə oradan da ildırım sürəti ilə bu günə dönən xəyalında universitetdə tanış olduğu qızlar canlanır, onları anası ilə yanaşı qoyurdu. Bir növ qızlara anasının gözü ilə baxırdı. Onlardan hansını anası bəyənərdi? Uzandıqca uzanan, amma bezikdirib yormayan düşüncələrində saf-çürük başlayırdı. Əlbəttə, bu məsələdə qızların yaraşıqlı olması da rol oynayırdı. Sərraf insanın xasiyyətinə daha çox üstünlük verirdi. Qızlar ona qarşı biganə deyildi. Götürək elə Fənayəni. İddialıdı, bəzən elə davranır ki, adam bilmir neyləsin; xəcalətmi çəksin, ona həddini bildirib yerindəmi oturtsun, yoxsa, heç fikir verməsin? Qız nə qədər iddialı olsa da, Sərrafı saya salırdı. Amma Sərraf hətta xəyalında belə onu özünə, qəlbinə yaxın buraxmırdı. Amma

Sadiqə… Yox, o tamamilə başqa bir dünyanın adamı idi. Anasının sözüdü, deyirdi: «Taylı tayını tapmasa, günü ah-vayla keçər». Sərraf anasının qeyd-şərtsiz qəbul etdiyi bu sözünü, həftədə bir yol həvəslə qatıldığı fəlsəfə dərsində nədənsə üzü həmişə tutqun və kədərli olan qocaman filosofun, fəlsəfə müəlliminin ayrı-ayrı korifeylərdən misal gətirdiyi müdrik deyimlərə bərabər tuturdu.

Nəsə olmuşdu ona, sanki nəsə baş vermişdi. Daxilində yozumu mümkünsüz görünən təlatüm baş qaldırmışdı. Səbəbini anlamadan fürsət düşən kimi universitetə qaçır, jurnalistika fakültəsinin qapısını kəsdirir, hətta Sadiqə ilə söhbətləşməyə cəhd də göstərirdi. Sərraf üçün müstəsna əhəmiyyət daşıyan bu təmas qısa hal-əhvaldan sonra dərhal bitirdi. Bunun əvəzində Fənayə və Rahibə ilə yetərincə söhbət eləyirdi.

Sərraf gündüzlər oxuyub, gecələr gözətçi işlədiyi üçün təqaüddən əlavə, maaş da alırdı. Fənayəgilin düşündüyünün əksinə olaraq, ilk vaxtlar o, universitetə hansısa qıza vurulduğu üçün deyil, tay-tuşların mühitində olmağın eşqi ilə gəlib-gedirdi. Ancaq hiss olunurdu ki, artıq bu get-gəllər yavaş-yavaş bəlli bir ünvana yönəlirdi. Bu ünvan Sadiqə idi. Sərraf ən müxtəlif kanallardan, daha doğrusu, Zahirin, Zaurun, Faiqin söhbətlərindən öyrənə bilmişdi ki, Sadiqənin ailəsi onun ailəsinə uyğundur. Sərraf nə qədər ağıllı oğlan olsa da, məsələnin yozumunda çətinlik çəkirdi.

Qəlbinin yeganə təskinliyi Sadiqənin varlığı və onu görə bilmək imkanı idi.

Günlər keçir, qəlbində rişələnən körpə fidan ən pak duyğulardan su içib böyüyürdü. Ən əsası bu idi ki, Sadiqə ona qarşı biganə deyildi, onun yanaqlarını xəfifcə qızardan həyəcan gözlə görünürdü.

* * *

Kim deyirsə ki, sevgi qəfil qonaq kimi gəlir, çox güman, yanılır. Zərrə-zərrə Sadiqənin qəlbinə dolan çırpıntılar əvvəl-əvvəl mübhəm bir güman, şübhə şəklində peyda olsa da, tədricən qarşılıqlı hörmətə, ehtirama çevrilirdi. Sadiqəyə gün kimi aydın idi; Fənayə və Rahibə ilə xosunlaşan, onların «sancmaları»na ustalıqla cavab verən Sərrafın gözü ondadır. Ayrı bir söhbət ola bilməz, bu yüz faiz belədir. Sadiqə yaz imtahanları ərəfəsində demək olar ki, universitetə gəlmirdi. İmtahanların sayı da çox idi, sanbalı da. Ciddi hazırlaşırdı. Sərraf bir neçə gün oralarda vurnuxsa da, qız gözünə dəymədi.

Bir azdan imtahanlar bitəcək, hərə bir tərəfə çəkilib gedəcəkdi. Sərraf az qala bir il müddətində cəsarətsiz olduğuna, balıq kimi ağzına su alıb susduğuna görə özünü danlayırdı. Axı, niyə demədim? Onun fikrini haradan bilim? Universitetdə nə azarı vardı, Sadiqə üçün gedib-gəlmirdimi? Sərraf sanki avarsız qayıq kimi fırtınalı dəryanın dalğaları arasında qalmışdı.

Fikirlər onu atıb-tutur, hansı sahilə yan alacağını bir kimsə bilmirdi. Çabalamasa, əl-qol atmasa, bir tərəfə çıxmağa cəhd etməsə boğulardı… Nəhayət, «fırtınalı dalğalardan qurtulmaq üçün» qəti bir yol seçmək, qərara gəlmək məqamıydı.

Sadiqəyə axır sözünü demək istəyi ilə universitetə yollandı. Xoşbəxtlikdən neçə gündən bəri görmədiyi qızla rastlaşdı:

– Sadiqə, salam!

– Sənsən, Sərraf? Salam!

Bir-biri üçün darıxan adamlar kimi baxışdılar.

– İmtahan yoxdu? Niyə tez gedirsən?

– Var idi, müəllim xəstələnib. İmtahanı ayrı günə keçiriblər. Uşaqlar getdi çay içməyə, mənim ürəyim istəmədi. Gedirəm evə.

İndi bir-birinə lap yaxın dayanmışdılar. Qız oğlanın həyəcanlandığını, qırıq-qırıq nəfəs aldığını duydu.

– Gəl düşək, səni yola salaram, – Sərraf dilləndi.

Dayanacağa sarı qoşa yeridilər. Avtobus gəldi. Mindilər… «İçərişəhər» metrosunun yanında düşənədək kəlmə kəsmədilər. Amma yolboyu ürəkləri susmamışdı:

«– Niyə dillənmirsən?»

«– Nə deyim, özün başa düşürsən…»

«– Təkcə mənim başa düşməyimlə iş bitmir. Sənin qərarın lazımdır».

«– Yox, ixtiyar, son qərar sənindir».

Hərdən Sərraf Sadiqəyə sarı baxıb tez də nəzərlərini yayındırırdı. Sadiqə də nəsə demək istəyir, amma demirdi. Sərraf təklif etdi ki, gəl Şirvanşahlar sarayına gedək. Razılaşdılar.

Sərraf Şirvanşahlar sarayının darvazası yanındakı şüşəli köşkdən bilet aldı. İndi bu iki bir-birinə bitişik bilet – göyümtül kağız parçası Sərraf üçün dünyanın ən qiymətli sənədi idi.

Divanxana portalı yanında onları otuz-otuz beş yaşlarında qarabəniz, müasir dəblə, bir qədər də avropasayağı geyinmiş cavan qadın qarşıladı:

– Xoş gəlmişsiniz, mən sizə bələdçilik edərəm.

Sərraf istədi qoymasın, Sadiqə gülümsünüb:

– Lap yaxşı, əla olar, – deyib Sərrafa baxdı.

Sərraf:

– Olsun, – deyə razılaşdı.

Qadın Divanxana qapısının girişinə yanaşıb şərhinə başladı:

– Sarayın Divanxana adlanan bu hissəsində şah həm divan işlərinə baxır, həm də mühüm dövlət əhəmiyyətli məsələləri həll edirdi. Buraya – şahın hüzuruna gələn hər kəsin çiyninə böyük məsuliyyət düşürdü. Divanxanada pis işlərə görə cəza kəsilir, yaxşı əməl sahiblərinə ənam verilirdi.

…Qadın danışırdı. Bu an qəlbində təzə-tər sevda çiçəyi açılan gənclərin – Sərrafın və Sadiqənin xəyalı ecazkar daşlara hopan ruhlara qovuşurdu. Bələdçi onları içəri dəvət etdi:

– Şah burada əyləşirmiş.

Daş pilləkəni qalxanda, Sərraf Sadiqənin əlini tutdu. Sadiqə əlini çəkmədi. Onlar elə-belə, qoşaca, əl-ələ dayanaraq, ovuclarındakı hərarəti, ən xırda döyüntüləri duya-duya hökmdar əyləşən daş hücrəyə baxırdılar. Şahın hüzurunda qoşa durmuşdular. Bu, heç də gəldi-gedər padşahın yox, məhəbbət deyilən əbədi hökmdarın hüzuru idi.

Bələdçi davam elədi:

– Şah yalanı sevməzdi. Öz əhdinə, verdiyi vədə xilaf çıxan bir kimsə onun ədalətli cəzasından can qurtara bilməzdi.

Əllər bir-birinə daha qətiyyətlə sıxıldı. Sanki anbaan iki gənc bir-birinə qaynaq olur, can cana calanırdı.

Bir qədər sonra çiyinləri də bir-birinə toxundu, birləşdi, artıq onlar bələdçi qadının eləcə səsini eşidir, nə dediyini anlamırdılar. İndi onlar yüzilliklərin sükutuna qərq olmuş daş aləmin sehrli röyasında idilər. Abidə – daşların üstündə insan üzünün təbəssümünəbənzər qəribə bir işıq vardı. Daşlarda yaşayan vahimə, qorxu yüzilliklərin o tayında qalmışdı. Onlara hopan ruhların mələkvari uçuşu az qala gözlə görünürdü. Qoşa dayanan gənclərə ruhlu daşlar xeyir-dua verirdi. Həm də bir əminlik vardı bu xeyir-dualarda. Bu əhd, bu peyman dağılmayacaq, iki gəncin sinəsini yandıran od birləşib illər boyunca sönməyəcək ailə ocağına çevriləcəkdi.

Yuxarı mərtəbəyə qalxdılar. Sarayın mansarındakı dəyirmi pəncərədən şəhər, dəniz, Bakının digər fraqmentləri görünürdü. Daşları yaşadan da, o daşlara insanların qəlbində sevgi oyadan da məhəbbət idi, sevgi idi. Daşlar o zaman xoşbəxt olur ki, onların sinəsinə sevən insanların qədəmləri dəyir. Birdən Sərraf fəlsəfi düşüncələrdən ayılan kimi oldu: «Şair olmuşam deyəsən».

* * *

İstidən pörtmüşdülər. Sarayın hücrələrini gəzib həyətə çıxanda gənclər bir-birinə həmişəkindən min dəfə doğma və əziz görünürdülər. Düzdü, söz dilə gətirib vəd verməmişdilər. Pak duyğular sözsüz ifadə olunmuşdu. Ortada qədim daşların şahid olduğu əhd-peyman vardı. Sərrafla Sadiqə şah sarayının qapısından çıxanda da əl-ələ tutmuşdular. İndi onları bir-birindən ayırmağa nəinki bəni-bəşərin, heç fələyin də qüdrəti çatmazdı…

* * *

Axır vaxtlar qızının dəyişdiyi açıq-aşkar hiss olunurdu. O, üç-beş gün bundan əvvəlki Fənayə deyildi, sanki başqa adamdı, özünə məxsusi fikir verir, üstəlik bütün günü telefondan asılı qalırdı. Zinayənin qənaətinə görə, Fənayə bundan sonra evə gec

gəlməli, gününü aşiq olduğu oğlanla keçirməli idi. Deyəsən, Zinayə qızını əməlli tanımırdı. Əsl həqiqətdə Fənayə öz duyğuları, düşüncələri çevrəsində yaşasa da, bunu büruzə vermir, vasvasılıq edir, nə fikirlərə düşdüyü barədə anasına bir kəlmə belə demirdi. Bu da Zinayəyə təsir eləyirdi. Ana qızına baxır və öz gəncliyi yadına düşürdü. Çox istəyirdi ki, bu yaşda da gənclik həzzini duysun. Çünki Zinayənin həyatının mənası həzz idi, daha heç nə. Qadirlə aralarında yaranmış soyuqluğun səbəbini düşünəndə, özünü də təqsirkar sayırdı, amma sonda yenə də babal yükü Qadirin boynunda qalırdı. Həmin an ərinin qazancı gözünə görünmürdü və ev qayğılarına qul olub dörd divar arasına qapandığı üçün peşmançılıq çəkirdi. Zinayə əvvəllər Qadiri qısqanmazdı, ərindən də razı idi ki, onu qısqanmırdı. Özünü həmişə tox tutan Zinayə məclislərə tək gedir, vaxtını, necə deyərlər, şən keçirirdi. Vaxt isə sürətlə ötür, ömür əriyirdi. Köhnə tanışlar ondan yavaş-yavaş uzaqlaşırdılar. Tədricən iştirak etdiyi məclislərin «ulduz»u o yox, çiçəyi təzə-təzə çırtlayan daha gənc qızlar olurdular. Zinayəyə görə, qadın qarşısıalınmaz seldir. Bu selin gücü-qüvvəsi ehtirasdır. Ondan hamı öz payını götürməlidir. Məclislərdə özünə qarşı diqqət azaldığını gördüyü vaxt Zinayə məcburən Qadirdən dördəlli yapışmaq istəyirdi. Qadirsə sanki onu görmürdü…

* * *

Evlənmələrinin iyirmi illiyi münasibətilə Qadir Zinayəyə hədiyyə aldı. Çox bahalı boyunbağı, qolbaq və sırğa… Qızılın içində itib-batan Zinayə, ərinə ötəri minnətdarlıqla nəzər saldı: «Sağ ol səni, Qadir!» Hər şeyə qadir olan Qadir kişi kimi görünmək istəyir, Zinayə isə bu sovqatın sahibini sadəcə əsl kişi kimi təsəvvür edə bilmirdi. Canında dərin bir inciklik vardı, çünki Qadir həmin o iyirmi il əvvəlki toy gecəsində biləndə ki, Zinayə ən qiymətli incini – ismət pərdəsini özüylə gətirməyib, susmuşdu. Guya elə belə də olmalıydı və heç bu boyda biabırçılıq baş verməmişdi. O gündən bəri Qadirin hökmü Zinayənin gözündə kəsərini itirdi. Əslində onların intim həyatı Zinayənin istəyindən asılı idi…

Yarıqaranlıq yataq otağında Zinayənin qızıl boyunbağısı, qolbağısı, sırğaları bərq vururdu. O, soyunub Qadirin yanına uzandı, qolunu ərinin boynuna salıb özünə tərəf çəkdi, gənclik ehtirası ilə öpüb oxşadı. Lakin Qadirdə tərpəniş olmadı. Zinayə hirsli ilan kimi fısıldayıb yana çevrildi. Qadir uzun illər onunla birgə yaşasa da, gecələrin çoxunda ona yad olmuşdu. Və Zinayə birdən-birə yaşadığı həyatın acılığını bütün varlığıyla duydu, əvvəlcə için-için, sonra da hönkür-hönkür ağladı…

* * *

Yay imtahan sessiyası başa çatmaqda idi. Az-çox məsuliyyət hiss edən hər bir tələbənin beynini yalnız bir fikir məşğul edirdi; kəsri qalmasın.

Haris Fənayə ilə axırıncı görüşündən sonra, bir neçə gün özünü heç nə olmamış kimi sakit apardı. İstəyirdi Fənayə onu axtarsın, ya zəng vursun, ya da Rahibəyə bir söz desin. Fənayədən səs çıxmırdı. Haris isə öz fikirlərinin əsirinə çevrilmişdi. Çünki qızın isti nəfəsi, ehtiraslı baxışları ona «mən səndən başqa heç kimin ola bilmərəm» demişdi. «İnsanı daha çox ehtiras idarə edir. Madam ki, belədir, deməli, Fənayə gec-tez gələcək. Dözüb gözləmək lazımdır…»

* * *

Proqrama əsasən jurnalistika fakültəsinin tələbələri üçün sənədli, xronikal filmlərə kollektiv baxış keçirilir, sonra həmin filmlər müzakirə obyektinə çevrilir, tələbələrin bu barədə fikir və rəyləri mühüm əhəmiyyət kəsb edirdi.

Bir dəfə tələbələr «Təbiətin vəhşiliyi» filminə baxdılar. Amerika rejissorunun çəkdiyi sənədli kadrlardakı görüntülər cəngəllikdə baş verirdi. Filmin «baş qəhrəman»ı – dəstəyə başçılıq edən erkək pələng heç bir vəhşi heyvanı hökmranı olduğu əraziyə buraxmırdı. Onun başçılığı altında dəstədəki pələnglər zebrləri, ceyranları, bizonları rahatlıqla ovlayırdılar. O, istədiyi dişi pələngi ram edir, özündən başqası ilə

cütləşməyə qoymurdu. Filmin sonuna yaxın yaradıcılar sanki qəsdən həmin pələngin rəqibləri tərəfindən öldürüldüyünü göstərən kadrlar çəkmişdilər.

Fənayə müzakirə zamanı filmin ideyasını cəmiyyət həyatı ilə müqayisədə şərh etdi: «Fikrimcə, öz hökmranlığını digərilərinə diqtə etməkdə hegemonluqdan çox, bir qəhrəmanlıq, cəngavərlik var. Dəstənin başçısı kimi mübarizədə həlak olan pələngin qəhrəmanlığı, cəngavərlərin həyatının təbiətdə inikasıdır. Cəmiyyətdəki qarışıqlıq, güclülərin gücsüzləri əzməsi, qanunlara tabe olmamaq, mənəvi aşınmalar, deqradasiya, sizcə, sivilizasiyadır, yoxsa yenidən cəngəllik qanunlarına qayıdış?» – Fənayəni danışdıran artıq düşüncələrinə hakim olan ehtiras idi. O, cəmiyyətin bütün qanunlarını, əxlaq normalarını təbiət hadisələri və təbii qanunauyğunluqlarla bağlayırdı. Onu dinləyənlərə elə gəlirdi ki, o, uşaqlığını, gəncliyini elə cəngəlliklərdə yaşayıb. Maraqlı idi ki, etiraz edən tələbələr və müəllimlər Fənayənin bu qəribə mühakimələrindən sonra, onunla daha mehriban davranırdılar.

Fənayə danışanda ilhamla, təbla, həvəslə danışdığı kimi, güləndə də ürəkdən gülürdü. Bir də onun yerişinə, duruşuna baxana elə gəlirdi ki, o, bütün gözəlliyini nümayiş etdirməyə çalışır. Çox vaxt geyimi açıq-saçıq olurdu. Kənardan baxana elə gəlirdi ki, bu qız hər an tələyə düşə bilər, ancaq o, həddini aşanları layiqincə yerində oturtmağı bacarırdı.

Yaşadığı real cəmiyyəti cəngəlliklə eyniləşdirən, son dərəcə sərbəst davranışlı tələbə qızdan daha hansı mülahizə gözləmək olmazdı ki?

* * *

Fənayə tələbə yoldaşları ilə universitetin foyesində dayanmışdı, söhbət edirdilər. Rahibə də gəlib onlara qoşuldu. Hamı ilə görüşəndən sonra «sürpriz var» dedi.

– Ancaq əvvəl Fənayə ilə razılaşaq, sonra…

Rahibə Fənayəni bir kənara çəkdi:

– Əmim salam göndərib…

– Bəs, özü haradadır, aya-günə dönüb, görünmür…

– Sessiyanın bitməyinə görə, qrupumuzun uşaqlarına banket vermək istəyir.

Xəbər gözlənilməz deyildi. Hər halda, Fənayəni sevindirdi. Rahibə dedi ki, banketə hər kəs istədiyi adamla gələ bilər. Fənayənin könlündən keçdi ki, anasını da özü ilə aparsın, tez də fikrindən daşındı. Sərbəst olmaq istəyirdi. Haris üçün bərk darıxmışdı. İstəyirdi Harisin qaynar baxışları onu yandırıb külə döndərsin.

«Satir» restoranı şəhər kənarında – dəniz sahilində yerləşirdi. Restoranın adı yunan mifologiyasından götürülmüşdü. Satir – ehtiras rəmzidir. Antik yunan ədəbiyyatına bələd olan Fənayə üçün bunu yozmaq çətin deyildi. Əhsən Harisə, quşu gözündən vurub.

– Banketə hələ bir həftə var. Haris səni lap tez görmək istəyir. Ünvanı bilirsən. Mən qızlarla danışıb gələrəm.

Rahibəylə Fənayə qrup yoldaşlarının yanına qayıtdılar. Qrupda Harisi demək olar ki, hamı tanıyırdı. Fənayəyə xüsusi münasibəti olduğunu da hamı bilirdi. Sərrafla Sadiqəyə bu xəbəri çatdırmaq «üç müşketyora» – Zaura, Faiqə, Zahirə həvalə olundu.

Fənayə Sərrafı «Dartanyan» adlandırırdı, o, bu zarafatdan incimirdi.

Sadiqə tərəddüd etsə də, banketə getməyə söz verdi. Sərrafın da razılığını aldılar. Bir həftədən sonra, axşam «Satir» restoranında görüşəcəkdilər…

* * *

Fənayə yeni şeirlərini qovluğa yığıb özüylə gənclərin yaradıcılığına xüsusi səhifələr ayrılan «Ay işığı» jurnalının redaksiyasına apardı. Redaksiya əsrin əvvəllərində tikilmiş, indi memarlıq abidəsi kimi qorunan binanın 4-cü mərtəbəsində yerləşirdi.

O, üstünə «Baş redaktor» yazılmış qapını açarkən katibə qəbul otağını səliqəyə salırdı. Başını yuxarı qaldırmadan Fənayəyə əyləşməyi təklif etdi. Katibənin soyuqqanlı hərəkətindən hiss olunurdu ki, bura Fənayə kimi qonaqlar çox gəlir. Bu vaxt baş redaktorun qapısı açıldı və içəridən üzündəki qırışları örtbasdır etmək üçün bolluca ənlik-kirşan sürtmüş şairə

Bəhbəhli çıxdı. Ötüb-keçməkdə olan cavanlığını saxlamaq savaşında məğlub olmuş zavallı Bəhbəhli kişi ölüsü idi. Qızlar kimi ultra geyinməyi, üzündə kosmetik əməliyyat apartdırmağı da elə bu səbəbə görəydi.

Bəhbəhli üzdən tanıdığı Fənayə ilə ağızucu salamlaşdı. Digər gənc şairlər kimi, Fənayə də Bəhbəhlini tanıyır, onun qəzet və jurnallarda tez-tez çap edilən şeirlərini oxuyurdu. Bəhbəhlinin müxtəlif pozalarda çəkilmiş şəkillərinə baxanda fikirləşirdi ki, onun belə üzdə olmağına səbəb yaradıcılığı yox, nazı və qəmzəsidir. Naz-qəmzəni isə artıq zamanın küləyi aparıb və yəqin ki, elə Bəhbəhli kimi yaşı ötmüş baş redaktor Sahil Əkbərli də müxtəlif bəhanələrlə onu başından edib, çünki şairə otaqdan çıxanda pərt və dilxor görünürdü.

Katibə başının hərəkəti ilə Fənayəyə «keç» işarəsi verdi. Baş redaktor qədim binanın ən böyük otaqlarından birini özünə kabinet seçmişdi. Sahil Əkbərli oturduğu kreslonun ayaqlarını qaldırdığı üçün boydan uca görünürdü. Saçları tökülmüş, başı dazlaşmış, kəlləsinin qırağında qalan tüklər isə ağarmışdı. Üzünün rəngi avazımışdı, buna baxmayaraq, cəld hərəkətlə, bir qədər də şövqlə yerindən qalxıb, Fənayə ilə görüşdü.

Tanış idilər. Sahil Əkbərli əvəllər də Fənayənin şeirlərini dərc eləmiş, bir dəfə də hansı bir məqaləsindəsə onun şeirləri barədə isti sözlər yazmışdı.

Fənayə şəstlə görüşdü, sanki baş redaktorun yaşına uyuşmayan şuxluğunun cavabını verdi.

Sahil Əkbərli demək olar, hər gün gənclərlə təmasda olurdu deyə, onlarla davranmağın qaydalarını bilirdi. Şuxluq eləyir, deyib-gülür, zarafatlaşmağı bacarırdı. Gənc yazarlar isə əsərlərinin işıq üzü görməsi xatirinə, bəzən onun əndazəni aşan şit hərəkətlərinə də dözməli olurdular.

– Necəsən, Fənayə xanım? Yeni şeirlərinlə bizi nə vaxt sevindirəcəksən?

Sahil Əkbərli düyməni basdı. Qapıda görünən katibəyə:

– Bizə çay gətir, – dedi.

Könülsüz tərpənən katibə sinidə iki stəkan çay, bahalı konfet və doğranmış limonla qayıtdı. Deməli, söhbət bir qədər uzanacaqdı. Sahil Əkbərli Fənayə ilə üzbəüz əyləşərək, stəkana balaca uşaq oyuncağına bənzər çəngəllə bir dilim limon saldı. İşığı sozalmış gözləri ilə Fənayənin açıq sinəsini süzdü.

– Sizin yaxşılığınızı ömrüm boyu yaddan çıxarmaram, Sahil müəllim!

– Gəncliyə yol açmaq borcumuzdur, Fənayə, həyat sizindir. Bizim ələyimiz ələnib, xəlbirimiz də o məsələ…

Fənayə etiraz elədi:

– Elə deməyin, – onun ehtiraslı baxışlarına cavab verirmiş kimi, – siz ömrünüzün ən gözəl çağlarını yaşayırsınız, – dedi.

Sahil Əkbərli məmnun oldu. Ayağa qalxıb, Fənayəyə sarı yeridi:

– Şeirlərin öz yerində, danışığın da poeziyadır.

Fənayə Sahil Əkbərlinin tərifinə nazlı, yumşaq, razılıq dolu baxışları ilə cavab verdi.

«Sahil Əkbərli kimi adamlar tamah quludur. Yetər ki, sözlərini ciddiyə alasan, özlərini dünyanın ən müdrik adamı sanacaqlar. Belə «aqillər» gec-tez ürəklərini açacaq, sən də elə-belə yalandan üzlərinə gülən kimi, dönüb olacaqlar qulun».

Fənayə əlyazmalarını çıxarıb masanın üstünə qoydu. Gənc qızın gözəlliyi ahıl redaktorun ağlını başından çıxarmışdı. O, Fənayəyə bir az da yaxın gəldi. Əlini qızın çiyninə qoydu. Yumşaq dərisi isti idi. Sahil Əkbərlinin qanı coşdu, alnının damarları döyündü. Əllərini qızın boynunda, boğazında gəzdirib sinəsinə doğru apardı. Fənayə ciddi görkəm alıb, Sahil Əkbərlinin gözlərinə baxdı. Kişi bu baxışdan sarsıldı, özünü yığışdırdı. «Qızıl alma»ya əli çataçatda ayağının altından daş qaçan nağıl qəhrəmanı kimi…

Sahil Əkbərli üstünə su səpilən ocaq kimi tez söndü, rəngi boğuldu. Belə yanıb sönməyi çox olmuşdu bədbəxtin. Bəxti gətirməmişdi, heç zaman gətirməmişdi. Ömrünü az-çox tanıdığı xanımlara tamah salmaqla bada vermişdi. Hamı da bilirdi ki, şorgözün, oğraşın yekəsidi…

Bir anlıq xəyallar Fənayəni uzaqlara apardı. Qız dönüb oldu qladiator. Öldürücü zərbəni sona saxla-

yan qladiatorlar məğlub etdikləri rəqiblərini hökmən öldürürlər...

Sahil Əkbərlinin Fənayə ilə bu kabinetdə baş tutan tanışlığından o qədər də çox müddət keçməmişdi. İlk tanışlıqdan dərhal sonra kabinetdə tək qalan baş redaktor, bu cavan qızla günlərin bir günü hər cür intim yaxınlığa nail olacağına inanıb xəyallar qurmuşdu. Bu sayaq yanaşmaya bəlkə də Fənayənin özü fürsət verirdi. Həm gözəlliyi, həm də qızın baş redaktora qarşı tam sərbəst davranışı şirniklendirici münasibətlərə yol açırdı.

...Sanki qladiator rəqibini məğlub edir, ayağını sinəsinin üstünə qoyub yuxarı, bu qanlı tamaşanı təşkil edən Tiranın – hakimin üzünə baxır və bu savaşı seyr edən tamaşaçılar hər tərəfdən bağırırdılar: «Öldür! Öldür!..» Nə olsun ki, kabinetdə ikisi idi? Bu saat, bu an elə bil görünməyən meydanda sayı-hesabı bilinməyən izdiham ona baxır və hayqırırdı. Qəribədir ki, bu möhtəşəm izdiham içindən ona dikilən bir cüt baxışı lap aydın görürdü. Bu, qəzetsatan oğlan idi, ona baxırdı; sərt və qəzəbli… O gözlər Sahil Əkbərlini də nifrətlə süzürdü, hökmünü isə verməyə tələsmirdi. Sanki Fənayəyə anlatmaq istəyirdi ki, bütün qladiatorların axırı ölümdür. Rəqibini öldürən qladiator isə əbədi azadlıq yox, müvəqqəti ömür qazanır!

Aha, bu ki, Harisdir, məmnun baxışlarla Fənayənin tərəfində dayanıb. Kəskin hərəkətlə barmağını Sahil Əkbərliyə tuşlayıb, tərəddüdsüz hökm verir. Fə-

nayə belə başa düşdü ki, Haris: «Öldür, onu öldür», – deyir… Təbiətdə də belədir: nizamı qorumaq üçün güclü gücsüzü məhv edir…

Fənayə bir anlıq həzz üçün özünənəzarəti itirib hislərinə əsir düşən Sahil Əkbərliyə baxdı. Az öncə nəhəng və azman görünən Sahil Əkbərli, indi ifşa olunduğu üçün onun gözündə milçək kimi görünürdü. Milçəyin də bircə cəzası var; qoy bir də könül bulandırmasın deyə, əzib atmaq…

Fənayə soyuq bir səslə təklif etdi:

– Sahil müəllim, bəlkə şeirlərdən birini oxuyum…

Sahil Əkbərli dirçəldi. Pis vəziyyətdən çıxmaq üçün yaxşı məqam idi.

– Əlbəttə, Fənayə, heç kəs şairin şeirini özü qədər ürəkdən oxuya bilməz.

Fənayə «Daş nədir?» şeirini seçdi.

Qara rəngli yazı masasının üstündəki ağ mərmər parçasını bayaq – Sahil Əkbərlinin əlləri onun sinəsinə ilan kimi sürünəndə görmüşdü. Gənc şairə Sahil Əkbərlinin gözlərinə baxanda, nəzərində bir az əvvəlki mənzərə – onun sinəsinə ilan kimi sürünən əllər, üzünə zillənən həris baxışlar yenidən canlandı və qızın qəlbini dərin bir ikrahdan ibarət üzüntü bürüdü. Əlyazmaların arasından «Daş nədir?» şeiri yazılmış vərəqi götürəndə, ona elə gəldi ki, masanın üstündəki mərmər parçasını – ağır daşı götürür... Fənayə Sahil Əkbərlinin alnının ortasını gözaltı etmişdi…

– Başla, Fənayə, dinləyirəm, – Sahil Əkbərliyə elə gəldi ki, gənc qız nədənsə, şeiri oxumağa çəkinir. Əksinə, Fənayə heç nədən çəkinmirdi. İstəyirdi ki, «ölmüş» Sahil Əkbərli «dirilsin» və onun özünü necə aparmasına tamaşa etsin.

«Hələ ağlın başına gəlməyibmi?» – Fənayə xəyalən bu sualın cavabını ondan soruşmaq və son zərbəni endirmək qənaətində idi. O bilirdi ki, məqamı çatıb, gecikmək olmaz, şeiri oxumalı və çıxıb getməlidir.

Sahil Əkbərli öz yerinə keçdi. Kresloda əyləşən kimi, çiyinləri yenidən yuxarı qalxdı. Karvanbasan quldurlar kimi, Fənayəni gözləri ilə «yeməyə başladı». Fənayə də elə bunu gözləyirdi…

O, Sahil Əkbərliyə baxıb, ciddi şəkildə soruşdu:

– Daş nədir?

Sahil Əkbərli gülüb çiyinlərini çəkdi və əlavə etdi:

– Materiyanın bir parçası.

– Mənim gördüyüm daşın anlamı bir qədər fərqlidir, qulaq asın!

Fənayə oxumağa başladı. Şeirin məzmunu belə idi: Daş əcdadımız üçün silah olub, onu xilas edib, tarix səhnəsinə çıxarıb. Və sonra o daş zaman-zaman bəzilərinin vicdanına çevrilib…

İlk sətirləri eşidən andan Sahil Əkbərlinin dalağı sancdı. Bu nədir? Yoxsa, Fənayə onun obrazını cızır? Bəli, o, hədəfdə özünü görürdü. Kabinetin küçəyə baxan pəncərələri içərini tam işıqlandırsa

da, birdən Sahil Əkbərlinin gözünə qaranlıq çökdü, nitqi tutuldu. Onun yazı masasının üstünə düşmüş daz başının kənarlarındakı tüklər az qala adamın bəbəyinə sancılırdı. Fənayə «daşı» bütün gücü ilə büzüşüb yumağa dönmüş Sahil Əkbərlinin «gicgahına çırpmışdı». Şeirləri baş redaktorun gözünün qabağına – yazı masasının üstünə qoyub, qapıya doğru yeridi. Sahil Əkbərli handan-hana güclə:

– Fənayə… – deyə pıçıldaya bildi.

Qız ayaq saxlayıb, geri baxdı. Sahil Əkbərlinin dillənməyə halı yox idi. Gözlərində yazılanı isə yalnız Fənayə oxuya bilərdi.

– Sən necə qəddarsan!

– Qladiator döyüşünün fəlsəfəsi belədir.

* * *

Xəyalında iki adamla üz-üzə dayanan Fənayə, son günlər narahat düşüncələrdən sanki boğulur, əzab çəkirdi. Adamlardan biri qətiyyətli və inamlı görünən, geri çəkilmək fikrində olmayan Haris, digəri isə evlərinin yaxınlığındakı köşkdə lövbər salan qəzetsatan oğlandı. Ən qəribəsi o idi ki, Fənayə ona nəinki şans vermişdi, hətta ondan xoş üzünü, çoxuna səxavətlə payladığı təbəssümünü, gülüşünü də əsirgəmişdi. Bəs, görəsən, bu qəzetsatan oğlan indi haradan, nədən gəlib onun düşüncələri arasında yuva qurmuşdu?

Nəyə görə, xüsusilə indi, Harislə münasibətlərin kulminasiya nöqtəsinə yaxınlaşdığı vaxtda, şirin duyğularla yatağına uzanan kimi, qəzetsatan oğlanın inadkar sifəti canlanıb yuxusuna haram qatırdı? Fənayə onu kəskinliklə, açıq-aşkar sözlərlə rədd etmir, sadəcə, soyuq münasibəti ilə başa salmaq istəyirdi ki, necə gəlibsənsə, eləcə də çıx get. Mənim dünyamda sənə yer yoxdu. O isə çəkilib getmirdi. Fənayə heç onun kimliyini, dəqiq tərcümeyi-halını da bilmirdi. Həmin gün də – Sahil Əkbərli ilə «dueldə» qarşılaşdığı vaxt – Fənayə baş redaktorla son görüşünü «duel» adlandırırdı – onun gözlərinin önünə birinci bu qəzetsatan oğlan gəldi. O kabinetə gələn bu xəyalın Sahil Əkbərliyə necə nifrətlə baxması yadından çıxmırdı. Qəzetsatanın «burulğana düşən» Fənayənin halına acıması, xəyalən ona düz yol göstərmək istəyi aydın idi. Heç vaxt əsəbiləşməyən, həyatın hər hansı bir olayına gülüş və təbəssümlə cavab verən bu qızcığaz, indi başını divara çırpmağa hazır idi; təki, qəzetsatan oğlanın xəyalı başından, fikrindən qopub düşsün. Axı, kimdir o? Harislə rəqabətə davam gətirə bilərmi? Yox, özümdən başqa, heç kim mənim taleyimlə oynaya bilməz! – son qərarını verdi. Fənayəni üzən əsəbi düşüncələrin başqa bir səbəbi də vardı…

Fənayə dolaşıq, yozulması mümkün olmayan yuxu gördü. Adətən yadında əlvan boyalı, sanki adamı qanadlandırıb uçuran şirin yuxular qalırdı. Budəfəki

ayrı bir yuxu idi. Əvvəlcə körpə çığırtısı eşitdi, yüyürüb gördü ki, mamaça ağlayan çağanı ağ mələfəyə büküb göyə qaldırır. Qışqırdı. Uşaq onunkuydu, indicə doğmuşdu. Doğmaq necə də əzablıdır…

Budur, yataqda arxası üstə uzanıb. Fikirləşir ki, bu saat Haris ya qapıdan, ya da lap elə pəncərədən də olsa, keçib yanına gələcək. Qucağında da bir dəstə gül. Gül dəstəsini çarpayının bir qırağına qoyub körpəni qucağına götürəcək. Fənayə istəyirdi ki, qışqırsın, ona desin ki, «uşağı ehtiyatla götür, ətcəbaladı hələ, gözü də açılmayıb». Bu an mamaça uşağı vahimə ilə onun yanına atıb hövlnak geri çəkilir, yanındakı tibb bacılarına nə isə deyir. Onlar da dəhşətdən böyümüş gözlərilə Fənayəyə baxırlar. Fənayə gücünü toplayıb qalxır və körpəni yanından götürür. Çılpaq uşağa baxır. Qeyri-adi heç nə yoxdur. Uşağı bir az da yuxarı qaldırır. Vahimələnmiş mamaça, tibb bacıları bir-birilərini itələyə-itələyə küncə qısılırlar. Fənayə hətta mamaçanın – «Allah, sən saxla, bəlkə dünyanın axırıdır?» – sözlərini də eşidir.

Fənayə baş vermiş hadisənin qeyri-adiliyini anlayır; uşaq nə oğlandır, nə də qız!.. Gözləri onu aldatmır ki?.. Yox!.. Uşağı bir az da yuxarı qaldırır, gücü çatdığı qədər. Yox, elədir ki, var, bu uşaq deyil, ağır bir daşdı. Fənayə ayağa qalxır, amma daşı başı üstə saxlamağa gücü çatmır. Daş əlindən çıxır… Bu vaxt həmin qəzetsatan oğlan palatanın nəfəsliyindən qanadlı quş şəklində uçub içəri girir. Quş, daşı

tutmaq istəsə də, bacarmır. Daş Fənayənin ayağının üstünə düşür…

* * *

Zinayə çarpayıda narahat yatan Fənayənin sifətinə baxdı, bu doğma üzdə dəhşətli əzablar gördü. O, qan-tər içində idi, həmişəkindən fərqli olaraq yanaqları pörtməmişdi, əksinə, rəngi avazımışdı.

Zinayə yorğanı çəkib, qızı silkələdi. Fənayə gərgin yuxunun cəngindən güclə qopdu. Gözünü açıb bir neçə dəqiqə ətrafa, anasının üzünə key-key baxdı.

Zinayə onu bir də silkələdi:

– Qalx, ay qız, gün-günorta olub, bu qədər yatmaq olar? Camaat hamısı çimərlikdədir.

Fənayə qorxudan uçunur, ehtiyatla yan-yörəsinə baxır, baş verənlərin həqiqət, yoxsa yuxu olduğunu anlamaq istəyirdi.

Ayağını zorla sürüyüb səndələyə-səndələyə hamama girdi. Anası ardınca gəldi. Paltarlarını soyunmağa kömək elədi. Nəsə deyib, çıxdı. Fənayə duşun altında durdu. İlıq su bədənindəki üşəntini tədricən yuyub apardı.

Qız qurulanıb geyinənə qədər ana çay hazırladı. Fənayə dinib-danışmırdı. Anası onun xasiyyətini bildiyinə görə, sual vermir, heç nə soruşmurdu. Zinayə sən deyən elə narahat da deyildi. Bilirdi ki, bu, yetkinlik yaşına çatmış hər bir qızın başına gələ bilər.

Fənayə isə gördüyü yuxunun vahiməsindən hələ də tam xilas ola bilməmişdi. Şüuru yavaş-yavaş aydınlaşırdı…

Bu gün evdən çıxmaq fikri yox idi. Harisin qonaqlığına isə hələ bir neçə gün vardı. Artıq aydın idi ki, bu görüşdən sonra Harislə onu bir-birinə bağlayan qüvvə daha da güclənəcək və son həddə çatacaqdı. O, bu görüşə psixoloji cəhətdən özünü tam hazır hesab edirdi. İndi Fənayəni Harisdən heç kim ayıra bilməzdi. Bəs, o qəzetsatan oğlan?

Bəlkə də geyinib parka gəzməyə çıxar, ya da çimərliyə gedərdi. Əgər anası dönə-dönə tapşırmasaydı ki, indiki halında çimərliyə getmək qətiyyən olmaz.

Fənayə evdə başını qatmaq istəyirdi, alınmırdı, bərk darıxırdı, əsəbiləşirdi. İnadı və qüruru olmasaydı, Harisə zəng vurar, lap evə gəlməsini istəyərdi. Yaxud da onu götürüb bir tərəfə aparmasını tələb edərdi. Yox, o, bunu etmədi. Dözüm və inadına görə, Fənayə Harisdən heç də geri qalmırdı.

* * *

Lənət şeytana! Bu ki, odur, – qəzetsatan oğlan. Yolun kənarında dayanıb ona baxır. Kim bilir nə vaxtdan gözləyir.

Fənayə bir qədər saymazyana salam verib keçmək istədi, ancaq qəzetsatan onu qabaqladı:

– Salam, Fənayə xanım.

– Salam, – Fənayə qəzetsatan oğlanın məhz onu gözlədiyini bilsə də, özünü o yerə qoymadı. Addımını bir qədər yavaşıtdı, amma dayanmadı. Görünür, oğlan qəti fikrə gəlmişdi, ürəyində yığılıb qalmış sözləri elə bu gün açıb deyəcəkdi.

– Mən… – sözünün ardını gətirə bilmədi. Fənayənin dayanıb qəribə tərzdə gözünün içinə baxması, onu bir qədər karıxdırdı.

– Buyurun, nə sözünüz var? – Fənayə yumşalan kimi oldu.

Bu, oğlana cəsarət verdi:

– Sizinlə ciddi söhbətim var…

– Maraqlıdır, sizin mənimlə nə ciddi söhbətiniz ola bilər?

Qəzetsatan oğlan buraya qəlbinin hökmü ilə gəlmişdi və bilirdi ki, taleyi bu görüşdən asılıdır. Sövqtəbii hiss edirdi ki, artıq qəlbində çağlayan duyğuları gəzdirə bilmir. Eyni zamanda, son günlər Fənayənin keçirdiyi psixoloji gərginliyi də üzündən oxuyurdu və belə düşünürdü ki, qız da onu duyur, ancaq seçim etməkdə çətinlik çəkir.

Fənayə asta addımlarla yoluna davam etdi. Qəzetsatan oğlan onun yanınca yeriyirdi. Pərt idi, həyəcanını ört-basdır edə bilmirdi. İşin pis tərəfi o idi ki, Fənayə dayanacağa çatan kimi, avtobusa minəcəkdi. Məsələ yenə də yarımçıq qalacaqdı. Bir də ona yaxınlaşmaq imkanı Allah bilir, neçə aydan sonra olacaqdı...

Belə olmadı. Fənayə dayanacağa getmədi. Küçəni düz keçib, maşınların gur olduğu yerdən aralandı. Bir müddət heç biri dinmədi. Bu anda yəqin ki, hər ikisi öz könlündəkini götür-qoy edirdi. Fənayə düşünürdü ki, yaxşı oldu, indi hər şey həll olunar. Başqa-başqa aləmin adamı olduğumuz aydınlaşar və hər kəs öz sərhəddinə çəkilər. Bəlkə bundan sonra onun sirli, müəmmalı baxışları məni rahat buraxar…

Oğlan haradan və nədən başlayacağını götür-qoy edirdi: «Əvvəlcə adımı deyərəm, bəlkə heç bilmir?»

Fənayə şam ağacının kölgəsinə çatanda, dayandı. Günəşin istisi ətrafı elə yandırıb-yaxırdı ki, adamlar kölgədən qırağa çıxmağa qorxurdular. Qəzetsatan kürəyini şam ağacına söykəyib içini bürüyən həyəcandan yaxa qurtarmaq, düşündüklərini sözə çevirmək istədi. Oddan-alovdan keçən, heç nədən qorxmayan gənc, görəsən, indi nədən çəkinirdi?

– Danış, cavan oğlan, səni eşidirəm, – Fənayə əlindəki dəsmalla üzünü yellədi. Bununla da tələsmədiyinə işarə vurdu.

– Mənim adım Fədaidir.

– Birdən Fərari olar ha?

Oğlanın qaşları çatıldı:

– İnanmıram ki, siz mənə istehza edirsiniz.

– Yox, Allah eləməsin, zarafatyana dedim.

– Zarafatla desəniz də, məni incitdi. Çünki fərariləri görmüşəm.

– Bəlkə onları qovub tutmaq üçün arxalarınca qaçmısan da?

– Xeyr, qaçmamışam. Çünki mən qaça bilmirəm, topuqdan aşağı ayağımı mina dağıdıb.

Eşitdiyi xəbər Fənayəni sarsıtdı, peşmançılıq hissi duydu. Rəhm duyğusu onun içini qanatdı, özünü qınadı.

Və ən pisi o idi ki, bunu Fədai də hiss etdi. Ona görə də razılaşa bilməzdi ki, sevgisini açmaq istədiyi qızın ona yazığı gəlsin. Fədai istəyirdi ki, bu qız onun hislərinin təmizliyini duysun. Duysun ki, qəlbində onun könlünə yayda sərinlik, qışda hərarət bəxş edəcək təmiz, tükənməz bir sevgi bulağı var.

Fədai onsuz da əlil olduğunu, problemlərlə çarpışdığını Fənayəyə danışmağa hazır idi. Onunla ailə qurmaq, sevgisinə qovuşub ata olmaq, uşaq böyütmək arzusundaydı. Amma bu qısa dialoq Fənayəni ondan uzaqlaşdırırdı, arzularını sanki daşa çırpıb çilik-çilik edirdi.

Birdən Fədainin gözündə ildırım çaxdı. İsti hava axını yerini tufanla, boranla dəyişdi. Sanki heç Bakıda da deyildi. Hərbiçi yoldaşları ilə birlikdə Murovun o üzündə – kəşfiyyat rotasında düşmənin arxasına keçmək istəyirdilər. Hər an erməni «boyevik»ləri ilə qarşılaşa bilərdilər, amma qəlblərində qorxu hissindən əsər-əlamət yox idi, inamla addımlayırdılar. O vaxt komandirinin dediyi sözlər olduğu kimi qulaqlarında cingildədi: «Düşmənin əhatəsindəyik. Buna

baxmayaraq, qorxmuruq, çünki öz torpağımızdayıq. Gün gələcək, qızlar sizi cəngavər kimi qarşılayacaq, sizin arvadınız olmaqla fəxr edəcəklər. Sizdən doğduqları oğulların «ağzını qılınc kəsməyəcək». Həlak olanlar müqəddəs şəhidlik zirvəsinə yüksələcək. Şəhidlərin adları qoyulmuş uşaqlar onların ruhlarını yaşadacaq. Yaralananları, əlil olanları xalq gözünün üstündə saxlayacaq».

Müharibənin hər anı, istər döyüş günü olsun, istər adi, sakit bir gün, heç kim faciəli hadisədən sığortalanmış olmur. Bütün sakit anlar nisbidir.

…Təkadamlıq cığırın kənarında qar qurşaqdan idi. Yeddi nəfərlik dəstə tapşırığı yerinə yetirib, geri qayıdırdı. Hissənin yerləşdiyi əraziyə çathaçatda idilər. Təlimata əsasən, ehtiyatla yeriyirdilər.

Birdən ayağının altında boşluq hiss etdi. Pəncəsi bərk bir şeyə çatıb dirəndi. Deyəsən, dəmir idi. Fəhmlə hiss etdi ki, minanın üstünə çıxıb. Həmin an ayağını çəksəydi, qəlpələr özünü də, yoldaşlarını da tikə-tikə edəcəkdi. Ayağının altında təzyiq getdikcə artırdı, yoldaşlarını xəbərdar etdi. Onlar dərhal yerə uzandılar. Fədai də çuxurdan kənara sıçrayıb üzüüstə yerə sərildi.

Partlayışdan sonra yoldaşları yüyürüb onu yerdən qaldırdılar. Ayağının birini mina dağıtmışdı…

...İndi də Fədai ayağını yerə hirslə sıxmışdı. Sağ ayağı protez olsa da, o, ağrını tamlığı ilə duyurdu. Sonralar həkimlər deyirdilər ki, sən itirdiyin ayağı-

nın ağrısını uzun müddət hiss edəcəksən. Xüsusilə güclü soyuq, isti və nəm havalarda, bir də bərk əsəbiləşəndə…

İsti hava axını yerdən püskürüb adamın üzünü qarsır, sonra da qızıl yel kimi dünyanı başına götürür, aləmi təntidirdi. Ancaq yayın istisi vərdiş etmiş insanları çaşdırmır, işindən-gücündən ayırmırdı. Yaxından-uzaqdan ötüb-keçənlər, deyəsən, heç onları görmürdülər də. Bu, Fədaiyə sərf edirdi. Yoxsa, kimsə yaxınlaşıb nəsə soruşsa, gərək nəyisə izah edə, nəsə uydura, ya da qan qaraldan bir cavab verə.

«Bütün zamanlarda məhəbbətə mübtəla olan aşiqlərin pak hisləri istehza ilə qarşılanmışdır. Eh, bu aşıqlar da qəribə məxluqdurlar; gərək məhəbbət dərdə, ağrıya çevrilsin ki, böyüklüyünü dastan etsinlər, nağıla döndərsinlər. Bəlkə bu da bir hikmətdir. Bəlkə burada Allahın pozulmaz bir qanunu var ki, zaman-zaman insanları sevgi bəlasına düçar edir. Düçar edir ki, gələcək nəsillərə görk olsun. Bəs, indi necə olmalıdır? Belə çıxır ki, bizdən əvvəl öz sevgilərinin odunda yananlar canlarını boş yerə fəda ediblər. Əgər biz bu məqamda öz içimizdə qaynayan məhəbbətimizi görmürüksə, günahkar kimdir? Axı, sevgi bəlasına düçar olan aşiqlərdən söz açanda, onların yaşadıqları mühiti də, zamanı da günahlandırır, aşiqləri isə pak və günahsız hesab edirlər. Bizim hər ikimiz kifayət qədər həyat yolu keçmişik. Özümüz yaxşını pisdən, düzü əyridən, doğrunu yalandan seçə bil-

mək iqtidarındayıq. Belə olan halda, taleyimizi bəlalardan hifz edəcək xilas yolunu niyə görə bilmirik?»

Fikir, xəyal axını bəzən onu dağ çayı kimi ağuşuna alıb, ora-bura çırpa-çırpa aparırdı. Yolda bir kötüyə ilişməsə, girintili-çıxıntılı qayalara pərçim olub qalmasa, cəsədi dağ çayının ram olub sakitləşdiyi düzənliyə çıxacaqdı. Bəlkə bu düzənlik elə bir kimsəsiz yer olacaqdı ki, insanlar onun öldü-qaldısından xəbər tutmayacaqdılar. Onun cansız cəsədini didim-didim edən quşlar, bu cəsədi parçalayan yırtıcılar ağızlarında hansı dadı hiss edəcəkdilər? Görəsən, sevən insanla sevgisiz ömür sürən məxluqun ətinin-qanının fərqi varmı? İndi bu fərq haqqında düşünmək halında deyildi. Sadəcə, belə suallar beynində dolaşmaqla, məntiqi cavabını axtarırdı. Bu an isə onun düşüncəsinə tək bircə fikir hakimdi; Fənayədən ayrılandan sonra, işlədiyi köşkün sahiblərini tapıb haqq-hesabını alar və kəndlərinə qayıdardı. Kənddə bir qismət çörək də tapar, qoca anası onun üçün elçi gedərdi, bəxti də üzünə gülərdi. Kənddə kimin hansı yuvanın quşu olduğunu yaxşı bilirlər. Atası kasıb olsa da, el arasında hörməti vardı. Nədənsə, atasının müharibə vaxtı qışın soyuğunda, qarında durub Murova gəlməsini xatırladı. Ata-bala qucaqlaşıb uzun müddət bir-birinə heç nə deyə bilməmişdilər, handan-hana kişi dillənmişdi ki, ay bala, gəldim sənə deyəm ki, ehtiyatlı ol, düşmən gülləsindən özünü qoru.

Fədainin bədəni silkələndi. Zəif vücudu bu sürətli fikir axınının qarşısında davam gətirmirdi. Fədai istədi özünü qınasın, amma qız hələ son sözünü deməmişdi. Fənayə onu bəyənməyə bilərdi. Onu sevməyən qızı günahlandırmağa haqqı varmı? Deyəsən, keçmiş döyüşçü hər şeyi müharibə qanunları ilə ölçürdü. Belə çıxır ki, Fədailərin sevilməsi, dərk olunması üçün toplar guruldamalı, tanklar nərildəməlidir. Yox, həyatın sakit axarının yolu başqadır.

Fədai inanırdı ki, Fənayə ona biganə deyil, varlığında çağlayan təmiz, dumduru sevgi bulağını görür və onun heç vaxt bulanmayacağına inanırdı. Bəs, onda Fənayəyə mane olan nədir? Bax, keçmiş döyüşçüyə – igid kəşfiyyatçıya, güclü intuisiya sahibi olan Fədaiyə məlum olmayan bu idi. Fədai bu sualın cavabını axtarırdı…

Fədai, hər halda son sözünü deməyə özündə güc tapdı:

– Demək istəyirəm ki, sizin şəxsinizdə ideal bir insan təsəvvür edirəm. Bəlkə də, yanılıram. Göz namərd olur, insanı aldadır deyirlər…

– Demək, məni sevirsiniz.

– Hə, sevirəm.

– Evlənmək, ailə qurmaq istəyirsiniz…

– Əlbəttə.

– Məni arvadınız kimi təsəvvür edirsiniz?

– Bəli.

– Fədai, səni başa düşürəm. Mənə görə gəlinlik paltarı qəfəsdən başqa bir şey deyil. Mənim güclü qanadlarım var. Heç bir qəfəs inadımı qıra bilməz.

Bu anlarda Fədai qəzetsatan oğlana oxşamırdı. Xeyli vaxtdan bəri onu tərk etmiş cəngavərlik duyğusu təzədən varlığına hakim kəsildi.

Gərilmiş əlləri qəlbində kükrəyən qəzəbi güclə ram edirdi.

– Fənayə xanım! – Fədai xitabdan sonra sözünü kəsdi. Bir anlığa özünün tərcümeyi-halının qıza məlum olmayan tərəflərini – universitetin qiyabi şöbəsinin üçüncü kursunda oxuduğunu, yaxın vaxtlarda ixtisası üzrə işlə təmin olunacağını dilinə gətirmək istədi. Ancaq bunları demədi. Çünki başa düşürdü ki, qızın qəlbinə tamam başqa duyğular hakimdir. Onun sümükləri, əti, qanı, bir sözlə, bütün ruhu həmin o duyğuların üstündə köklənib.

– Siz nəsə demək istəyirsiniz?

– Artıq sözüm yoxdur. Cəbhədə olarkən komandirim deyirdi ki…

– Komandirin dedikləri hərb üçündür.

Bu gün Fənayə üçün də önəm daşıyırdı. Artıq ona aydın idi ki, keçmiş döyüşçü fağır və yazıq bir oğlan deyil. Sevgini sədəqə kimi istəmir. Ona qarşı açıq-aşkar rəğbət duysa da, etdiyi söhbətdən peşman deyildi. Ən azı bu təmiz oğlan indən belə ağrı və iztirablardan xilas olacaqdı. Fənayə onun gözlərinin içinə bax-

dı. Baxışları odluydu. Bu odun içində sayrışan dərin təəssüfü də görməmək mümkün deyildi. Başqa cür ola da bilməzdi. Çünki Fədainin atdığı eşq oxu daşa dəyib sınmışdı.

Fənayə:

– Sağ olun, icazə verin gedim, – dedi.

– Hara gedirsiniz?

– Cıdıra. Atların yarışı var.

Fədai bu sözlərin ciddi, ya qeyri-ciddi deyildiyinin fərqinə varmadan:

– Ayağınızı ehtiyatlı atın.

– Minalanmış sahə ola bilər?

– Bəli.

– Müharibə Bakıdan uzaqlardadır...

Hər hansı birinin ayaq saxlayıb yubanmağı çox çətin ki, nəyisə həll edərdi. Məsələ aydın idi. Ayrıldılar. Fənayə «Gənclik» metrosundan çıxıb şam ağaclarının arası ilə zooparka getmək istəyirdi. Futbol kassalarının yanından keçəndə, köhlən şəkli təsvir olunmuş afişanı gördü. Cıdır həvəskarları dəvət olunurdular. Şəkildə göy rəngə çalan at şahə qalxmışdı. Lap aşağıda isə cıdırın keçiriləcəyi tarix və saat göstərilmişdi.

Cıdır bu gün idi. Fənayə bayaq Fədai ilə danışanda, at yarışması məsələsini yalandan uydurmuşdu. Görəsən, bu xoş bir təsadüf idi, yoxsa tale onunla oyun oynayırdı? Bəlkə doğrudan da, cıdıra – atların yarışına baxmağa getsin?

Şahə qalxmış göy at cilov gəmirirdi, sanki çapıb dünyanın o başına getmək, azadlıq istəyirdi. Atın əzəmətli qüruru və eyni zamanda cilovunun yığılmasına qarşı etirazı Fənayəyə xoş gəldi.

Reklamçıların və fotoqrafın istəyi baş tutmuşdu. Çox vaxt həyatda belə olmur, şəkillərdəki romantika gerçəkliyə çevriləndə, adiləşirdi. Fənayə bunun fərqinə bilərəkdən varmırdı. Çünki təsəvvüründə canlandırdığı at obrazı onun ideallarına uyğun gəlirdi. O, insanı da belə görmək istəyirdi. Onun zənninə görə, insan, azadlığını, sərbəstliyini əlindən almağa can atanlara qarşı amansız olmalıdır. Şahə qalxmaq arzusu gözündə boğulan Fədai kimi…

Görəsən, ona qarşı çox amansız olmadı ki?.. Fədainin ləyaqətli oğlan olması öz yerində. Əsl sevgi ocağının alovlanması üçün ləyaqətdən etibarlı vasitə ola bilməzdi. Qızın azadlığını əlindən almaq düşüncəsi Fədai kimi oğlanlara yad idi.

Fənayə bunu bilirdi, bununla belə, Fənayənin bildiyi, dərk etdiyi başqa məsələlər də vardı. Fədai saf məhəbbəti ilə onu ömürlük ram etməyi bacarardı. Bax, Fənayəni qorxudan da elə bu idi. Yaxşı ata, layiqli ailə başçısı olmaq qisməti Fədainin üzündən oxunurdu. Fənayəyə isə ər yox, özü kimi azad, sərbəst, ehtiraslarının axarınca gedə bilən, onun qulu yox, bu daxili enerjidən güc alıb, həyata yuxarıdan baxan həmfikir, bir-birini tamamlayan güclü tərəfdaş lazım idi.

…At yarışması… Qız ata ad da tapdı: Güclü.

Güclünü görmək üçün cıdıra getməli idi. Fənayə həmişəki kimi yenə də əl telefonunu evdə unutmuşdu. Metroya enən pillələrin başında – keçidin qabağında gənclər əl telefonları ilə zəng etməyə müştəri çağırırdılar. İstədi Rahibəyə zəng etsin.

Telefonçu oğlana yaxınlaşdı.

– Buyurun xanım, istənilən rayona, MDB ölkələrinə, xaricə, haraya istəyirsiniz…

– Yaxşı, yaxşı, dünyanı bura tökmə. Sonra yerimiz olmaz qonaq saxlamağa.

Telefonçu oğlan da dilotu yemiş kimi söz altında qalmadı:

– Sizin kimi gözəlin pişvazına durmayan dünyanı zəlzələ dağıtsın!

– Elə demə, zəlzələ dünyanı dağıtsa, telefonunu itirərsən.

Telefonçu oğlan tutulub udqundu, bəlkə də unutmuşdu ki, bu telefon onun yeganə dolanışıq vasitəsidir. İki əli ilə telefondan yapışdı. Guya ki, indicə zəlzələ olacaqdı. Fənayəni gülmək tutdu. Ürəkdən şaqqanaq çəkdi. Telefonçu oğlan pərt oldu. Özünü itirdiyindən nömrələri də dəqiq yığa bilmədi. Axır ki, toxtadı.

– Alo, buyurun, xanım.

Fənayə:

– Rahibə, sənsən?

– Eşidirəm, Fənayə, səndən nə əcəb?

– Rahibə, «Gənclik» metrosunun yanındayam. Tez gəl, bu gün cıdır var. Atların yarışı, vaxta bir saatdan da çox var, gəl gedək.

– Bu sənin ağlına haradan gəlib?

– Gəl, maraqlı olacaq…

– Gözlə, gəlirəm. Əmimə də zəng vurum?

– Az aşın duzu deyilsən, a!..

Əlbəttə, Fənayənin fikrini bütün günü məşğul edən Harisə olan istəyinin indi də bütün varlığında tüğyan elədiyini danmağın yeri yoxdu. Amma adı kişi olan məxluqları sona qədər saf-çürük etmək bəlkə də qadının əsas vəzifəsidir. Bundan maraqlı nə ola bilər ki… Fənayə belə düşünürdü. Onun özünü tox tutmağı da elə bu səbəbdən idi. Əsl həqiqətdə isə o, demək olar ki, Harisin varlığı ilə nəfəs alırdı.

Heç yarım saat keçməmiş, onlar Fənayənin yanında idilər. Təzə, xarici maşınla gəlmişdilər. Harisin kefi göylə gedirdi. Fənayə Rahibə ilə öpüşüb-görüşdü. Onunla əl tutdu.

Fənayə birinci dilləndi:

– Hə, gedəkmi?

– Gedək, – Haris birinci cavab verdi.

Hər ikisi Rahibəyə baxdı. Rahibəyə elə gəldi ki, artıq adamdı. Hətta daxilən onlarla sonacan bir yerdə qalıb-qalmamaq məsələsini də çözələdi.

Fənayə onun ürəyini oxuyurmuş kimi:

– Yox, Rahibə, sən bizim yanımızda heç vaxt artıq deyilsən, – dedi.

– Əlbəttə, biz birik. Amma indi bilirsən nə düşünürəm?

– Nə?

– Əsl insan odur ki, başqalarının xoşbəxtliyini istəyir. Allah-taala belə adamlara ürəyinə görə verir.

Yaşca qızlardan böyük olan Haris, özünü yetərincə təcrübəli, ağıllı bilirdi. Amma indi bu gənc qızların yetkin insanlara məxsus mülahizələri onu təəccübləndirirdi. Yəqin yeni dövran, yeni həyat tərzi yeni insanlar yetişdirir.

Haris qardaşı qızı Rahibənin də, hər gün bir az da şiddətlə vurulduğu Fənayənin də ənənəvi həyat tərzindən imtina etmələrini anlaya bilmirdi. Görəsən, buna səbəb nəydi? Uşaq böyütmək əzabı, yoxsa kasıblığa düçar olmaq qorxusu? Axı, hər ikisinin valideyni pula pul demirdi. Bu qızlar valideyn qayğısına ehtiyac duymurdular. Haris qızını, onunla həmyaş olan bu qızlarla tutuşdurdu. Yox, onun qızı bu yolu gedə bilməzdi.

* * *

Bakı «İppodrom»unda Harisin on il əvvəl gördüyü qələbəlik olmasa da, tamaşaçı kifayət qədər idi. Neçə il olardı, buraya yolu düşməmişdi. Prokurorluq orqanlarında işləyəndə özü demiş, həmkarları ilə keflərinin duru vaxtında cıdıra gələr, ən yaxşı oturacaqlarda əyləşər, bir-biri ilə mərc gələr, sonra da uduzanın hesabına bütün gecəni «İnturist» mehmanxanasında kefə

baxardılar. Fənayənin cıdıra baxmaq istəyi onu sevindirdi. Doğrudur, Fənayə ilə görüşü «Satir» restoranında gözləyirdi, amma qismət ayrı şeydi. Lap yaxşı. Demək olmaz ki, Haris bu müddət ərzində Fənayə üçün darıxmamışdı. Hərdən qəlbində elə duyğular baş qaldırırdı ki, az qalırdı özünə nifrət eləsin. Xüsusilə, Fənayə ilə ilk yaxın təmasını unuda bilmirdi. Axı, Haris çox qadınla yaxınlıq etmiş, gənc qızlarla günlər uzunu vaxt keçirmişdi. Fənayənin odlu nəfəsi onu yandıranda, həmin çağa qədər bu qıza başqa kişi nəfəsi dəymədiyini düşünmüşdü. Qucağına sıxılarkən qızın titrəməsi, hədsiz həyəcanlar da bu səbəbdən ola bilərdi. Qeyri-adi təbiətə, fərqli xarakterə malik olan bu qız, bəlkə başqa birisi ilə xoşbəxt olacaqdı. Haris Fənayəni yoldan çıxarmaq, onu şirniklendirib tovlamaq niyyətində deyildi. Çünki Fənayə buna imkan yaratmamış, əksinə, öz hərəkətləri ilə Harisin simasında idealını tapdığına işarə vurmuşdu. Bir cəhət də Harisi qane edirdi; Fənayə Harisdən heç nə ummurdu. Onun saf duyğuları az qala mütləq dərəcədə təmənnasız idi. Harisin subay həyat keçirdiyini bilsə də, ya fikirləşirdi ki, hələ tezdir, vədəsi yetişməyib, ya da nə idisə, onunla evlənmək, ailə qurmaq barədə söhbət salmırdı.

Fənayə üçün oğlanla qız arasında, Sərrafla Sadiqə-sayağı münasibətin bir qara qəpiklik qiyməti yox idi. Onun fikrincə, bu cür münasibət insanın özünün özünə qarşı riyakarlığıdır. Sadiqə Sərraf üçün ölür, ürəyi gedir, ancaq onunla şəhərə çıxmağa cəsarət etmir. Bu-

nun nəyi yaxşıdır? Bu o deməkdir ki, sən Avropanın iki yüz il əvvəl gömdüyü adətin köləsisən. Əgər belədirsə, kimə lazımsan? Daha səni əvəz edən iksir də tapılıb. O, sənin yerinə bütün məsələləri həll edir. Bu iksir kapitaldır. Dəmir dabanıyla asta-asta yeriyən kapital… Əxlaqı, insan sevgisini, azadlığı qapısında qul kimi işlədən kapital… Kapital yeganə dəyərdir. Ondan özgə dəyər zəif insanların təfəkkürünün uydurduğu xülyadır. İnsan cəmiyyətində kapitaldan güclü yalnız və yalnız insanın ölümüdür. Amma bəzən kapital olmayanda, ən ləyaqətli insanın da meyiti ortalıqda qalır.

İndi isə pul bir çoxları üçün nəinki insaf, vicdan, hətta gözəllikdir! Aman Allah, indi adamlar pulu həm də namus, bakirəlik, müqəddəslik kimi qəbul edirlər. Pul çirkini qənirsiz gözəl donunda göstərməyə qadirdir…

Fənayə xəyalən Harisin qoluna girdi və pişik kimi ona sığındı…

Yer üzündə bundan qüdrətli nə ola bilər ki? Tanrının yaratdığına düzəliş eləmək ixtiyarı yalnız kapitala məxsusdur!..

* * *

...Çaparlar cıdıra hazırlanmış atları start yerinə gətirdilər. Haris ikisinin arasında əyləşmişdi.

– Hə, kiminlə mərcləşək, uduzan…

– Mənim mərcləşəcəyim adam hələ gəlməyib.

Rahibə bic-bic gülümsündü.

Fənayə atları bir-bir nəzərdən keçirir, şəkildə gördüyü göy rəngli Güclünü axtarırdı. Deyəsən, tapdı. Əli ilə çuluna «21» yazılmış atı göstərib dedi:

– O qalib gələcək!

Harisin də gözü həmin atı tutmuşdu. Bu at elə bil yerlə-göylə əlləşirdi. Üstündə də çəlimsiz bir çapar əyləşmişdi. Çapar nə qədər çəlimsiz olsa da, usta miniciliyi dərhal bilinirdi. Güclü onun qətiyyətli hərəkətlərinə tabe olurdu. Çapar sanki Güclüyə təlqin edirdi ki, sən qələbə üçün doğulmusan!

Haris başqa bir boz ayğır seçdi. Həmin at da gözəgəlimli idi.

Fənayə təklif etdi:

– Gəlin, atlara ad verək. Hə, necədir, mənim atım Güclüdür, bəs səninki?

Haris bu barədə düşünməmişdi:

– Ad nəyi həll eləyir ki? – soruşdu.

– Ad da taleyin qismətidir. Bəlkə də bütün canlılar öz adlarına uyğun yaşayırlar…

– Olsun, mənim atımın adı… – gerisini düşünməli oldu. Fikrindən keçirdi ki, bəlkə, elə öz adını desin: «Haris».

Fənayə onun çox düşündüyünü görüb dedi:

– Sənin atının adı Qismət olsun. – Haris də, Rahibə də güldülər.

Haris:

– Nə deyirəm, olsun.

* * *

Atlar Fənayənin gözünə güc-qüvvət rəmzi kimi görünürdü. Fınxırır, dartınır, cilov gəmirirdilər. Hər biri özünü göstərmək, daha güclü olduğunu sübuta yetirmək, bir-birilərini ötmək, sanki bununla da daha çox nəvazişə, mükafata, ənama sahib olmaq istəyirdi.

Bir azdan start işarəsi veriləcəkdi. İlk atəşdən sonra qabağa şığıyan atlar tale yürüşünə çıxacaqdılar. Finişə birinci çatan atın gücünün, məharətinin dürlü-dürlü keyfiyyətləri çözüləcəkdi. Bəlkə bir çoxları çaparın bacarığından söz açacaq, mütəxəssislər atların irsi keyfiyyətlərini yada salacaq, nəslin fərdi xüsusiyyətlərinin genlər vasitəsilə ötürülməsi barədə nələr, nələr söyləməyəcəkdilər.

Fənayə get-gedə Harisə daha çox sığınır, onun istisini, hərarətini öz canında dərindən hiss etmək istəyirdi.

Cıdır başlandı.

Fənayəni əvvəlcə sakit, bir az da laqeydcəsinə izlədiyi yarışın sonlarına doğru həyəcan bürüdü. Güclüdən qabaqda üç-dörd at vardı. Atlar xətlər boyunca inamla qaçırdılar, elə bil bu sürətlə dünyanın axırına çatmaq istəyirdilər. Üçüncü dövrədən sonra Güclü irəli çıxdı.

Dördüncü dövrədə onunla qulaq-qulağa başqa bir at, bir az geridə isə həmin boz ayğır – Qismət dördnala çapırdı. Finişə çatmaq üçün sonuncu dövrə-

ni vuranda, heç kimin diqqətini çəkməyən digər başqa bir at qabağa çıxdı. Güclü ilə onun arasında kiçicik bir məsafə vardı. Qismət qəfildən xətti kəsib Güclünün və onunla yanaşı çapan atların önünə keçdi. Ondan irəlidə bircə at vardı. Yarışın taleyini həll edən saniyələr yetişdi.

Elə bu zaman ən irəlidəki at büdrədi. Finişin bir neçə metrliyində baş verən bu dəhşətli hadisə uğultuya səbəb oldu. Qismət onun yanından ötüb-keçmək istəsə də, mümkün olmadı. Döşü irəlidəki atın böyrünə toxundu və aşdı.

Hadisə gözlənilmədən baş verdi. Tamaşaçıların bir-birinə çırpılan əllərinin şappıltısı güllə atəşi kimi ərşə qalxdı. Atlar uçuruma yuvarlanan sayaq, kəllə-mayallaq aşdılar. Çaparlar top kimi yumurlanıb kənara düşdülər.

Güclü iki yıxılan atın arasından demək olar ki, sivişib keçdi və finiş xəttinə özündən sonra gələn atdan bir an tez çatdı.

Tamaşaçılar qalibi alqışlamaq əvəzinə, baş verən hadisənin – toqquşmanın səbəblərini müzakirə edirdilər. Həmişə olduğu kimi, meydanın dünya standartlarına cavab vermədiyi, cıdır təşkilatçılarının yarışı başdansovdu təşkil etmələri mübahisənin əsas mövzusu idi. Çaparları qınayanlar, onların təqsirkar olduğunu deyənlər də vardı.

Harisin halı özündə deyildi. Qismətin boynu qırılmışdı. O biri atın da vəziyyəti ağır idi. Hadisəni

bəxtə yazmamaq mümkün deyildi; «at muraddır» – deyiblər. Bəlkə doğrudan da bu, sadəcə yarış deyildi, bəxt sınağıydı?

Rahibə rəngi ağarmış əmisini fikirdən ayırmaq üçün yüngülcə onun qoluna toxundu. Haris sarsılmışdı. Görəsən, qapısını döyməkdə olan bəxtin ona arxa çevirəcəyini ağlına gətirməsi qismətə fanatik inamın nəticəsiydi, yoxsa, seçdiyi yola qarşı daxilində tərəddüdlərin baş qaldırmasıydı? Bəlkə də qələbəsinə böyük inam bəslənilən, dördnala çapan atın boynunun sınmağı fövqəl bir xəbərdarlıq idi? Bunu aydınlaşdıra bilmirdi. Hər halda, baş verənləri yaxşı əlamət saymaq olmazdı…

Səsgücləndirici vasitəsilə baş vermiş hadisəyə görə, tamaşaçılardan üzr istədilər. Və qalib kimi 21-ci atın adı elan olunanda, gurultulu alqış sədaları cıdır meydanını başına götürdü. Tamaşaçıların çöhrəsində cəmi-cümlətani bir neçə dəqiqə bundan əvvəlki təəssüfdən əsər-əlamət qalmamışdı. Haris özünə gəlib, Güclünü alqışladı. Ona sığınan Fənayəni öpdü və təbrik etdi. Birlikdə cıdır meydanından çıxdılar.

Hələ hava qaralmamışdı, axşam sərinliyi adamın ruhunu oxşayır, sakitlik, xoş ovqat gətirirdi.

Yenə Fənayə birinci dilləndi:

– Mən sənin niyə belə sarsıntı keçirdiyini anladım.

– Fənayə, əzizim, hər birimizin qəlbində bəxtlə bağlı nəsə gizlənib.

– Ola bilər.

– Həmişə nəyəsə ümid bəsləyirik, bəxtimiz gətirəndə ümidimizin doğrulacağını güman edirik. Bu bəxt deyilən nədirsə, həmişə bizi izləyir. Özü də çox həssas, kövrək, yaxın bir dost kimi…

– Amma yeri gəldi-gəlmədi, bu həssas, kövrək, yaxın dost bizdən çox asanlıqla üz çevirir…

– Ən dəhşətlisi, həmin vəziyyətə insanın hər an hazır olmasıdır…

– Haris, mənə elə gəlir ki, bəxt mənəvi məsələdir.

– Demək istəyirsən ki, bəxt ağlın köləsidir, o ağıllı adamdan üz çevirməz? Bəlkə demək istəyirsən ki, bəxti idarə edən ağıldır?

Rahibə özünü saxlaya bilməyib müdaxilə etdi:

– Bəsdirin, yavaş-yavaş Allahın işlərinə də qarışırıq. Bəlkə atlar ən sadə bir səbəbə görə toqquşdu? Əsl günahkar çaparlar da ola bilər, ya da heç onların da günahı yoxdur.

– Müxtəlif səbəblər ola bilər. Məsələ onda deyil. Qəribə bir məqamsa səsgücləndirici ilə üzr istədikləri vaxt oldu. Təşkilatçılar hadisəyə görə təəssüfləndiklərini elan etdilər. Bu nəyə oxşayırdı? Baş…

Haris sözünün ardını gətirməmiş, Fənayə cavab verdi:

– Başsağlığına.

– Çox düzdür. Bəs sonra?..

– Sonra da heç nə olmayıbmış kimi, hamı hər şeyi elə oradaca unutdu.

– Məni də təsirləndirən budur. Cəmiyyətdə baş verən itki nə qədər ağır olsa da, insanlar tez barışırlar. Baş verənlərə qarşı laqeydlik elə bil insanın xislətindədir. Axı, niyə?..

– Zənnimcə, insan həyatın bütün gözlənilməzliklərinə hazır olmalıdır. İnsan bilməlidir ki, cəmiyyət əbədi karvandır. Cəmiyyətdə bir zalımlıq var. Bu zalımlıq həm də onun yaşam gücüdür…

– Belə çıxır ki, zalımlıq, qəddarlıq güc mənbəyidir?

– Xeyr, mən elə deməzdim. Zalımlıq ayrı-ayrı fərdlərdə ayrı-ayrı formalarda təzahür edir; ehtiras, məqsədə can atmaq…

– Hər kəs öz istəyinə çatmaq üçün mübarizə aparmalıdır. Təbii ki, bu mübarizədə həm qalib, həm də məğlub olanın kədərlənmək haqqı var.

– Bir sözlə, mənim kədərlənməyimə sən sevinməlisən. Çünki bugünkü mərci uddun, – Haris güldü, bununla da söhbəti bir növ yüngül məcraya yönəltmək istədi. Rahibə də güldü, Fənayənin də simasına təbəssüm yayıldı. Haris indicə duydu ki, bu qız artıq ruhu, varlığı qədər ona doğmadır.

Şam ağaclarının arasından keçən cığırla yanaşı addımlayır, hərdən bir-birinə baxırdılar. Gözlərindən hərarət yağırdı. Hər ikisinin qəlbindən «bu od-alovun aradakı kiçicik məsafəni yandırması» arzusu keçirdi. Haris Rahibədən həyalanırdı. Amma bu hissin mənasız olduğunu da dərk edirdi, elə adamlar var ki,

bir-biriləri üçün doğulublar və bir-birilərindən nə qədər uzaqda yaşasalar da, gec-tez həyat onları rastlaşdırır, görüşdürür, qəlblərində şərik duyğular oyadır. Kimisi buna sevgi deyir, kimisi ehtiras. Təəssüf ki, cəmiyyətdən çəkinmək, mənfur ictimai rəyə tabe olmaq bu insanların arasında səddə çevrilir və o səddən heç şübhəsiz ki, sinələrdə göynərtili bir yara yeri qalır. Əgər insanın etiraf gücü olsa, hansısa məqamda həlledici addımı atmadığına görə özünü ittiham etdiyini boynuna alar. Haris inanırdı ki, bu hisləri hər iki cinsdən olanlar – kişilər də, qadınlar da yaşayırlar. Ona görə də ictimai rəy adlı damğanın insan üçün buxov olduğunu hamı dərk edir. İndi kimlərsə onun bu fikrinə dodaq büzə bilər. Bu, ya həmin şəxsin riyakarlığı, ya da onun bir insan kimi hisdən, duyğudan məhrum olması deməkdir.

Haris sədləri birdən-birə aşıb keçə bilmirdi. Fənayəni götürüb öz evinə aparmaq istəyini güclə boğurdu. Hələ tezdir. Baxmayaraq ki, Fənayənin də ona doğru necə can atdığını görürdü. Fənayə indiyə qədər gördüyü qızlara oxşamırdı. Kimdir o? İnsanı saf diləklərlə, xoş duyğularla yaşamağa səsləyən müqəddəs sevgi ilahəsi, yoxsa ilahə donunda insanı düz yolundan sapdıran şeytan?

Haris şüuruna yol tapmaq istəyən ikinci fikri özündən uzaqlaşdırdı; o, elə bil suyun üstü ilə yeriyirdi, fəqət, bu dərin ümmanda nə üçün batmadığının fərqinə varmırdı…

Birdən Haris ona sığınan qızın isti nəfəsindən alovlandı. Vücudunu bürümüş ehtirasını cilovlaya bilməyib onu qolları arasına aldı. Fənayə müqavimət göstərmədi.

Xeyli aralıdan onlara tərəf boylanan Rahibə, bayaqdan bəri üzünü nurlandıran mənalı təbəssümlə uzaqlaşıb qeybə çəkildi. Sanki heç əvvəlcədən buralarda olmamışdı…

…Fənayə Harisin qolları arasından çıxanda, bayğın idi. O, məstlik və ehtiras nəşəsinin dumanında təkcə cıdırı görürdü. Gözləri meydanboyu şığıyan Güclüdə ilişib qalmışdı. İndi bütün həyat onun gözlərində cıdır idi; insanlar talelərinə doğru qaçır, bir-birilərini ötüb-keçməyə, lazım gəlsə, ayaqlamağa hazır idilər, təki, niyyətlərinə yetsinlər. Bu, kimin üçünsə tamah, kimin üçünsə sadəcə maraq, bir başqası üçün şöhrət və qənimətdir. Həmin cıdırda kimin ayaqlar altında qalmağının irəlidə və ya geridə qalanlar üçün əhəmiyyəti yox idi. Qismət hər kəsin öz əlindədi. Bu cıdır labirintdən keçib məqsədinə çatmaq üçün gərək fəhmin, zəkan və gücün olsun. Bəs, Güclünü qələbəyə çatdıran nə idi? Çaparın məharətimi, atın coşğunluğumu, yoxsa mükəmməl təlimmi?..

Suallara Fənayənin qəlbindəki zəngin duyğular cavab verirdi. Ağıl ürəyin cavabıyla dərhal və məmnunluqla razılaşırdı. Görəsən, Fənayənin qəlbini fəht edən atəş məhəbbətdirmi? Bunun sevgi olub-olma-

mağı mübahisə doğursa da, amma həqiqət olmağı yüz faizdi. Həmin od Harisin də varlığını bürümüşdü. Həqiqətə isə göz yummaq nadanlıqdır. «Güclü, – Fənayə bir az öncə düşünürdü, – mən sənin gücünün, ehtirasının mənbəyini anladım, yerdə çabalayan iki atın arasından necə keçdiyini isə gördüm. Bugünkü yarışdan sonra həyatı düzgün başa düşdüyümə bir daha inandım. Heç bir mənfur ölçü, meyar mənim azad düşüncələrimin qarşısına sədd çəkə bilməz…» Fənayə bu fikri son bir-iki ayda bəlkə yüzüncü dəfə idi ki, beyninin süzgəcindən keçirirdi. Bu, tərəddüdlərə son qoymaq deyildi. Gəldiyi qənaət heç də həyat yolunda büdrəmək, uçuruma yuvarlanmaq qorxusundan doğmayıb, sadəcə, nəyinsə əsiri olub qalmamaq üçün içində qıvrılan ilanı azad və sərbəst buraxmaq istəyi idi.

* * *

«Satir» restoranının həyəti dənizin ləpədöyənindən başlanır. İkimərtəbəli, Avropa üslubunda tikilmiş binanı memarlıq abidəsi saymaq olar. Əsas tikinti materialı kimi yerli daş işlənmiş, tağbəndlər, daş sütunlar, qonaqların dənizi seyr etməsi üçün münasib eyvanlar – hamısı təcrübəli usta əlindən çıxıb. Divarlarda qəribə rəsmlər çəkilib. İnsan burada, yalan olmasın, özünü eradan min il əvvəlki kimi hiss edir.

Cəngəllik və oradakı varlıqlar o qədər canlı, o qədər məharətlə çəkilib ki, restorana ilk dəfə yolu

düşən həyəcanını gizlədə bilmir. Hər dəhliz özgə sayaq bəzədilib. Əsas dəhlizin divarına qədim yunan mifologiyasından gəlmə personajların rəsmləri işlənib. «Satir» – yarımvəhşi mifik kişi yaxınlıqda olan yarımvəhşi ilahəni gözləri ilə «yeyir». Bir qədər irəlidə isə «ov» artıq onun ağuşundadır. İlahənin xumar gözləri süzülür. O, güclü qolların arasından «Satir»ə minnətdarlıqla baxır və bu həzzin ömrünü uzatmağa çalışır. Bir qədər aralıdan, cəngəlliyin arasından qorxa-qorxa boylanan nimfaların – yarımvəhşi qadınların həsəd və qibtə dolu baxışları ən qədim zamanın içindən bu günün adamına təsirli duyğular ötürür. Yaşamağın şirinliyi, həyatın mənası, sən demə, elə bu imiş. Bəs, onlar nə üçün qorxub bu cür şirinlikdən qaçırlar?

Əfsanəvi keçmişin əcaib-qəraib adamları, ehtiraslı, həris, sevgi dolu baxışlarıyla birgə dəhlizdə qalır. Dəhlizin təəssüratı xüsusi bir duyğusallıq və həzlə içəri, restoranın zəngin salonuna axır. Adamlar özlərində məhz başqalarına qismət olmayan məxsusi bir imtiyaz, üstünlük hiss edirlər.

Fənayə ilə Haris hamıdan əvvəl gələrək, pilləkənin ayağında dayanıb qonaqları qarşılayır, yuxarıya – ziyafət salonuna dəvət edirdilər.

Gömgöy dənizin dibsiz dərinliklərindən xəbər gətirən dalğaların ləngərli səsi restorandan qalxan musiqiyə qarışırdı. İnsan əli ilə yaradılmış gözəllik təbiətin ahəngini heç də pozmur, bura gələn hər kəs

ilk növbədə təbiətin bağrından və insanın barmaqlarından qopan melodiyanın ritminə heyran olub özünü unudurdu.

Harisin fikrini gözlərindən oxuyan Fənayə, gülə-gülə başını yellədi:

– Vallah, adam burada özünə qayıdır. İndi qayğılar, problemlər insanı ağır yük kimi sıxır, nəfəsini kəsir. Hamı çalışır ki, yükdən azad olsun, amma bacarmır, qayğı yükü ölənə kimi çiyinlərindən asılır. Ta ki, ruhu bədənindən uçur və o uçan ruh həmin dərd-səri, qayğıları da özü ilə aparır.

– İnsan xilas olur…

– Daha doğrusu, yükdən qurtulur.

– Məgər dərd-səri, qayğıları, dediyin həmin yükü özümüzlə gətirmişik dünyaya? Yox, insan pak və təmizdir. Bu yükü isə bizə həyat verib…

Haris Fənayənin məntiqini qiymətləndirdi:

– Ağıl dəryasısan, vallah!

Harisin dostları gəldi. Nəyinsə qaydasında olmaması barədə düşünmək yersizdi. Bu ziyafətə rəfiqələrinin qatılmasını çox istəyən Fənayə, bir qədər darıxdı. Tələbə yoldaşları isə gecikirdi.

Haris nəsə duydu:

– Nigaran qalma, Rahibə dedi ki, onlar bir yerdə gələcəklər.

Vədə vaxtı bitdi. Haris Fənayəni yuxarı – salona aparmaq istəyirdi ki, mikroavtobus restoranın həyətinə girib dayandı. Fənayənin tələbə yoldaşları

– Zaur, Faiq, Zahir, Rahibə, ən axırda isə Sadiqə ilə Sərraf endilər. Qızlarla öpüşüb-görüşən Fənayə, sevincini gizlətmədi. Zahir bir dəstə güllə Harislə Fənayəyə yaxınlaşdı:

– Bu toy bizi sevindirir…

Qızlar gülüşdülər:

– Zahir, bu toy deyil, ziyafətdir.

– Bağışlayın, elə ziyafət demək istədim…

Fənayənin yanaqları qızardı.

Sərraf tez dilləndi:

– Toyda bəy-gəlin xüsusi libasda olur. Gəlinlik paltarı, bəylik kostyumu…

– Sərraf, eşitmişəm toy paltarı axtarırsınız?

Sadiqə Sərrafdan bir qədər aralıda dayanmışdı. Qeyri-ixtiyari bir-birinin üzünə baxdılar və nədənsə, utandılar. Bu, Zahirin diqqətindən yayınmadı:

– Çaşıb ziyafətə toy deyən mənəm, daha siz niyə utanırsınız?..

– Utananın oğlu olmaz, – bunu da Rahibə əlavə etdi.

Restoranın ikinci mərtəbəsinə qalxdılar. Öz yerini tutan adamlar – Harisin dostları yeni gələnləri alqışladılar.

Harislə Fənayə bir masada, tələbə dostlar yaxınlıqdakı digər masada əyləşdilər.

Aparıcı ziyafətin şən keçməsi üçün tostlar deyir, musiqi nömrələrini az qala qışqıra-qışqıra elan edirdi. Əsl gənclik məclisi idi; zarafatlar, komplimentlər,

ləziz xörəklər… Bir azdan rəqs başlandı. Sakit, lirik rəqslər sanki ən dərin duyğuları melodiyaların köməyi ilə bəyan edən insanların xoşbəxt anlar yaşamasına yardımçı idi.

Harislə Fənayə ecazkar musiqinin sədaları altında bir-birinə sarılıb dünyanı unutmuşdular. Fənayənin indiki düşüncəsinə görə, Harislə o, nə zamansa ikiyə bölünmüş bir can imiş və tale elə gətirib ki, biri o birindən 20-25 il gec doğulsa da, yenidən tapışıblar. Həm də tale onları ona görə görüşdürüb ki, yerdə qalan insanlar onların timsalında xoşbəxtliyin nə olduğunu bilsinlər. Fənayənin fikrincə, bayaq foyedə gördüyü yarıminsan-yarımvəhşi personajlar xoşbəxtliyin təmsilçiləridir. Onlar öz hislərini yaşayarkən kiminsə qınaq yeri olacaqları haqqında düşünmürlər, çünki sərbəstdilər. Öz duyğularını gerçəkləşdirdikləri üçün kiməsə hesabat verməyəcəklər. Hətta əyinlərində libas da yoxdu.

Gəlinlik paltarı – bayaq həyətdəki söhbət yadına düşdü – kim düşünüb görəsən, bu bəmbəyaz qəfəsi? O bəzəkli, zər-zibalı qəfəsin vahiməsi ancaq zəifləri, cılızları qorxuda bilər. Bax, çiynimdən, belimdən yapışan əllər mənim üçün dünyanın ən gözəl gəlinlik paltarıdır.

Fənayə Harisin qoynuna sığınmışdı. İmkanı olsaydı, onun ürəyinin içinə girərdi…

Məclisin aparıcısı qonaqları şənləndirmək üçün dəridən-qabıqdan çıxırdı. Hər halda, onun təlxəkliyi

bəzilərinin ürəyindən olmasa da, əl çalanların, gülənlərin sayı çox idi.

Sərraf Sadiqəyə baxdı. Sadiqə onun könlündən keçəni – birgə rəqs etmək arzusunu gözündən oxudu. Sadiqə bilirdi ki, sabah Sərrafın anası onlara gələcək. Buna el arasında «ağızarama» deyirlər. Sərrafa qalsaydı, «ağızarama»ğa ehtiyac yox idi. Amma anası razılaşmırdı:

– Mən dağ boyda kişiləri yığıb birdən-birə qız evinin qapısına apara bilmərəm. Kəsilməmiş qarpızdı – nə bilmək olar? Allah özü işimizi avanda calasın!..

* * *

Sərraf üçün Sadiqə ilə hər görüş ən azı dünyanın sahibi olmağa bərabər idi. Bu öz yerində, amma indi duman içində görünməz olan salonda hər kəs öz aləmində idi. Bu dumanda Sərraf öz tələbə dostlarının necə sıxıntı çəkdiyini duyurdu. Görürdü ki, onlar darıxır, bu meşşan atmosferdə özlərini yad sayırlar.

Müasir dünyanın «sivil ənənə»si Bakının «Satir» restoranının qapısından içəri girərək nazlanan, kişi əllərinin təmasından xoşlanan sərbəst qadınları, qızları həzzin yeddinci qatına qaldırırdı.

Qadınların bu gecə «Satir» restoranına yığışmağı həmişə olduğu kimi, indi də işgüzar anlamda idi. Belə xanımları nə axtaran vardı, nə də harada gecələ-

diklərini soruşan. Bura gələn cütlərin üzünə mühitin açdığı başqa qapılar da vardı.

Harisin tay-tuşları qanun-qadağanın fərqində deyildilər. Yanlarındakı qadınlar da onlara görə Dubaydan, Türkiyədən, Avropadan gətirdikləri ucuz və ya bahalı mallar timsalında idi.

«Restoran mələkləri» iş adamlarının ixtiyarında olan şirkətlərdə çalışır, müxtəlif tapşırıqları yerinə yetirir, pul qazanır, gecə kefə baxıb istirahət etməyi də özlərinin qanuni haqqı sayırdılar.

Bu məclisdəkilər ayrı bir dünyanın adamları idi. Elə bu ziyafətdəcə gələcək ziyafətlərin vaxtını elan edənlər özlərini elə göstərirlər ki, sanki bu dünyanın bütün çətin, dolaşıq işlərini ağıllı başları ilə çoxdan çözüblər. Bir-biri ilə nəzakətlə davranır, eyni zamanda öz hərəkətləri ilə bu dünyanın təkcə onlara məxsus olduğunu ətrafdakılara təlqin edirdilər.

Sərraf yanından nazlana-nazlana keçən qadına baxdı. Deyəsən, hallanmışdı. Az qala Sadiqənin üstünə yıxılacaqdı. Əynindəki nazik koftanın yaxası döşlərinin üstünü güclə örtürdü.

Sadiqə dözmədi, heç kəsin eşitməyəcəyi bir səslə dedi:

– Sərraf, gedək buradan…

– Səbirli ol, məclis indi bitər.

– Axı, bura bizim yerimiz deyil…

– Başa düşürəm.

– Bunların üzündə abır-həya yoxdu…

Sərrafla Sadiqə bir-birini elə baxışlarından, sözsüz anlayırdılar. Sərraf Sadiqənin axırıncı fikirlərinə cavab olaraq düşündü: «Əvəzində bitib-tükənməz, lakin ucuz və mənasız əyləncələr qazanıblar». Sadiqə, sanki gördüklərinə tutarlı təsir etmək imkanı olmaması səbəbindən çarəsizliklə çiyinlərini çəkdi. Yaxın masalara sarı göz gəzdirib, açıq-aşkar qəriblik içində bir-birinə sığınan tələbə yoldaşlarına baxdı. Bircə Rahibənin kefi kök idi. O, rəqsə dəvət edənlərlə oynayır, deyib-gülürdü. Görünür, şampan şərabı onun da olub-qalan ağlını başından alıb, salonun tüstü-dumanında əritmişdi.

* * *

Ziyafət gec qurtardı. Tələbələr necəki birlikdə gəlmişdilər, elə birlikdə də getdilər.

Haris «Satir»dən Fənayə ilə qoşa çıxdı, maşını birbaş evinə sürdü. Əvvəlcə özü düşdü. Sonra hərlənib Fənayə tərəfdən qapını açdı. Fənayə Harisin ona doğru uzanan əlindən yapışıb maşından endiyi vaxt, qaranlıqdan aydınlığa çıxmış adamlar kimi özündə xoş ovqat hiss etdi. Qəribə bir yüngüllük bürümüşdü onu. İndi bu dünya ona nağıllardakı kimi görünürdü. Budur, qəfil peyda olan «sehrli zümrüd quşu qızı qırx arşın dərinliyi olan quyunun dibindən çıxarıb qanadlarına almışdı». Bu uçuş nə zamansa bitəcəkdimi?..

Haris bu dəfə maşını qaraja salmağın fərqinə varmadı. Nəzakətlə qızın qoluna girib pilləkənə sarı yeridi.

– Fənayə, xoş gəlmisən bizim kasıb daxmaya.

– Səni gördüyüm ilk gündən…

– Biz bir-birimiz üçün doğulmuşuq…

– Sən mənim azadlığımsan…

Haris qapını açmaq üçün kod nömrələrini yığdı. Qapı açıldı. Və qapının açılmağı ilə də işığın yanmağı bir oldu. Xoş musiqi sədaları otağa yayıldı…

…Fənayə sanki Harislə birgə sərin, sərt sıldırımlı dağların, sıx, yamyaşıl meşələrin üstü ilə uçurdu. Ağ parıltılı, zolaq-zolaq çayların dağların arasından necə keçib dəryalara qovuşmağını görürdü.

Bu, Fənayə üçün həmişə mücərrəd və əlçatmaz görünən səadət idi. Zümrüd ormanlar üstündə qanad çalarkən əsl səadətin nə olduğunu anlayan xoşbəxt cütlük çox ucadan uçurdu. Aşağıda canlı varlıqlar bir yana, sıx və yamyaşıl meşələr, dağlar nazik sapa bənzəyən ağ zolaq – əslində gursulu coşğun çaylar, güclə seçilən nöqtələr kimi görünürdü. Bu ilahi anlarında Fənayə üçün atası, anası, qəzetsatan oğlan, şeirlərini dərc etməyin əvəzində həzz uman Sahil Əkbərli, gəlinlik paltarı, Sadiqə, bəylik kostyumu geyinməyə hazırlaşan Sərraf, o biri tələbə yoldaşları, Rahibə – heç kim, heç kəs yox idi...

…Hələ də dəhlizdə dayanmışdılar. Haris:

– Bir dəqiqə burada dayan, – deyib içəri keçdi və an qədər qısa zamanda əlində boşqab, geri qayıtdı.

Fənayənin gözləri güldü. Əlbəttə, o təzəgəlin idi və hamı kimi, adətə görə, gəldiyi evin kandarında ayağının altına qoyulan boşqabı sındırmalı idi.

Haris boşqabı Fənayənin ayağının ucunda ağzı üstə çevirdi.

– Sındır, Fənayə…

– Bircə gəlinlik paltarım çatmır.

– Paltar olsa da olar, olmasa da. Əsas boşqabdı, sən onu qır ki, sevgimiz heç zaman sınmasın.

Fənayə ayağını qaldırdı. Bir an keçəcək və o, bircə zərbə ilə boşqabı çilik-çilik eləyəcək, yəni taleyinin xoşbəxtlik qapısını açacaqdı...

Birdən Fədainin dəhşətdən böyümüş gözləri boşqabın tən ortasından zühur etdi. Ayağını boşqabın üstünə bassa, qəzetsatan oğlanın sifəti parçalanacaq, dörd yanı qan və inilti bürüyəcəkdi…

Görəsən, o, bəxt güzgüsünü sındırmırdı ki? Deyilənə görə, hərənin bircə bəxt güzgüsü var. Və bu güzgü sındımı, bir daha bitişməz. Neyləsin?

Haris:

– Sındır, Fənayə, qorxma, gücün çatar, şüşədir. Özü də kövrək şüşədir, – dedi.

Haris Fənayənin qolundan yapışdı. Fənayə:

– İnan mənə, Haris, qorxuram. Üstümüzə dağılar.

– Ay qız, qan deyil ki, üstümüzə dağıla, şüşədir.

– Yox…

– Sındır, ürəkli ol…

Qolları belinə dolanmış Harisin nəfəsi boynunda-boğazında gəzdi.

Fənayə Harisin qucağında idi. Haris sınmış boş-qab qırıqlarının üstündən keçib, birbaş yataq otağına adladı…

* * *

Hava çoxdan qaralmışdı. Zinayə bayaqdan vərəq-lədiyi şəkil albomlarını jurnal stolunun bir küncünə qalaqlayıb pəncərədən bayıra baxırdı. Havanın qaral-mağını demək olar hiss etməmiş, başı fotoşəkillərə qarışmış, aradan neçə saatın ötməyindən xəbər tut-mamışdı.Bu axşam deyəsən, tək qalacaqdı. Qadirin evə nə vaxt gələcəyini bilmirdi. Oğlu Nadir isə sinif yoldaşlarından birinin ad gününə getmişdi. Gecə onlarda qalacaqdı.

Haris Fənayəgilə ziyafət verirdi. Qızının danışı-ğından anlamışdı ki, evə gec gələcəkdi.

Bərk darıxdı. Sıxıntıdan xilas olmaq xatirinə, rə-fiqələrindən kiməsə zəng vurub hal-əhval tutmaq is-tədi. Fikrindən daşındı. Çünki nə deyəcəyi, rəfiqəsi-nin ona nə cavab verəcəyi, nələri yada salacaqları – hamısı nöqtəbənöqtə bəlli idi. Deməli, bu da elə havayı işdi, çənə yormağa dəyməz, amma nəsə elə-məli, nə iləsə başını qatmalıdı. Bəlkə evə, otaqlara əl gəzdirsin? Axı, bu işə xidmətçi baxır. Gör neçə vaxt-dı ev işlərinə əli yatmır. Gəncliyində də ev-mətbəx iş-

lərinə kömək etmək ürəyindən olmamışdı. Təminatlı ailədə böyüdüyü üçün, çox vaxt evdə iş görməyinə lüzum qalmırdı. Qadir indiki şirkətə işə düzələndən sonra, onların dolanışıq tərzi bir qədər dəyişmişdi. Bir də gecənin bu vədəsi nə yır-yığış, iraq olsun, evdə can üstə olan xəstə-zad yoxdu ha?..

Zinayə evin içində qəfəsdəki dişi pələng kimi vurnuxurdu. Bir-bir otaqlara baş çəkir, başından müxtəlif fikirlər keçirirdi.

İndi bu dəbdəbəli saray, zəngin ev-eşik, var-dövlət qızıl teşt idi. Xatirə əşyalarının, zinət şeylərinin saxlandığı otağa girəndə, beyni dumanlandı. Gözünə dəyən əşyaların bir çoxu ayrı-ayrı vaxtlarda ona və əri Qadirə hədiyyə verilmişdi. Elə bu otaqdaca Zinayənin atasındanqalma qiymətli hədiyyələr və zinət əşyaları da saxlanılırdı. Bu dəyərli hədiyyələri sovetlərin hakimiyyəti dağılmazdan əvvəl müxtəlif rayonlarda məsul vəzifədə işləmiş atasına bağışlamışdılar.

Zinayə qızılla haşiyələnmiş güzgünü götürdü. Bu yadigar güzgünü Zinayəyə anası hədiyyə eləmişdi. Onda Fənayənin bir yaşı tamam olurdu.

– Fənayə gəlin köçəndə ona verərsən, – demişdi.

Zinayə ağır güzgünün qızıl haşiyəsinə əl gəzdirdi. Xəyalında Fənayə ilə danışdı:

– «Çox bahalıdır. Atamın işə götürdüyü bir nəfər hədiyyə vermişdi. «Raypo» sədri qoymuşdu onu. O vaxt əvəzsiz heç bir iş görmürdülər».

– «Ay ana, yaxşı ki, indiyədək saxlamısınız, bu doğrudan tamam xam qızıldır?»

– «Doğrudan… Sonralar satıb pul etmək istəsək də, ehtiyac olmadı».

Zinayə güzgünü əli ilə sanballadı. Elə bil ən azı otuz, qırx il əvvəl onların evinə gəlmiş əşyanın çəkisinin artıb-azalmadığını yoxlayırdı. Deyəsən, güzgü bir az da ağırlaşmışdı. Çilçırağın işığı o tərəf-bu tərəfə tərpətdiyi güzgüdə əks olunur, qızılın üstündə sınan şüalar hərdən gözünü qamaşdırırdı. Zinayə barmağını güzgünün üstünə çəkdi. Parlaq şüşədən bir cüt bəbək ona zilləndi. Gəncliyini, gözəlliyini tamam ötürməmiş bu qadının gözlərindən yağan ehtiras, güzgünün kənarında illərdən bəri dəyərini saxlamış, hələ bəlkə bir qədər də artırmış qızıla biganə idi. Ona görə, həyatın mənası həmin ehtiraslara cavab verəcək kişi nəfəsində idi. Bu isə artıq keçmişdə qalmışdı. Yox, Zinayə bununla barışmaq istəmirdi. Əynindəki ağ tül geyim onu xeyli gənc göstərirdi. Gəlinlik paltarına bənzər qiyafədə Qadiri yanında təsəvvür etmək istədi, alınmadı. Ləzzətli günlər keçirdiyi kişilərdən biri ilə burada, alışıb-yanan güzgünün qabağında qoşa dayanmağı arzuladı. Xəyali kişilərdən biri, ikisi… Onlardan heç biri duruş gətirmirdi, başqasıyla əvəzlənirdi. Hansı səbəbdənsə biri o birini vurub sıradan çıxarırdı. Bu Zinayəni əsəbiləşdirir, təntidib haldan salırdı. Az qala özünü, hərəkətlərini unudurdu. Hədiyyələrə yaxın düşüb, toxuna bilmirdi,

xatirələri təzələnirdi, bahalı qab-qacaq əlini, gözünü yandırırdı.

«Həyat nəyə görə bu qədər vəfasızdır, ilahi?!» Belə çıxırdı ki, onun üçün hər şey qurtarıb. Təkrar güzgünün qabağına keçdi. İşıqda parıldayan qızıl haşiyələr gözünü qamaşdırdı. Otaq ildırım işığına büründü. Atasının xəyalı yenidən gözünə göründü. Elə bil hər şey təzədən başlanırdı; o, beşikdə balaca körpədir. Kimsə güzgünü anasına verib deyir:

– Bəxt güzgüsüdü, Zinayənin ad gününə bağışlayıram.

Bir vaxt bu güzgünü hədiyyə edənlər bir ətək pulu qızıla çevirib güzgüyə haşiyə vurdurublar. Zinayə böyüdükcə, bu güzgüyə bəxt güzgüsü kimi yox, bahalı bir əşya kimi baxıb. O, ümumiyyətlə, bəxt deyilən nəsnənin fərqində deyildi. Əlbəttə, hər kəs taleyini özü yazır. Heç bəxtini də qınamır, çünki indiyəcən günü xoş keçib. Dostluq etdiyi kişiləri dəyişdikcə, iştahası daha da böyüyüb, ehtirası coşub-çağlayıb. Daha xoşbəxtlik nə təhər olur? Və həmin xoşbəxtlik Qadirlə birləşəndən sonra da davam edib. Qadir ölüvay deyildi, amma qadının qorxunc dərəcədə güclü olan şəhvani tələbatına cavab vermirdi. Həqiqət bu idi ki, Zinayə beş kişini bir gecədə yola verərdi. Canı belə istəyirdi. Tələbatını yerinə yetirmək üçünsə, hər tərəf cənub günəşindən güc almış od nəfəsli, həm də hallı-pullu, yaraşıqlı kişilərlə dolu idi. Bu qızıl güzgünün qarşısında çox da-

yanıb bəzənmiş, ləzzətli görüşlərdən geri dönərkən güzgünün önünə yenidən keçib demişdi: «Bu, elə əsl bəxt güzgüsüdür. Valideynlərimdən yadigardı. Mən də qızıma bağışlayacağam. Bu güzgü mənim bəxtəvərliyimə şahiddir».

Zinayə buna bənzər sözləri, Allah bilir, neçə dəfə həmin bu güzgünün önündə dayanıb ürəyində, bəzən dodağının altında pıçıldamışdı…

…Gecədən xeyli keçmişdi. Narahatlıq sovuşmur, Fənayə gəlib çıxmırdı. Ziyafət qurtarmış olardı. O, heç yerdə qalan deyildi. «Birdən gəlməz, iraq olsun»,– Zinayə düşündü. Ana qızının Haris barəsində neçə aydan bəri kəsilməyən söhbətlərini yadına saldı. «Axı, kimdi bu Haris? Boyu-buxunu necədi, nə xasiyyətdədi? Bəlkə cavanca qızları toruna salıb parçalayan canavarın biridi?» Axı, o, elə canavarları çox görmüşdü və məmnuniyyətlə həmin yırtıcıların şikarına çevrilmiş, bundan sonsuz həzz almışdı. İndi də qısqanc bir duyğunun təsiri altında istədi ki, yırtıcı, həris baxışlar onu gicitkən kimi dalasın: «Yox, sən çeynənmiş saqqız kimisən. Şəhdin-şəkərin çoxdan sovrulub».

Zinayə vurnuxurdu. İndi yadından-doğmasından asılı olmayaraq, gənc qızlar onun gözündə rəqibə çevrilmişdi. Çox qəribədi, həyatın bərkindən-boşundan çıxmamış bu uşaqcığazlar onu sıxışdırıb meydandan uzaqlaşdırırdı. Bəs, niyə onun həyat təcrübəsi – gördükləri, bildikləri karına gəlmirdi?

Elə bu güzgü şahid idi: ona dəfələrlə demişdilər ki, gözəlliyi, cazibəsi qırx-əlli yaşında, ondan sonra da olduğu kimi qalacaq. Bu gözəllik, bu həyat eşqi, bu qızğın ehtiras əbədi yanar dağı xatırladacaq. Bəs, indi niyə evdə şahid güzgü ilə təkbətək qalıb, üzüntü içindədi? Daha nə olmalıdı? Əri ola-ola təkdi. Hətta Qadir də gününü cavan qızlarla keçirir. Oğlu yeniyetmədi. Allah bilir, hara gedib. Hələ də evə gəlib çıxmayan Fənayə, nə zaman dönəcəyini bildirməyib. Yox, bütün bunların fərqinə varaydı gərək. Gərək ertədən bir əncam çəkəydi. Bəlkə də Haris onun «bəslədiyi gülü» saplağından üzüb? Yaxud ac bir canavar kimi körpə quzunu parçalayıb çoxdan…

Onun az qala hədəqəsindən çıxan, evin dörd bir yanını dolanan gözləri sanki günahkar axtarırdı. Günahkarı tapacaqdımı? Nə qədər zəngin olsa da, ev evdi, yəni bir qapı, bir neçə pəncərə və dörd divar… Qiymətli zinət əşyaları dəyərinə, ölçüsünə, yaraşığına, bir də insanların nüfuzuna görə sıralanmışdı. Bu əşyaları bir zaman ad günlərində, bayramlarda hədiyyə etmişdilər. Bəzilərinin sir-sifətini bu an göz önünə gətirmək də müşkülə dönmüşdü. Sanki onların varlığı Zinayənin həyatında yalnız o qiymətli əşyanın həcmi qədər yer tuturdu, vəssalam.

Bax, bu hədiyyənin sahibi isə unudulmayıb. Qadın onunla bağlı hər şeyi yerli-yataqlı xatırlayırdı.

O, heç hədiyyə verməsəydi də, elə indiki kimi yadda qalacaqdı.

Zinayənin üzü güldü. Bir vaxtlar xatirindən silinməyən o adam məktəb komsomol təşkilatının katibi idi və yuxarı sinif şagirdlərini yanına alıb ekskursiyalara aparır, dövrün dili ilə desək, fəal uşaqlara rəhbərlik eləyirdi. Zinayəni o biri uşaqlarla birgə Qız qalasına həmin komsorq apardı və ekskursiya zamanı o, Zinayəyə elə sözlər pıçıldadı ki, yeniyetmə qızın qəlbində goracan pozulmayan izlər qaldı.

Sonralar da komsorqu görürdü. Aralarında mehribanlıq vardı. Amma eşitdiyi anda qızın ürəyini titrədən «ilahi sözlər»in təsiri səngimişdi. Həmin gün Zinayə göylərdən gələn nəşəli kəlmələrin sehrinə uyub, bakirəliyindən məhrum olmuşdu. Və dünyada pisyaxşı hər şeyi yada salmaq istəyirdi, təkcə o hadisədən başqa. Biabırçılıqdan sonra Qız qalasının axşamlar «oda bələnən» hücrəsinə qalxıb intihar etmək istəsə də, gücü çatmamışdı, bal kimi şirin günlər, əyləncələr həya, abır meyarlarının üstünə qalın bir pərdə çəkmişdi. Eyş-işrətdən savayı, hər şeyi unutmuşdu. Və indi bir oğul, bir qız dünyaya gətirib böyüdəndən sonra, o vaxt nə üçün intihar etmədiyinə inana bilmirdi. Sadəcə… Başqalarını – keçmişə gömülən adamları qınamaq lüzumsuzdu.

Özünün özünə gülməyi tutdu. Deyəsən, məsələni şişirdirdi axı. Nə olub ki, cavan qızdı da, ya indilərdə gələr, ya da düşüb yoldaşlarından birigildə qalar. Na-

haq yerə özündən çıxıb. Bəlkə də, sabah qara-qura fikirlərinə görə xəcalət çəkəcək? Bütün hallarda günah da var, günahkar da… Kimdi günahkar? Nədir onu bir-birinə daban-dabana zidd olan iki vəziyyət arasına salan? Bir yandan da canını bürüyən heyvani ehtiras içini dağıdır. Qızını düşünür, o qızını ki, bugün-sabah gəlinlik paltarı geyinib ərə gedəcək. «İlahi, görəsən, onun qızını ərə köçürmək arzusu gözündə qalmayacaq ki?» Ana olan hər kəsi narahat edən sual budur… Başqası yox, məhz bu sual!.. Əgər ana öz qızına halal-hümbət bir gəlinlik paltarı geyindirə bilmirsə, ağzınacan dolu olan zəngin imarətin bir qara qəpiklik qiyməti yoxdu. Yoxdu… Yoxdu!

Birdən dərk etdi ki, bu qiymətli xəzinəni də, qızılla haşiyələnmiş bəxt güzgüsünü də versə, Fənayəyə gəlinlik paltarı geyindirə bilməyəcək. Gecənin keçdiyi bu anlarda gəlinlik paltarının qiyməti hərrac bazarında müştərisi çox olan matah malın qiyməti kimi qalxırdı.

Gecə keçir, Qadirə ərə getməzdən əvvəl kişilərin qucağında xumarlanmağı xəyalına gəlirdi. Düşüncələri bir az da qatılaşır, bütün varlığını sarsıdırdı. Yox, həyat heç nəyi ört-basdır eləmir. Hər nə var, əvvəl-axır faş olur. Zinayə ərini günahlandırıb, özünü qınasa da, nə özündə, nə də ərində əsaslı bir təqsir tapmadı. Bəs, onda?.. Bəlkə günah bu şahid güzgüdədir?.. Hər şeyi dilsiz, donuq baxışları ilə «danışır». Onun xoşbəxtliyinin

də, bədbəxtliyinin də yeganə şahidi budur. Günah nədi? Günah qızıl ilandı, sürünə-sürünə bu qızıla bələnən güzgünün «dibsiz dərinliyinə» girib. Bu güzgü zəhərli ilanların isti yuvasıdı.

Birdən… Zinayə hədsiz kədər və çarəsizlik içində hayqırtısını boğa-boğa ikiəlli yapışdığı güzgünü başı üstünə qaldırıb var gücü ilə parıldayan qızılı rəngli parket döşəməyə çırpdı. Zinayənin bir yaşından bəri ömrünə şahidlik edən güzgü – o güzgü ki, Fənayənin qızlar bulağından su içməsindən sonra həmdəmi idi – çiliklənib yerə töküldü. Güzgüyə yaraşıq verən qızıllar tikə-tikə olub işıq saçaraq otağın dörd bir yanına, künc-bucağa səpələndi. Ayaqları altında bərq vuran qızıllar utanırdı elə bil. Hirsi soyumadı. Əl atıb əynindəki ağ tül paltarın yaxasını cırdı və evin ortasında dəli kimi vurnuxaraq, hönkürə-hönkürə ağlamağına davam elədi.

* * *

Qohum-əqrəba razı qayıtmışdı deyəsən. Çünki çöhrələrdə təbəssüm, bəxtiyarlıq, uğurdan xəbər verən sevinc vardı. Həyatın uçmağa qanadı yox idi, üzü təzə açılmış qızılgül kimi alışıb-yanırdı. Bəli, «ağızarama» mərasimi uğurlu keçmişdi.

– Hə, ay ana, nə oldu, təzə qohumların ağzını aradın? – Sərraf soruşdu.

– Həyatı nə bilmişdin? Ay bala, dedilər elçilərinizi göndərin, böyük-kiçik var, necə məsləhət bilərlər, elə də olar.

– Sənə baxanda, bakılılar demişkən, fikirləşdim yəqin «həri» almısan.

– «Həri» almasaydım, daha elçilər lazım olmazdı ki? «Hərinin» buynuzu olmur ki, gördüyüm xoş üz elə «həri» deməkdir də. Allah xeyir versin!..

Sərraf və Sadiqə… Qovuşan iki könül… Qohumlar, tanış-bilişlər, tələbə yoldaşları öz doğmaları kimi onlara ehtiram duyur, gənclərin xoşbəxtliyi, səadəti naminə xeyir-dualar verirdilər. «Ağızarama» mərasiminin baş tutduğu axşam, gecədən xeyli keçmiş isə iki evdə, iki ana, iki övladla diz-dizə əyləşib pıçıldaşır, ana dodaqları övlad alnına şəfalı öpüşlərdən sanki möhür vuraraq səadət diləyirdi…

* * *

Gecənin elə o vədəsində Haris yataq otağında qırmızı qana bulaşmış ağ mələfəni büküb-bürmələyib hamamda bir yerə qoymağa tələsdi. Halsız düşüb qalmış Fənayə onun hərəkətlərinə biganə idi.

* * *

Gecə yarıdan ötmüşdü. Fədai oyaq idi. Vurnuxurdu. Sanki canını qoymağa yer tapmırdı. Gərəksiz

yerə otaqdan otağa keçir, eyvana çıxır, heç dinib danışmırdı. Anası da yatmamışdı və təbii ki, oğlunun hərəkətlərinə göz qoyurdu. Fədainin haldan-hala düşməyini də, narahatlığını da, içində nə isə ağır bir dərd daşıdığını da duyurdu. Amma ondan bir söz soruşmaq istəmirdi. Çünki Fədainin ürəyində çəkdiklərini açıb-ağardacağına gümanı gəlmirdi. O, uşaqlıqdan qapalı idi, qəlbindəkini anasına da bildirmirdi.

Fədai Bakıda doğulmuşdu. Atası neft mədənlərində fəhlə işləmiş, iş yerində zədə aldığına görə təqaüdə çıxıb kəndə qayıtmışdı. İki qardaş, bir bacı idilər. Bacısı çoxdan ev-eşik sahibi olmuşdu. Rusiyada yaşayan qardaşı isə uzun illər ərzində yalnız bircə dəfə evlərinə gəlmişdi – atasının ölüm xəbərini eşidəndə. Qırx mərasimindən sonra anasının və Fədainin yalvarışlarına baxmayaraq, yenə çıxıb getmişdi. Deyilənə görə, orada evlənib ailə-uşaq sahibi idi. Hərdən anasına pul göndərirdi.

Anası isə təzədən yığışıb Bakıya qayıtmış və bütün ümidlərini Fədaiyə bağlamışdı. Tez-tez deyirdi ki, evlənmək vaxtındır, bir halal südəmmiş tap, ailə qur. Nəyimiz kəmdi ki, Allaha şükür, bir tikə çörəyimiz var.

Nəvazişlə deyilən bu sözlər Fədainin ürəyinə xəncər kimi sancılırdı. Elə bil bir zaman canından çıxarılmış, yeri çoxdan sağalmış qəlpələr təzədən bədəninə dolur, bütün varlığını yenidən o dəhşətli ağrılar bürüyürdü. Yenə içində həmin ağrı, eyvandan

baxdığı an Bakı öz gecə həyatını yaşamaqdaydı. Nəhəng marketlərin reklam işıqları yanıb-sönür, seyrəkləşən müxtəlif markalı maşınlar işıqlı küçə boyunca ora-bura şütüyürdü.

Fədaini tənhalıq üzüb əldən salırdı. Arada anasının isti əli çiyninə toxundu, nəfəsi boyun-boğazına dəydi, amma o, yenə susdu, dilini tərpədib bir kəlmə demədi, içini yandıran «od içində alovlanıb» durdu.

Fədai axşamtərəfi Fənayənin köşkün qarşısından keçib getdiyini görmüşdü. Bəs, nədən o, geri dönmədi? Çox gözlədi, hətta köşkü həmişəki vaxtdan ən azı iki saat gec bağladı. Sonra Fənayəgilin yaşadığı evin həndəvərinə hərləndi. Ətrafdakı binalardan xüsusi memarlığı ilə seçilən ev, xarici filmlərdəki villalara bənzəyirdi. Fədai hasarın yanındakı çirkli su gölməçəsindən ehtiyatla adlayıb binaya yaxınlaşmaq istədi. Bir qədər aralıda gözünü həyət darvazasına zilləyib dayandı. Bu yuxu idi, yoxsa həqiqət – indiki məqamda Fədai ayırd edə bilmirdi. Əgər həqiqət idisə, o nə üçün bura gəlib, niyə qürurunu sındırıb? Axı, o, güllə qabağına gedəndə gözünü qırpmamışdı. Gözləri önündə həlak olan dostlarının hər birinin əvəzinə ölməyə hazır idi. Onun saf duyğularını qiymətləndirə bilməyən, sevgisini anlamayan Fənayədən ötrü nə üçün nigaran olmalıdı? O kim, Fənayə kim? Nə üçün ixtiyarını əldən verib? Atasının ruhu dolaşan, qardaşının xatirələri yaşayan bu evdə içini parçalayan düşüncələrini anası ilə necə bölüşsün?

Bölüşə bilərdimi? Fikirlərini ifadə eləməyə gücü çatardımı? Anası deməzdimi ki, sən yolunu azmısan, o sənin tayın deyil, yaxşı düşün?..

Şəhər kənarında torpaq sahəsi alıb ev tikdirmək o qədər də çətin deyildi. Xüsusən Qarabağ müharibəsi iştirakçılarına hər cür şərait yaradılırdı. Pisdən-yaxşıdan kömək göstərirdilər. Fədai təbiətən inadkar, daxilən güclü, enerjili bir gənc olduğu üçün kasıbçılığı ilə barışmır, xəyalında planlar cızırdı. Tezliklə ali məktəbi qurtaracağına, cəmiyyətdə öz layiqli yerini tutacağına inanırdı. Bulaq kimi içində qaynayan bu inam, ilk baxışda əlçatmaz görünən arzulara doğru gedən yolda ona bələdçilik edirdi. Özü də Fədainin bu arzuları daha çox Fənayəyə bəslədiyi münasibətdən sonra baş qaldırmışdı.

Hərdən Fədai düşünürdü, bəlkə düz yol seçməyib? Fənayə ilə başqa-başqa mühitin adamıdırlar? Onların ulduzu barışa bilməz. Lakin tez də bu fikri başından qovub uzaqlaşdırırdı. Çünki Fənayənin gözlərində həyata məhəbbət, saflığa, təmizliyə hörmət və ehtiram görürdü. Ən çox da onun hislərini alovlandıran Fənayədəki qürur idi. Fədai fikirlərində yanılmırdı. Ancaq o bilmirdi ki, Fənayə özünü cəmiyyətin yox, təbiətin bir parçası sayır. Təbiətin isə öz qanunları var – güclü gücsüzü məhv edir. Fənayə də öz növbəsində Fədainin qəlbindəkilərə bələd idi. Oğlanın hər cür yüngül hərəkətdən uzaq olduğunu bilirdi.

Fədai xəyalında ikinəfərlik, əlbəttə, özü və Fənayə üçün bir saray tikmişdi. Elə bu gün Fənayənin evə qayıtmamağı ilə dağılıb yerlə yeksan olan bu sarayı xilas etməyə Fədainin gücü çatmırdı. Murovda düşmənlə əlbəyaxa olmağa nə vardı? O vaxt Fədai yaralanmışdı. Düşmənin isə qolu üzülüb düşmüşdü. Hər ikisi çoxlu qan itirmişdi. Fədai ayaq üstə dura bilmədiyinə görə, ikiəlli düşmənin boğazından yapışmağa məcbur olmuşdu. Qəfil yaralı ayağına güclü təpik dəymişdi. Dəhşətli ağrıdan gözlərinə qaranlıq çökmüşdü. Az qala huşunu itirəcəkdi. Var gücünü toplayıb bir ayağı üstə qalxmış düşməni möhkəmcə xırxalamışdı, çox çəkməmiş, hər ikisi kökündən qopmuş ağac kimi tirtap yerə sərilmişdi.

Döşəli çul kimi düşüb qaldıqlarından nə qədər müddət keçdiyini bilmirdi. Bizim əsgərlər döyüş səngiyəndən sonra onu düşmən səngərindən huşsuz halda tapmışdılar. Barmaqlarını erməni əsgərinin xirtdəyindən güc-bəla ilə ayıra bilmişdilər.

Fədai ölümlə pəncələşdiyi o ağır məqamı, yalnız Allahın mərhəməti sayəsində sağ qaldığını heç cür unuda bilmirdi və deyirdi ki, «əcəl gücümü görüb, bir daha üzünü mənə sarı çevirməz». Bəs indi uçmaqda olan könül sarayını niyə xilas edə bilmirdi? Harada idi onun qollarının gücü?

Pərvanə xala oğlunun pərişanlığına dözə bilməyib dedi:

– Fədai, oğul, qurbanın olum, bu nə haldır düşmüsən?

Bu səs Fədainin dumanlı şüurunu işıqlandırdı. Haradansa, sanki fövqəl bir uzaqlıqdan əlini anasına sarı uzatdı. Ana-bala qucaqlaşdılar. Pərvanə xala canında bütün ruhunu silkələyən ağrı duydu. Bu, övladını dünyaya gətirdiyi anlarda keçirdiyi ağrıya bənzəyirdi. Həmin ağrı nə qədər doğma idi. Yanında qışqıran qadınların – «oğlandır, adını kim qoyacaq?» – sözlərini də aydınca eşitdi. Pərvanə xala elə bil oğlunu təzədən dünyaya gətirirdi. An həmin an idi, canlı-cüssəli Fədai onun qucağındakı həmin körpə idi – doğulurdu…

Otağa keçib köhnə, yanları süzülmüş divanın üstünə çökdülər. Pərvanə xalanın içini sarsıdan, dabanından saçınadək yayılan ağrı ötüb-keçdi. Hiss etdi ki, Fədai də özünə gəlir.

– Gecdir, ay oğul, get yat, dincəl. Sabah işə gedəcəksən. Yenə heç olmasa, bir tikə çörək pulun çıxır, kimsəyə minnətimiz yoxdur.

Qəlbinin dərinliklərindən baş qaldıran duyğular sanki ona pıçıldayırdı ki, narahat olmağa dəyməz. Anasının onunla birgə bu gecəni iztirabla keçirməsini də istəmirdi.

Pərvanə xala yenə təkrar etdi:

– Gəl, ay oğul, gecə keçir, hamı yatıb. Binada bizdən başqa oyaq olan yoxdur.

İstədi desin ki, yox, ay ana, şəhərdə yatmayan çoxdur. Bəlkə də bu şəhərdə oyaqlar yatanlardan çoxdur.

Heç nə demədi.

* * *

Zinayə telefonun zənginə ayıldı. Huşu özünə gələndə yavaş-yavaş anlamağa başladı ki, əsəbindən güzgünü yerə çırpandan sonra özünü bilməyib, bayılıb. Daha sonra isə yuxuya gedib.

Divardakı saat 4-ü göstərirdi. Səhərə az qalırdı.

Zinayə dəstəyi qaldırdı. Ərinin bir qədər boğuq və yorğun səsi eşidildi:

– Zinayə, yatmamısan?

– Necə bəyəm?

– Mən bu gecə gələ bilməyəcəyəm. İşimiz çoxdur.

Zinayə çaq-çuqla etirazını yox, sanki istehzasını bildirən divar saatına baxdı:

– Gecə qurtarır ki, ay Qadir.

– Necə yəni, gecə qurtarır?

– Saatdan xəbərin var?

– Gör başım necə qarışıb…

Qadir telefonu söndürdü. Zinayəyə elə gəldi ki, bütün ev – görünən, görünməyən nə varsa, hamısı qəhqəhə çəkib güldü. Zinayə qulaqlarını tutub gizlənmək üçün yer axtardı. Elə bu vaxt ağlına belə bir fikir gəldi: «Bəlkə o, dəli olur? Bəlkə Allahın ona qəzəbi tutur? Bəlkə qızının bəxt güzgüsünü sındırdığına görə, günahı üzünə durur?..»

Müəmmalı suallar bitib-tükənmirdi. Zinayə üstünə gələn divarların qəhqəhəsindən baş götürüb qaçmaq istəyirdi. Bir yandan da bu sualların əlində

aciz qalmışdı, girinc olmuşdu. Beyni, düşüncəsi iradəsinə tabe olmurdu. Fikirləri bir-birinə qarışır, uğultuya çevrilib Zinayəni otaqdan-otağa qovurdu. «Sizi lənətə gələsiniz, Allah qənim olsun hamınıza!» – ancaq bu məqamda onun kimi qarğıdığını soruşan olsaydı, yəqin ki, cavab verə bilməyəcək.

* * *

«Satir» restoranını «cənnət» adlandırırdılar. Qadir gecəni burada keçirmək istəyirdi. Özü də tək yox. Tapdığı qızla aralarında otuz yaş fərq vardı. Yuxarıya – ikinci mərtəbədəki salona getməyi qız təklif etsə də, Qadir razı olmadı, çünki gündüzdən ona demişdilər ki, bir keçmiş prokurorluq işçisi bu gecə həmin salonda dostlarına qonaqlıq verəcək. Prokurorluq işçisinin kimliyi ilə maraqlanmağa imkan olmamışdı. Onsuz da sabah bütün qonaqlar barədə ən səhih məlumatlar ovcunun içinə qoyulacaqdı.

Qadir məmnun idi. O, xudmani istirahət edəcək, qəsdinə dayanmış, mənliyini əzib tapdamış dünyadan bu yolla qisas alacaqdı. Deyəsən, o, çoxdan itirdiyi duyğularının, hislərinin arxasınca düşmüşdü. Arvadına zəng edəndə də vaxtın necə keçdiyinin fərqinə varmamışdı.

Qız dilləndi:

– Arvadın soruşmadı?

– Nəyi?

– Harada olmağını?

– Yox, soruşmadı. Bizdə belə problem yoxdu.

Qadirin fikrindən keçdi ki, qızdan soruşsun: «Bəs, sizdə necə?» Lazım bilmədi. Çünki qız bir dəfə demişdi ki, xırda söz-söhbəti problemə çevirməyi xoşlamır və bu cəhət ona valideynlərindən keçib…

Televizorun pultunu götürüb gecə kanallarında göstərilən verilişləri nəzərdən keçirdi. Kanallardan birində zəngin toy hədiyyələri satılan nəhəng «Centlmen» mağazasının reklamı verilirdi. Qızıl qolbaqlar, boyunbağılar, bir sözlə, daş-qaşlar göz qamaşdırırdı. Qız yaxınlıqdakı stolun üstünə yığdığı qızıllarına baxıb kanalı dəyişmək istədi. Həmin vaxt ekran boyu bir-birini əvəz edən gəlinlik paltarlarının reklamı başladı. Gənc qızın ruhu ağ libasların yanına uçdu. Birbirindən gözəl gəlinlikləri nümayiş etdirən modelyerin yerində özünü görmək istədi.

Xoşbəxtliyin gəlinlik paltarında təzahürü – reklamın sözlə ifadə olunan mənası onu yandırıb-yaxdı, sinəsi alışdı, od tutdu. Uzun ayaqları çarpayının aşağısından qulliversayağı sallanan Qadir, qızı özünə tərəf çəkmək istədi: «Nəyinə lazımdır? Sən ki, onu geyinməyəcəksən!». Qızın rəngi avazıdı, varlığı sarsıldı.

Qadir təəccübləndi. Baxışlardakı nifrəti aydın duydu.

* * *

Bakının yay gecələri gözəl olur. Elə bil həyat təzədən başlayır.

Gündüzün istisində boğulan adamlar, heç olmasa, axşamın sərinliyində rahat nəfəs alsınlar deyə, küçələrə axışırlar.

Tələbə dostlar kirayələdikləri mikroavtobusdan «Elmlər Akademiyası» metrosunun qarşısında düşdülər. Dinib-danışmırdılar, elə bil heç şənlikdən – ziyafətdən gəlmirdilər.

Zahir, Zaur və Faiq eyni qrupda oxuduqları kimi, elə eyni mənzildə də kirayə qalırdılar. Yarızirzəmi otağa yazı stolu, üç stul və üç çarpayı güc-bəla ilə yerləşmişdi. Hər üçü hələ qəbul vaxtı tanış olmuş və bir yerdə qalmağı qərara almışdılar. Yataqxanada qalmaq istəsələr də, mümkün olmamışdı. Çünki universitetin yataqxanaları qaçqınlar tərəfindən tutulmuşdu.

Hərdən mübahisələri az qala dava-dalaşa gətirib çıxaran söz-söhbətləri də olurdu. Amma bu söz-söhbət yaz yağışı kimi iz qoymadan ötüb-keçir, incikliyə çevrilmirdi. Qrupda onlara çox vaxt «üç müşketyor» deyirdilər. Sonradan bu mehriban üçlüyə qoşulan Sərrafı isə «Dartanyan» deyə çağırırdılar.

Əyalətdən gəlmiş bu oğlanlar, əvvəl-əvvəl şəhərin ictimai nəzarətdən kənar azad həyatı ilə barışa bilməsələr də, yavaş-yavaş alışırdılar. Xüsusilə son illərdə Bakı onların gözlərinin qarşısında dəyişirdi. Yeni tikilən binalar, xarici maşınlar, dəbdəbəli reklamlar

şəhərin siması ilə yanaşı, adamlarının mənəviyyatına da təsirsiz ötüşmürdü. Latın Amerikası ölkələrinin, Qərbin geyim-kecimi, zəngin güzəran, bütün bunlarla bərabər, yabançı adət-ənənələr də bu şəhərin bir çox sakinlərinin mənəvi dünyasına «əl gəzdirir», yeni qaydalar, dəblər işə düşür, yeni yaşam tərzi əksəriyyəti özünə tabe edir, hətta gözünün, saçının və dərisinin rənginə qədər dəyişdirirdi.

Zahirgil jurnalist olacaqdılar. Açıqca görürdülər ki, xalqın tarixi ənənələri, mentaliteti haqqında müəllimlərinin söylədikləri ilə həyatın reallıqları ziddiyyət təşkil edir. Auditoriyalarda eşitdiklərinin tam əksini görürdülər. Bəzən etirazları vulkan kimi püskürürdü. İndi də belə oldu:

– Özünə hörmət edən, heysiyyatını qoruyan adam bu ziyafətə getməməliydi, – bunu Zahir dedi.

– Gərək orada bir-iki nəfəri əzişdirəydik! – canlıcüssəli Zaur dərhal kükrədi.

– Polis də gəlib bizi aparaydı… Yaxşı, küçədə qalası deyilik ki, gecə keçir.

Faiqin bu sözündən sonra heç kim dinmədi, kirimişcə evə yollandılar.

Zahir çaydanı su ilə doldurub dar mətbəxdəki qaz plitəsinin üstünə qoydu. Qaz zəif gəlirdi. Zahir əlini alova tutdu. Elə bil istiliyini yoxlayırdı.

Faiq:

– Çayı neynirsən, isti olacaq, gərək su alaydıq, – desə də, bilirdilər ki, əlavə xərclər üçün pul yoxdur.

Çünki artıq «bədxərclik» etmiş, ziyafət üçün gül almışdılar.

Zahir mətbəxdən qayıdanda əlinin üstünə duz səpmişdi. Zaur təəccübləndi:

– Nə oldu, əlini yandırdın?

Faiq də marağını gizlətmədi:

– Sən ki, belə işlərin ustasısan, əlini niyə yandırırsan?

– Narahat olmayın, özümü yoxlayırdım, – Zahir heç nə olmayıbmış kimi yanıqdan göynəyən əlini yellədi.

Zaur özündən çıxdı:

– Deyəsən, isti başını xarab eləyib, necə yəni özümü yoxlayırdım?

– Yox, qorxma, başım xarab olmayıb. Yoxlayırdım ki… – sözünün gerisini demədi.

Zaur yenə əsəbi dilləndi:

– Bəli də, gəl bunun danışığından baş çıxar.

– Heç, bizim qızları nəzərdə tuturam. Özlərini oda atırlar…

Faiq dinmədi. Zaur da mızıldanıb səsini kəsdi. Otağa sükut çökdü.

Zahir masanın arxasına keçib dünəndən bəri yazmaq istədiyi məqalənin başlığına baxdı. Ağ vərəqin yuxarısında üçcə söz yazılmışdı: «Mən sınmaq istəmirəm». İri hərflərlə yazılmış bu üç söz kağızın üstündə xeyli yer tutmuşdu. Zaur xarici firmaların açıq-saçıq reklamlarına qarşı etirazını bil-

dirmək istəyirdi. Düşünürdü ki, xarici ölkələrdən Azərbaycana mənəviyyat ixrac etmək olmaz. Bu, bir qürur məsələsidir və bizi sındırır.

Zahir düşündüklərini vərəqə köçürə bilmirdi. Cümlələr beynində hazır olsa da, qələmə gəlmirdi.

O, yazısını bugecəki ziyafətdən aldığı təəssüratla zənginləşdirmək istəyirdi: «Yox, Haris tələbələrin yay imtahanlarını vermələrinə görə qonaqlıq təşkil etməmişdi. Haris onları sındırmaq, güclü olduğunu Fənayəyə göstərmək üçün dəm-dəsgah açmışdı».

Zahir bu haqda əvvəlcədən uşaqlara demək istəsə də, şənliyə can atan tələbələrin əhvalını pozmağın yaxşı olmadığını düşünmüşdü. Bir də ki, Rahibə Harisin qardaşı qızı, Fənayə isə onunla rəfiqədir.

Qələmini götürüb beynində dolaşanları tələsik xətlə kağıza köçürməyə başladı…

Xeyli vaxt keçdi. Hamının səbri tükəndi:

– Qardaş, nə oldu çay?

Zahir dilləndi:

– Barmağım bərk göynəyir, özünüz baxın.

– De ki, dodağım uçuqlayıb, atı suvara bilmirəm…

– Buyurun, girin bu labirintə, kim çıxa bilməsə, çayı o dəmləsin.

Zaurla Faiq onun nə çəkdiyi ilə maraqlandılar. Həqiqətən də, «Mən sınmaq istəmirəm» sözlərinin altında qəribə bir labirint təsvir olunmuşdu. Mərkəzdə

bir ox işarəsi və dolaşıq, çox dolaşıq bir yol… Bu yol nə qədər fırlansa da, yenə gedib dalana girirdi.

Zahir dostlarının ona maraqla baxdığını görüb dedi:

– Hesab edin ki, bu Fənayədir və o da belə bir labirintə düşüb. Buradan necə çıxa bilər?

– Ay Zaur, haradan bilək, bəlkə sən çayı dəmləməyin dərdindən heç çıxış yolu qoymamısan?

– Yox, yol var.

– Dostum, Fənayəyə rəhmin gəlir? O bu saat bizi balaca sərçə, Harisi də nəhəng qartal hesab edir və çox istəyir ki, bu qartal iti caynaqları ilə onu didib-parçalasın.

Zahir fikirli-fikirli dilləndi:

– Uşaq vaxtı cələ ilə sərçə tutardıq. Bir dəfə cələnin yanına dən səpmişdim. Gözləyirdim ki, sərçə cələyə düşsün, mən də tutum. Anam görüb hay-haray saldı, sərçə uçub getdi. Mən də ağladım. Bu məsələdə atam da anamın tərəfində dayandı, o gündən bir daha cələ qurmadım.

Faiq Zahirin hekayətini dinləyib bir qədər təsirlənsə də, gözləri mənzilin yuxarı küncündə ilişib qalmışdı:

– Zaur, ora bax, hörümçək torunu qurub və pusquda dayanıb gözləyir ki, ov gəlib tora ilişsin. Maraqlıdır ki, tora düşən ov çapalayanda, daha pis vəziyyətə düşür. Hörümçək də elə bu vaxt onun üstünə atılır.

Zaur qəflətən yerindən tullanıb, dəftərlə küncdəki toru vurub dağıtdı.

Faiq dilləndi:

– Bax, Fənayənin də yolunda belə bir tor qurulub. O toru dağıdan…

Zahir:

– O toru dağıdan tapılmır. Bilirsən, niyə? Çünki Fənayə özü həmin tora can atır…

* * *

Balaca, yarızirzəmi otaq üç gəncin üç dəmir çarpayısına deyil, ruhlarına da dar gəlirdi. Onların hərəsi bir bölgədən gəlmişdi. Zaur şimallıdı – dağ adamlarının əksəriyyəti kimi fiziki sağlamlığı vardı, sərtdi, ötkəmdi, bu fiziki sağlamlıq, sərtlik, ötkəmlik, vücudunda və simasında açıq-aydın görünürdü. Zahir cənubdandı – bir qədər cansız, çəlimsiz görünsə də, güclü idi. Klassik ədəbiyyatı yaxşı bilirdi. Babası seyid olduğu üçün yoldaşları hərdən ona «seyid balası» deyirdi. Fikirlərində, mühakimələrində ədalətli olmağa, haqqı unutmamağa çalışan Faiqgilin əsilləri Borçalıdandı. Balaca, sısqa canında min kişinin hikkəsi yığılmışdı Faiqin.

Oğlanları birləşdirən cəhət də vardı: bəzən özlərinə aid olmayan məsələlər ətrafında kəskin, emosiyalı mübahisələrə girişirdilər. Məsələn, Fənayə məsələsində oğlanları yerindən oynadan gəncliyə

xas təəssübkeşlik hissi deyildi. Onlar Fənayənin hərəkətlərini həzm edə, uda bilmirdilər.

– Bizdə biri evlənmək üçün yüz cür imtahandan keçir, – bunu Faiq dedi.

Zaur Faiqi cırnatmaq istədi:

– Yox bir, bəlkə lap Dədə Qorqud qəhrəmanları kimi, ox atıb, qılınc vururlar? Küştü tuturlar, hə? Onda sənə heç qız verməzlər ki?!

– Sən narahat olma. Bu işdə ata-anamı irəli vermişəm: istədiyim qıza görə güləşirlər, ox atırlar, qılınc vururlar. Hələ desən, küştü də tuturlar. Ancaq sənin dediyin yaraq-əlbisəylə yox, adət-ənənə sürsatı ilə.

Zahir mübahisəni kəsmək istədi:

– Qız bəy evinə gəlinlik paltarı ilə köçməlidir. Elçi xeyir-duasından və toydan sonra.

Faiq dedi:

– Düz deyirsən, amma həyatdı da, bəzən ata-ana ayağını bir başmağa dirəyəndə, sevgililər məsələni özləri yoluna qoymaq zorunda qalırlar. Yəni oğlan qızı götürüb qaçır. Ancaq gec-tez yenə də böyüklərin xeyir-duası olmalıdı. Yoxsa, xeyir-duasız evlənmək axmaq işdir, olmaz.

Zaur:

– Yaxşı olar ki, yıxılıb yataq. Fənayənin atası bizi idarəsinə gözətçi də götürməz. Onlar başqa, biz başqa. Burada yaşadıqlarına baxmayın, çoxdan Avropaya, Latın Amerikası ölkələrinə «köçüblər». Beyinləri oranın saatıynan işləyir.

Mübahisə səngidi. Hər kəs öz çarpayısına uzanıb susdu. Zahir ziyafətin nə məqsədlə təşkil olunduğunu yenidən götür-qoy elədi. Zaurun da, Faiqin də düşüncəsində axıracan dərk edə bilmədikləri bu məsələnin yalnız qarışıq cızma-qara eskizləri çözülmüşdü. Zahirə görə, Fənayə düşdüyü yola təsadüfən ayaq basmamışdı. Bəlkə də bu yolun ona verəcəyi iztirabları irəlicədən götür-qoy etmişdi. Fənayənin aldandığını fikirləşmək sadəlövhlük olardı. Bəs, onu mənsub olduğu xalqın min illər boyu formalaşmış mənəvi dəyərlərinə arxa çevirməyə məcbur edən nədir, hansı sirri-xudadır? Zahir üçün bu sualın cavabı yox idi. Hərçənd uşaqlarla mübahisəyə baş vuranda, bu və ya digər məsələyə dair tam, yaxud natamam bir cavab üçün korluq çəkmirdi. Kürəyinə bir «mühafizəkar» damğası «nallasalar da», mövqeyindən çəkinmir, dediyini deyirdi.

Zahir uşaqlardan səs gəlmədiyinin fərqinə varıb, başını yastıqdan dikəltdi. Yatmışdılar. İstədi səsləyib qaldırsın ki, soyunub rahat olsunlar, qıymadı. Şirin yatmışdılar, altmışlıq lampanın qızılı işığı dostların təravətli üzündə bərq vururdu. Bu gənc üzlərdə, dik alınlarda görəsən nə yazılmışdı? Onların çöhrəsini işıqlandıran yalnızca altmışlıq lampanın nuru idimi? Qətiyyən, bu qədər bəsit bir izah ola bilməzdi. Hər ikisinin alnı geniş və açıq idi. Sonunda xoşbəxtlik görünən işıqlı və nurlu bir yolu xatırladırdı. Qəribə

bənzətmədi; insan alnı və ağ yol. Zahir yatanlara xeyli beləcə dayanıb baxdı…

Babası danışırdı ki, bu lap çoxdan olub, pambıq əkmək üçün kəndin yaxınlığındakı təpəni buldozerlə hamarlayanda, oradan insan sümükləri çıxıb. Kəllələrə diqqətlə baxan adamlar görürlər ki, bunların alınlarında yazı var. Kolxoz sədri camaatı dağıdır:

– Çıxın gedin işinizə, heç ulu babalarımızdan da eşitməmişik ki, burada qəbiristanlıq olub. Allah bilir, neçə min ilin qəbirləridir. Bəlkə elə bilirsiniz o alın yazıları dünyanın indiyəqədərki tarixidi?

Adamlardan sədrin sözünə gülənlər olur. Sədr onların etirazını qulaqardına vurur. Buldozerin nəhəng bıçağında bağrı sökülən yerin daha bir layı çevrilən vaxt, bir insan kəlləsi dığırlanıb sədrin ayaqları altına düşür. Torpağın altında neçə yüz il sakit yatmış kəllə, elə bil ki, sədrin bu cəfəng sözlərinə gülmək üçün gəlibmiş. Dişləri ağarırmış. Kimə gülürmüş kəllə? Nə üçün gülürmüş? Kolxoz sədri kəllənin ağaran dişlərinə baxanda, vahimələnir. Özünü saxlaya bilməyib kəlləyə bir təpik vurur. Sədrlə üzbəüz dayanan adamlar səksənib kənara çəkilirlər. Kəllə dağılır və yerə tökülən dişlər yenə ağarıb, sanki hirsli-hikkəli, sözünü heç kimin çevirmədiyi kolxoz sədrinin ləyaqətinə istehza edirmiş. Rəngi avazımış kolxoz sədri daha orada qala bilmir. Deyinə-deyinə çıxıb gedir. Traktor nərildəyir. Qozbel təpəlik düzəngaha çevrilənəcən həmin nərilti kəsilmir.

Bu hadisə təxminən 30 il bundan əvvəl baş vermişdi. Babası, kəlləyə təpik atan kolxoz sədrinin son aqibətinin nə təhər olduğunu da Zahirə demişdi.

– Çox çəkmədi ki, kəllənin ruhu ona qənim oldu. Heç qırx gün ötməmiş, pis xəstələndi, apardılar Bakıya, əlac olmadı. Bir-iki ay diri-zarıncı qaldı, öldü.

Zahir ateist deyildi, amma xurafatdan da uzaq idi. Bir təpiklə dağım-dağım olan sümüklərdəki cizgiləri, qədim kəllənin girinti-çıxıntılarını təsəvvürünə gətirir, kolxoz sədrinin ölümünün ayrı bir səbəblə deyil, məhz minildənqalma, çürümüş kəlləyə vurduğu təpiklə əlaqədar olduğunu düşünürdü. Görünür, günahı böyük imiş, yoxsa böyük yaradan ayrı bir səbəbə görə ən mühüm məsələ ilə, insan həyatı ilə əlaqədar qərarı belə tez çıxarmazdı.

Orada, Harisin restoran ziyafətində içmişdi bir az. Bəlkə elə buna görə də indi yuxuya gedə bilmədiyi yataqda, zaman sanki fövqəl axarından çıxıb külək kimi əsir, vulkan şəklində püskürürdü. Bu külək, ya da ki, vulkan o qədər sirli idi ki, keçmişi, indini, gələcəyi, bir sözlə, qarşısına çıxan hər şeyi bir-birinə qatıb naməlum bir ünvana aparırdı. Və ən pisi o idi ki, o küləyə, o vulkana görə yaxşı və pisin, əyri və düzün fərqi yox idi. Cəhənnəm olsun külək də, vulkan da!..

O, kiminsə düşünülməmiş hərəkətlərinə cavabdeh deyildi ki? Yox, görünür, cavabdehdi. Çünki yaşadığı zamandan bir an sonra daşıyacağı cavabdehlik, bəlkə də cəmiyyəti narahat edən başlıca məsələyə

çevriləcəkdi. Nəsillərin bir-biri qarşısında daşıdığı məsuliyyət hissi davamiyyətin ən etibarlı stimuludur. Nə üçün ağlı bir balaca kəsəndən ömrünün sonuna qədər insan çalışır-çapalayır, ev tikir, ağac əkir, oğul-uşaq dünyaya gətirib çoxaldır? Əgər özünə qalsa, bir ömrün bir insandan ayrı bir kəsə məxsus olmadığı düşünülsə, nəinki həyatdan dördəlli tutub yaşamağa, ümumiyyətlə, doğulmağa, yaxud min bir zillət çəkib doğduğunu yaşatmağa dəyməzdi. Bəli, Zahir düşünürdü; axirət öz yerində, dünyanı yaşadan insanın cəmiyyət qarşısında məsuliyyəti, xalqı naminə göstərdiyi təmənnasız xidmətidir. Bu, insanda olan ən ali cəhətdir, bu hətta qəhrəmanlıqdır.

Yenə də Faiqlə Zaurun altmışlıq lampa ilə işıqlanan üzünə baxdı. Fəlsəfi düşüncələr bir yana, üstəlik haçalanmış fikirlərdən də qopa bilmədi… Rahibə, Fənayə, Sadiqə, qrupun o biri qızları… Sanki kino zalında idi, təsəvvürü idarə olunurdu, gözünün qarşısında oynaşan lövhələr, insan surətləri qarşısıalınmaz işıq zərrəcikləri ilə xırda bir yarıqdan süzülərək qarşısında dikələn süd rəngli ekrana daşınırdı.

Rahibə deyirdi ki, sevgiyə inanmır, onu uydurublar. Başqalarının başının altına tük yastıq qoysunlar deyə…

Orada, restoranda Rahibə inamla, həm də dediklərinin arxasında dayanan mövcud yaşam tərzinin fərqinə varmadan danışırdı. Sadiqənin düşüncəsi bambaşqadı. Həmin söhbət Zahirin yadında lent yazısı

kimi qalmışdı. Hansı bir ecazkar əlsə düyməni basır, sözlər səs donunda dirilirdi:

– Kim yaradıb əxlaq anlayışını? – bunu Rahibə deyirdi. – Kim insanın ilkin başlanğıcına xələl gətirib?

Zahir etiraz edirdi:

– Nə danışırsan, Rahibə? Sənin dediyindən belə çıxır ki, insanın heyvandan fərqi yoxdu?

– Əlbəttə, var. İnsanı ağlı fərqləndirir. Amma bu ağıl ona görə deyil ki, adam balası özü üçün «həbsxana» kəşf etsin, istəyini zorlasın.

Zaur öz fikrində israrlıydı:

– Belə çıxır ki, həbsxana insanın paltarıdı və onu insan özü kəşf eləyib əyninə dürtüşdürüb.

Əlbəttə, bu qəribə məntiqə tələbə dostlar gülüşlə cavab verdilər. Zaurun narazılığı açıq-aydındı:

– Elə demə, Rahibə. Sevgi var ha, bax o çağırılmamış qonaqdı. Qəfil gəlir, qəfil də oxlayır. Ağlın varsa, ürəyinin qapısını bağla, özünü qoru. Qəfil qonaq bilir hansı qapını döydüyünü… Məsələn, mən qapımı kip bağlamışam.

– Sənin qapın gözlərindi. Həqiqətə göz yummaq isə ən azı nadanlıqdı.

Bayaqdan bəri kəlmə kəsməyən Sadiqə, sanki utancaq baxışlarını dolandırıb ciddi məsələyə zarafatla yekun vurmaq istədi:

– Bilirsiniz, atalar nə deyib?

Zaur söhbətin incə axarını tutdu:

– Atalara qurban olum, söylə, görək nə deyib?

– Atalar deyib ki, göz görür, könül sevir…

Zaur atalar sözündən qürur duya-duya, sonuncu möhtəşəm nöqtəni qoydu:

– Bu sözdən sonra fəlsəfəyə yer qalmır…

* * *

Həmin gecə Rahibənin də yuxusu ərşə çəkilmişdi. Heç vəchlə yata bilmirdi. Fənayə ilə danışmağa fürsət axtarırdı. Fürsət isə əldən çıxmışdı. O bilirdi ki, indi Fənayə Harislə bir yerdədir. Nə olsun? Onun yuxusu ilə bu olayın nə əlaqəsi? Fənayəni xoşbəxt hesab etmək olar. Belədirsə, onda Rahibə rəfiqəsinə görə də, əmisi Harisə görə də sevinməliydi. Bəs, indiki ovqatına, tələşına nə ad qoysun? Qısqanclıqmı? Fənayəni əmisinə qısqanmayacaqdı ki…

Doğrudanmı, Fənayə Harisə vurulub? Bu, həqiqi sevgidimi? Axı, onlar sevgiyə aldadıcı bir hiss kimi baxdıqları üçün məhəbbəti ürəklərinə heç vaxt yaxın qoymayacaqlarını deyirdilər. Sevginin yalnız zəif adamlara «qənim olduğuna», məhz qənim olduğuna inanırdılar. Əgər doğrudan da sevib-sevilmək yaxşı bir işdirsə, bəs, nə üçün buna can atmırdı? Zaurun ona nə boyda rəğbəti var. Qollu-budaqlı, pələng kimi oğlandır, maşallah, qoçaqdır, ağıllıdır, həm də qətiyyətlidir. Niyə onu sevə bilmədi? Doğrudur, həmin əhvalatdan sonra Zaurun davranışı dəyişdi, Rahibə

ilə danışanda daha həyəcanlanmırdı. Baxışlarında təəssüf vardı.

Rahibəyə görə, Fənayə arzuladığı zirvəni fəth etmişdi. Ancaq bu, xoşbəxtlik zirvəsi deyildi. Onun fikrincə, qızın ailə qurması, hamilə olması, uşaq doğması, sonra da iy verən əski-üskünü yuya-yuya, çolma-çocuq böyütməsi azadlıqdan imtina etmək demək idi.

Rahibə pəncərənin qabağına gəldi. Qarşı binadakı işıqlar büsbütün sönmüşdü. Üzbəüz pəncərədən ona bir oğlan baxırdı həmişə. Bir neçə dəfə onu həyətdə görmüş və salamlaşmışdı. Həmyaş olardılar. Gözünü Rahibədən çəkmirdi. Rahibə də ona qarşı biganə deyildi. Yavaşcadan pıçıldadı: «O da yatır, qoy yatsın. Yuxusu şirin olsun. Mən də gözümün çimirini alsam, pis olmaz».

* * *

Zahir tor çəkilmiş pəncərənin önünə gəldi. Üzünə dəyən xəfif meh onun fikrini təzələdi. Sərlövhəsini yazdığı məqaləni cümlə-cümlə düşünməyə cəhd göstərdi: «İnsanlar həyatda sınmamaq, cəmiyyətin qurduğu cələlərə düşməmək üçün Allahın bəxş etdiyi ən böyük hüquqdan – öz talelərini özləri həll etmək imkanından yararlanmalıdırlar». Cümlə uzun çıxdı. Həm də deyəsən, bir qədər ziddiyyətli idi. Bir cümlədə həm materialist, həm də idealist çalar vardı.

Ən pisi o idi ki, yazdığı cümlə sərlövhənin altındakı cüzi ağ yerə güclə sığışmışdı. Ağ vərəqin aşağı hissəsinə bayaq labirint çəkmişdi. Kağızı xışmaladı, zibil vedrəsinə atmaq üçün mətbəxə keçdi. Nə fikirləşdisə, atmadı. Kağızın bürüşüyünü açdı. Cümləni bir də oxudu. Hər söz həftə, ay, nəhayət, il kimi vaxt, zaman obrazına çevrildi. Yox, bu yazını o yazmayacaq, bu məqalənin müəllifi zaman olacaq. Nə vaxt? Səbri tükənəndə. Hələ səbri var.

Səhərə az qalırdı. Küçədə sakitlik idi. Tor çəkilmiş pəncərədən içəri sərin meh dolurdu…

* * *

Səhərdi. Günəş adam boyu qalxmışdı. Haris yuxudan durub duş qəbul etmiş, üzünü qırxmış, görkəmini sahmana salmışdı. Eyvana çıxdı, dodaqaltı mahnı zümzümə etmək istədi, alınmadı: «Üzüyümün qaşı firuzədəndir…»

Sonrakı sözlər yadına düşmədi. Elə həmin sətri bir-iki dəfə təkrarladı. Narahat idi. Fənayənin süstlüyü, yerindən qalxmaq istəməməsi, hər şeyə qarşı biganəliyi narahatlığını daha da artırdı. Amma Haris bilirdi ki, Fənayə tezliklə özünə gəlib, düzələcək. Bu işin yöndəmi belədi…

Fənayə indiyə qədər olmadığı, yalnız təsəvvüründə canlandıra biləcəyi bir dünyaya qovuşmuşdu. Daha o, srağagünkü, dünənki, heç bir neçə saat

öncəki adam deyildi, həqiqətən də riskli addım atmışdı. Ümumiyyətlə, qızlar qadınlığa qədəm qoyanda, onların düşüncəsində ciddi dəyişiklik yaranır. Keçid mərhələsi psixoloji sarsıntıya da dirənə bilər.

Bütün başqa insanlar kimi, hansısa bir məqamda, müəyyən hadisə ilə əlaqədar Harisin də filosofluğu tuturdu. Məsələn, evlilik aktını götürək. Bu ki, bütöv bir sistemdir, tarixən toy ənənəsi, qızların gəlin köçməsinə qədər ayrı-ayrı adətlərin icrası – elçiliklər, nişan, get-gəllər, qır-qızıl, noğul-nabat, nəhayət, gəlinlik paltarı – bütün bunlar görünür, qızları psixoloji cəhətdən həmin mərhələyə, həyatın ən həlledici addımlarından birinə hazırlamaq üçündür. Çünki məhz bu addımla insan vərdiş etdiyi bir aləmdən tamamilə başqa bir həyata yeriyir. Bu mərhələ oğlanların da həyatından izsiz ötmür. Özlərinə inamları artır, başqa sözlə, kişi olurlar. Necə ki, hər bir oğlan kişi olmaq istəyir, eləcə də qızların ən böyük həyəcanı, çırpıntısı qadın olmaqla bağlıdır…

İndi az qala qorxunc bir halsızlıq içində çarpayıya uzanıb dünyanı şüşə kimi donuq nəzərlərilə süzən Fənayənin də susqunluğunun səbəbi, yəqin ki, bununla bağlı idi. O, Fənayənin yanına qayıtmaq, onu ayağa qaldırmaq, ona ruh vermək istədi. Fənayə orada, hadisənin bir ildırım tezliyi ilə baş verdiyi «məkan»da – yataq otağındakı çarpayıda uzanmışdı. Dilsiz baxışların hansı nöqtəyə zilləndiyindən fələk

də baş açа bilməzdi. Ümumiyyətlə, o, baxırdımı? Onun baxa biləcəyi bir nöqtə vardımı?

Haris ehmalca qıza yaxınlaşıb çağırdı:

– Fənayə…

Qız tərpənmədi. Deyəsən, lap yavaşdan çağırdı, o qədər yavaşdan ki, öz səsini özü güclə eşitdi. Bir də çağırdı:

– Fənayə, oyaqsan?

Fənayə gözünü Harisə tərəf çevirdi. Haris əlini qızın saçlarına toxundurdu, sığalladı. Fənayə ona bir az da zəndlə baxdı. Elə bil çağıranın Haris olduğuna inanmaq istədi. İndi onu çağıran adam, aylardan bəri özünü təslim etmək üçün demək olar ki, qaça-qaça, qaranəfəs yol gəldiyi həmin adam idimi?

Bəli, bu Haris idi. Hər cəhətdən güclü, tədbirli, ruhunda olan çılğınlığı, ehtirası gözlərindən oxuduğu, bu gecəni ağuşunda keçirdiyi Haris! İnsan bədənindəki qanın şüuru qəhr etdiyi anların hakimi Haris!..

Fənayənin biləyindən yapışdı. Nəbzi sürətlə vurmağa, rəngi, ruhu, sifəti dəyişməyə, allanmağa başladı. Qızın gözü güldü. Dodaqlarına yayılan təbəssüm üzünə axdı. Elə bil kimsə Harisi muştuluqladı. Dəli bir sevinc içərisində Fənayəni ayağa qaldırdı, onu bağrına basdı. Üz-gözünü, boyun-boğazını, sinəsini öpüşlərə qərq etdi. Boğula-boğula, su içən adam kimi kəsik-kəsik, həyəcanla, düşünmədiyi, ancaq ağlına gələn sözləri dedi:

– Mən xoşbəxtəm, Fənayə! Elə sən də xoşbəxtsən! Bugünkü həyatıma qədər ruhum heç vaxt rahat olmamışdı. İnsanlar arasında özümü tapa bilməmişəm, yalnız indi sənin simanda itirdiyim həyatımı tapdım.

Fənayə dinmədi. Ancaq Harisə qarşı biganə də deyildi. O, Harisə isti öpüşləriylə cavab verdi.

– Nə üçün dillənmirsən, Fənayə? De, görüm, sən də xoşbəxtsənmi? Görürəm ki, xoşbəxtsən. Dodaqların, dodaqlarındakı hərarət, öpüşlərin deyir bunu.

Fənayə onu daha hərarətlə bağrına basdı, zəif-zəif inildədi. Haris yalvarırmış kimi israr etdi:

– Xahiş edirəm, dilinlə de, xoşbəxtsənmi? Axı, sən daha uşaq deyilsən. Bir gecənin içində böyümüsən. Qadınsan. Sən qız həyatının zirvəsinə qalxmısan. Ucalıqdan qorxmursan ki, Fənayə? O insanlar ki, bizə qəribə baxırlar, onlar səndən, məndən çox-çox aşağıdadırlar. Onlar bizi başa düşə bilməzlər. Onlar qayda-qanun əsiridirlər.

– Haris, sənlə birgə olduğuma görə, çox xoşbəxtəm. Özün bilirsən ki, mən heç bir qayda-qanun tanımıram.

– Fənayə, sən qadınlığını öz azadlığınla qazanmısan.

– Azadlıq özü xoşbəxtlikdir, bunu bilirsən. Azadlıq elə-belə söz deyil. Onu bizə verən də həyatdır, alan da…

Haris Fənayədən ayrıla bilmirdi. Coşmuş hisləri gözəgörünməz tellərlə onu Fənayəyə bağlayırdı. Dö-

nə-dönə qıza sarılır, eşqin yandıran susuzluğu səngimirdiki, səngimirdi.

Yenə də yataq otağındadırlar. Ayaq üstündə, biribirinə sarılmış halda. Sanki onların başının üstündən alov qalxırdı.

– Mən səni kəşf etmişəm.

– Mən, mən… – Fənayə sözünün gerisini qurtara bilmədi və hönkürtü ilə ağladı: – Deyəsən, mən dəli oluram…

Haris onun yanaqlarından süzülən göz yaşlarını öpüşləriylə qurutmağa çalışdı:

– Yaxşı, yaxşı… Bəsdir! Az qala mən də dəli oluram…

Haris Fənayəni quş kimi qolları üstünə götürüb, birbaşa vanna otağına keçdi. İlıq duşu açıb, yarıçılpaq qızı suyun altına tutdu. Özü paltarlı idi, heç bunun fərqinə varmadı. Bir anın içində hər şeyi unutdular. Fənayə üçün bu anda bütün dünya suyun altında qaldı. Göy üzü parçalanıb dağıldı. Yağış yağdı. Bu necə leysan idi? – Bütün dünyanı başına götürdü. Dünya yuyulurdu. Bəlkə bu yağış dünyanı vaxtı keçib bayatlaşmış adətlərdən təmizləmək üçün yağırdı?.. Artıq islanmış dünya, yaz yağışından sonra durulub parlayan cənnət kimi görünürdü hər ikisinə…

…Çay süfrəsi başına keçdilər. Bir-birinin gözünə baxmırdılar. Sevginin, qarşılıqlı istəyin dərəcəsindən asılı olmayaraq, hər halda nəsə bir suç vardı ortalıqda.

Haris dilləndi:

– Danışacaqsan?

Fənayə başını qaldırmadan cavab verdi:

– Nəyi? Danışmalı nə var ki?

– Bizim əhvalatımızı.

– Kimə danışmalıyam ki?

– Valideynlərinə.

– Başa düşmürəm, axı nə üçün danışmalıyam?

– Mən də elə düşünürəm. Məgər biz kiməsə hesabat verməyə borcluyuq?

– Amma düzünü de, yəqin sən dostlarına danışacaqsan…

– Bu haradan ağlına gəldi, Fənayə? Axı, nə üçün elə düşünürsən ki, mən kiməsə nəsə deyərəm?

Fənayə susdu. Sözə başlayanda isə o, Harisin üzünə baxdı:

– Kişilərdə xudbinlik, özündənrazılıq güclü olur. Üstəgəl, bir az da lovğalıq.

– Sən mənim həyatımı dəyişmisən, Fənayə! Sənin-lə tanış olandan bəri, heç bir qadınla, qızla yaxınlıq etməmişəm. Daha lovğalanmağa ehtiyac yoxdur. Bütün lovğalıqlar, xudbinliklər insan özünü dərk edənə qədər olur. Həyatımın mənasını indi dərk etmişəm, ruhum dəyişib. Məni sən dəyişmisən, Fənayə!..

– Doğru deyirsən. Bizim münasibətlərimizin sonu necə qurtaracaq, bilmirəm. Ancaq bu gözəl günə bir-birimizdən heç cür təmənna güdmədən, bir-birimizi sevərək gəlmişik. Bizi bir-birimizə qovuşduran ru-

humuzdur, mənəvi aləmimizdir. Ancaq indi mən getməliyəm.

Haris bunu gözləyirmiş kimi ayağa qalxdı. Fənayə yataq otağına keçdi. Paltarlarını geyindi, özünü səliqəyə saldı, sırğalarını tapıb qulağına taxdı, gözü üzüyünü gəzdi. Həmin üzük çox bahalı, az qala antikvar zinət idi. Özü də Zinayənin anasından, yəni Fənayənin nənəsindən yadigar qalmışdı.

Fənayə mebelin ayaq küncündən üzüyü tapdı, götürüb barmağına taxmaq istəyəndə, gördü ki, qaşı düşüb. Gözü dörd oldu. Qızıl boyunbağını asmış, sırğalarını taxmışdı. Qaşı düşmüş üzüyünə nəzər salanda, təsirləndi. Ona elə gəldi ki, suyu sovrulmuş, dəni tükənmiş bir dəyirmanla üz-üzə qalmışdır.

Fənayə çarpayının üstünə, yanlarına, yerə diqqətlə göz gəzdirdi. Üzüyün qaşı yox idi. Fənayənin gecikdiyini görüb Haris də gəldi:

– Nə axtarırsan? – soruşdu.

Fənayə barmağındakı üzüyü göstərdi:

– Qaşını itirmişəm. Yəqin buralara düşüb. Gecə üstündə idi.

– Fənayə, sənə çox qiymətli üzüklər, sırğalar alaram. Fikir eləmə…

– Nənəmdən qalmışdı. Yadigar idi. Anam verib, tez-tez soruşur. Haris pəncərəni çəkib açdı. Otağa bol günəş işığı və təmiz hava doldu. Üzük məsələsinin yarada biləcəyi qanıqaraçılığın qarşısını bəri başdan almaq məqsədi ilə zarafata salıb oxudu:

«Üzüyümün qaşı firuzədəndir,
Könlüm açılmayır bu gün nədəndir…»

* * *

Fənayə evdən Harislə birgə çıxdı. Hara gedəcəklərini danışmamışdılar. Haris maşını şəhərin gur yerinə – Mərkəzi univermağa tərəf sürdü. Hər ikisinin üzündə xoş ovqat və razılıq ifadəsi vardı. Harisin əhvalı daha yaxşı idi. Onun etirazlarına baxmayaraq, Fənayə qaşı düşmüş üzüyü barmağına taxmışdı. Fikri-zikri üzüyün tökülmüş göz kimi görünən xırda, boş çuxurunda idi. Peşmançılıq hissi sanki zəhər kimi qanına işləmiş, get-gedə onun bütün varlığını qıc etmişdi. Ən qiymətli sərvətini itirmişdi bu gecə. «İndi hara gedirsən? Sənin öz evinə yolun bağlıdır». «Getməliyəm», – deyəndə Haris etiraz etmədi. Axı, nə üçün də etiraz etməliydi? Fənayənin ziddiyyətli suallarına cavabları yerindəcə, həmin andaca doğulurdu: «Mən Harisə ərə getmək üçün gəlməmişdim. Əslinə qalanda, bizi sevgi qovuşdurmamışdır. Buna səbəb ruhumuzun azadlığı, ehtiraslarımızın qarşısıalınmazlığı olub».

Fənayədən bu hissin nə olduğunu soruşan olsaydı, izah edə bilməzdi. Ona aydın olan, dərk etdiyi bu idi ki, iç dünyasına, daxili tələbatına qarşı riyakarlıq etməmişdir. Qızın fikrincə, qadın nə qədər güclü, sərbəst və azad olsa da, əks cinslə – kişiylə birləşməyibsə,

həyat üçün, yaşamaq üçün enerji mənbəyinin – ehtiraslarının səsini eşitməyibsə, demək yarımadamdır; həyat hadisələrindən düzgün baş çıxara bilməz. Qadın üçün həyatın bütün şirinlikləri onun sevdiyi kişi ilə təmasından sonra üzə çıxır.

Fənayə özünə bəraət qazandırmaq fikrində deyildi. O, hərəkətlərində qəbahət görmədiyi üçün özözünə sual verdi: «Əgər qəbahətim yoxdursa, niyə bu fikirlər məni tərk etmir?»

Haris onun axtardığı adam idi. Çünki Fənayə kökündə çılğın məhəbbət dayanan macəraların acı deyildi. Xəyalı qanadlandıran romantika, iztirablarla dolu sentmental hislər ona yaddı. Bu mövzuda söhbət açanlara hər zaman ikrahla baxırdı. Onları vaxtı keçmiş ənənələrin qulu hesab edirdi. Bəs, Fədai? Yox, o tamam başqa adamdır… Həyat fəlsəfəsi… Yox, Fənayə, ümumiyyətlə, ailə adlı kiçik dövlətin dar sərhədlərini tanımaq istəmirdi. Çünki onun gəldiyi qənaətə görə, bu cür məhəbbət insanın sərbəstliyini əlindən alır…

Haris maşını küçənin kənarına verib saxlayanda, Fənayə düşüncələrdən ayrıldı.

– Düş, Fənayə, univermağa baxaq, sonra səni evinizə yola salaram.

Haris maşının qapısını açıb Fənayənin qolundan yapışdı. Birlikdə univermağın birinci mərtəbəsindəki qızıl köşklərinə sarı getdilər. Elə bil dünyanın bütün ləl-cəvahiratlarını bura yığmışdılar. Haris ən qiymət-

li zinət əşyalarının olduğu köşkə tərəf döndü. Satıcı – ortayaşlı, yaraşıqlı qadın irəli yeridi. Gülə-gülə:

– Haris müəllim, xoş gəlmisiniz. Çoxdandır görünmürsünüz, – dedi. Sonra yaxınlaşan kişini, malların əsl sahibini göstərdi: – Hər dəfə təzə mal gələndə, dostunuzun da, elə bizim də yadımıza düşürsünüz.

Haris köhnə tanışı ilə ikiəlli görüşdü. Həqiqətən də Fənayəyə rast gələndən sonra onun kiməsə hədiyyə almasına lüzum qalmamışdı. Satıcı qadın tükütükdən seçirdi. Harisin təzə «ov»la gəldiyini sezdi. Görünür, bunu Harisə anlatmaq istəyirdi…

Satıcı qadından fərqli olaraq, Harislə həmyaş, qarabəniz, həm də yaşından cavan görünən sahibkarın görkəmi, biganə baxışları Fənayədə ikrah hissi oyatdı. Qıza elə gəldi ki, bu adam özünün bütün ruhunu ləl-cəvahiratlara verib. Ona yazığı gəldi. Doğrudan da belə adamlar lal qızılların, par-par yanan brilyantların yanında çox fağır və miskin görünürlər. Bu qızıllar hakim, onlar isə məhkumdurlar. Balaca mücrünü xatırladan şəffaf qutuların içərisindən götürdükləri üzükləri, sırğaları ehtiyatla, yavaş-yavaş qaldırır, işığa tutur, əlləri əsə-əsə yenə qaytarıb öz yerinə qoyurlar.

Satıcı qadın gözünü Fənayədən çəkmirdi. Qızın zinət əşyalarına o qədər də əhəmiyyət verməməsi ona qəribə gəldi. Halbuki barmağındakı üzük nə qədər bahalı olsa da, o, sərraf baxışı ilə bunu gördü – qaşsız idi. Fənayəyə altdan-altdan bir də göz yetirdi: «Deyəsən, mən bu qızı tanıyıram. Hə, yadıma

düşdü. Televiziyada şeir oxuyanda görmüşəm. Jurnalda da şeirləri çıxıb».

Satıcı qadın mütaliəli idi, ədəbiyyatı sevirdi. Özü də məəttəl qaldı ki, nə əcəb Fənayəni içəri girən kimi tanımayıb?

– Yanmış…

Fənayə eşitdiyi bu qəribə sözə doğru boylandı. Satıcı qadınla üzbəsurət oldu.

Satıcı qadın:

– Üzüyün qaşını nə tez itirmisən? Heyif…– dedi.

Haris söhbətə müdaxilə etdi:

– Hə, heç bilmir harada itirib, axtardıq, tapammadıq.

Satıcı qadın:

– Təəssüf ki, çox vaxt adam itirdiyini tapa bilmir, – dedi və üzünü yana tutmuş Harisə baxdı. Sanki bu baxışlar deyirdi ki, yox, cənab, səhv edirsən, üzük qaşı nədir ki, bu zavallı…

Düşüncələr Fənayəni məngənə kimi sıxıb əzsə də, qürurunu qıra bilmirdi. İndi bu satıcı qadının baxışlarından nə düşündüyünü anlayanda, içini doğrayan bir misra elə içindəcə «ah» kimi səsləndi: «Bəxtimi itirmişəm, yoxsa üzüyümün qaşını?»

Fənayə o fikirdə deyildi ki, Haris ona bahalı hədiyyə alsın. Bura isə onu üzən fikir və düşüncələrdən azad olmaq, bir qədər dolaşıb yüngülləşmək üçün gəlmişdi. Odur ki, qərarını qəti bildirdi:

– Gedək, Haris, heç nəyə ehtiyac yoxdu.

Haris Fənayəni başa düşdü: doğrudan da qızıl-zinət şeylərinin onun üçün əhəmiyyəti yox idi.

Onlar qol-qola girib böyük salona keçdilər. Burada gəlinlik paltarları asılmışdı; bir-birindən gözəl, ağappaq, qırmızı, mavi, çəhrayı…

Qədd-qamətli qızlar kimi yan-yana düzülən gəlinlik paltarlarını görəndə, Fənayə özünü tox tutmağa çalışdı. Onun gəlinlik donlarına davamlı baxmağı Harisin gözündən yayınmadı. Paltarlardan birinə toxunmaq istədi. Qıza elə gəldi ki, gəlinlik paltarı qışqırdı: «Əliniz bizə toxunmasın!»

Ötən gecə o boyda kefin, şəhvətin, bəlkə də eşqin içində necə də qorxunc bir əzab yaşayıb, ilahi?! Əlbəttə ki, dörd divar arasında Fənayə ilə bərabər olan o idi – Haris… Qan ləkəli ağ mələfəni necə gəldi büküb-büküşdürən, qaçaraq hamama tərəf gedən də Haris idi.

Fənayənin gözləri böyüdü. Birdən sanki gəlinlik paltarları qəfil halay vurub başına dolanmağa başladılar…

Haris anlamadığı səbəbdən ona sığınan, rəngi avazımış Fənayənin qolundan tutdu:

– Gedək, Fənayə, sən yorğunsan, dincəlməlisən, – dedi.

Haris ayaqları bir-birinə dolaşan Fənayəni univermağın şüşəli qapısından adladıb aram addımlarla maşına sarı apardı.

* * *

Bakının dənizkənarı bulvarı neçə il əvvəl belə deyildi. Dənizin suyu qalxmış, qabarma nəticəsində sahilin ayrı-ayrı səmtlərində qrunt suları üzə çıxmış, gül-çiçəklər yanıb tələf olmuş, ağaclar ayaq üstə qurumuşdu. Son illərdə baş verən qarmaqarışıq hadisələr axarında az qala başını itirən insanların dəniz nədi, göy üzü də, torpaq da yadlarından çıxmışdı. Sahilə təravət verən gənclər bulvara çıxmır, keçmişi yada salmaq üçün sahil boyu addımlayıb söhbətləşən, kölgəliklərə çəkilib uzun illərin yorğunluğunu dəniz mehi ilə canlarından çıxaran qocalar gözə dəymirdi.

Təkcə qağayılar dönük çıxmamışdılar. Minilliklər boyu bu sahilin əbədi sakinləri olan quşların səsi kimsəsizlikdə daha gur eşidilirdi.

Xəzrili-gilavarlı sahil boyunda sakitliyin «meydan sulamağı» uzun çəkmədi. Tarixi kataklizmləri arxada qoyan cəmiyyət, yeni ab-havaya uyğunlaşmağa başladı. Və beləliklə, adamlar yenə dənizkənarı bulvara axışmağa tələsdi. Park yenidən quruldu, ara yollara asfalt döşəndi, oyun meydançaları yeniləşdi, attraksionlar, yelləncəklər qırmızı, mavi rəngə boyandı, hər yanda gül-çiçək əkildi. Dünyanın nadir şəhərlərindən olan Bakının gözəllik rəmzi – dənizkənarı bulvar yenidən qaynar həyat yaşamağa başladı.

Gec idi, əl-ayaq çəkilmişdi. Quşların səsi tək-tək, bircə-bircə qaramtıl dalğalar arasına düşüb qeyb olur,

eşidilmirdi. Gurultu və tüstüsü ilə küçələri titrədən maşınlar da seyrəlmişdi. Dənizkənarı bulvara çıxmış bir dəstə gəncin nə vaxtdan başlayan bir günlük kollektiv gəzintisi hələ də sona yetməmişdi. Onlar qayğısız və bəxtiyar idilər, yorğunluq yada düşmürdü, sanki nə zaman, nə də məkan vardı. Zarafatlaşır, deyib-gülürdülər.

Sahilboyu düzülən gecə işıqlarının və dəyirmi ayın parlaq ziyası ətrafı nura qərq eləmişdi. Bu işıqlar, bu dəniz səsi, bu təmiz hava bulvar boyunca bəxtiyarlıqla ötüb-keçən gənclərin belə bir məqamda da qapalı qalan dünyasını aşkarlamaq gücündə deyildi. Bəlkə də gündüz olsaydı, bəxtəvərlər sırasında addımlayan Fənayənin tənhalığı tez nəzərə çarpardı. Amma indi… Deyəsən, neçə il birgə oxuduğu tələbə yoldaşları onun hansı vəziyyətdə olduğunu görmürdülər. Yox, əgər görür və ovqatının necəliyinin lap az da olsa, fərqinə varırlarsa, bəs, onda niyə hərdən ona sataşır, söhbətlərə, zarafatlara qatmaq istəyirdilər.

Fənayə öz aləmində idi, ona görə də heç nə alınmırdı. Hətta onların cidd-cəhdlərinə istehzayla yanaşan qız, tələbə yoldaşlarının onun üzündəki dəyişkən ifadəni duymadıqlarından da razı idi. Yaxşı ki, onlar Fənayənin bəlalı başında nələrin dolaşdığından xəbərsizdilər.

Tay-tuşları ona yad kimi görünürdü. Fənayə qocalmış, elə bil yüz yaşına dolmuş, ondan fərqli olaraq, tələbə yoldaşları gənclik təravətini qoruya bilmişdilər.

Hamısının «sünbülündən su damırdı». O, neçə il əvvəlki Zauru, Faiqi, Zahiri – uşaq gözündə gördüyü bu oğlanları indi gizli bir xiffət içində süzürdü.

Fənayənin təbiətində paxıllıq yoxdu, ona görə də həmişə insanlara nikbin baxmışdı, həyatda nə varsa, hamısını dəlicəsinə sevmişdi. Bəs, cəmiyyət, sona qədər anlaşılması mümkün olmayan toplum ona nə vermişdi? Fənayə insanın necə mürəkkəb varlıq olduğunu bilirdi. Bunu dərk etdiyinə görə, ziddiyyətli fikirlər burulğanında çırpınırdı. Onun həyatında anlaşılması zəruri olan Rahibə də var idi və altdan-altdan rəfiqəsinə göz qoyurdu, onun kimliyini müəyyən etmək istəyirdi. Az qala taleləri bir-birinə bənzəyən bu qızla uzun zamandan sirləri də bir olmuşdu. Amma indi baxıb görürdü ki, Rahibənin ondan fərqli olaraq, könül evi salamat dururdu, uçulmamışdı.

Çaş-baş qalıb, taleyinin sonrakı aqibəti haqda yozum verə bilmirdi. Bəlkə də ən çox buna görə düşüncələriylə «vuruşurdu».

Bu da İçərişəhər… Nə zaman bura yetişdiklərini bilmədilər, Qala divarları elə bil birdən peyda olub, gözləri qarşısında sıralandı. Addım səsləri sakit şəhərin daş küçələrində əks-səda verirdi. Hərdənbir müxtəlif eyvanlarda, adamın lap başı üstündən asılmış yosma-yapalaq binaların yuxarı mərtəbələrində qədimi pəncərələr açılır, kimsə küçədə deyib-gülən cavanlara sarı boylanır, kimsə bəlkə də gənclərin bəx-

tiyarlığına görə təsirlənir, kimsə də heç şübhəsiz ki, donquldanırdı: «Avaralar gecə də evə yığışmırlar, özləri cəhənnəm, camaatı da yatmağa qoymurlar!..»

– Yiyəsiz avaralar, – bunu İçərişəhərin çopur divarları kimi üzü qırış bağlamış bir qarı hayqırdı. O, bu sözləri həqiqətən də hayqırdı və hamı açıq-aydın eşitdi. Qarı ürəkdən söydü və gecənin bu vədəsində yad qoşun kimi Qala divarlarını aşıb qədim şəhərə doluşan bu diringələrlə heç bir zarafatı yox idi. Di gəl ki, uşaqlar bayaqdan bəri məhz bu gileyi, bu qınağı eşitmək üçün Bakının küçələrini dolaşırmışlar kimi sevinclə şaqqanaq çəkib güldülər:

– Nə yaxşı yatmamısan, ay nənə?

– Yava-yava danışma. Qocalarsan, quqqulu kimi qalarsan, bir dəstə veyil yuxunu pozar, onda bilərsən ki, niyə yatmamışam.

Fənayə qarşı tərəfdən, üzbəüz binadan asılmış iri lampadan düşən işıqda qarının gözlərinin öləziməkdə olan son parıltısını aydınca gördü. Zavallı qarı həqiqətən də damın altında tənhalıqdan boğulurdu…

Əlli-altmış ildən sonra o da, onun yanında qazlı-qazlı yeriyən dostları da, əgər sağ qalsalar, eynən bunun kimi olacaqlar…

Fənayə qəfil ucadan güldü. Hamı məəttəl-məəttəl ona baxdı.

– Boy, nə yaxşı qırışığın açıldı?

– Tapa bilməz…

– Nəyi? Deyəsən, yenə şairliyin tutub?

– Qarını deyirəm. Cavanlığı əlindən çıxıb deyə, bizi söyür.

– Hamı itirəcək onu…

– Əsas odur ki, itənin əvəzini tapa biləsən. Ailə, övlad itən gəncliyin əvəzidir.

– Yoxsa, bunu elə bu gecə kəşf etmisən?..

İllərin o qədər də dəyişdirmədiyi Zahir, Fənayə ilə üzbəüz dayandı. Onun görkəmində qaliblərə məxsus bir əda vardı. Həm də Fənayəyə elə gəldi ki, Zahir artıq ona yuxarıdan aşağı baxır. Hə, indi o sandığı açıb pambığı tökə bilərdi. Fənayənin iddialarından, çürük fəlsəfəsindən istehza ilə danışardı. Axı, tələbə vaxtı Zahir Fənayənin bu cür mülahizələrinə «çürük fəlsəfə» deyirdi.

Onlar işığın altında dayandılar. Bir-birini aydın görə bilirdilər. Yox, Fənayə Zahirin gözlərində nifrət görmürdü, əksinə, bu baxışlardan həlimlik, rəhm, mərhəmət yağırdı. Zahir əməlli-başlı böyümüşdü. Və deyəsən, heç onun uşaq zənn etdiyi, istehza ilə baxdığı Zahir deyildi. Fənayə söhbəti yumşaltmaq məqsədilə dedi:

– Allah hər kəsə layiq olduğu cəzanı verir.

– Yox, Fənayə, Allah həmişə bəndəsinin tərəfindədir. Hətta onun özünə dönməsi üçün yol da qoyur.

Zaur Zahirə ilişdi:

– Yaxşı, Zahir, mollalığa başlama.

Faiq Zaurun qoluna toxundu:

– Bəlkə, o qarının açdığı pəncərə elə Zahir deyən yoldur?

Qızlar gülüşdülər. Onların gülüşməyi Fənayəni bir az da pərt elədi. Alındığını gizləməyə çalışdı. Uşaqlar onun təbdən-təbə düşməyini niyə görsünlər axı? Başqalarının kefinə soğan doğramaq nəyə gərəkdir? Elə buna görə də mısmırığını sallayıb durmaq yaramazdı. Hərdən danışmaq, uşaqlarla qaynayıb-qarışmaq gərəkdi. Elə bu fikirlə də dilləndi:

– Zahir də düz deyir, Faiq, elə sən də. Əgər qarının taleyi mənim düşündüyüm kimidirsə, demək, onun bizə sarı açılan pəncərəsi ibrət yoludur. Kimin gözü kor deyilsə, həmin pəncərəyə baxıb özünü görə bilər.

Zaur ciddi görkəm alıb səsini qaldırdı:

– Yaxşı, qurtarın, gecənin bu vaxtı küçədə fəlsəfə açmağın yeri deyil.

Söhbət bitdi. Nəsə demək istəyən Zahir susdu, çənə-boğaz eləməyə lüzum görmədi. Onların gənclik, ən azı tələbəlik dünyasına yad olan birisi ilə söz güləşdirməyin nə adı?

Gecənin bu aləmində necə oldusa, neçə il əvvəl «Satir» restoranındakı ziyafətdən sonra xatırladığı kolxoz sədrinin «qəbiristanlıq əhvalatı», yazdığı məqalə yaddaşında peyda oldu. Qəribədi, quru kəllə ovqatı məhz onda, Fənayəyə baxanda oyanmışdı. «İlahi, insan necə də tez bir anda sifətini itirib quru kəlləyə çevrilə bilərmiş!..»

Zahir hətta ölümün belə yaxında olmasından üşəndi də. Özünə gəldi. Görünür, yorulmuşdu, evə getmək, dincəlmək gərəkdi. Sabah Zahiri gərgin iş həftəsi gözləyirdi.

İçərişəhərin daş pillələri ilə metroya sarı getdilər.

Fənayənin dabanlı çəkmələri yolun daşlarına çırpılırdı. Və hər taqqıltı çəkic zərbəsi kimi beynində əks-səda verirdi. Belə bir vəziyyətdə, beyni heç yadında olmayan şeyləri belə axtarıb tapır, onsuz da yorğun olan vücudunu əzirdi. Həyatının qüssəli məqamları dirçəlir, qəlbi boğucu bir ovqatla yüklənirdi. Bu an, bu saat onun içində savaş gedirdi, nəyi vardısa, dağılırdı, uçub tar-mar olurdu, yoxa çıxırdı… Tar-mar olmayan, uçub-dağılmayan, bircə dəqiqə belə olsun dincəlməyən, əksinə, dəqiqəbədəqiqə mühərrik kimi işləyən beyni, istəmədiyi xatirələri yadına sala-sala, gicgahını «döyəcləyə-döyəcləyə» məhv edirdi Fənayəni…

Özü-özündən hara qaçsın, necə qaçsın?

…Dünya ona laqeyd idi…

Bəlkə rəfiqələri?.. Fikirləşdi ki, bəlkə bütün həyatını rəfiqələrinə danışsın, dolmuş ürəyini boşaltsın.

…Yox, indi o da dünyanın özü kimi laqeyd idi…

Dar küçənin tinindən dönən uşaqlar bircə-bircə gözdən itdi. Fənayə arxada qaldı. Bircə nəfərin güclə keçə biləcəyi tinin ortasında kimsə dayanmışdı. Çəkilənə oxşamırdı. Görünür, yolu kəsməkdə heç də xoş

olmayan niyyəti vardı. O, Fənayəni ittiham etməyə başladı:

«– Yox, sən gedə bilməzsən. Gərək çoxdan biləydin ki, həyatın bir dar tinində qabağını kəsib, səndən nəsə soruşan olacaq».

«– Onlardan nə üçün ayrılmalıyam? Niyə mən kiməsə hesabat verməliyəm?»

«– Sənin yolun bu qızlardan üzüyünün qaşı itən gündən ayrılıb».

«– Axı, mən tək deyiləm. Biz çoxuq; yüzlərlə, minlərlə, milyonlarla… Hamımızın qabağını kəsməyəcəksən ki? Bizim kimilər həmişə olub, yenə də olacaq. Biz həyatın bir anlıq şirinliyindən həmişə həzz almışıq. Həmişə eşq hayındayıq, həm də heç bir əvəz gözləmədən».

«– Xeyr, sən bu yolun yolçusu deyildin…»

«– Axı, sən kimsən? Gecənin bu vaxtı nə haqla qabağımı kəsmisən?»

«– Mən həmin adamam. Arxanca gəzib günahlarını yığıram…»

«– Sən… Sən… Fədaisən?»

«– Hə, Fədaiyəm, acı həqiqətlərin şahidi…»

«– Acı həqiqət mənəm?»

«– Sən də acı həqiqətsən, ancaq mən səni demirəm. İşğalçı ermənilər hücum edəndə, bizim naçar qızlar, gəlinlər ələ keçməsinlər deyə, özlərini qayadan atdılar. Yəqin düşmənlərin əlinə düşməmək üçün ölümü seçən qadınlarımız haqqında eşitmisən. Neçə

qız, gəlin Arazın sularında qərq oldu. Amma bunların sənin üçün bir qara qəpiklik dəyəri yoxdur.»

«– İnsanın özünə qarşı zorakılığı elə onun özünə təhqirdir. Mən hər addımımı öz istəyimlə atmışam. Arzularıma çəpər çəkməmişəm. Buna görə də yaşadığım həyatı özüm üçün təhqir hesab etmirəm».

«– Sən ləyaqətli ana ola bilərdin. Heyf, bu yolu seçmədin…»

«– Səni danışdıran nakam sevgindi. Bilmirsən ki, tale başıma nə oyunlar açıb? Təsadüf məni ana olmaqdan məhrum etdi…»

«– Bu təsadüf deyil, cəzanı çəkdin. Ağır və layiqli cəzanı…»

«– Nə üçün belə qəddarsan?»

«– Qəddar mən yox, sənsən. Sevgimi amansızcasına boğdun…»

«– Sən elə həmin Fədaisən…»

«– Amma sən həmin Fənayə deyilsən. Hansı hala düşdüyünü özün anlayırsanmı?»

«– Əgər sən həmin Fədaisənsə…»

«– Bəli, mən həmin Fədaiyəm. Heysiyyətini, sevgisini ayaqladığın, kasıb anasına gəlin olmaq istəmədiyin Fədai…»

«– Yox, Fədai, sənin sevgin yadımdadı. O sevgi qəlbimə çalın-çarpaz dağ çəkib. Aradan keçən bu qədər zaman ərzində o sevgi həmişə mənimlə qoşa addımlayıb. Çünki o, həyalı sevgiydi. Yox, Fədai, o sevgini unutmamışam».

«– Artıq gecdir».

«– Mən indi özümə yalnız o sevginin işığında baxa bilərəm. Amma nəyisə geriyə döndərmək mümkün deyil. Dünənimə dönən bütün körpülər yanıb. İrəliyə gedən yolumu da sən kəsmisən».

«– Sən bilməliydin ki, bir gün yolun kəsiləcək...»

Sanki Fənayənin içində nazik bir tel üzüldü. Dünya gözündə qaraldı, az qala yıxılacaqdı…

Özünü ələ almağa macal tapmamış, başı divara dəydi. Kəskin ağrı qara fikirləri qovub dağıtdı. «Oy!..» deyib ağrıyan yeri əli ilə tutan anda Fədai də «yoxa çıxdı». Qarabasmanın nə qədər sürdüyünü anlamadı. Vaxt ölçüsü itmiş, zaman qarışmışdı. Heç onu da bilmirdi ki, axşam düşüb hava qaralır, yoxsa, səhər açılıb dünya işıqlaşır?

Axşam düşürdüsə, tələsməliydi, çünki qaranlıqda bu dar döngələrdə azıb qalardı. Yox, əgər səhər açılırdısa, daha pis. Ötüb-keçənlərin məzəmmətli baxışları altında qalmaq daha əzablıdı.

Özünü birtəhər ələ almağa çalışdı. Pillələri sürətlə qalxdı. Dizlərinə taqət gəlmişdi. Az qala bir-birinə yapışan iki divarın darlığından çıxanda, tordan qopmuş şikar kimi sevindi. Ürəyində yüngüllük vardı. İndi onun ruhunda şirin çağların xəyalı yer almışdı.

Payız günəşinin batmaqda olan şüaları altında, sahildən bir qədər aralıda Haris qayığın içində ayaq üstə durub onu çağırırdı. Bədəni tunc kimi günəşdən yanıb-qaralan Haris, o qədər çantaraq olmasa da,

aralıdan gün işığının altında əfsanəvi yunan qəhrəmanlarını xatırladırdı.

Haris sürətlə ona doğru gəlirdi. O addımladıqca İçərişəhərin minillik divarlarına səs düşür, elə bil yer-göy silkələnirdi. Onun addımının hökmü sanki qaralmış divarları uçurur, daşları oyan-buyana itələyirdi. İndi İçərişəhərin dar-dolama küçələri, dalanları görünmürdü. Ağlasığmaz dərəcədə əyri-üyrü döngələr yox olmuşdu. Fənayə irəlidə ancaq Harisi görürdü. Fədai bayaqdan yox olmuşdu. O, ayırd edə bilmirdi ki, bu yuxudur, yoxsa həqiqət, çaşıb qalmışdı. Bir az öncə mühakimələri ilə Fənayənin xəyallarında xaos yaradan Fədai, həqiqət axtaran Fədai, azman, nəhəng, əfsanəvi Harisin önünü kəsə biləcəkdimi?

Fənayə çalpaşıq düşüncələrin içində idi. Eyni vaxtda həm bugündə yaşayırdı, həm də dünəndə. Budur, bax, indi də beynində Fədainin qızmar günəş altında, tənha ağacın kölgəsində ona dediyi sözlər təkrarlanır. Kimə üz tutmalı? Onu dəli kimi, saf bir məhəbbətlə sevən Fədaiyə, yoxsa güclü, qüdrətli Harisə?..

* * *

Fənayə çimərliyə həvəslə gəlirdi. Bir-birini altdan-altdan ehtirasla süzən insanlar, onun gözündə tamam fərqli məxluqlar kimi görünürdü.

İnsanı əcdadından milyon illik zaman məsafəsi ayırsa da, adəm övladının elə vərdişləri var ki, qətiyyən dəyişməyib. Həmin o qədim insandan – meşələrdə dəstə ilə gəzib yem axtaran, mağaralarda sürü ilə yatan, yem üstündə, bəlkə lap elə cütləşmə üstündə birbirini didən, parçalayan insandan milyon il bəridəki, bu günün adamlarını ayıran əxlaq sipəri düşünülən qədər də etibarlı deyil. Bəlkə də qanlı müharibələri törədən də elə qan yaddaşında milyon illərdən indiyə qədər daşınan nadan və heyvərə hislərdir. Qətllərin, qarətlərin, var-dövlət yığmaq hərisliyilə bir-birinə min cür tor, hiylə quran insan əməllərinin arxasında həmin qədim insanın vəhşi şüuru dayanır. Acgöz, gün ərzində qarnını doyurmaq üçün hər cür ağlasığmaz qəddarlığa əl atan qədim insan… Bəs, onda çağdaş insan kimdir? İlkin həris hisləri olduğu kimi qalan, ancaq zahiri dəbdəbəsi ilə fərqlənən, qarşısıalınmaz istəklərə sahib əlahəzrət insanmı?..

…Çimərlik xatirələri Fənayənin xəyalını dalğalandırır, hərdən oradakı lüt-üryan adamlara baxanda, onları dənizə çəkən hissin qədim insanla bağlılığını da fəhm edirdi. Şüurun dayazlığı bir yana dursun, amma qədim insan necə də xoşbəxt olub, necə də azad yaşayıb. Hansı mağarada, kimin yanında olmaq onun öz istəyindən asılı idi. Heç bir qayda-qanun o varlığın azad hislərinin qabağına sədd çəkə bilməzdi. Ədəb-ərkan, davranış qayda-qanunlarını yaradanlar, gələcək nəsillərə amansız tor hörüblər. Bəs, görəsən,

necə olub ki, insanlar gül kimi azad keçmişlərini atıb, qayda-qanunların «dar, boğucu həbsxana divarları» arasına giriblər?

Əcdadlarının izləri qayalar üstündə həkk olub qalan insanlar, indi hər cür əxlaq pərdəsi altında riyakarlıqla öz hislərini gizləyir, guya bu çimərliklərdə sadəcə öz sağlamlıqlarını qorumaq, istirahət etmək, dincəlmək istəyirlər.

Bəlkə heç belə deyil?! Bəlkə bütün bu düşüncələrin iynənin ucu boyda məntiqi əsası yoxdu?! Bəlkə qəribə yozmalar Fənayənin daxilindəki təlatümlərin yaratdığı qəzəbdən, həyata qərəzli münasibətindən doğur?! İlahi, insan beyni nə boyda fikir yükünü öz içinə almaq, xəyal qanadlarında dartıb aparmağa qadir imiş!..

* * *

Yay keçdi. Hava hiss olunacaq dərəcədə soyuduğundan adamların dəniz qırağına – çimərliyə axını azalmış, aram-aram ləpələnən dalğalar da sanki yorulmuşdu. Payızın sərin nəfəsi daşların, sahil qumlarının yandırıcı hərarətini yalayıb aparırdı.

«Satir» restoranının çimərlik qayğıları azalmağa başladı. İndi qonaqlar daha çox axşamlar gəlirdilər. Burada gecələmək, əylənmək və dincəlmək üçün əla şərait vardı. Sağ sahil boyunca xeyli irəlidə və bir qədər hündürdə – rəqs meydançası bütün yayı çal-

çağıra, hay-küyə bələnmişdi. Bir-birinə qovuşmağa doğru can atan insanların damarlarındakı ehtiraslı qan onları ram olmağa qoymur, oynadır, yerində dingildədirdi. Təpiklər altında döyülən daşların üzü sürtülməkdən işıldayırdı.

Harislə Fənayənin yayı demək olar «Satir»də keçdi. Tanışlığın ilk vaxtlarından fərqli olaraq, Harisin maddi imkanı indi daha da yaxşılaşmışdı. Haris şəhərin imkanlı iş adamlarından birinə çevrilmişdi. «Satir» restoranı da Harisin işbirliyi qurduğu şirkətə məxsus idi. Fənayə bütün bunları görür və bilirdi.

Ötən yayın birgə keçən günlərində Fənayə Harisi yaxından tanıdı. O, iş barəsində qapalı adam idi. Elədikləri, qurduğu əlaqələr barədə kəlmə kəsmirdi. Onun az vaxt içində nələri və necə qazandığını kimsə bilmirdi. Rahibənin Fənayəyə deməyindən belə çıxırdı ki, aşıb-daşan sərvətin mənbəyi barədə Harisin yaxın qohumlarının da fərli-başlı bilgisi yoxdur. Fənayənin onun şəxsi işləri ilə maraqlanmaması Harisin ürəyincə idi. Əsas o idi ki, Haris qızın ən xırda istəyini də gözündə qoymurdu.

Harisin fikrincə, pul arzulara yetmək üçün vasitədir. Qız onun bu fəlsəfəsinin fərqinə varırdı. Şübhəsiz ki, Harisin təbiətində qüsur axtarmamaq mümkündü. Çünki əlahəzrət zaman özü günbəgün Harisin nöqsanlarını üzə çıxarırdı. Bəlkə də başqaları bu yaramazlığı görmürdü, yaxud fərqində deyildi. Amma Fənayə varlığı ilə var olduğu, ruhu, eşqi

ilə nəfəs aldığı bir adamın olar-olmazını, çatar-çatmazını görməyə bilməzdi. Fənayə tanıdığı kişiləri müqayisə edəndə, nöqsanlarına baxmayaraq, üstünlüyü sonda yalnız bir nəfərə verirdi: Harisə. Bir də ki, nəyin yararlı, nəyin yararsız olduğunun, nəyin yaxşı, nəyin pis hesab edildiyinin meyarını kim müəyyən edib axı? Çoxunun yaramaz saydığı bu və ya digər davranış, bəlkə qoçaqlıq, bacarıqdır?! Bu cür düşünəndə, qız Harisə yenidən və bir qədər də möhkəm bağlanırdı. Hətta onun hərisliyini də qəbahət saya bilmirdi. İnsafən, Harisə xəsis demək olmazdı. Sadəcə, daha çox pula, var-dövlətə sahib olmaq istəyini boğa bilmirdi.

Burada fərqləri vardı. Harisin əksinə olaraq, Fənayə pula, bahalı hədiyyələrə, demək olar ki, can atmırdı. Bu, bəlkə də Fənayənin varlı ailədə böyüməsindən, daş-qaşın, zənginliyin nə demək olduğunu bilməsindən irəli gəlirdi. Bu cəhətinə görə, Haris Fənayəyə, özü demişkən, qibtə edirdi. Bəzən Fənayə istədi-istəmədi, Haris ona bahalı hədiyyələr alır, bir növ sevgisini hədiyyə şəklində də nəzərə çarpdırırdı.

Fənayəyə görə, ən dəyərli pay – dünyadan birgə təcrid olduqları anlarda Harisin bəxş etdiyi ehtiras və həzz idi.

…Hər şey cəhənnəm olsun, yaşasın məhəbbət! Sevgilər, nəvazişlər içində birgə yaşanan həyatın dadını heç nə verməz! Əlbəttə, Fənayə başqa cür də düşünürdü: görəsən, Harislə görüşlərinin sonu nə ilə

bitəcək, tale onu hansısa geniş yola, yoxsa dar bir dalana aparacaq? Bəzən də günlərlə evə qapılıb qalır və çox tez bir zamanda darıxmağa başlayırdı. Bərk, çox bərk darıxırdı. Onu Harisə doğru sözdə, lap elə düşüncədə ifadə eləyə bilmədiyi hansı sirli duyğularsa ahənrüba kimi çəkirdi. «Aya-günə dönmüsən, nə zaman gəlirsən bizə, nə vaxt görüşürük?» – Harisin telefonda söylədiyi sözlər onun içindən şəlalə kimi axır, nə ki, bədgüman fikirləri var, yuyub aparırdı. Tale və ömür haqqında qarışıq düşüncələr sevgi şirinliyinin, içinə sığmayan ehtirasın müqabilində ucuz və mənasız görünürdü. Hər dəfə Harisin onun belinə dolanan qolları arasında xumarlandıqca, isti nəfəsini boynunda, boğazında duyduqca, əsl xoşbəxtlik dəryasına qərq olurdu. Əməllicə bayıldığı, məstlikdən huşunu itirdiyi anlar az deyildi. Haris onu özünə qaytarmaq, ayıltmaq üçün öpüb-oxşayır, pıçıltı ilə çox şirin, pilə kimi yumşaq və məhəbbətli bir səslə çağırırdı:

– Fənayə, haradasan, özünə gəl.

– Dəryadayam…

Fənayə həqiqətən dəryanın lap dibində olan adamın hənirtisi qədər güclə eşidilən, yaxud heç eşidilməyən səslə cavab verirdi. Səs nə gəzirdi, ancaq dodaqlarının tərpənişindən Haris onun ümmanda olduğunu duyurdu, eşidilməz sonsuz istəyi fəhm edirdi.

Haris gülür, sevinir, duyğulanırdı.

– Nə dərya, ay qız, sən evdəsən. Bizim evdə, mənim yanımdasan.

– Yox, mən dənizdəyəm.

– Hansı dənizdə?

– Xoşbəxtlik dənizində.

– Boğulmazsan ki?

– Yox, sən yanımdasan…

…O günü «Satir»də yatıb qalmışdılar. Restoranın qarşısındakı çimərlikdə, ən məhrəm adamlar üçün səliqə-sahmanda qorunub saxlanılan hissədə həmin gün xoşbəxt olmuşdu Haris… Daha doğrusu, unudulmaz bir xöşbəxtlik tablosuna şahidlik etmişdi...

…Səhər yuxudan oyananda, Fənayəni yanında görməmişdi. Dəniz geyimini əyninə keçirib məxsusi çimərliyə sarı getmişdi və görmüşdü ki… Çimərlik taxtına uzanıb dincələn, sol ayağını düppədüz, tərpənməz uzadaraq, o biri ayağını dizdən büküb nazik belinə tərəf yığan dəniz mələyi, su pərisi Fənayə…

Haris, sanki bu əfsanəvi görüntünün qarşısında donmuşdu, bacardığı şey yalnız qıza heyran-heyran tamaşa etməkdi. «İlahi, bu nə möcüzədi, bu nə gözəllikdi?!..»

Elə bu an günəş də qəfildən peyda oldu, kəpənək qanadı kimi zərif, tül pərdənin arxasından çıxırmış kimi mübarək üzünü göstərdi. Əlçimə dönmüş bəyaz, pəmbə buludlar bir göz qırpımında dağılıb getdi. Nəhəng kürəşəkilli günəş, yerində gərnəşdi, boy göstərdi, gözlərini qıyaraq yerə – arxası üstə

uzanıb dincələn, sol ayağını düppədüz, tərpənməz uzadaraq, o birisini dizdən büküb nazik belinə tərəf yığan dəniz mələyi, su pərisi Fənayəyə baxdı. Buna bəlkə də «baxmaq» demək olmazdı, məftun-məftun tamaşa elədi. Su pərisi öz gözəlliyi ilə günəşin varlığını sehrlədi, ofsunladı…

Günəş bir an çaşıb qaldı, allanmış, alışıb-yanan sifətini gizlətmək istədi. Sonra bir az üşüdü də, hətta yüngül titrətmə keçdi canından. O, yerdən boylanan möcüzənin, gözəlliyin qarşısında sanki çaşdı, sanki utandı... Beləsini indiyə qədər görməmişdi. Bu gözəlliyin önündə hətta bir an təslim də oldu. Bəyaz buludlar çöhrəsini bürüdü… Hər tərəfə zəif kölgə çökdü...

Özünü zorla ələ aldı. Bircə anda yer-göy məhvərindən qopdu, qəribə, ecazkar bir cazibə hislərinə qalib gəldi. Bütün varlığı ilə qızı ağuşuna çəkdi…

Bu zaman günəş günəşliyini unutdu. Qızın içi yanırdı. Sahil qumlarından incə bədəninə hopmuş, bütün əzalarını yanar közə döndərmiş hərarət, odalov günəşi qızdırdı, coşdurdu, əbədi səngiməyən odunu dəmirçi kürəsinə döndərdi. Günəş, sanki bu məstedici, bihuşedici mənzərədən məst oldu, sövqitəbii cismindəki istilik, xumarlanmış qızın canındakı istiliyə qovuşdu. Qızın gözəl, zərif, mərmər kimi bəmbəyaz qarnına, şux, təravətli döşlərinə, tuncdan tökülmüş kimi ağ, uzun ayaqlarına təzə-tər hərarət gəldi.

Fənayə bu təmasdan xoşhal oldu. O, belə isti təmas, belə xoş qılıq, belə hərarət heç kəsdən heç vaxt görməmişdi. Elə bil aylı bir ziyafət gecəsiydi və əlçim buludlar az sonra üstünü duvaqla örtəcəkdi ki, bu mənzərənin müqəddəsliyi bir sirr kimi qalsın. Canında bir yüngüllük duydu, dərindən nəfəs aldı.

Qeyri-ixtiyari sağ əlini qarnının üstünə qoydu, elə bil bətnində nəsə titrədi, hərəkətə gəldi, nəsə tərpəndi və bu hal qızı səksəndirdi. Ona elə gəldi ki, günəş bu an özünün əsrarəngiz işığını, həyatverici nurunu onun bətninə doldurdu. O, günəşdən hamilə qaldı…

Bu hal qızı ehtizaza gətirdi, sanki içini çölə çevirib bu işığı, bu nuru təkrar-təkrar görmək istədi. Bir qədər çaşdı, tamam özünə gəlib toxtayandan sonra, günəşin ümidverici simasına utana-utana baxıb, xoşbəxt-xoşbəxt gülümsündü…

Ayna üzlü dənizdən sərinlik daşıyan yumşaq meh Fənayənin ipək tellərini oxşayırdı. Günəşin qəhvəyi rəngə boyadığı qeyri-adi biçimli, mütənasib bədəni, demək olar çılın-çılpaqdı. Yalnız zəndlə baxanda, bənövşəyi rəngli, hədsiz dərəcədə mini olan çimərlik paltarı qızın batıq göbəyindən bir az aşağıya «qonmuş kəpənəyi» xatırladırdı. Dik döşlərinin üstü açıqdı, məmələrinin ucundakı qara gilələr qaymaq üstünə düşən bir cüt iri qara kişmiş dənəsinə bənzəyirdi. Tərpənməz uzanan bu dəniz pərisi sanki bir az əvvəl sulardan qopub gəlmişdi. Suyu qurumamış bədənində yenicə doğulan bu səhər günəşinin qırmı-

zımtıl-sarı işığı alışıb-yanırdı. Qıza vurulmuş günəşin, sanki lap ürəyinin başından qopub gələn ən parlaq, ən gur bir şüa, bu islaq mələyin bükülü dizindən başlayaraq, batıq göbəyinin lap aşağısına «qonmuş bənövşəyi kəpənəyə», qaymaq-kişmiş məmələrə, ayaq barmaqlarının ucundan başlayaraq, saçına qədər uzanır, bəlkə də dizin-dizin sürünərək yalvara-yalvara, qızın xoşbəxt, ilahi bir təbəssümə bələnən dodaqlarına çataraq yox olurdu. Günəş sevgisi qızın dodaqlarından axıb qəlbinə dolurdu.

İki nəfərlik çimərlik… «Vallah xoşbəxt adamam», – pıçıldayırdı Haris. Ona görə yox ki, bu mələk qızılı qumlardan, ləpəli-dalğalı dənizdən, gözlərini gengen açaraq yatmış qıza heyrətlə baxan göy üzündən, sulardan qopub gələn sərin mehdən, gözəl, parlaq, zərif dərisini «öpüşlərə qərq edən» günəşə yox, ona, məhz ona məxsusdur.

Bu ilahi gözəllik Harisi sanki ovsunlamışdı, dilsiz-ağızsız, cansız bir heykələ döndərmişdi.

…Təbiətin özü qədər əbədi olan bu qumlu, dənizli, günəşli günün xatirəsi Harisin qəlbindən uzun müddət silinmədi…

* * *

Maşından düşüb qaça-qaça sahilə doğru yüyürdülər. Haris son aylar daha çevik, daha şux görünürdü. Yaşadığı günlərin əhvalı sanki onun ömründən

otuz ili götürüb atmış, gəncliyinə qaytarmışdı. Aralarındakı yaş fərqi də silinib getmişdi.

Harisin evindəki həmin söhbətdən sonra onlar hər həftənin bir axşamını dənizdə, «Satir» restoranının qarşısında lövbər salaraq ləpələr qucağında ehmal-ehmal yırğalanan qayıqda keçirirdilər.

Qayığın saxlanılan həndəvərində soyunub-geyinmək yeri var idi. Fənayə bilirdi ki, o balaca çimərlik parçası kimi bu qayıq da, elə bu guşə də məxsusi Haris üçündür. Həmin sahə dekorativ hasarla, bəzəkli gül kolları ilə çimərliyin o biri hissələrindən demək olar ki, təcrid olunmuşdu.

Haris cəld soyunub qayığı açdı. Fənayə nisbətən hündür qayanın üstündən qayığa tullandı. Qayıq az qala çevriləcəkdi. Haris avarları buraxıb Fənayəni tutdu. Qızın bütün bədəni, dərisi, sanki dilə gəlib onu çağırırdı. Ləngər vuran qayıq sakitləşdi. Haris Fənayəni öpüb-oxşadı, sonra avarları çəkib qayığı idarə eləmək üçün yerinə keçdi. Onlar sahildən yavaş-yavaş uzaqlaşdılar. Şəffaf su damcıları üz-gözlərinə çilənirdi.

Fənayə də hərdən dolub ağlayanda gözlərindən bax, bu dənizin inciləri kimi göz yaşları tökürdü. Bəli, Fənayənin belə ağlamaqları olmuşdu; Harislə ilk tanışlıqdan sonra, öz evlərində – duşun altında. Bir dəfə də haçansa…

Sahildən uzaqlaşıb adamların nəzərində qara bir xala döndülər. İlim-ilim itdiklərinə ikisi də əmin

idi. Haris avarları buraxdı. Fənayə durduğu yerdən Harisə tərəf quş kimi uçdu. Həftə nədi, deyirdin bəs, illərin ayrısı idilər.

Haris Fənayəni bağrına basdı. İndi Fənayə onun bədəninin bir hissəsi idi. Fənayədən özgə heç kim, heç nə yox idi yer üzündə, su üzündə, göy üzündə…

Kimsəsiz səhradakı axşam sərinliyində yuvasından çıxan ilanlar kimi bir-birilərinə sarıldılar. Ağırlıq qayığın bir tərəfinə düşdü. Taxta tənəkə ləngərlədi. Az qala suya yıxılacaqdılar. Fənayə Harisin qollarının arasından çıxan kimi, əynindəki çimərlik paltarını çıxarıb qayığın arxa ucuna sarı atdı.

Sakit, küləksiz havada qısa təkanlardan ləngər vuran qayıq, insan hislərinin sonsuzluğuna, zənginliyinə şahidlik edirdi.

Zəif dalğaların qayığı yırğalaması, əfsanəvi ehtiras ilahəsinin – Erosun laylasını xatırladırdı…

* * *

Günəşin batmağına az qaldığından, üfüqün qırmızı rəngi dənizin üzünə çökməkdəydi. Həmişə göm-göy, bəzən də mavi-yaşıla çalan suların dinc üzünü bəzəyən qırmızı rəng, Yusifcana cazibəli göründü. Birdən ona elə gəldi ki, ətraf büsbütün qırmızı rəngdədir. Çox orijinal, bənzərsiz bir mənzərəyə şahidlik edən Yusifcan, indiyə qədər bu füsunkarlığı seyr edə bilmədiyinə təəssüfləndi. Bəlkə də on ildən, yüz-

ildənbir təbiət bu cür ecazkar, təkraredilməz mənzərəyə imza atır. O, dünyanın nadir tablolarının bu cür real, təbii mənzərələr hesabına yaradıldığına daxili bir əminlik duydu. Görünür, elə Səttar Bəhlulzadə də «Quba lövhələri»ni çəkəndə, təbiətin belə nadir anı ilə üzbəüz dayanıbmış...

Dəniz sahilindən xeyli hündürdə, qayaların üstündə heykəl kimi dayanmış Yusifcan, illərdən bəri arzuladığı mənzərəni itirəcəyindən qorxub, tez molbertini hazırladı, rənglərini çıxarıb yanına düzdü. Əvvəlcə yan-yörəsinə boylandı. Bəlkə elə yanından – oturduğu yerdən başlasın? Qəribədir, bu gün qayalıqlar da ona həmişəkindən fərqli görünürdü. Daşlar insan siluetlərini xatırladırdı. Sanki bir an öncə burada dəhşətli döyüş getmiş, insanlar bir-birini doğrayıb tökmüş, çapıq-çapıq eləmişdilər. Həlak olanlar uzanılı, yaralılar yarıməyilmiş vəziyyətdə daşa dönmüşdülər.

Qayaların oyatdığı faciəvi təəssürata baxmayaraq, rəssamın canında böyük sənət uğuru ərəfəsinə məxsus həyəcan vardı. Bu, yaradıcılıq təlatümü idi; gördüyü mənzərəni bu an, bir cizgini boş buraxmadan, tez, tələm-tələsik kətan üzərinə köçürmək üçün «alışıb-yanırdı». Qorxurdu ki, gözündə qeyri-adilik səlahiyyəti qazanan mənzərə, indicə öz adiliyinə qayıdacaq…

Bakının Dağlı məhəlləsində doğulan Yusifcanın adını babası qoymuşdur. Ağ, toppuş uşağı anadan olan kimi, hələ işıqlı dünyada ilk çığırtısını kəsməmiş,

onun yanına gətirirlər. Kişi ruhani adam idi. Bir xeyli dodağının altında nəsə oxuyur, uşağı qucağında bir qədər saxlayıb üz-gözünə baxdıqdan sonra, tutqun sifəti açılaraq, gülə-gülə deyir: «Bu ki, Yusifdir! Tanrı bu gözəllikdə ancaq kənanlı Yusifi yaradıb. Qoy onun şərəfinə bu körpə oğlanın adını Yusifcan qoyaq».

Həmin ad ilə boya-başa çatan Yusifcanın sonrakı həyatı, mənimsədiyi sənət onun gözəlliyinə sanki daha da rövnəq verirdi. Çəkdiyi tablolarda daha çox insanların daxili, mənəvi aləmlərini, ağrılarını verməyə çalışır, eyni zamanda rənglərin harmoniyasından yararlanaraq, canlı aləmin gözəlliyini obrazların dili ilə təcəssüm etdirirdi.

Yusifcanın nurlu sifəti, üzünün duru, ağ rəngi gözlərinin maviliyinə qovuşub üfüqlərəcən uzanan dənizi andırırdı. Xəfif küləyin təsirindən gümüşü saçları kənardan baxana dəniz dalğaları təsiri bağışlayırdı. O biri rəssamlar kimi saqqal saxlamırdı. Amma uzun saçları çiyinlərinə qədər tökülən Yusifcan, həmişə molbert arxasına keçəndə, döyüşən cəngavərə bənzəyirdi.

Yolda, küçədə, adamlar arasında isə daim fikirli görünürdü. Yaratdığı əsərlər beynəlxalq müsabiqələrdə mükafatlara layiq görülsə də, özü həqiqi sənət sevincini yaşaya bilmirdi. Qəzetlərdə, televiziyada onun haqqında yazılar, məlumatlar verilməsinə, yaradıcılığının ümdə məziyyətlərindən söhbət açıl-

masına rəğmən təbii bir tutqunluq, az qala dərin bir kədər rəssamın gözlərinin içindən silinib getmirdi. Yusifcanın qəlbində bir boşluq vardı, sinədolusu nəfəs ala bilməyən adama oxşayırdı. Bütün varlığı ilə duyurdu ki, onun ehtiyaclarına, daxili istəyinə cavab verə bilən aləm buralarda yoxdur, çox uzaqlardadır. Amma harada? Nə qədər uzaqdı o uzaqlar?

Yusifcanın qızları da rəssamdı. Həyat yoldaşı – bağça müəlliməsi Zərifə xanım nə qədər pərvanə kimi başına dolansa da, nə yazıq ki, ərinin döş qəfəsinin altına çökən tənhalıq buzunu əridə bilmirdi. Yaraq-əsləhəsini qoltuğuna vurub evdən çıxanda, kim ondan soruşsa ki, «hara gedirsən?» – bircə kəlmə ilə cavab verirdi: – «Döyüşə».

Füzulini yaxşı bilirdi. Ona görə də həmin sualı – «ölməyə, yoxsa öldürməyə?» – təbiri ilə zarafatcıl qonşusu verəndə, cavabında: – «düşmən qəvi, tale zabun», – deyirdi. Təbii ki, bu sözlərin arxasında həssas qonşunun da anlaya biləcəyi sətiraltı məna vardı və bu məna ayrı məsələ ilə deyil, məhz güclü sənət yanğısı ilə bağlıydı.

…Yusifcan molbertin arxasından qalxıb ətrafdakı nəhəng qayalara sarı yüyürdü və əllərini bir-bir daşların üstünə çəkdi. Rəssama elə gəldi ki, mamır basmış, yaşı mini ötmüş qayalar bu əllərin təmasından inildədi. Və bu səsin ifadə etdiyi məna, yəqin ki, beləydi: «Çəkmə, əlini vurma! Sən bizi qaya kimi, daş kimi çəkə bilməzsən! Biz canlıyıq, elə indicə dö-

yüşdən çıxmışıq! Həmin o dənizin üzündə gördüyün qırmızı rəng də bizim qanımızdır, axıb sulara qarışıb!»

Qayalardan aşağıda – «Satir» restoranından şəhərə tərəf uzanan çimərlikdə yayın cırhacırındakı qədər olmasa da, xeyli adam vardı. Bakıda belədi, sentyabrın istisi bəzən yay istisindən geri qalmır. Yarıçılpaq adamların ağlına da gəlmirdi ki, kimsə yuxarıdan onlara baxır. Adamlar dənizə baş vurur, çıxıb sahildə uzanırdılar. Uşaqlar suyun kənarı ilə qaçışır, çığırışırdılar. Ancaq bu səslərin heç birisi yuxarılara, qayaların üstündə qərar tutmuş Yusifcana gəlib çatmırdı. Bax, elə bu an Yusifcanın dənizin içərilərinə doğru zillənən gözləri dərinliklərdə xala dönüb güclə seçilən balaca qayığı gördü. Qayıq dünyadan xəbərsiz kimi suyun üzündə yırğalanırdı. Deyəsən, qayığın içərisində adam vardı. Hə, iki nəfər... Gənc qız bütün gözəlliyi ilə günəşin altında par-par yanırdı. Güclü qollar arasında özünü tamam unutmuşdu. Bu adamlar həmin anda təbiətlə təmasda olmağa can atır, kainatın bu qeyri-adi, bənzərsiz fonunda bir-birinə qovuşmuş həsrətlilər kimi sanki xoşbəxtlik dənizində üzürdülər.

Nədənsə, Yusifcanın yadına Fənayə düşdü və özünə gülməyi tutdu. Bu uzaqlıqda məsafədən həmin qızın Fənayə olduğunu heç kimsə deyə bilməzdi. Yusifcan bu fikri beynindən uzaqlaşdırdı.

Batan günəşin qızılı şüaları altında onlar da qırmızı rəngə boyanmışdılar. Bəlkə əsl xoşbəxtliyin çalarları

elə belə olur? O, bir anlığa bu adamlara qibtə etdi. Və düşünəndə ki, onlar yenidən sahilə qayıdacaqlar, təəssüfləndi. Xeyr, onlar qayıtmamalıdır. Bu xoşbəxtliyin yolu üzü o yanadır – dənizin dərinliklərinə doğru. Qırmızıya bürünmüş dənizin sonunacandır…

Yusifcan diqqətini toplayaraq, molbertin arxasında işləyirdi. Sahil, sahildən bir az aralıda qayalıqlar… Bütün bunları rənglə kağızın üzərinə köçürməyə tələsirdi. Dənizin üfüqlə kəsişən yerində, lap qurtaracaqda günəş sonuncu dəfə şəfəqlənir, yoxa çıxacaqdı. Amma onun varlığından süzülən qırmızı rəng dənizin üzünə xalı salıb qalacaqdı. Bu qırmızı rəngin fonunda qayığın içərisində uzanmış iki nəfər özlərinin xoşbəxtlik odasında dünyanı unutmuşdular. Zaman onların batan günəş işığında parlayan bədənlərini bir ilıq meh kimi sığallayaraq, ötüb-keçirdi.

Yusifcan rəssamlıq akademiyasında dərs deyirdi. Tələbələrinə öyrədirdi ki, təbiətdəki mənzərələr heç vaxt təkrar olunmur. Tuta bildiyiniz lövhəni həmin anda dərk edə bilsəniz, – əgər istedadınız varsa, – bunu əbədiyaşar sənət nümunəsinə çevirəcəksiniz. Başqa halda, hər hansı bir nəticəyə ümid bəsləməyə dəyməz.

Deyəsən, Yusifcan ömrü boyu axtardığı həmin ilahi, əbədi anı tuta bilmişdi. Bu əbədi tablo əllə tutulacaq qədər yaxındaydı. Elə ona görə də, dəli kimi işləyirdi. Bütün gücü ilə gördüklərini yaddaşına hopdurur, oradan da kətana köçürürdü.

İlk eskizlər demək olar, hazır idi. İki nəfərin taleyin ixtiyarına buraxılmış qayıq dünyasının ecazkar mənzərə fonunda təsviri, Yusifcana imkan verirdi ki, nəticənin uğurunu gözləsin, daha doğrusu, ona yetişsin. Axı, sənətdə şans əvəzsiz vasitədir. Yusifcan çəkdiyi tabloya kənardan baxmaq üçün ayağa qalxdı. Mənzərə indi bir qədər dəyişmişdi. Günəş batmışdı, buna baxmayaraq, ətrafı aydın görə bilirdi. Dəniz qırağındakı adamlar seyrəlməyə başladı.

«Satir» restoranının yanar çilçıraqları ətrafı işıqlandıran kimi, bayaqdan sahildə olanların çoxu oraya toplaşdı. Rəqs meydançasında qələbəlik idi. Bu mənzərə Yusifcanın diqqətini çəkmirdi. Dönüb işlədiyi tabloya baxdı. Tablo həmin qırmızı rəngin təsirindən parlayaraq, ətrafa işıq yayırdı. Ona elə gəldi ki, indi əlləri də qırmızı rəngdədir…

Yusifcan rəng qutularına baxdı. Diqqəti daha çox qırmızı rəngin üzərində ilişib qaldı. Qutu demək olar ki, boşalmışdı. Görünür, bütün xoşbəxtliklər məhz qırmızı ilə həmrəngdir. Qırmızı rəng bəxtiyarlıq simvoludur. Hətta bu rəngə bələnmiş ölümlərin məzmununda da xoşbəxtlik çalarları vardır.

Bayaq hansı ehtirasla işləyirdisə, indi də həmin tezlik və ardıcıllıqla düşünürdü. Ancaq yaranan tabloda yenə nəsə yarımçıq qalmışdı, nəsə çatışmırdı. Bəlkə lövhəni duyduğu kimi köçürə bilməmişdi? Hər şeyi yerli-yerində idi; qayalar da, sahil də, uzaqda qarışqa kimi görünən balaca adamlar da, batmaqda

olan günəş də, hətta qayığın əl dəyməyən avarları da. Avarlar elə təsvir edilmişdi ki, suyun üzündəki hissələri bir-birinə doğru uzanmışdı. Onlar bir-birinə qovuşmaq üçün can atsalar da, biri-digərinə toxunmurdu. Bu an Yusifcan nə isə tapmış kimi sevindi. Uzaqda, dənizin üzündəki qayıqda xoşbəxtlik timsalı olan iki qağayını da çəkməli idi. Doğrudur, kiməsə elə gələ bilərdi ki, qayığın içərisində adam olduğu halda, qağayılar avarların üstünə qona bilməz. Amma o, bunu da çəkdi. Çünki insan ruhunu quşların timsalı kimi görürdü. Qağayılar qayığın üstündə dimdik-dimdiyə dayanmışdı. Dimdikləri ilə bir-birinə doğru dartınırdı, görünür, öpüşmək istəyirdilər. Amma qağayılar nə qədər cəhd etsələr də, dimdikləri bir-birinə çatmırdı.

Bu da xoşbəxtliyin son akkordları… Hələ bilmək olmaz, bu qayıqdakı adamlar xoşbəxtdirlər, ya yox?! Yusifcan yenə düşüncələrə daldı, cütlərin cinsi yaxınlığı, vəhşi ehtirasların bir-birinə qovuşması hələ xoşbəxtlik demək deyildi, yalnız ruhlar qovuşanda, insan arzuladığı vüsala yetə bilər. Avarların üstündəki qağayılar bunu deyirdi. Yusifcan gecənin qaranlığında təbəssümlə fikirlərinə yekun vurdu.

Dənizin üzündəki tənha qayıq daha görünmürdü. Ətrafda səs-səmir yox idi, sanki «Satir» restoranından yayılan musiqi də eşidilməz olmuşdu. Yusifcanın qulaqlarında uğultu vardı. Vahiməli bir səs onun beynindən, başından dalğa-dalğa qalxıb ətrafa yayılmaq-

da idi. Rəssama elə gəldi ki, dəniz yuxudan oyanan nəhəng div kimi kükrəyib ayağa qalxır. O, şahə qalxan dalğaların ətrafa səpələdiyi yağışın altında donub qalmış kimi görünürdü. Boğazı qurumuş, dil-dodağı təpimişdi. Yalnız indi hiss etdi ki, bərk susayıb. Bütün bədəni isə suyun içində idi. Onu qan-tərə batıran zəhmətin gərginliyini hiss etməmişdi…

* * *

Yusifcan emalatxanaya qayıtdı. Gecədən xeyli keçmişdi. Əvvəl evə getmək istədi. Ola bilsin, arvadı yatmayıb onu gözləyirdi. Evə getsəydi, yuyunar, yorğunluğu canından çıxardı. Bütün günü demək olar ki, dilinə heç nə dəymədən, acqarına işləmişdi. Lakin hansı bir hissin təsiri altındasa o, bu dəqiqələrdə əsərləri ilə baş-başa qalmaq istəyində idi.

Metronun «Əhmədli» stansiyasında axırıncı qatardan düşüb, doqquzmərtəbəli binanın zirzəmisindəki emalatxanasına getdi. Bir neçə pillə aşağı enib, qapının açar yerini çətinliklə tapdı. Yusifcan sanki çöldəki qaranlıqdan yaxa qurtarmaq üçün tələsirdi. Baxmayaraq ki, küçə işıqları, reklam lampaları ətrafı xeyli işıqlandırmışdı. Əslində qəlbinin dərin qatlarındakı zil qaranlıq, gecənin bu aləmində, sonuncu sakinlərin də öz mənzilinə tələsdiyi bir vaxtda, onu yolunu dəyişməyə məcbur edirdi. Bu qaranlıq çox vaxt rəssamı tərəddüdlər qarşısında qoyur, başqa variant-

lar barədə fikirləşməyə imkan vermirdi. O, çox zaman bu emalatxanaya son güman yeri, nicat yolu kimi baxırdı. Çünki buranın yolu onun öz içindən keçirdi. Məhz burada bütün dünyanı unudur, özü-özüylə danışa bilirdi. Yoxsa, adam arasında, hay-küy içində can söhbəti edə bilərdimi? Əlini tərpətməyə məə

Guya dəliyə baxırlar. Azca duysalar ki, səsi də gəlir, qolunu burub dəlixanaya basarlar. İnsanlar heç vaxt bir-birini başa düşmək istəmirlər. Fikir içində yol gedən, lap intihar etməyə hazırlaşan birisi təsadüfən başqasına toxunsa, elə bil dünya dağılır. Heç kim heç kimi bağışlamaq istəmir, bəs, onda nə üçün cəmiyyət toplum halında yaşamağa üstünlük verir? Nə üçün hərə üzünü bir tərəfə çevirib dağa-daşa, lap qədim mağaralara yön almır?

Yusifcan bu düşüncələri ilə kimi ittiham etdiyini deyə bilməzdi. Konkret olaraq o, bir kimsədən narazı deyildi. Arvadının ona qarşı hədsiz qayğıkeşliyini, diqqətcilliyini yada salanda, bu qadına yazığı gəlirdi. Əlbəttə, onun bu düşüncələrindən Zərifə də xəbərsiz deyildi. Amma buna görə ərini qınamır, özünü alçaldılmış hesab etmirdi. Bu, Yusifcanı haldan-təbdən çıxarırdı. Ona görə də emalatxanaya dönəndə, yolunu gözləyən Zərifənin nigaran qalacağı vecinə deyildi.

Yusifcan çölün qaranlığından çox öz içinin qaranlığından qaçırdı. Guya emalatxanaya girib işığı yandıran kimi, onu qovan zülmətdən xilas olacaqdı. Da-

xilinə çökən bu nigarançılığın uzun bir tarixçəsi vardı. Söhbət ömrün axırınacan sürə bilən, onun dincliyini əlindən alıb girinc eləyən nigarançılıqdan gedirdi. Dolayısı ilə bu, kimsənin ağlına gələ bilməyən bəla idi. Yusifcana görə, bunu heç bir bəni-bəşər duya bilməzdi. Çünki bu bəla heç də adi həsrət, sadə nigarançılıq deyildi. Bəlkə də başqalarına çox cüzi, hətta lap mənasız görünə bilərdi. Amma həqiqət budur ki, axşamtərəfi dəniz sahilində gördüyü mənzərənin təkrarsızlığı onu dərin bir qorxuya düçar eləmişdi.

İşığı yandıran kimi, eskizləri taxta dayaqların üstünə düzdü. Fraqmentlərdə vaxt darlığı açıq-aydın görünürdü. O, sanki təbiətin ayrı-ayrı parçalarını tələsik götürüb lövhə üzərinə düzmüş, bir neçə saat öncə naturada gördüyü rəngləri yaddaşına hopdurub, ikinci mərhələdə, öz qəlbinin də rəngini əlavə edərək canlandıracaqdı.

Çəkdiyi lövhələri hər xırda cizgisinə qədər gözdən keçirir, bəzi məqamlara təkrar-təkrar baxırdı. Təbii qaya parçasını olduğu kimi çəkmişdi; naturadan, necə varsa, eləcə. Ancaq qəribə idi ki, bu qayaların gözü, qaşı vardı, qayaların qəzəbi, kini, nifrəti, istehzası kətan üzərində açıq-aşkar oxunurdu. Hələ onların aldığı yaralar, mamır basmış sal daşın yumşaq sinəsi, qayaların qırış-qırış yarıqları onun gözlərində əsl insan bədəninin ayrı-ayrı üzvləriylə eyni idi. Bu qaya adamlar indicə döyüşdən çıxmış, elə indicə daşa

dönmüş kimi görünürdülər. Görəsən, onlar bir-birini nəyin üstündə qana qərq etmiş, didib parçalamışdılar? Yem üstündəmi? Yox! Bəlkə ərazi, torpaq, daha yaxşı mağara üstündə; istidən daldalanmaq, soyuqdan qorunmaq üçün? Bəlkə məsələ daha ciddidir? Kim kimə tabe olmalıdır? Demək, kim kimi? Bioloji təminat, instinkt, cütlərin yaxınlıq istəyi, vəhşi ehtirasların təminatı… Nə qədər amansız və bəsit olsa da, qədim insan üçün bunlar həyatın mənasıydı, ölüm-dirim məsələsiydi. Guya, bugünkü insanın çalışıb-çarpışması qədim əcdadının həyat məqsədindən çoxmu fərqlənir? Həmin mərəz indi də dipdiri durur. Deməli, nə qədər insanlıq yaşayır, cəmiyyət mövcuddur, köhnə mərəz o zamana qədər öz hökmranlığını saxlayacaq. Sadəcə, insanın görkəmi, saç düzümü, geyim-kecimi, bir sözlə, zahiri əlamətləri dəyişə bilər. Bir vaxt insanlar əlləri, dişləri, caynaqları ilə didib-dağıdır, daşla vurub yıxır, nizə ilə deşirdilər. Sonralar qılınc, qalxan, ox, kaman, daha sonra nüvə silahları, toplar, mərmilər, raketlər, dağıdıcı bombalar çıxdı… Ancaq mahiyyət və niyyət eynidir. Daha çox əldə etmək!.. Yalnız bu!..

Baxdığına dönüb bir də baxır, bezib yorulmurdu. Dənizin qırmızıya çalan rəngi, sahilin qəribə qayaları elə orada, sahildəcə qalmışdı. Bu rəsmlərdə təsvir olunanlar qədim insanın özü idi. Sahildə, dənizdə qaynaşan adamlara hər kəs öz gözü ilə baxırdı.

Bəs, qayıq? Hanı o eskiz? Axı, Yusifcanın bütün gücünü, qüvvəsini məhz həmin mənzərə səfərbər

etmiş, onun ağlını başından çıxarmışdı. Orada – sahildən xeyli uzaqda dənizin üzündə insan təbiətin bir parçası, həm də təbii olduğu qədər də nadir bir parçası idi.

– Aha, budur, buradadır.

Eskizlərin arasında üzü divara düşüb gizli qalan lövhəni qaldırdı.

– Mənim azad qağayılarım, gəlin, sizi bu gecə ziyafətinin şahanə bir süfrəsinə dəvət edim. İstəyim sizi təbiətin ən uca varlığı kimi sənət aləminin daimi sakininə çevirməkdir. Əyninizdə paltar yoxdur. Unutmayın ki, insanları paltar geyinməyə məcbur edən onların riyakarlığı, yalançı, saxta mədəniyyətləridir. Mən sizi görəndə, özümü tapdım.

– Bəs, harada itmişdin bu günə qədər?

– Harada itdiyimi bilirəm. Ailə həbsxanasında.

Yusifcan qəhqəhə eşitdi. Tez qapıya yüyürdü. Cəftəni necə vurmuşdusa, elə də qalırdı. Sanki qapı qarışıq cəftə ona istehza etdi: «Deyəsən, başın xarab olub…»

«Gecə vaxtı bu kimsəsiz emalatxanada kim ola bilər? Yox, burada məndən başqa kimsə yoxdur, bəlkə doğrudan başıma hava gəlir?» Yusifcan emalatxanaya göz gəzdirdi. Ayrı-ayrı vaxtlarda çəkdiyi, üstünü toz basmış portretlər, mənzərələr, daşlar, ağaclar – hamısı lal sükuta dalmışdı. Təkcə öz aləmlərində olan dəniz xoşbəxtləri canlı idilər. Ehtiraslı, yarıyumulmuş gözlər ona çox tanış idi. Dənizin kimsəsizliyində, sakit lə-

pələrin qoynunda gərilmiş əzələli qolları ilə bu qızı özünə sıxan o adam da yad deyildi. Yox, Yusifcan yatmamışdı, yuxu görmürdü. Bu adamları yaxşı tanıyırdı, adlarını unutmuşdu, sadəcə adlarını…

* * *

Təzəcə evlənmişdilər. Yusifcanın qardaşları, bacıları toydan sonra onların xoşbəxt olmalarından, bir-birilərini dəlicəsinə sevmələrindən ürəkdolusu danışırdılar. Qohum-əqrəba gənclərin arasındakı ünsiyyəti az qala əfsanəyə çevirmişdilər. Həqiqətən də, Zərifə ilə evlənməyin təşəbbüskarı Yusifcan özü olmuşdu. Ancaq necə?..

* * *

Zərifə onların qonşuluğunda yaşayırdı. Orta məktəbi bir yerdə oxumuşdular. Zərifə pedaqoji institutun məktəbəqədər fakültəsini qurtarıb bağçada işləyirdi. Yusifcan əvvəl Ə.Əzimzadə adına Rəssamlıq Məktəbində, sonra da Rusiyada Rəssamlıq Akademiyasında təhsil alarkən bəxti onda gətirmişdi ki, sənətin sirlərini görkəmli sənətkarlardan öyrənmişdi. Tələbəlik illərində Zərifə ilə hərdənbir rastlaşardı. Demək olar ki, aralarında elə bir ciddi münasibət də olmamışdı. Sadəcə, bir məktəbdə oxuduqlarından uzaqdan-uzağa görüşər, etika xatirinə salamlaşardılar.

Yusifcan Rusiyadan Bakıya dönüb İncəsənət İnstitutunda işə düzəldi. Az keçmiş öz bacarığını ortaya qoyan bu cavan oğlana dərs saatı ayırdılar. Yusifcan eyni zamanda müsabiqələrdə iştirak edir, dəyərli işləri bəyənilirdi. Müsabiqələrin təltifləri, diplomları üst-üstə qalanırdı, məşhurlaşır, tanınırdı. Ailədə isə qardaşları, bacıları ondan evlənməyi, ailə qurmağı tələb edirdi. Az qala, hər axşam bu məsələ ailə söz-söhbətlərinin başlıca leytmotivi olurdu.

– Axı, insan sevmədən necə evlənə bilər?

– Bəs, biz nə istəyirik? Səndən elə bunu tələb edirik də… Kimi istəyirsən sev, vurul, təki evlən!

– Beləsi rastıma çıxmayıb.

– Bəlkə rastlaşmısan, fikir verməmisən?

– Hələ gəzirəm.

Axırıncı dəfə evdəki söz-söhbət yenə də qalmaqala çevrildi. Yusifcan zara gəlmişdi. Onu dilə tutanlara, ittiham edənlərə söz tapıb deyə bilmirdi. Əslinə qalsa, evlənmək istəyirdi, ancaq sevgisiz izdivacı ağlına gətirmirdi. İnstitutda gördüyü qızlar ona bab deyildi. Lap elə bu yaxınlarda qardaşı qırsaqqız oldu:

– Hə, bizə qəti bir söz deyəcəksən, ya yox?

– Yaxşı, fikirləşərəm.

– Sabah axşam səndən axırıncı dəfə soruşacağam.

Sonra əlavə etdi:

– Bəlkə and içəsən? Kişi sənin adını qoyanda bilirsən nələr demişdi? Yaşın keçir, otuzu haqlayırsan.

Hələ deyirsən ki, axtarırsan, kimi axtarırsan? Əgər gözləmən varsa, de.

– Yaxşı. Qoy bir gün də fikirləşim.

– And iç ki, sabah son sözünü deyəcəksən.

– And içirəm ki, sabah qarşıma kim çıxsa, onunla evlənəcəyəm.

Yusifcan otağına çəkildi. Dağlı məhəlləsində onların birmərtəbəli, çoxotaqlı dədə-baba mülkləri vardı. Bu həyətdə Yusifcangilin ailəsindən başqa, əmiuşaqları da yaşayırdı. Ona əmisiqızı ilə evlənməyi də təklif etmişdilər. Ancaq o, eyni həyətdə böyüdüyü əmisiqızına bacı gözü ilə baxırdı, razılaşmadı. Yusifcan otağındakı – bu onun həm iş, həm də yataq otağı idi – əvvəllər çəkdiyi şəkilləri çıxarıb yan-yana düzdü. Qəhrəmanları ilə göz-gözə oturub onlardan səssiz-sözsüz kömək istədi:

– Bəlkə mənim köməyimə gələsiniz?

Yan-yana düzdüyü tabloların ən sonuncusundan boylanan çox incə, zərif bir qız diqqətini çəkdi…

Hər səhər işə gedəndə üzbəüz həyətdən çıxan qızla rastlaşırdı. Portretdə maraqlı bir məqam diqqətini xüsusilə cəlb etdi. Qapıdan çıxmaqda olan qız, məhəllələrindən işə tələsən həmin gəncə necə məhəbbətlə baxırdı. Və bu baxışlarda bir təəssüf də oxunurdu: «Sən məni niyə görmürsən?»

Yusifcan bu sualı həmin qızın baxışlarından aydın şəkildə oxuyurdu. Doğrudur, o, portreti işləyəndə heç bu barədə düşünməmişdi, sadəcə,

gördüyü mənzərəni köçürməyə çalışmışdı. Hər dəfə həmin qızla rastlaşanda, elə-belə salam verib yanından ötüb-keçirdi. Bəzən yolları bir olanda hal-əhval tutur, atüstü söhbət edir, oxuduqları məktəbi yada salırdılar.

Yusifcan portretdən gözünü çəkə bilmirdi. Qızın yapışıqlı baxışları onu ovsunlamışdı. Bu qız qonşuları, məktəb yoldaşı Zərifə idi.

Yusifcan gecəni səksəkəli yatdı. Erkən oyandı, adətən işə gec gedirdi. İnstitutda dərsləri ikinci saatdan başlanırdı. Yuyunub geyindi. Çay belə içməmiş evdən çıxdı. Bu vaxt qonşu həyətin də qapısı açıldı. Gözlərinə inanmadı. Zərifə idi. Yəqin işə gedirdi.

«Aman Allah, lap portretdə gördüyü qızdı. Necə də məhəbbətlə boylandı, necə də nəvazişlə salam verdi...» Bu salamdakı titrəyiş, xoş duyğu Yusifcanı silkələdi. Onun indiyə qədər yuxuda olan düşüncələri oyandı.

Zərifə qeyri-ixtiyari soruşdu:

– Nə əcəb bu gün tez gedirsiniz?

Yusifcan adəti üzrə qısa cavab verdi:

– Bir az işim var…

Küçə ilə üzüaşağı düşdülər. Yusifcan istəsə də, söhbət edə bilmirdi. Haradan, nədən başlasın? Bir azdan ayrılacaqdılar. Hiss etmirdi ki, tələsik yeridiyi üçün Zərifə onunla ayaqlaşmağa çalışır. Axır ki, Zərifə dilləndi:

– Yaman tələsirsiniz.

Yusifcan güldü. Onun gülməyi Zərifəyə qəribə gəldi. Qızın səksəkəyə düşüb gənc rəssamın hərəkətlərindən nəyisə öyrənmək istəyinin təsiri altında özünü birtəhər ələ alıb dilləndi:

– Hə, çox vacib işim var. Zərifə, qarşıma sən çıxmısan. Yoxlayaram, görüm ayağın yüngüldü, yoxsa, ağır?

– Mən sənin qarşına çox çıxmışam. Ziyan çəkdiyin olub? Yəqin bugünkü işin çox mühümdü…

– Hə, həqiqətən bugünkü işim tamam ayrı bir işdi.

…Yusifcan axşam evə dönəndə qardaşı onu həyətin bir küncünə dartıb qarayaxalıq elədi:

– Qabağına çıxan oldu?

– Hə, axır ki…

– Kiiim?

Yusifcan həyadan sıxıla-sıxıla dilləndi:

– Qonşumuz… Zərifə…

Elə bil Yusifcan məhkum idi, təqsirini boynuna alırdı. Di gəl ki, cümlənin bu həyalı deyilişində təsdiq də vardı, təəssüf də…

Məlumat bacısına yetişəndə, qız sevinc içində üyüdüb tökdü:

– Lap yaxşı. Elə bizim də dediyimiz o idi. Sən onu çoxdan istəyirsən, – bacısı bu sözləri elə əminliklə söylədi ki, sanki Zərifənin ürəyinin içinə girmişdi. Yusifcanın mübtəla olduğu məhəbbətdən xəbərdar idi… Və bu gün də səhər tezdən Yusifcan Zərifəyə

nə demişdi, Zərifə Yusifcana nə cavab vermişdi, onu da bilirdi. Ürəyi soyumayan bacı, qaçaraq Yusifcanın otağına keçib əlində portret geri döndü:

– Bu portreti sən çəkmisən, eləmi? Buradakı adamlar kimdi?

– Onlar mənim obrazlarımdı. Hər kəs onu kiməsə oxşada bilər.

– Yox, Yusifcan, biz çox gözəl görürük, bu qız Zərifədir, bu oğlan da sən. Gör bu qız sənə necə məhəbbətlə baxır?..

Ancaq portretdəki oğlanın biganə baxışları haqqında söz açmaq bir kimsəyə sərf etmirdi. İndiki darmacalda belə bir mükalimə oğlanın özünə də gərək deyildi. Beləcə, həmin portretdən başlanan yol Yusifcanın ailə həyatının təməli oldu.

* * *

Yusifcanın qağayıları onların vecinə deyildi. Əlbəttə, ən pisi o olardı ki, dərya aşiqlərinin coşğun hislərlə bir-birinə sarılmaları, ehtiraslı hərəkətləri qağayıları indicə hürküdüb pərən-pərən salsın. Ancaq onlar da qağayıların vecinə deyildi. Qağayılar dimdik-dimdiyə dayanmışdılar, qorxub eləmirdilər. Rəsmin süjetində qayıqdan o tərəfə, dənizin sonsuzluğunda, bəlkə lap dənizin o tayında qırmızıya çalan yaşıl fonda cəngəllik təsvir olunurdu. Yaşıl qamışlıq, adama boy verməyən sıx bitki örtüyü

dənizdən imdad diləyirmiş kimi boylanırdı. Qamışlıq Yusifcanın fikrincə, rəmzi idi və portretə təsadüfən əlavə edilməmişdi. Rəssam demək istəyirdi ki, ay mənim əzizlərim, qayığınızı birbaş cəngəlliyə sürün. Qayıqdan düşməyin, cəngəlliyə əbədi sakin olun. Əgər geri dönsəniz, sizdən çox aşağıda olan, yeriyən həbsxanaların – paltarların, qalstukların sakinləri qəhqəhə çəkib güləcəklər.

Lənət şeytana! Axı, bu adamları yalnız uzaqdan müşahidə edirdi. Heç onların üzlərini də görə bilmirdi. Dönüb bir də eskizə baxdı. Tablo tələsik işlənsə də, cizgilər yerli-yerində idi. Orada şüurlu insan, şüursuz instinktlərin zirvəsinə qalxmışdı.

Emalatxana isti idi. Üst paltarlarını soyunduqdan sonra, alt paltarlarını da çıxarmaq istədi. Bəlkə də qərar qəbul etmək üçün. Divana uzanıb, çəkdiyi rəsmlərə təkrar-təkrar baxmağa başladı:

– Aha, bu qızı tanıyır, lap yaxşı tanıyır. O, Fənayə idi. Cidar görməmiş ürgə kimi ram olmayan, ruhuna, qəlbinə uyğun, gücünü, enerjisini «tənzimləyə» bilən çapar arzusuyla alışıb-yanan Fənayə…

* * *

Onun da əsərləri nümayiş etdirilən sərgi axşam saat 5-də açılacaqdı. Yusifcan səhər yeməyindən sonra İttifaqa getməli idi, çünki rəssamlar açılışdan öncə oraya toplaşacaqdılar.

Açılış təntənəli təşkil olunmuşdu. Rəssamlar İttifaqının sədri, görkəmli incəsənət xadimləri gənc rəssamların sərgiyə təqdim etdiyi əsərlər haqqında rəylər söylədilər. Yaşlı, balacaboy, dazbaş akademik sənət əsərlərinin təhlilini verdi. Yusifcanın əsəri haqqında ayrıca danışıb dedi ki, mən onun əsərlərində həyatı görürəm, gəncliyi görürəm, lap dəqiq desəm, özümü, öz gəncliyimi görürəm. Bax, əsl sənət odur ki, orada hər kəs özünü, öz həyatının bir parçasını görə bilsin.

Sonra girişdəki qırmızı lenti kəsdilər. Yalnız bundan sonra sərgiyə gələnlər nümayiş olunan əsərlərə baxmağa başladılar.

Zərifə də qızları ilə birlikdə burada idi. Yusifcan onu təbrik edən müəllim yoldaşlarından, tələbələrindən aralanıb, Zərifəgilin yanına gəldi. Yusifcanın işləri olan lövhəyə sarı getdilər. Mərkəzdə süjetli iri tablo asılmışdı. Tufanın fonunda qız təsvir olunmuşdu. Adama elə gəlirdi ki, bu tufan indicə qızı havaya qaldıracaq. Yoldan keçən gənc də tufanla çarpışan qıza baxırdı, özü də necə məhəbbətlə. Sanki Allaha yalvarırdı ki, bu tufan onu da öz ağuşuna alıb həmin qızla sonu görünməyən dərinliklərə aparsın.

Oğlanın baxışlarında qızın dadına çatmaq yox, ona qovuşmaq, onunla birlikdə dibsizliyə doğru «uçmaq» istəyi vardı.

Dazbaş akademik rəsmə yanaşdı:

– Bax, bu, əsl sevgidir. O sevgini Füzuli sözlə, sən fırça ilə ifadə etmisən. Yusifcan, sənin böyük ürəyin, nəhayətsiz və heyrətli duyğuların var.

Yusifcan təşəkkür etdi…

Qoca akademik – rəssam onlardan aralanıb salonun başqa tablolar asılan səmtinə getdi. Hələ də lövhənin yanında dayanan Yusifcan, Zərifə və qızları, elə bil bir-birilərinə baxmağa utanırdılar. Axır ki, Zərifə dilləndi:

– Yusifcan, sən heç vaxt mənə belə məhəbbətlə baxmamısan.

Söz Yusifcana toxundu. İçində gizilti duysa da, özünü ələ alıb dedi:

– Bu sənətdir, Zərifə…

Zərifənin həssas sənət duyumuna və həqiqətə yaxın düşüncəsinə rəğbətlə yanaşan rəssamın mülayim baxışları ömür-gün yoldaşı deyən sözlərin təsdiqi idi…

* * *

Yusifcan qızın çiynindən ona sarı baxan adamı da tanıyırdı. Bu adam onun özü idi. Amma o, qayıqda artıq rəssam kimi yox, adi insan qiyafəsində təsvir olunmuşdu.

Yusifcan qayıqdakıları xəyal gücünə canlandırmışdı. Dənizin həqiqi xoşbəxtləri isə Fənayə və dəniz gözlü rəssamın özü idi.

O, əbədi sevginin intizarını təsvir etmişdi. Yusifcanın qəlbinə çökmüş qaranlığı yalnız həmin sevgi qovub dağıda bilərdi. Tale isə ondan sevgini əsirgəmişdi.

Yusifcan ağrı və əzabdan qıvrıldı, inildədi, üzünü çevirib divanın üstündə büzüşdü. Mavi gözlərindən qopan büllur damlalar yanağından süzülüb gecənin qaranlığına axdı.

* * *

Emalatxananın divarlarına gecənin səssizliyi hopmuşdu. Havada külək yox idi. Hər yanın hakimi sükutdu, «qu» desən, qulaq tutulardı. Adətən dünyanı, insanı, digər canlıları səs oyadır. Bu dəfə əksinə idi, səssizlik və sükunət rəssamın yaddaşını səhifə-səhifə oyatdı. Gənclik, yaşanan ömür çözələnir, Yusifcanın yuxusunu pozur, çox dərin bir yuxu arzusunda olan, elə bu yuxunun hesabına köhnə-köşkül xatirələrin ağrı-acısından qurtulmaq istəyən bu adamı girinc eləyirdi…

Divanda uzanmışdı. Zaman anbaan, saatbasaat keçmiş yaşantıları da darta-darta bu günə gətirir, onun üstündən aşıb keçirdi. Xatirələrlə yüklənmiş vaxt ağırlığı altında elə indicə dərk etdi ki, bütün həyatı boyu çiyinlərində ağır yük daşıyıb. Bu nə yük idi? Sualın cavabını dilinə gətirməyə də ehtiyat edirdi. Qohumlar da, qonşular da onun ailəsinə yaxşı bir ailə kimi baxır, hörmətlə yanaşırdılar. Həqiqətən də, ailə-

də mehribanlıq hökm sürürdü, lap gəncliklərindəki kimi. Qızları ilə birgə «can» deyib, «can» eşidirdilər.

Ailədə övladlar hədsiz qayğı ilə əhatə olunmuşdular. Bayramlarda, qohumların, dostların xeyir işlərində ailəvi iştirak edir, deyib-gülürdülər. Heç kəs bilmirdi ki, zahirən qaydasında görünən bu həyat tərzi Yusifcanı sıxır. Bəli, çiyinlərindən basan kədərli yükün adını, həyatının önəmli hissəsinin artıq keçmişdə qaldığı bir vaxtda, indiki yaşda, bu kimsəsiz, sükut dolu emalatxanada dilinə və xəyalına gətirmək istəmirdi. Bu kədərin açması isə cəmi dörd kəlmə sözdən ibarətdir: «O, həyatını sevgisiz yaşamışdı!»

Amma naşükürlük də etmirdi: «Bəyəm, qızlarım «ata» deyib boynuma sarılanda sevinmirəmmi? Yoxsa, Zərifə ilə xoş günlərim azmı olub? Zərifənin mənə münasibətində bir saxtalıqmı var? Bəlkə insanın qisməti ilə barışması özü elə bir sevgidir, məhəbbətdir?»

Bu suallar qəlbindəki boşluqda əsən küləyin səsi kimi səslənirdi…

Heç vaxt özünü aciz bilməmişdi. İstedadı, gücü, mənəvi enerjisi ilə özünə yol açmış, yaratdığı əsərlərlə şöhrət qazanmış, təltiflərə sahib olmuşdu. Bəs, indi nə üçün başqalarına bəlkə də gülməli görünən sualların qarşısında aciz idi? Yaxasından yapışıb onu silkələyən və cavab istəyən bu sualların müqabilində boynubükük, mağmın dayanmaqdansa, molbertin arxasına keçib səhərin gözü açılana qədər işləməyi üstün tutdu. Yəqin sual-zad bəhanədir, çəkmək istəyirdi.

Onsuz da yuxusu pozulmuşdu, divanın üstündə tirrənməyinin nə mənası? Əvvəllər də qəlbi sıxılanda işləmək köməyinə çox çatmışdı. Belə anlarda tez-tez öz aləminə qapılır, emalatxanada saatlarla təktənha çalışır, ağır zəhmət və gərgin işlə qəlbini, özünü kiridirdi.

Yusifcan evə gec gələndə, yaxud heç gəlməyəndə Zərifə onun emalatxanada olduğunu və tək-tənha işlədiyini bilirdi. Evdə çox zaman ərinin xoşladığı yeməklərdən tədarük eləyib emalatxanaya aparırdı. Qəribə idi, Zərifə ondan heç bir nəvaziş, diqqət gözləmirdi. Bəlkə də bu nəvazişi, diqqəti umurdu, ancaq hiss etdirmirdi. Hər halda, Yusifcana belə gəlirdi.

Səssizliyin hökm sürdüyü bu aləmdə mehriban, qayğıkeş Zərifəyə qarşı biganə olduğuna görə, özünü qınamaq istədi. Zərifə heç vaxt ərinin soyuqluğunu üzünə vurmurdu. Yusifcana elə gəlirdi ki, arvadı onun bu ovqatını işinə vurğunluğu, yaradıcı əməyi ilə əlaqələndirir.

Zərifənin bu cür münasibəti Yusifcanın kefinə soğan doğrayırdı. Belə vaxtlarda arvadına acıqlanıb az qala «başımdan açıl!» demək istəsə də, onun səmimi baxışları altında yumşalır, dinmir, qadının səmimiyyətini susmaqla mükafatlandırırdı. Əslində Yusifcanı ram edən, onu bu ailəyə bağlayan da arvadının saf, məkrsiz, səmimi baxışları olmuşdu.

Zərifə emalatxanaya gələndə bir tərəfdə dayanır, Yusifcanın öz xoşu ilə işdən ayrılmasını gözlə-

yirdi. Çox nadir hallarda – ərinin yorulduğunu hiss edən vaxt ona yaxınlaşır, saçlarına sığal çəkir, şirin qəzəblənəcəyindən qorxan təlimçi kimi ehtiyatla davranırdı. Bu zaman Yusifcan fırçanı bir kənara atır, Zərifəni qucaqlayır, hər şeyi, hər şeyi unudurdu. O, Zərifənin sevgisinə tabe olurdu. Bu sevgi həmin anda hər ikisinə bəs edirdi. Odlu baxışlar, yanğından xilas olmaq istəyən dodaqlar bir-birinin təşnəsini azaltmağa çalışırdı. Kürədən çıxmış dəmirin üstünə tökülən su hərarəti, istiliyi necə götürürdüsə, həmin divanda da onlar sakitləşənə qədər bir-birini odlu öpüşlərə qərq edirdilər. Sonra həyat yenə əvvəlki axarına düşür, yenə Yusifcanı daxili bir tənhalıq bürüyür, qəlbindən istiqamətini müəyyənləşdirə bilmədiyi küləklər əsirdi. Bütün bunlara baxmayaraq, onlar uzun illərdi birgə yaşayırdılar. Bu izdivacın bəhrəsi olan iki qız isə narazı rəssamın qəlbindəki boşluğu doldura bilmirdi ki, bilmirdi.

Qızlarını çox istəyirdi. Onlar ayaq tutub yeriyəndə, Zərifə ilə ilk dəfə emalatxanaya gələndə, Yusifcan qanad açıb uçmaq istəmişdi. Bu bəxtiyarlığı görmək Zərifəyə hədsiz xoş idi. Çünki vaxt bütün yaraları sağaltdığı kimi, sirləri də açır. Axı, örtülü sirləri açа bilməyən zaman yaraları necə sağalda bilərdi? Hər şey bir yana, Zərifənin Yusifcanı mükəmməl anlamasında vaxt, zaman kara gəlmişdi. Onun sonsuz istəyi rəssamın qəlbindəki ilk sevgini yuyub apara bilmədi. Necə deyərlər, məhəbbət zamana tabe olmadı.

Bir dəfə Zərifə söhbət əsnasında Yusifcandan soruşdu:

– Hər kəsin həyatında unudulmaz xoş bir an olur. Biz də həyatımızda belə an yaşamışıqmı?

– Əlbəttə, Zərifə, hər ikimizin həyatında belə anlar çox olub.

– Sən həyatının ən xoş anlarına molbert arxasında işləyən vaxt qovuşursan…

Yusifcan Zərifəyə baxmadan fikirli-fikirli cavab verdi:

– Elədir. Molbertin arxasında ömrümün ən gözəl anlarını yaşamışam.

Sonra da Zərifədən soruşdu:

– Bəs, sən?

– Düzünü desəm, elə mənim də ən xoş günlərim burada – emalatxanada olub.

Yusifcan Zərifənin gözlərinə baxdı. Onun gözləri gülürdü. Bu müəmmalı gülüşün arxasında Yusifcana aydın olan bir mətləb dururdu: «Mən yalnız bu məkanda sənin sevgini görmüşəm. Sən emalatxanada evdə olduğundan daha hərarətli, daha istisən».

Yusifcan gözlərini dolandırıb emalatxanaya baxdı və belə qənaətə gəldi ki, bu ovqat bəlkə də ətrafdakı sakitliyin, erotik şəkillərin, sərbəstliyin və tənhalığın diktəsidir.

Ərinin təbəssümünü Zərifə razılıq əlaməti kimi qəbul etdi. Yusifcansa demək istəyirdi ki, əgər bu sevgidirsə, bəs, onda mənim ürəyimdə gizlənən nisgilin

adı nədi? Ancaq demədi. Buna heç ehtiyac da yox idi. Zərifə hər şeyi yaxşı başa düşürdü. Özü də çoxdan…

Emalatxananın sükutu Yusifcanın bu gecə yarısında yeganə müsahibi idi. Ona elə gəlirdi ki, illər boyu yalqız işlədiyi emalatxanaya yır-yığış etmək üçün gələn Zərifədən başqa kimsənin ayağı dəyməmişdir. Gecələr xəyalının sərbəstliyi və azadlığı onu aləmdən-aləmə aparır, özü demişkən, ilham pərisi daim çiyni üstündə qanad çalır, onu işləməyə həvəsləndirirdi. Gündüzlər belə sakit və rahat işləmək mümkün deyildi. Həyətdəki uşaqların hay-harayı, küçədən keçən maşınların səs-küyü ona mane olurdu. Əvvəllər oynadıqları topu pəncərəyə vuran uşaqlara bir-iki dəfə acıqlansa da, sakitliyi bərpa edə bilmədi. Bəlkə də bu səbəbdən sonralar emalatxanada gecələr işləməyə üstünlük verdi…

Zərifə onun yanına həmişə təzə xəbərlərlə gəlirdi. Çox şeyə biganə olan Yusifcan, hətta qızlarının orta məktəbi qurtarmasını belə susqunluqla qarşılamışdı. Ömrü boyu qəlbinə yeni ruh gətirəcək bir mövsümün həsrətində olan rəssam, «daxilindən əsən küləklərin», boşluqdan, sevgisizlikdən qırıla-qırıla çəkdiyi əzabın sona çatacağını gözləyirdi. Gecənin bu aləmində xəyalən gəncliyindən üzü bəri yaşadığı illəri çözələdikcə, xoşagələn heç bir epizod tapa bilmirdi. Çox istəyirdi ki, yaşadığı həyatın hansısa bir isti, hərarətli bucağında dayanıb qəlbini ovutsun. Xəyalı yenə də ötən günlərə yan aldı.

Universitetdə görüş idi. Onu əhatə edən tələbələri diqqətlə süzürdü. Rəssamın diqqətini özünə çəkən nisbətən hündürboylu, gülərüzlü, qızılı saçlı, göyəm gözlü bir qızın baxışlarındakı qəribə cazibə oldu. Yusifcan gözünü ondan aralamaq istəsə də, qızın birdən-birə bütün varlığına hakim kəsildiyini hiss etdi. Molberti, rəng qutularını az qala əlindən yerə salacaqdı. Çünki o, ayaq üstə «qurumuşdu», yox, lap «ölmüşdü». Qızlardan biri ona yaxınlaşıb:

– Siz daha çox hansı janrda işləyirsiniz? – sualını verməsəydi, bəlkə də bayılacaqdı.

– Bir çox janrda özümü sınamışam. Hətta sizlərdən hansı biriniz istəsə, naturadan da şəklini çəkə bilərəm.

Bu zaman kənarda dayanan həmin qız yaxınlaşıb soruşdu:

– Bizlərdən kimi seçərdiniz?

Yusifcanın nitqi qurudu, cavab verə bilmədi. Onun bircə cavabı vardı: «Elə səni». Amma deyə bilmədi. Bu vaxt oğlanlardan biri qabağa çıxıb, kobudcasına Yusifcanın qolundan tutdu:

– Götür «zir-zibilini» də, buradan get!

Həmin gənc boy-buxunu, qüvvətli, əzələli qolları, sərt baxışları ilə elə onun gəncliyini xatırlatdı. Yusifcan oğlanı qınamadı. O, özü də belə qaba hərəkət edərdi. Bu vaxt baxışlarıyla artıq Yusifcanı ram etmiş qız:

– Məni çəkərsən, – demişdi.

Yusifcan hiss etdi ki, bu qız tələbə yoldaşlarının hamısından, bəlkə də boy-buxununa güvənən, fiziki gücünə arxalanan həmin oğlandan da qüvvətlidir. Sonralar da, elə ilk görüşdəcə cazibəsindən qurtula bilmədiyi bu qızı heç cür unuda bilmədi. Bir-iki dəfə universitetə gedib onun adını və kim olduğunu öyrənmişdi. Son vaxtlar dərsə xarici maşınla gəlib-gedən həmin qız Fənayə idi…

Çox güman ki, Fənayə onu unutmuşdu, başqa necə ola bilərdi ki?! Yəqin, saatlarla onun qarşısında dayanıb rəsm çəkdirməyə də razı olmazdı. İnsan sərrafı olan Yusifcan, söhbət əsnasında Fənayənin ruhən nə qədər azad olduğunun fərqinə varmışdı. Və nədənsə, inanmışdı ki, heç bir mənəvi-əxlaqi norma, heç bir qadağa onun yolunu kəsə bilməz. Fənayə öz seçimini çoxdan etmişdi. Yaxınlıq etdiyi adama da, hər kim idisə, möhkəm bağlanmışdı.

…Gecənin bu aləmində Yusifcanın xəyalı Fənayəni emalatxanaya «qonaq» elədi. Və bu səssiz gecənin sakitliyi içərisində Fənayənin xəyalı ilə birbaşa olmaqdan xoşhallanan Yusifcan, özünü dünyanın bəxtəvəri sayırdı. Hər necə olsa da, illər boyu aradığı idealına qovuşmuşdu.

«– Gəl, əyləş, sənin rəsmini çəkəcəyəm.»

«– Bəs, sən özün həmin əsərdə görünməyəcəksən?»

«– Görünəcəyəm.»

«– Harada, necə?»

«– Yəqin ki, o əsərdə kənardan həsrətlə baxan bir adam da olacaq.»

«– Axı, sən mənə həsrətlə baxmırsan. Bir də ki, sənin həsrətlə baxdığın günlər arxada qalıb. Daha nə istəyirsən, budur, bir yerdəyik…»

«– Yaxşı, başa düşdüm. Gəl divanın üstündə, lap güzgünün önündə əyləş. Tərsinə, arxanı güzgüyə tərəf çevir, bir az da başını yana əy, güzgüyə bax. Hazırsanmı, çəkməyə başlayıram.»

...Fənayə yerində yox idi. Cavab gəlmədi. Bəs, o, necə oldu? Ətrafa, emalatxanaya baxdı. Birdən gözü güzgüyə sataşdı. Fənayə göydən enmiş mələk kimi rəssamın çiynində oturmuşdu. Yusifcanı sanki ildırım vurdu. Çiynindəki çılpaq ilahə güzgünün içindən günahkar bir təbəssümlə ona baxırdı. Dizləri titrədi. Əlləri ilə molbertdən yapışmaq istədi. Molberti də, rəngləri də aşırıb dağıtdı. Arxası üstə divana sərələndi. Sanki özü yıxılmadı, götürüb çırpdılar. Emalatxananın lal sükutunu bu dəfə dodaqlarından qopan pıçıltı pozdu:

– Ay Allah, nə üçün yaratdığına bu boyda əzab verirsən?.. Mən nə günahın sahibiyəm?

Bu, əbədi sevginin intizar fəryadı idi. Rəssamın qəlbinə çökmüş qaranlığı təkcə bu sevgi qovub dağıda bilərdi. Taleyi isə bu sevgini ondan əsirgəyirdi.

Yusifcan yenə ağrı və əzabdan qıvrıldı, inildədi, üzünü çevirib divanın üstündə büzüşdü. Bütün hə-

yatı boyu, Allah bilir, neçənci dəfə gözlərindən qopan damlaların yanağına süzüldüyünü hiss etdi…

* * *

Axşamdan xeyli keçmişdi. Dəniz sahilində qaynaşan adamlar qarışqa yuvasına çəkilən kimi qeybə çıxmışdılar. Sakitlik idi. Sahildə qayalıqlara çırpılan dalğaların zəif şappıltısı eşidilirdi.

Haris qayığı sahilə yönəltdi. Zarafatyana «sevgi buxtası» dedikləri yerdə – qayalıqlar arasında qayıqdan düşdülər. Hava sakit olsa da, nəhəng dənizi gözəgörünməz bir qüvvə asta-asta yırğalayırdı. Su soyumuşdu. Sahilə yüyürən zəif dalğalar yenə şapalaq kimi qayalığa dəyir, damlalar ətrafa sıçrayırdı. Dəniz mehi çiskinqarışıq sərinlik gətirirdi. Qayıqdan düşüb hündür qayalardan birinin üstündə dayanan Fənayə, ay işığında par-par yanan dənizə baxırdı. Su dumduru idi. Onun dənizə düşən əksi silkələnən, dalğalanan suların fonunda tez-tez əyilir, sınırdı. Əksi ona alov ətrafında rəqs edən hinduları xatırlatdı. Dönüb Harisi çağırdı:

– Haris, bura gəl.

Haris qayığı buraxıb Fənayə duran qayaya çıxdı:

– Nə olub?

– Bir bax, nə görürsən?

Suyun içində, ay işığında, həqiqətən də Fənayənin hindu qızlarına oxşar əksi oynayırdı.

Haris Fənayənin arxasında dayandığından onun əksi o qədər də gözə çarpmırdı.

– Bilirsən, yadıma nə düşdü? – Fənayə soruşdu.

– Haradan bilim? Desən, bilərəm.

– «Mak Kenninin qızılları» adlı bir Amerika filmi var.

– Hə, baxmışam. Növbənin ucbatından zülmlə bilet almışdım.

– Yaxınlarda televiziyada göstərirdilər, baxdım.

– İndi nəyə görə o film yadına düşdü?

– Hindu qızının suyun altındakı döyüşünü xatırlayırsan?

– Aydındır, onda gərək suya birinci mən atılam. Düzünü deyim ki, məni həmin hindu qızının suyun altındakı döyüşlərindən çox, Mak Kenninin qızılları maraqlandırır.

Söz Fənayəyə toxundu. Fənayə ayaqlarını cütlədi, saçlarını geri atıb, Harisə tərəf baxmadan suya tullandı və dənizin dərinliklərinə doğru üzməyə başladı. Haris suyun altında yay kimi yığılıb-açılan Fənayəyə baxdı. Bir neçə anın ötməsinə baxmayaraq, Harisə elə gəldi ki, Fənayə bir daha sahilə qayıtmayacaq. O, bu sahildən baş götürüb gedir. Haris bir az da vaxt itirsə, heç vaxt ona çata bilməyəcəyindən qorxdu. Tez suya tullandı və Fənayəyə tərəf üzməyə başladı. Qızı suyun altındaca tutub köksünə sıxdı. Birlikdə suyun üzünə qalxdılar. Çiyinlərindən yuxarı suyun üzündə olan Fənayə ilə Haris, bir-birinə sarmaşmış su çiçək-

ləri kimi həzin dalğaların təsirindən yırğalanırdılar. Təkrar-təkrar dənizə baş vurdular. Yenidən suyun üzünə qalxanda, bir qayığın yanlarından asta-asta keçdiyini görən Haris, burada başqasının da olduğunu güman etdi. Təəccüblə dedi:

– Fənayə, bu qayıq… deyəsən bizimkidir.

Fənayə qayığın bir tərəfindən yapışdı. Və onu sahilə tərəf döndərəndə Haris yenidən:

– Bu ki, bizim qayıqdır… Bəs, necə olub ki, sahildən aralanıb?

Görünür, qayığı öz yerinə – qayalıqlara bağlamadıqlarına görə, dalğalar sahildən aralamışdı.

– Deyəsən, qayıq bizdən inciyib.

– Doğrudur, biz onu tez unutduq. Bir də ki, lap yaxşı etdik. Bizə xoş olanı seçdik. Bilirəm, bayaq incidin, ancaq nahaq yerə. Məncə, Mak Kenninin qızıllarına aludə olmağım heç də pis deyil…

Harisin bu gecə macərasında lüzumsuz yerə pul, qızıl barədə söhbət açması Fənayənin sinəsinə ox kimi sancıldı. İçindən qəfil bir ağrı keçdi. Sanki bətnində nə isə qıvrılıb açıldı. Birdən-birə başı dumanlandı. Sahilə nə vaxt çıxdıqlarından xəbəri olmadı…

Haris qayığı sahilə bərkidib qayıtdı. Fənayə halsız halda qayaya söykənmişdi. Dinmirdi. Haris onun qolundan yapışdı. Qızın bədəni tir-tir əsirdi. Fənayənin dişləri də bir-birinə dəyib şaqqıldayırdı. Bu, soyuqdan ola bilməzdi. Axı, onlar bundan da soyuq

havada, bəzən lap səhərə qədər çimirdilər. Fənayə bir-iki dəfə öyüdü, ancaq qusmadı.

Haris narahat oldu:

– Sənə nə olub, xəstələnmisən?

Fənayə güclə eşidiləcək bir səslə:

– Yox, Haris, elə bir şey yoxdur, keçib gedər, – deyə əlini yellədi.

Neçə gün əvvəl evdə də belə bir hal keçirmişdi. Anasının yemək üçün stolun üstünə düzdüyü hər şeyə ikrahla baxmışdı.

Zinayə qızında baş verən dəyişikliyi duydu, onu başdan-ayağa süzüb, soruşdu:

– Könlün nə istəyir?

– Heç nə. Heç nə istəmirəm, – sonra da əsəbi halda qışqırdı: – Bu nədir belə, mənə nə olub, bilmirəm?

Zinayə bütün pərdələri ortadan götürüb dedi:

– Ay bəxtəvər, nə olacaq, neçə aylıqdır?..

Fənayə onun səsində istehza duydu.

Anası «sancmağına» davam etdi:

– Eşitməmisən, deyərlər, gizlində buğaya gələn, aşkarda…

– Necə? – Fənayənin sərt səsi onun sözünü kəsdi. – Gizlində niyə?..

– Hə, onu doğru deyirsən. Sənin nəyin olsa da, gizlinin yoxdur. Hər halda, atan bir şey bilmir axı.

– Atam? – Fənayə kinayə içində anasına baxdı.

– Bəli, atan. Axı, hər necə olsa da, kişi xeylağıdır, atandır.

Fənayə bir həftə əvvəl Harislə «Satir» restoranında onlar üçün ayrılan otağa girəndə, lap kənardan gələn uzun adamın atası Qadir olduğunu görmüşdü. Yanında da cavanca bir qız, özü də gülə-gülə, tay-tuş kimi gəlirdilər. Qız, atasının qoluna girmişdi. Kənardan baxanda, bu, çox gülməli görünürdü. Bir anlıq özünü həmin qızın, Harisi də atasının yerində təsəvvür etdi. Doğrudanmı, onlar da kənardan belə gülməli görünür, ikrah hissi doğururdular? Atası ilə həmin qız keçib gedən kimi, onlar da otağa daxil olub qapını örtdülər və hər şey yaddan çıxdı.

«Satir»in onları gözləyən otağı necə də rahat idi. Divarlarda erotik şəkillər, əla duşxana, yemək otağı, istirahət yeri, divan-kreslolar… Elə ki, qapını bağladın, ətraf aləmdən tamam təcrid olunursan.

Fənayə «Satir»in qapısından içəri girən kimi, atasını da, elə həmin qızı da unutdu. Üstəlik, bir az sonra həyatın şirinliyindən məst olanda, həmin qıza da, atasına da haqq qazandırdı.

Fənayə bu vaxta qədər olanları anasından gizlətməmişdi. Yəqin ki, atası maraqlansaydı, ondan da gizlətməzdi. Sadəcə bilirdi ki, atası üçün heç nəyin fərqi yoxdur, kişi pul qazanır və pulunun bir hissəsini də kefə, əyləncəyə sərf edir.

Haris qayalıqların üstündə Fənayəni silkələyib nə baş verdiyini soruşanda, o, anasıyla arasında olan söhbəti, daha doğrusu, hamilə qaldığını deyə bilmədi, çünki halsız idi.

Zinayə qızının hamilə olduğunu biləndə, sevindi. Fənayə anasının hislərini aydınlığı ilə dərk edirdi. Əlbəttə, bu, ilkin təəssürat idi. Sonra nə olacaqdı, Fənayəni narahat etmirdi. Ancaq deyəsən, dəniz səfərlərini azaltmalı olacaqdı. Niyə belə düşünürdü, onu da bilmirdi…

Bəs, birdən-birə onun halını dəyişdirən nə idi? Bəlkə Harislə dənizə baş vuranda, şor dadan dəniz suyunun tamını ağzında hiss edəndə bihal oldu? Deyəsən, Harisin sözləri də onun əsəblərinə toxunaraq, qəlbinin dərinliklərində yatan duyğuları çaxnaşdırıb, içində təlatüm yaratdı. Haris əvvəllər belə danışmırdı. Özünün xoşbəxt olduğunu, bu səadəti Fənayənin ona bəxş etdiyini deyir, qızı başının tacı adlandırırdı. Harisin maddi imkanları yaxşılığa doğru çox sürətlə dəyişməkdə davam edirdi. Şəhərdə zənginlərə məxsus evi, maşını ilə seçilirdi. Az vaxt içərisində – beş-altı ay ərzində o, şəhərin ən hündür yerində – Badamdar dağının təpəsində, dənizə baxan tərəfdə böyük mülk sahibi olmuşdu. Fənayə Harislə birlikdə yeni mülkün həyətində əyləşib saatlarla dənizə tamaşa etməkdən doymurdu. Getdikcə o, narahat olmağa başladı; Haris əvvəlki adam deyildi. Ancaq Fənayə bunu üzə vurmurdu. Harisi isə doğrudan da, gündən-günə tanımaq olmurdu. O, qohumları, yaxınları ilə heç bir əlaqə saxlamırdı. Hətta Fənayə hiss edirdi ki, Haris onun Rahibə ilə yaxınlığına da pis baxır.

– Haris, yaxşı bilirsən ki, mənim üçün var-dövlət sevgiylə müqayisədə heç bir əhəmiyyət daşımır.

– Sənin sözün şair təxəyyülünün məhsuludu. Rəhmətlik Füzuli özü etiraf edib ki, şair sözü yalandır. Pul daha güclü hakimdir. Nə vaxt pulun oldu, onda həyat sevgisi öz-özünə gəlir. Dolayısıyla pul elə sevgi deməkdir.

– Yox, sənin düşündüyün kimi deyil. Pul çox şeyi həll edir, amma hər şeyi yox. Biz ki, sənin pullu vaxtında…

– Düzdür, bizi bir-birimizə pul bağlamayıb. Ancaq pulumuz olmasaydı, çoxdan ayrılmışdıq.

Fənayəyə elə gəldi ki, gözlərinə mil saldılar. Bəlkə də Fədainin baxışları idi, bəbəklərinə dirəndi. Müharibə əlili, qəzetsatan Fədai elə həmin sərtliyi, inadkarlığı ilə onun gözlərini açmaq istəyirdi.

Fənayə susur və gözlərini Fədainin baxışlarından ayıra bilmirdi…

Haris stolun üstündəki mineral sudan bir stəkan süzüb içəndən sonra Fənayədən soruşdu:

– Nə fikrə getmisən, bəlkə belə deyil?

– Elədir, Haris, pulumuz olmasaydı, yəqin ki, bu həqiqətləri daha tez anlayardım.

Fənayənin cavabları mücərrəd və dumanlı görünürdü Harisə… Ona görə də başa düşmədi:

– Hansı həqiqətləri? – Haris özü üçün aydınlaşdırmaq istədi.

– Bilirsən ki, məni sənə bağlayan hər halda, pul deyil. Pulun sənin varlığını işğal etdiyinə dözə bilmirəm. Bu gün olmasa da, sabah həmin «dəmir caynaqlı əjdaha» varlığına hopub ixtiyarını əlindən alacaq. Hər şeyi itirəcəksən, elə məni də. Mən isə bunu istəmirəm. Ona görə yox ki, zorla yanında qalmaq niyyətindəyəm. Sadəcə istəmirəm ki, bir insan kimi məhv olasan.

– Yox, Fənayə, bu yolu mən özüm seçmişəm. Pulsuz adamı cəmiyyət saymır. Mən isə görünmək, diqqət mərkəzində olmaq, hadisələrə müdaxilə etmək istəyirəm. Qızıl mağazalarım, restoranlarım var, ərəblərlə işbirliyi qurmuşam. Onlar mənə inanıb, banklarda adıma sərmayə qoyublar. Bu pullardan necə istifadə etməyin ixtiyarı öz əlimdədir.

Haris Fənayəyə indiyənədək bu barədə heç nə deməmişdi. Fənayə ciddi şəkildə maraqlanmasa da, onun birdən-birə belə varlanmağının səbəbini bilmək istəyirdi. Əlbəttə, Harisdən yana narahatlığına son qoymaq üçün. İndi hiss etdi ki, nigarançılığı əbəs deyilmiş.

– Hər halda, onlar pulu sənə elə-belə verməyiblər.

– Xeyr, demək olar ki, elə-belə veriblər. Əvəzində ayda üç-dörd yeniyetmə qız tapıb işləmək üçün Dubaya göndərirəm. Bu da elə çətin iş deyil, şəhərdə belələri çoxdur.

– Kifayət qədər qazanmısan. Haramdır, halaldır, buna sözüm yox. Bacarığının bəhrəsidir, mübahisə etmək istəmirəm. Bəlkə bu yoldan çəkinəsən?

– Yox, nə danışırsan? Mən bu minvalla Bakının ən varlı adamına çevriləcəyəm. Avtomobil şirkətlərim var, banklarım, nəhəng ticarət mərkəzlərim də olacaq. Elə «Satir» də mənimdir. Dərbənddən Azərbaycanın cənub sərhədlərinə qədər gözəl istirahət evlərimi, külli miqdarda qazanc gətirən obyektlərimi tezliklə reallaşdıracağam.

– Əvəzində Dubaya nə qədər qız yola salacaqsan?

– Necə?

– Sayını soruşuram, konkret qızların sayını. Həm də yəqin ki, hamısı azərbaycanlı olmalıdır. Bəlkə qeyri-millətlərdən də mümkündür, yoxsa fərqi yoxdur?

– Əgər imkanım olsaydı, Azərbaycandakı bütün qızları Dubaya göndərərdim. Elə bilirsən, onlar pulsuz gedirlər?

Fənayə diqqətlə Harisin gözlərinin içinə baxdı. Həmin gözlərdə bir canavar hərisliyi gördü. Bu pul, var-dövlət düşkünü doğma anasını da, bacısını da, hə
doğrudanmı o bu qədər qorxunc bir həqiqətlə üzbəüzdür?

Fənayə Harisi istehza ilə süzdü. O, qızın baxışlarını nifrətlə qarşıladı:

– Unutma ki, Dubayda qızlar üçün bizdən də yaxşı kef məclisləri düzəldirlər.

Fənayə dinmədi. İçərisində baş qaldıran tələtüm ağlını başından aldı. Fənayə belə bir ağrını ilk dəfə Harisin Badamdardakı böyük mülkünün həyətində

keçirmişdi, amma bu barədə ona heç nə deməmişdi… Onda Harislə mübahisə etmişdi.

Harisin üzünə tüpürmək və çıxıb getmək istədi. Ancaq nədənsə, ayağa qalxa bilmədi. Bəlkə Harisə çox bağlanmışdı? O, Harisin öz əməllərindən peşman olacağını, hərəkətlərinə hədd qoyacağını, hətta Fənayə razı olmasa belə, ondan üzr istəyəcəyini düşündü.

…Ay işığı ilə gümüşlənən dalğaların həzin nəğmələr oxuduğu sahildə, «Satir»dən bir qədər aralıda Fənayənin halı yenə dəyişdi. Badamdardakı mülkün həyətindəki söhbətdən sonra o, bir neçə gün Harisin dəvətini cavabsız qoydu. Onun aramsız təkidlərindən sonra, telefonun dəstəyini anasından könülsüz alaraq üzrxahlığını dinlədi: «Həmin gün bərk əsəbiləşmişdim. Bəlkə də sənin istehzan məni təbdən çıxardı. Düzü, səndən bunu gözləmirdim. Nə üçün bir-birimizlə kinayə və istehza ilə danışmalıyıq? Bizim hər birimiz öz əməlimizdə sərbəstik. Hər kəs həyatını özü bildiyi kimi yaşayır. Bizi bir-birimizə bağlayan rəsmiyyət yox, duyğularımız, mənəvi tələbatımızdır. Sənlə mən əslində eyni adamlarıq, yəni ruhumuz eynidir, sadəcə, ayrı-ayrı bədənlərdə zühur etmişik. Fənayə, cəmiyyətin yazılmamış qanunları var. Pula, var-dövlətə mənim də marağım yox idi. Ancaq gördüm ki, cəmiyyətdə ən şərəfli iş pul qazanmaqdır. Pulu olmayan insan kimliyindən asılı olmayaraq, həyatın dibində sürünməlidir. Mən də axtarıb pula doğru gedən yolları tapdım. Gördüyüm işlərdə elə bir qəba-

hət yoxdur. Onsuz da öz xoşu ilə xaricə getmək istəyənlər çoxdur, sadəcə, onların xarici ölkələrdə məlum ünvanlara çatmasına kömək edirəm, vəssalam».

Fənayə elə də sadəlövh deyildi ki, Harisin sözlərini səmimi qəbul etsin. Ancaq düşünürdü ki, bəlkə doğrudan da Haris peşman olub öz əməllərindən çəkinər. Buna görə də onunla küsmək yox, barışmaq, tez-tez ünsiyyətdə olmaq qərarına gəldi. Lakin Haris onun qolundan yapışıb deyəndə ki, gedək, daha gecdir, mən səhər tezdən xaricə gedən təzə dəstəni yola salmalıyam, bütün ümidləri qırıldı, gözlərinə qaranlıq çökdü…

Sis, duman sahili bürüdü. O, heç nəyi görmürdü. «Satir»in işıqları da yanmırdı. Ətraf zülmətə qərq olduğundan anasını çağırmaq istədi ki, qaranlıqda qolundan yapışsın. Dəhşətli qəhqəhələr eşitdi. Zinayə idi – zülmətdə yolunu azmış, kimsəsiz, tək-tənha qalmış, qayalıqlar arasında cığır axtaran Fənayəyə – qızına gülürdü. Bu qəhqəhə Fənayəni yandırıb-yaxdı. Məgər anasını çağırmağa dəyərdimi? Yox, çağıra bilmədi. Atasını – Qadiri səsləmək istədi. Ağlına gəldi ki, bəlkə elə yaxındadır – «Satir»də, restoranda həmin o cavan qızladır. Bəlkə səs eşidilməyən bağlı otaqların birində istirahətdədir? Heç ağlına da gəlmir ki, qızı haradadır? Yoxsa, o da Harislə şərikdir? İndiki zəmanənin dostları elə belə olar. Niyə bu əvvəl də Fənayənin ağlına gəlməyib? Atasının tez-tez «Satir» restoranına gəlməsi, buranı istirahət yeri kimi seçməsi

yəqin təsadüfi deyildi. Həmin qızlarla müqavilə bəlkə elə «Satir»də bağlanır? Bunun yəqin ki, son vaxtlar atasının evə gətirdiyi külli miqdarda pulla əlaqəsi vardı. O, demək olar ki, köhnə iş yerində çox nadir hallarda telefona cavab verirdi. Həm də son vaxtlar atasının birdən-birə xidməti maşını peyda olmuşdu. Onların evinə bazarlığı da başqaları eləyirdi. Yoxsa atasının da Haris kimi şəhərin ayrı-ayrı məhəllələrində mülkləri var, banklarda adına hesab açılıb? Bəlkə atası da sabah həmin yeni dəstənin Dubaya yolasalma mərasimində iştirak edəcək?

Fənayə Harislə atası Qadirə eyni gözlə baxırdı. Onların sifətlərinin cizgiləri də bir-birinə oxşayırdı. Fənayə bir neçə gün əvvəl Harisin gözlərində diqqətini çəkən acgözlüyü, hərisliyi atası Qadirin gözlərində də gördü. Bəlkə tələbə yoldaşlarını, ya da təkcə Rahibəni çağırsın? Bu halda Rahibənin köməyinə çox böyük ehtiyacı vardı. Bəs, o, indi haradadır? Rahibənin özü də son günlər onunla maraqlanmırdı. Fənayə hiss etdi ki, deyəsən, rəfiqəsinin də başı qarışıqdır. Bəlkə o da «Satir»də özünə layiq otaqlardan birindədir? Artıq Fənayənin kimsəni yada salmaq imkanı yox idi, çünki huşu özündə deyildi…

Fənayəyə elə gəldi ki, həmin millə onun gözlərini yenə dağladılar. O, tökülmüş gözləriylə heç yanı görmür və zülmətdən xilas olmaq üçün imdad istəyirdi. Qeyri-ixtiyari əlini ora-bura atır, dənizdə boğulan adam kimi çırpınırdı. Sanki kimisə lənətləyirdi.

İndi onun kimi lənətlədiyini heç kim deyə bilməzdi. Harisi, anası Zinayəni, atası Qadiri, tələbə yoldaşlarını, Rahibəni, yoxsa onun gözlərinə «mil salan» Fədaini…

* * *

Axşamdan xeyli keçsə də, Həyat oyaq idi. Hər səhər ertədən qalxdığına görə, axşamlar vədəli yatmağa adət eləmişdi. Evlərinin qabağında – nisbətən hündür yerdə qurulan çardaqda oturub, Sərrafın gəlməyini gözləyirdi. Sərrafla Sadiqənin nişanlanmasından xeyli vaxt keçmişdi. Toya hazırlaşırdılar. Böyüklər müəyyən çətinliklər olduğunu dilə gətirsələr də, cavanlar çox da dərinə getmirdilər. Qız qızıl, zinət əşyaları tamahında deyildi, Sərraf da ondan heç bir cehiz gözləmirdi. Amma hər iki tərəfin adamları «elin adəti var», – deyə tələsmir, tədarük qayğıları yaşayır, toy üçün zəruri hazırlığı görürdülər.

Bir azdan Sərraf dönəcəkdi. Anası gözünü dolandırıb səmadakı ulduzlara baxdı. Gündüzü xatırladan göy üzünün alışıb-yanan əbədi şamlarını saymağa çalışdı. Amma hər dəfə hesabı dolaşıq salır, hansı ulduzda, neçəncidə qaldığını unudur, rəqəmləri qarışdırır və təzədən sayırdı. Ulduz saymaqda ayrı bir məqsədi yox idi, sadəcə, darıxırdı, Sərrafın gəlişini intizarla gözləyirdi, vaxtsa ötmək bilmirdi.

Görəsən, göydəki ulduzların sayı çox olar, yoxsa yerdəki insanların? Yəqin göydəki ulduzlarla yerdə-

ki insanların sayı bərabər olar, yoxsa nahaq yerə demirlər ki, hər kəsin öz tale ulduzu var. Ulduzların ən parlağı görünür, bəxtəvərlərin, ən solğunu – uzaqdakı ulduzlar isə qocalıb əldən düşənlərindi. Hər ulduz bir insan bəxtidir. Topa-topa ulduzlar ürəyi, qəlbi yaxın olan adamlardı, qohum-əqrəbalardı, göy qübbəsinin lap qıraqlarındakı tənha ulduzlar isə qəriblərdi, tərki-vətən olub öz məskənlərindən aralı düşüblər. Yəqin can atırlar ki, vətənlərinə qayıtsınlar, doğmalarına qovuşsunlar, haradan, kimin yanından gediblərsə, hansı torpaqdan qopublarsa, ora dönsünlər. Allah onlara yol açsın! Ola bilməz ki, insan tək doğulsun, tək yaşasın. İnsanın xoşbəxtliyi də, sevgisi də insanların yanında, həm də doğulduğu yerdə, doğulduğu torpaqda ola bilər…

Göy üzündən bir ulduz axıb sürətlə üzüaşağı yuvarlandı. Həyatın gözləri böyüdü. Vahimələndi. Guya üzüaşağı şığıyan ulduz indicə qadının üstünə düşəcəkdi. An çəkdi, o ulduz elə göydən qopduğu sürətlə də yanıb-söndü. Səmada izi-tozu belə qalmadı. Həyat şappıltı ilə dizinə vurdu. Sonra dikəlmək istədi, amma qalxa bilmədi və çardağın içinə yıxıldı…

Həyət qapısından adlayıb çardağa yaxınlaşan Sərraf, anasının dizinə vurmağını da, yıxılmağını da gördü. Elə bildi anası onun gec gəlməyinə əsəbiləşib. Ertədən marşrut avtobusuna minib şəhərə getmişdi, daha doğrusu, anası təkid eləmişdi ki, nişanlısına dəysin, gəzib dolaşsınlar.

Uşaqlarının, xüsusən Sərrafın axşamlar haradasa yubanmağına heç dözümü yox idi, qayğılanardı və deyərdi ki, başına dönüm, ay bala, evə gec gəlmə, sən gec gələndə yerimə qor dolur, yata bilmirəm. O qədər yolundan azmış var ki… Düzdü, heç kimin bostanına daş atan deyilsən. Amma bir başqasına atılan daşın sənə dəyməyindən qorxuram. Qəzadan qaçmaq olmur. Vaxtında evimizə dönsən, mən də narahatlıq keçirmərəm.

Sərraf tez dilləndi:

– Ay ana, mənəm, gəlmişəm, nooldu sənə?

– Heç nə, ay bala, qorxma, heç nə olmayıb.

– Yox, nə isə dizinə vurdun.

– Kiminsə bəxti axdı. Gördüm, özüm gördüm.

Sərraf düşündü ki, bəlkə, anası xəstələnib? Əlini onun alnına qoydu, nəbzini tutdu. Hərarəti yox idi, amma nəbzi şiddətlə vururdu, həyəcanlı idi.

– Necə yəni, özüm gördüm, nəyi?

– Bala, dedim axı, kiminsə ulduzu söndü. Özü də lap cavan adam idi. İşığı yaman gur görünürdü. Alışmağı ilə sönməyi bir oldu.

Əvvəllər də anası göylə bağlı eşitdiklərini Sərrafa danışmış, hər ulduzun bir insanın bəxti olduğunu demişdi. Ağlına gəldi ki, yəqin anası yenə yanan meteor görüb. Ona nəyisə izah etməyin mənası yox idi. Yenə də təskinlik üçün dedi:

– Ay ana, göydə çoxlu cisimlər var. Yanan ulduz da belə göy cisimlərindəndir. Öz məhvərindən qopub

düşən vaxt atmosferin hava qatlarında sürtünmədən yanıb havaya sovrulur. Həmin göy cisimləri çox böyük olur. Onların parçaları hətta yerə qədər gəlib çata bilir. Yerə qədər gəlib çatan belə cisimlər qara sal daşlardır.

– Başa düşdüm, ay oğul, başa düşdüm, – deyərək susdu.

Sərraf söhbəti yekunlaşdırıb anasını sakitləşdirdi:

– Ana, su olsaydı, bir az içərdim.

– Bəlkə çay içəsən, bala, yoldan gəlmisən?

– Yox, sərin su gətirsən, bəs edər.

Həyat qalxıb su gətirdi. İşıqda oğlunun su içməyinə baxan ana, stəkanı alanda:

– Allah bu suyu çəkənin atasına rəhmət eləsin, – dedi.

– Ay arvad, elə özünə Allah rəhmət eləsin de də.

– Yox, ay bala, rəhmət elə onun atasına düşür ki, belə oğlu olub.

Sərrafgilin evləri Şollar suyu keçən xəttin yaxınlığında idi. Onların evinin yanından keçən su kəməri beş-on kilometr uzanıb Nasosnu deyilən yerdən şəhərə vurulurdu. Adamlar həmin ana xətti neçə yerdən deşib həyətlərinə su çəkdiklərinə görə, «həftə səkkiz, mən doqquz» burada yaşayanları sularını kəsəcəkləri ilə hədələyirdilər. Elə bu xəttin üstündə xarici şirkətlər zavodlar tikib, nəhəng çənlər quraşdırmışdılar. Həmin Şollar suyunu plastik qablara yığıb, üstünə

rəngli etiketlər yapışdırır, qaz vurur, kimyəvi dərmanlar qatır, müxtəlif adlar altında camaata sırıyırdılar. Bir vaxt bu suyu çəkdirən kişinin – mesenat Tağıyevin heç ağlına da gəlməzdi ki, elə bir zaman gələcək, dağlardan – yüz kilometrlərlə uzaq məsafədən çəkib gətirtdiyi bulaq suyunu əcnəbilər onun öz millətinə pulla satacaqlar.

«Koka-kola», «Pepsi» firmaları da bu səmtlərdə qurulmuşdu. Zavoda yetişən müxtəlif qabaritli maşınlar, gecə-gündüz saysız-hesabsız su qablarını Bakıya, eləcə də digər şəhərlərə daşıyırdı.

Sərraf anasının qolundan tutub evə sarı çəkdi. Həyat elə bil ki, yuxudan ayıldı:

– Bıy, başıma xeyir, ay bala, heç soruşmuram, Sadiqəni görə bildinmi?

– Hə, ana, bir az havada gəzib dolaşdıqdan sonra evlərinə aparıb, gəldim.

Həyat arxayınlaşıb dedi:

– Sabah evdən tezdən çıxacaqsan. Gecə keçir, gəl gedək, yat.

Səma yenə nəhəng alov tonqalı kimi işım-işım işıldayırdı. Ulduzların heç vecinə də deyildi ki, az öncə onların yanında olan bir parlaq ulduz axıb getdi. Heç yerdəki insanlar üçün də maraqlı deyildi ki, bu kimin bəxt ulduzudur?

Nurlu gecə sübhə doğru yola başlamışdı. Bu yolda minlərlə ulduz sönürdü. Bu yolda yüzlərlə insan taleyi ölüm hökmünə tuş gəlirdi…

* * *

Elə bu işıqlı gecənin romantik aləmində Zinayə öz evində – yarlı-yaraşıqlı eyvanında oturmuşdu. Yır-yığış, bişir-düşür üçün işə götürdüyü xidmətçi qadın onlarda qalır, evin bütün yır-yığışını, bişir-düşürünü görürdü. Əvvəllər də onların maddi vəziyyəti pis olmamışdı. Son vaxtlarsa Qadirin qazancı birə min artmış, güzəranları kəskin şəkildə dəyişmişdi. Gün ərzində maşın və sürücü Zinayənin ixtiyarında idi. O, tez-tez şəhərə çıxır, qızı Fənayə ilə birlikdə şənliklərdə əylənir, istədiyi gün tanışlarının qapısını döyürdü.

Adətən gec yatırdı. Fənayə sarıdan ciddi narahat deyildi. Amma bu gecə ürəyi sıxılır, hövsələsi daralırdı. Fənayə gecələr evə yerli-dibli gəlməyəndə belə, ana olan kəs bu barədə heç nə soruşmurdu. Di gəl, yaxşı bilirdi Fənayə haradadır. İndiki nigarançılığının səbəbini isə təkcə bu axşamla bağlamaq düzgün olmazdı. Qızın hamiləliyi qadını silkələyib ayıltmış, düşüncəsində fərq əmələ gəlmişdi. Təzadlı düşüncələr dincliyini əlindən almışdı. O, baş verən hadisəyə, qızının indiki həyatına laqeyd qala bilmirdi. Bu işin sonunun nə cür qurtaracağını, Harisin Fənayəyə münasibətinin bundan sonra necə olacağını anlaya bilmirdi ki, bilmirdi.

Zinayə önündəki çay stəkanını ikiəlli tutdu. Xidmətçi qadın gördü ki, ev sahibəsinin əlləri əsir,

stəkan nəlbəkiyə dəyib şaqqıldayır. O, dərhal irəli gəlib:

– Zinayə xanım, sizə nə olub, əliniz tir-tir əsir. Allah eləməmiş, xəstələnməmisinizki?

– Hə, bütün bədənim uçunur, elə bil başım üstümdə deyil, üşüyürəm.

– Xanım, bu istidə adam üşüyər? Yəqin özünüzü soyuğa vermisiniz… Çox güman ki, qızdırmanız da var.

– Bilmirəm, hər nədi, qəfil düşdü canıma.

Qulluqçu qadın gedib kondisioneri söndürdü, aynabəndin pəncərəsini açdı. Dəsmal gətirib Zinayənin alnında puçurlanmış tər damcılarını sildi. Sonra içəri keçib sakitləşdirici dərman gətirdi. Zinayə dərmanı içib bir qədər sakitləşdi və soruşdu:

– Fənayə bu gün zəng vurmayıb ki?

– Xeyr, Zinayə xanım. Axı, o, heç vaxt evə zəng vurmur. İstəyirsiniz, telefonu gətirim, özünüz zəng vurun.

– Gətir.

Zinayə telefonu aldı. Nə düşündüsə, zəng vurmağa tərəddüd etdi. O, bu günə qədər telefonla qızını axtarmamışdı. Amma indi intizardan üzülür və bu intizar üşütməyə dönürdü. Əvvəlcə Fənayənin telefonunun nömrəsini yığdı. Telefon uzun-uzadı çağırdı… Nəhayət, ekranda «otvet net» sözləri yazıldı.

– Cavab vermir. Bəlkə Harisin öz nömrəsini yığım?

– Yığın, xanım, yığın. Təşviş, həyəcan axmaq şeydi.

Harisin nömrəsini yığdı. Heç bilmirdi ki, onunla nə danışacaq? Ancaq Harisin də telefonu cavab vermədi.

Zinayənin ürəyi sanki sapdan asılı qaldı. Telefonu stolun üstünə atdı. Əslində atmadı, telefon əlindən düşdü.

Qulluqçu qadın Zinayənin qolundan tutub yataq otağına apardı…

* * *

Həmin gecə, Fənayənin beynində uğultuların, başında dəhşətli ağrıların tüğyan etdiyi fəlakətli anlarda «Satir» restoranının şərq tərəfində yerləşən geniş, üçotaqlı istirahət guşəsində Fənayənin atası Qadir yumşaq kresloda əyləşib qarşısındakı siyahıya əsasən telefon nömrələrini yığırdı. Nəhayət, axtardığı ünvanların birindən cavab gəldi:

– Bəli, eşidirəm, – ortayaşlı qadın səsinə oxşayırdı.

– Axşamınız xeyir. Rahanı olar?

– Hər vaxtınız xeyir. Bir dəqiqə gözləyin.

Bir azdan telefonun mikrofonundan gənc bir qızın səsi eşidildi:

– Eşidirəm, kimdi danışan?

– Mən xaricdə işləmək istəyən gənc qızları işə düzəltmə şirkətindənəm. Sizin nömrənizi mənə Rufa verib.

Raha deyilən gənc qız Qadirin tanımadığı, ancaq adını eşitdiyi Rahibə idi. O, Harisin məsləhəti ilə xaricə yollamaq üçün gənc qız axtararkən, Rufanın rastına təsadüfən çıxmışdı.

Rahibə ani tərəddüddən sonra:

– Hansı şərtlərlə işə düzələcəyimi bilmirəm, – dedi.

– Narahat olmayın, xanım, əla şərtlərdi. Üç ay Dubayda qalacaqsınız. Ərəb Əmirliklərinin ən görməli yerlərini gəzəcək, yaxşı dincələcəksiniz. Xoşunuza gəlsə, sizin orada qalmaq vaxtınızı uzada bilərik. Geri qayıdanda, şirkətin xarici dil kurslarında istədiyiniz dili seçib öyrənərsiniz. Kursdan sonra istənilən ölkəyə səfər sizin istəyinizdən asılı olacaq.

– Hə, səfərə çıxmağı istəyirəm…

– Belə səfəri kim istəməz ki? İki ayın içində çoxlu pulun da olacaq, maşının da, üstəlik Bakının şıkarnı yerində mənzilin də.

– Bağışlayın, səfər nə vaxta planlaşdırılır?

– On beş gündən sonra qrup yola düşür. İstəsəniz, sizi həmin dəstəyə salaram.

– Fikirləşərəm. Hər halda, getmək istərdim.

– Qəti qərara gələndən sonra bu nömrəyə zəng edin. Razılaşsanız, sənədlər bir həftə ərzində hazır olacaq.

– Sabah axşam zəng edərəm.

Rahibənin səsində razılıq vardı. Bəlkə də sevinirdi.

– Sağ olun. Zənginizi gözləyəcəm.

– Sağ olun.

Qadir mikrofonun düyməsini basıb telefonu söndürdü və dərhal da əlini əlinə sürtdü: «Demək belə, bu partiya da hazırdır, yeddi nəfər».

Qadir «yeddi nəfər» sözünü elə dedi ki, sanki o, adamın yox, pulun qədərini sayırdı. Ovuclarını sıxıb, arxa tərəfdə yumşaq çarpayının üstündə uzanan yarıçılpaq qıza tərəf döndü. Qız güldü. Yerindən tullanıb Qadirin boynunu qucaqladı.

– Oho, Qadirçik. İşlərimiz əla gedir. Bu partiyanın rəhbəri özüm olacağam.

– Əlbəttə. Səndən çox şey asılıdır.

– Çalışaram Dubayda daha çox qalam.

Boynundan asılmış qızın belindən tutub özünə sıxan Qadir, otaqda iki dəfə fırlandı. İki dəfə yox, lap yüz dəfə də fırlansaydı, bu qız ondan qopana oxşamırdı. Qolları ilə Qadirin boynunu qucaqlayaraq, ayaqlarını onun belinə doladı. Qadirin nazik, uzun boynunun üstündəki başı, az qala, tavandan asılmış çilçırağa dəyirdi. Sanki otağa zürafə girmişdi. Fırlanıb qızla birlikdə yumşaq yatağın üstünə tullandı. Qız gecə lampasını yandırdı.

Otağın ekzotik mənzərəsi ilk dəfə bura giréni çaşdıra bilərdi. Rəngli divar kağızını cəngəllik təsvirləri, sarı və ağçiçəkli çobanyastığı çəmənliyi, cəngəllik ağaclarından sallanan meymunlar, talada nəhəng ağacın gövdəsinə söykənib dişlərini qıcayaraq baxan

qorilla bəzəyirdi… Yataq dəstindən yuxarıda isə rəssamlıq nümunəsi – «Çılpaq Maxa» baxanı heyrətə gətirirdi.

Klassik Avropa rəssamının gözəl sənət əsəri bu otaqda ehtiras və şəhvət yardımçısı rolu oynayırdı. Şəhvani hislər oyadan bu sənət əsərini yaradan müəllif burada olsaydı, bəlkə onun da ağlı başından çıxardı…

Qadir qızı buraxıb bir qədər süst halda kənara çəkildi. Əvvəl başının üstündəki rəsmə, sonra da qıza diqqətlə baxdı. Bu qız, sanki elə Çılpaq Maxanın özü idi, toz basmış zamanın o tayından çıxıb gəlmişdi. Əynindəki gecə köynəyini çıxarıb tullayan qız, başını yana əyib sürməli gözlərini süzdürdü. Qolunu göbəyinin üstündən uzadıb ayaqlarının arasına doğru endirdi. Hə, indi Qadir Çılpaq Maxanın özünü canlı şəkildə müşahidə edirdi. Bir an qaynar baxışlar toqquşdu. Qız əlini qaldırıb barmağı ilə əks tərəfə işarə etdi.

– Ora bax, ora – divarın dibindəki xüsusi guşədə qoyulmuş heykəlləri göstərdi.

…Canavar adayaoxşar yaşıl talada balaca cüyürü boğazlamışdı. Adama elə gəlirdi ki, bütün canı-cəsədi çırpınan, çapalayan cüyür bu saat onun ağzından çıxacaq və ildırım kimi şığıyıb gözdən itəcəkdi. Ancaq yalquzağın dişləri cüyürün boğazında kilidlənmişdi. Bu heyvan bəlkə heç canavar da deyildi. Qabaq ayaqları dal ayaqlarından xeyli qısa idi. Xallı-xallı

bədəni toxunma kilimi xatırladırdı, uzun quyruğu vardı. Heybətli baxışları, yırtıcı dişləri tükürpədici təsir bağışlayırdı. Bəlkə bu qorxu-hürküdən cüyürün ala gözləri bərələ qalmışdı. Bir qədər aralıda boğazlanan cüyürə doğru yüyürən canavar sürüsü kol-kosun arasından çıxsa da, yaxınlaşmağa cəsarət etmirdi.

Mənzərəni maraqla seyr edən qız, deyəsən, bu dəqiqə özünü həmin körpə cüyürün yerində görür, ovlanmaq niyyətini gizlətmirdi. O, Qadirə baxıb gülür, sanki «hə, nə durmusan, gəl məni parçala, ye» – deyirdi.

Güclü ehtiras dalğasının qanadlarında süzən Qadir, ruh kimi yüngül idi, çəkisiz idi. O, qızın üstünə canavar kimi şığıdı. Sir-sifətini, boyun-boğazını dişləri ilə didib-dağıtmağa başladı. Qız artıq Çılpaq Maxa deyildi, onun gözləri də xumarlanıb süzülmürdü. O, Qadirin vəhşi hərəkətlərindən təngə gəldi. Qışqırır, bağırır, imdad diləyirdi. Ancaq boğuq səsi bu otaqdan kənara çıxmırdı. Ağappaq bədən, üzgöz Qadirin dişlək yerlərindən gömgöy göyərib, qançıra döndü. Təcavüz azacıq da davam etsəydi, Allah bilir, qız, bu eybəcər vəhşinin əlində ölüb-itəcəkdi. Boynundan, dodaqlarından, döşlərindən qan sızırdı. Qadir isə getdikcə qızışır, sakitləşmək bilmirdi. Elə bu an çarpayının lap kənarından ona yenidən hücum etmək istədi, qız cəld bir hərəkətlə Qadiri sinəsindən ayaqları ilə möhkəm itələdi. Nazik, uzunqılçalı Qadir, özünü saxlaya bilməyib yıxıl-

dı. Başı çarpayının böyründəki balaca şkafın tininə dəydi. Kişi huşunu itirib düşdüyü yerdə qaldı. Qız divara qısılıb anlaşılmaz qorxu içərisində ona baxdı. Qadir tərpənmirdi. Qız əvvəlcə qucağına sıxdığı üst paltarını nə qədər mümkündü tez geyinib bu dəhşətli mənzərədən qaçıb uzaqlaşmaq istədi. Paltarını sinəsinə bir az da möhkəm sıxıb qapıya sarı bir neçə addım atdı və yenidən Qadirə tərəf baxdı, o hərəkətsiz di. Paltarını çarpayının üstünə atıb ona yaxın gəldi. Astaca, qorxa-qorxa Qadirin başını dikəldib donuq sifətinə baxdı. Diksindi, sanki bu canavar indicə qalxıb yenə onun boğazından yapışacaqdı. Amma yox, artıq onda canavarlıqdan əsər-əlamət qalmamışdı. Bir neçə aydan bəri Qadirlə ləzzətli günlər keçirib, həm kef eləyirdilər, həm də dəstə düzəldib Dubaya yola salırdılar. Dəstədəki qızların çoxunu onun vasitəsilə ələ almışdılar. Təzə dəstəyə özü də daxil olacaqdı. Qızın xüsusi planları var idi. Gəlirin xeyli hissəsi onun payına düşəcəkdi. Yox, yox, Qadiri bu vəziyyətdə qoyub gedə bilməzdi. O, Qadirin ölümünü istəmirdi. Qoy Qadir qalxsın, lap onu parça-parça etsin, amma başına bir iş gəlməsin. Bu dəqiqə bəlkə də həyatını Qadirə qurban verməyə hazır idi. Qadiri qaldırdı, əlini onun alnına çəkdi. Seyrək saçlarını alnından geri sığalladı. Onu soyuq tər basmışdı. Əl atıb çarpayının üstünə atdığı paltarlarından birini götürüb alnını, üzünü sildi. Qaçıb əskini vanna otağındakı su kranının altına tutdu, isladıb sıxdı və

qayıdıb kişinin sinəsini, boynunu sildi. Yaş əski Qadirin sinəsinə, boğazına nəmlik, sərinlik gətirdi. O, yavaş-yavaş kirpiklərini araladı, gözünü açdı. Boynunun arxasında qızın isti, hərarətli əlinin təmasını duyduqca, özünə gəldi. Boğazına dolanmış yaş əskini götürdü.

– Rufa, sənsən? Bəs, bu nədir?

Qadir əskini zəif işığa tutdu. Bu, qızın alt paltarı idi.

– Mənə nə olub?

– Heç, Qadirçik, sənə heç nə olmayıb, deyəsən, yıxıldın.

– Axı, niyə yıxıldım?

– Bilmirəm, çarpayının kənarından yıxıldın.

Qadir yıxılanaqədərki vəziyyətini tamam unutmuşdu. O, yenidən huşa getdi, deyəsən, sayıqlayırdı. Qadirin fikri, xəyalı artıq burada – Rufanın yanında deyildi. Daha o, yeni dəstəni – Nelyanı, Gülyanı, Aylanı… da düşünmürdü. Onun xəyalında bircə qızın adı vardı; haradasa, lap uzaqda, kimsəsiz qayalıqlar arasında o qız haray salırdı, çağırırdı. Deyəsən, elə atasını – Qadiri səsləyirdi. O, Fenya idi. Qadir xəyalən özünə nifrət etdi. Axı, o, Fenya deyil, Fənayə idi. Onun öz doğmaca qızı Fənayə. Qadir əllərini uzadıb ondan imdad diləyən qızına kömək etmək üçün qalxmaq, yüyürmək istədi. Ancaq ayaqları qıc olmuşdu, dili tutulmuşdu, heç qımıldana bilmirdi. Bayaqkı vəhşi canavar indi Fənayənin boğazından yapışmışdı. Bu vəhşi qurdun önündə Fənayə cansız,

gücsüz idi. Canavar var gücü ilə onu daşlara çırpırdı. Fənayənin qızıl qanı canavarın ağappaq dişləri arasından, cəngindən sinəsinə doğru süzülürdü...

…Rufa əlini Qadirin başına çəkdi. Onun gicgahı şişib yumrulanmış, bir az da qanamışdı. Qız Qadirin başının qanını yaş əski ilə siləndə, zədənin yeri sızıldadı. Qadir inildədi və yenidən heysizləşdi. O, Fənayənin qayalıqdan əks-səda verərək yüksələn fəryadını yenə eşidirdi. Ayağa qalxmaq, qızının imdadına yetmək istədi, ancaq bacarmadı. Elə bil kimsə onu tutub saxlayır, qızının harayına yetişməyə qoymurdu…

* * *

Qəfil güclü cənub küləyi başladı. Nəhəng ümman təlatümə gəldi. Şappıltı ilə qayalıqlara dəyən dalğaların boğuq səsi adamı vahiməyə salırdı. Dəniz nəhəng, canlı əjdahaya dönüb nərildəyir, nəfəs alır, qəzəbini fırtınanın gurultulu dili ilə bildirirdi. Qurban istəyirdi dəniz… Bayaqdan bəri dənizin üzərində hansısa istəyin təsiri altında aldanıb qalan qağayıların çığırtıları da artıq yox olmuşdu. Bir qədər aralıda, balıqçı komasının kiçik pəncərəsindən gələn işıq yanıb-sönürdü. Dəli xəzri vəhşi bir sürətlə komanın dəlmə-deşiklərindən vurub keçir, təklay balaca pəncərədən asılmış kətan pərdəni sağa-sola yellədirdi.

Fənayənin gözlərinə «Satir»in çilçıraqları görünmürdü. Balıqçı komasının pəncərəsindən süzülən zəif

parıltılı işıq onu özünə doğru çəkib aparırdı. Əgər ayaqları yer tutsaydı, gücü çatsaydı, qayalıqların üstü ilə quş kimi uçar, həmin o balıqçı komasına tərəf qaçar, orada yaşayan mis sifətli insanlara sığınardı. Ömürləri boyu sahildə yaşayan, dənizi ünvan seçən o adamların məsləyi, əqidəsi də günəş kimi nurlu, sular kimi saf idi. Bəlkə onların mərhəmətinin istisi Fənayəni gecənin üşüntülü soyuğunun əlindən alardı. O komadakı adamlar hər şeydən, hətta ömürlərini həsr etdikləri dənizin dərin qatlarından çıxarılan ən qiymətli sərvətlərdən, ən qiymətli zinətlərdən belə dəyərli idilər.

Orada Fənayənin kişilik etalonu hesab etdiyi Harislərə yer yox idi, özünü nəhəng hesab eləyən o adamlar, həmin o balaca komada cılızdan da cılız, gücsüzdən də gücsüz, zəifdən də zəif görünərdilər. Bu real düşüncə Fənayənin beyninin keyini açır, üşütməsini əridirdi. Balıqçı komasının pəncərəsindən süzülən zəif şüa günəşin müqəddəs işığı kimi güclü, əziz bir insanın nəfəsi, ən doğma ocağın hərarəti qədər mərhəm idi. Bir an əvvəl, az qala bütün dünyadan ümidini üzüb, gözə görünən nə vardısa, hamısına lənət oxuyan Fənayə, yenidən dirçəlmək, adamın yeddi qatından keçən tənəli sözlərini o əclaf Harisin sifətinə çırpmaq üçün güc yığırdı.

Haris nə baş verdiyini anlamasa da, qızın ona zillənmiş kinli baxışlarını aydınca görür və bir qədər üşənirdi. Ehtiyatla dilləndi:

– Payız küləyidir. Düzdü, sərinliyi var, amma soyuq deyil…

– Cənubdan əsir. Gilavardı. Əslində bu külək isti olmalıdı.

– Amma sən niyə üşüyürsən?

– Görünür, payız tələsib, vaxtından tez sovuşub, qışı bir köynək yaxınlaşdırıb, doğmalaşdırıb.

Fənayənin dodaqları astaca tərpəndi. Haris dinmədi, qızın səsini eşitmək, niyyətini anlamaq istədi. Aradan ötən qısa zaman aralığında Haris, Fənayəyə ilk dəfə ikrahla baxdı. Bəlkə öncədən qərarlaşdırmışdı ki, bu görüş Fənayə ilə onun son görüşüdür? Fənayə onun gözlərində lazımsız, gərəksiz əşya kimi idi. Demə, Haris onun adını xaricə göndərəcəyi qızların siyahısına da salıbmış. Bu siyahıda adlar şərti idi. Onun adı Fenya kimi göstərilmişdi. Fenya elə Fənayə deməkdi.

Haris Fənayənin hamiləliyindən şübhələnmişdi. Problemi aradan qaldırmaq müşkül deyildi, sadəcə, Fənayənin xarakterini bildiyi üçün mümkün qədər ehtiyatlı davrandı: «Yox, Fənayə, sən mənim üstümdə ağalıq edə bilməzsən. Sənin mənə gücün çatmaz qız, mən sənin tellərin sanı xanımla olmuşam… Uşaq nədi? Mənim harama yaraşır uşaq? Amma sən mənim biznesim üçün çox dəyərli, çox bahalısan. Özün boyda qızıl külçəsisən. Əlimdən asanlıqla çıxıb, heç hara gedə bilməzsən. Sən mənim olacaqsan. Canındakı son damla şirənə qədər mənim olacaq…»

Haris yaxına gəldi. Əli ilə yavaşca Fənayənin telini tumarladı:

– Üşümürsən ki?

Fənayə öz aləmində pıçıldayırdı. Deyəsən, təbi gəlmişdi, şeir deyirdi:

Bu payız tez gəlib,
Gəlib soyuq küləklərilə.
Tənha qağayıların
Fırtınaqabağı çığırtıları,
Uzaq yollara
Gücü çatmayan durnaların
Dəniz üstünə
Saldıqları lələklərilə.
Doğrudur, üşüyürəm,
Dənizin gurultulu səsindən,
Payızın vahiməli nəfəsindən.
Məni daha çox üşüdür
Baxışlar.
Bir vaxt istisindən
Ləçək-ləçək,
Pardaq-pardaq
Gül açdığım baxışlar.
Bir vaxt işığına
Uşaq kimi
Qaçdığım baxışlar.
Hara getdi istisinə
Bələndiyim baxışlar?

İndi o baxışlardan
Soyuq yağışlar yağır.
İndi o yağışlardan
Soyuq baxışlar yağır.
Qəlbimin dolmuş gözlərinə
Soyuq küləklər əsir.

Fənayə saçlarını sığallayan Harisin saxta nəvazişinə tam laqeyd idi. İndi o, bir parça şeir və o şeiri pıçıldayan solğun dodaqlardan özgə bir şey deyildi. Başqa vaxt olsaydı, gözlərini dolandırıb onu sonsuz məhəbbətlə süzər, qalxıb boynuna sarılardı. Saçlarında dolaşan əllərin elə bil istisi sönmüşdü, əllər taxta kimi qurumuşdu. Taxta şükürlüdü, buz layı kimi soyuqdu həm də… Bu əllər onun öyrəşdiyi əllər deyildi, özgə əllərdi, yumşaqlığını, mehrini itirib, beş barmağı şana-şana açılan, çətirlənən bu əllər hörümçək toru kimidi, hiylə, kələk cələsidi. Və ən pisi odur ki, Fənayə bu torun içindədi…

Qayanın üstündəydilər. Fənayə əlini Harisə sarı uzatdı, var gücü ilə onu itələmək üçün. Bircə an lazım idi ki, Harisin başı daşlara dəyib parçalansın, ya da bir metrdən sonra quyu kimi dərinləşən dənizin dibinə yuvarlanıb düşsün. Əli Harisin sinəsinə toxunan dəqiqə sanki qarnının içi təpikləndi. Bayaqkı kəskin ağrı yenidən belini iki bükdü. Bu, içəridən dünyaya yol gələn körpənin çöldə baş verən hadisələrə qarşı üsyanı idi. Fənayə müvazinətini itirsə də, Haris onu

yıxılmağa qoymadı. Qucağına alıb maşına gətirdi, arxa oturacaqda uzandırdı:

– Bir az dincəl, – dedi.

Fənayədən cavab gəlmədi. Bir anda solğun bənizi səhərdən dərilmiş qırxpipik qızılgül kimi bürüşüb qırış-qırış oldu. Maşının qapısı açıq qalmışdı, salonun işığı yanırdı. Fənayənin rəngi qaçmış, sifəti meyit üzü kimi ağappaq idi.

– Bu gün bilmirəm nə olub sənə? – Haris bir də soruşdu.

Fənayə nazik barmaqlarını güclə tərpətdi, əlini yumub açdı. Harisə elə gəldi ki, qız əhvalının təlx olduğu başqa vədələrdəki kimi təskinliyə işarə eləyir; Haris onu nəvazişlə oxşasın, saçlarını sığallasın.

Haris qayalığa qayıdıb paltarlarını geyindi, sonra Fənayənin paltarlarını yığışdırdı. Ləngərlənən dənizə sarı baxdı. Qayğısı bu dənizin suyu qədər nəhayətsiz idi. Onu fikir üzürdü; bundan sonra Fənayə ilə necə davranmalıdır? Axı, indi bu qız kim idi ki? Yüzlərdən, minlərdən biri. Bir də görürsən biri maşını siləndən sonra çirkli əskini yolun qırağına tullayıb gedir. Yoxsa, Fənayə ilə belə davranmaq gərəkdir? Əski kimi… Yox, belə yaramaz. Artıq bu qızcığaz yeni keyfiyyətdə, yeni adda meydana çıxmışdı. Fenyanı qrupdan silə bilərdimi? Axı, fenyaların sırası getdikcə artırdı… Hələ bəs deyildi. Hər gün ona zənglər edir, yeni dəstələr istəyirdilər…

Fenya siyahıdan pozula bilməzdi. Harisin qərarı qəti idi: nəyin bahasına olursa-olsun, Fənayəni inandırmalı, dəstə ilə xaricə göndərməli idi. Bununla da ondan həm canını qurtarar, həm də kefi istəyən qədər gəlir götürərdi.

Haris maşının yanına gələndə, Fənayə artıq qalxıb arxa oturacaqda əyləşmişdi. O, bayaqkı zəif, gücsüz, ümidi üzülmüş qız deyildi, sanki qəzəbli canavardı. Haris onun gözlərinin içində işıldayan qəzəbi aydınca gördü, canına qorxu düşdü. Açıq-aşkar yaltaq təbəssümlə:

– Hə, deyəsən, yaxşısan, – deyərək irişdi. Sonra sakitcə maşına əyləşib, qapını örtdü.

Fənayə:

– Mən yaxşıyam, sən necəsən?

– Mən də pis deyiləm…

– Heç olmasa, bildinmi qanının arasına körpə girdi?

– Necə? Nə? – Haris təəccübünü gizlətmədi.

– Bayaq sən o boz qayalıqlar arasında ölməliydin. O, üsyan elədi, mənim heyimi aldı, əllərim boşaldı.

Fənayə sayıqlayırdı, yoxsa xəstələnmişdi? Haris qayğılı bir tərzdə:

– Sənə dincəlmək lazımdır, paltarlarını geyin, gedək, – dedi.

Fənayə alt paltarlarını geyindi. Əlini ehmalca başına çəkdi. Saçları yaş idi.

Haris onun ovqatının hansı durumda olduğunu bilmək istədi:

– Hə, deyirsən səni kim vurdu? Mənim körpəm?..

– Sənin körpən.

Bu söz deyildi, zindanı döyən ağır çəkic idi.

– O, səni niyə vurdu ki?

Harisin səsi çartaçartla yanan qəzəb ocağına döndü.

– Qoymadı ki, itələyəm , axırına çıxam, o dünyalıq olasan.

Harisin gözləri bərəldi, hədəqəsindən çıxdı.

– Bu nə deməkdir? Bir də de!

– Niyə başa düşmürsən? Məncə, kifayət qədər aydın danışıram. Yaxşı bilirsən ki, var-dövlətində gözüm olmayıb və səndən ləyaqətdən, mərdlikdən başqa heç nə ummamışam. İstəmişəm ki, dünyaya gələcək körpəmiz sənin adınla tanınıb fəxr eləsin. Amma sən mənim ümidlərimi daşa çırpdın, puça döndərdin…

Haris yaxşı bilirdi ki, hazırkı vaxtda bu şəhərin az-az adamları onun sözünü çevirə bilər. Haris onu da yaxşı bilirdi ki, bircə kəlməsi yetər ki, kimlərsə Fənayəni bu dünyadan yox etsin. Bəs, nəyə görə Harisin qıza cavab verməyə cəsarəti çatmırdı? Niyə onun əlində əsir olmuşdu?..

O, Fənayənin paltar geyinməyinin fərqinə varmadan maşını işə saldı, ayağını zərblə qaza basdı. Təkərlərin altında xırçıldayan qum və xırda daş dənələri ətrafa səpələndi. Fənayə arxa oturacaqdan ma-

şını az qala uçurdan Harisi acı-acı süzdü. Xeyli vaxtdı qəlbinə hakim kəsilən bu kəs, gözlərinin qabağındaca mələk donunu soyunub canavar cildinə girirdi.

Dəniz kənarından asfalt yola qədər olan məsafə o qədər də çox deyildi. Maşın ildırım kimi şütüyüb asfalt yola çıxdı. Və elə bu an… Şəhərə tərəf sürətlə irəliləyən «Qazel» markalı mikroavtobusla toqquşdu. Hər iki maşının sürəti yüksək olduğundan, hadisə bir anda baş verdi. Harisin maşınının altında elə bil bomba partladı. Maşın havaya qalxıb çevrildi, arxası üstə xeyli sürüşüb yolun kənarına düşdü. Mikroavtobus sürəti yığa bilmədiyi üçün yoldan çıxıb aşdı. Bir azdan şəhərə çatacaqlarını düşünən, bəlkə də uzaq bir səfərin sonuncu intizarlı anlarını yaşayan adamların qara-qışqırığı göy üzünə bələnd oldu…

* * *

Səhərə yaxın idi. Zinayə təzəcə yuxuya getmişdi. Haradansa uzaqdan, lap uzaqdan əcaib-qəraib səs gəlirdi; zəng səsinə oxşayırdı, kilsə zənginin səsinə. Aramsız zəng səsi yatmaq istəyən, bəlkə də dünyanın hay-küyündən qaçıb, səssizlik, tənhalıq içində gizlənmək istəyən Zinayənin beyninə çəkic kimi dəyir, onu haldan, təbdən çıxarırdı. Zəngin səsində hikkə vardı. Zinayə böyük maraqla həmin hikkənin mənasını anlamağa çalışırdı. Elə bil kimsə pıçıldayırdı ki, bu zəng kilsə yox, əcəl zəngidir. Zinayə yuxuda şaq-

qanaq çəkib güldü. Qaranlıq bir aləmdən çıxıb bədheybət gözləriylə onun ixtiyarını əlindən almaq istəyən kabusun qadın və ya kişi olduğu bilinmirdi. Nəsə canlı varlıq idi. Bu canlı varlıq hərdən ona yaxınlaşır, hərdən uzaqlaşırdı: «Sizin hamınızın canını alacağam, bax beləcə, əzab-əziyyətlə». Zinayə gördüklərinin yuxu, yoxsa həqiqət olduğunu aydınlaşdıra bilmirdi. Bəs, bu əcəl sözü haradan ağlına gəldi? Yadına düşdü ki, gəncliyində oxuduğu «Əcəl zəngi» adlı əsərdə belə bir fikir vardı: «Nə fərqi, o zəng kimin üçün çalınır?» Zinayə tam arxayın oldu, yuxu görür. Və yuxu gördüyünə əmin olduqdan sonra təskinlik tapdı. Həmin o qorxulu kabusun vahiməsi də keçib getdi. Təzədən yuxulamaq istədi. Yox, deyəsən, yuxudan heç oyanmamışdı da… Hiss edirdi ki, qarabasma canını üzür. Saymağa başladı: bir, iki, üç, dörd… doxsan doqquz, yüz. Yox alınmadı, yenidən saymağa başladı: bir, iki, üç… say yarıya çatmamış, qorxulu kabus təzədən peyda oldu.

«– Bu zəng səsi səni narahat etmir?»

«– Niyə ki, narahat edir».

«– Demək sən…»

«– …Hələ insanlığımı itirməmişəm».

«– Elə onu demək istəyirdim. Bu az deyil».

«– Səhv edirsən».

«– Niyə?»

«– Nəfəs alan, yaşayan hər bir adam insan olaraq qalır. Əgər…»

«– Bəli, əgər dəli, ruhi xəstə deyilsə…»

Zinayənin kabusla gərgin dialoqu davam edirdi. Elə o özü də kabus qədər qorxunc görkəmdəydi.

Zinayə bir anın içində həyatını cəhənnəmə çevirən kabusu tutmaq, boğmaq istəyirdi, lakin o ilğım kimi idi; əl atırdı, ələ keçmirdi, yaxınlaşırdı, gözdən itirdi. Zinayənin uzun əlləri, uzun dırnaqları hər dəfə boşa çıxdıqca, tələşı daha da şiddətlənirdi. Əvəzində inadkarlığı çoxalır, dırnaqları ilə divarları didib-dağıdır, pərdələri cırıb tökür, əlinə keçəni, gözünə dəyəni ələk-vələk edirdi.

Yuxarıdan, başının üstündən səs gəldi:

«– Məni axtarma!

«– Axtarma nədi, səni tutub dırnaqlarımla parça-parça edəcəm.»

«– Tuta bilməzsən, çünki sənin içindəyəm, gərək içini qoparıb çölə çıxarasan…»

Zinayə sarsıldı:

«– Sən necə pərçim olmusan ora, əclaf?.. Axı, mən kabus deyiləm, adamam. Başqaları kimi, eşidirsən, adamam…»

«– Yox, Ziniçka, sən ayrı cansan. Üz-gözün insana bənzəsə də, daxilin özgə həngamədi. Mən o dəhşətli zəngi səndən və sənə bənzəyənlərdən ötrü çalıram. Bu zəng səsini eşitməmək mümkün deyil.»

Zinayə sakitləşmək, hətta ikinci dəfə şaqqanaq çəkib gülmək istədi. Ancaq fikrindən vaz keçdi. Hikkəsindən boğulurdu:

«– Zəng xristianlar üçündü, müsəlmanın xəbərdarlıq zəngi azandı…»

«– Sənin üçün nə fərqi; azan səsi, ya kilsə zənginin harayı?»

«– İnsanlar istər-istəməz seçim qarşısında qalırlar.»

Zinayənin beynini sarmış duman az-maz seyrəldi. İndi zəng səsi uzaqdan gəlir, güclə eşidilirdi. Axı, o, yatmalıydı. Yuxusu tamam qaçdığından yerindən qalxıb üzünə su vurmaq istədi, qalxa bilmədi. Yox, deyəsən, o ayılmayıb, hələ yuxudadır. Başını qatmaq istədi, rəqəmləri bir də təkrar etdi: bir, iki… Bir, iki… Qəribədir, ikidən o yana saya bilmədi. Zəng səsləri gücləndi. Bu, bayaqkı kilsə zənginin səsi deyildi. Aydın eşidilirdi. Dinlədi, telefon zəngi idi. Gözünü açdı. Görünür, telefon bayaqdan zəng çalırmış. Zinayə əlini uzadıb dəstəyi götürdü. Dəstəkdən gənc bir qızın səsi eşidildi:

– Bura Qadirin evidir?

– Bəli.

– Siz kimsiniz?

– Qadirin həyat yoldaşıyam.

– Sizi «Təcili Tibbi Yardım Xəstəxanası»ndan narahat edirlər. Danışan tibb bacısıdır.

– Necə? Xəstəxanadan?

– Bəli, bəli, xəstəxanadan. Həyat yoldaşınız Qadiri təsadüfi xəsarət aldığı üçün bura gətiriblər. Pilləkənlə çıxanda ikinci mərtəbədə, sağdan üçüncü palataya yerləşdiriblər.

Səs kəsildi. Qadın çaşqın fikirlər içində əndişələndi. Bu gerçəkdi, yoxsa bayaqkı yuxunun davamı?..

Əlini boğazında, üz-gözündə gəzdirdi, oyaq idi. Telefonun dəstəyi hələ də sol əlindəydi. Yataqdan qalxdı. Vanna otağına keçib üzünə su vurdu. Nə edəcəyini bilmir, dəli kimi bir otaqdan o birinə keçirdi. Xidmətçi qadını oyatdı:

– Qalx, Qadirə nəsə olub, xəstəxanaya aparıblar.

Çaşıb qalmış, necə hərəkət etməli olduğunu çözür, çıxış yolu axtarırdı. Zəngin, zər-zibalı otaqlar elə bil ki, min illərin sükutuna bürünmüşdü – lal kimi susurdu. Bu qiymətli daş-qaşların bircəciyi də onun dadına yetişmək iqtidarında deyildi.

Zinayə Qadiri sevirdimi? Bunu demək olmazdı. Ancaq indi Qadirin yanına çatmaq, əlini onun alnına qoymaq istəyirdi. Özü də lap ürəkdən istəyirdi. Allaha yalvarırdı ki, təki ona heç bir şey olmasın. Elə bil illər ayrısıdırlar. İndicə anladı ki, heç demə, o illər uzunu Qadirin yanına dönməyini arzulayıb…

Qapının zəngi çalındı. Zinayənin ürəyi qopdu. Təşviş içində donub qaldı. Görəsən, daha nə xəbər verəcəklər?

Qapını açdılar. Sürücü idi. Məlum oldu ki, vəziyyətdən hali olan kimi, xidmətçi qadın çağırıb onu.

Dan yeri sökülürdü. Sürücü ilə qapıdan çıxan Zinayəni həzin, kövrək bir səs ayaq saxlayıb dinləməyə məcbur etdi. Bu, «Təzə pir» məscidindən ucalıb yatmış şəhərin üstünə yayılan azan səsi idi.

* * *

Xərəklərdə yanaşı uzanan Fənayə ilə Harisi təcili yardım maşınına qaldırdılar. Onların hadisə yerindən götürülməsi iki-üç saat çəkdi. Yol polisi əməkdaşları, təhqiqat işçiləri, ilk təcili yardım maşını ağır qəza yerinə çatana qədər xeyli vaxt ötdü. Bu vaxt ərzində yoldan keçən maşınlar da çoxaldı. Kök, balacaboy, qarabəniz yol polisinin heç nə ifadə etməyən sifətindən zəhər tökülürdü və bundan da məlum olurdu ki, deyəsən, yardıma heç ehtiyac da yoxdur, iş-işdən keçmişdir. Hər halda, o yenə öz peşə borcunu ardıcıllıqla yerinə yetirir, tıxacyaranma ehtimalına görə, sürücülərə göstərişlər verirdi. Ətrafdakı maşınların fənərləri yanır, hadisə yerini gündüz olduğu kimi işıqlandırırdı. Yol polisi qəza yerinin yaxınlığında maşını saxlamaq istəyənlərə təkrar-təkrar göstəriş verirdi: «Burada saxlamaq olmaz!» Onun xəbərdarlığına baxmayaraq, adamlar Harisin maşınını çevirib düzəltdilər. Maşın demək olar ki, yastılanmışdı. Hamı «Mersedes» markalı maşındakı kişi və qadını ölmüş bilirdi. Ona görə də, həkimlər mikroavtobusdan çıxarılan yaralıları bir-bir götürüb xərəyə qoyur, yan-yana düzülmüş təcili yardım maşınları ilə yola salırdılar. Mikroavtobusda üç nəfər həlak olmuşdu; sürücü, adamların «pulyığan» adlandırdığı köməkçi və bir də yaşlı bir kişi. Yerdə qalanlar arasında isə az, ya çox dərəcədə xəsarət alanlar və ağır yaralılar vardı.

Harislə Fənayəni maşından lap axırda çıxardılar. «Mersedes» yararsız hala düşdüyü üçün qapıları açıb içəridəkiləri çıxarmaq müşkül məsələ idi. Ona görə də qaynaqçı gətirildi. Maşının dam hissəsi kəsilib götürüləndən sonra onları çıxarmaq mümkün oldu.

Fənayənin bayğınlıq içində eşitdiyi ilk sözlər deyəsən, ona güc verdi: – «Sağdılar, ölməyiblər». O, dartınıb qalxmaq istədi, amma aşağı ətrafı daş kimi ağırdı. Ağrı hiss etməsə də, yaralanıb-yaralanmadığını bilməsə də, çox güman ki, özünə gəlib bu ağır işdən salamat qurtarsa, maşınların toqquşduğu ana qədərki vəziyyəti xatırlaya biləcəkdi…

…Hə, yadına düşdü, onlar dənizin sahilindən aralananda Haris əsəbiləşmişdi. O, maşını hirslə yerindən tərpətdi. Yəqin ki, şəhərə tez çatmaq, Fənayəni elə çılpaq halda maşından itələyib hansı küçədəsə atmaq istəyirdi. Fənayə bütün bunları onun kinli baxışlarından oxuyurdu. Haris üçün heç nəyin fərqi yoxdu, onun dodaqlarından qopan «sənin də, sənin uşağının da…» kəlməsi bütün körpüləri bir anda yandırmışdı. Bəlkə də Fənayə həmin an maşını saxlamağı ondan tələb edəcək, gecənin qaranlığında, elə yoldaca düşüb ona da, maşınına da tüpürüb üzünü çevirəcəkdi. Çünki Harislə tanış olduğu müddət ərzində ilk dəfə özünü bu qədər təhqir olunmuş sayırdı.

Fənayə «saxla» demək istədi, amma bu sözü söyləməyə macal tapmadı. Elə həmin an, deyəsən, zəlzələ qopdu…

…Əllərini qaldırıb başını yoxladı. Başında, bədəninin yuxarı hissəsində elə bir ağrı yoxdu. Amma nə üçün tərpənə bilmədiyini anlamırdı. Əlini yanında uzadılmış Harisə toxundurdu. Onun bədəni durduğu yerdə silkələnir, üzünün əti səyriyirdi. Təcili yardım maşınının işıqlı salonunda Haris arabir əl-qol atırdı. Bu, suda boğulan adamın hərəkətlərini xatırladırdı. Fənayə əlini uzadıb onun qolundan tutdu, deyəsən, Haris hiss etdi. O da əlini aram-aram Fənayənin üzündə, sinəsində gəzdirdi. Elə bil Fənayəni başdan-ayağa qədər yoxlamaq istəyirdi. Harisin əli Fənayənin sinəsində idi. Nə axtarırdı? Nəyi bilmək istəyirdi? O, əlini Fənayənin qarnının üstündə saxladı. Yox, bu əmanətə bir kimsə şərik çıxa bilməzdi. Haris Fənayəyə görə, qəzadan əvvəl «ölmüşdü». Haris əllərini qəfil düyünlədi. Yay kimi sıxıb-açdı. Hər iki ovcunun ortasını xərəyin yanlarına basıb qalxmaq istədi.

Harisin son nəfəsi idi. Gözləri bərəlmişdi. Fənayə ona son sözlərini deməyə, bu adama nə qədər ki, diridir, eşidir, halallıq verməyəcəyini bildirməyə tələsdi.

– Sənindki buracan imiş…

– Hə, amma… – zarıdı.

– Yox, daha gecdir, heç nə…

Fənayə sözünün axırını gətirmədi. Əslində demək istəyirdi ki, heç nə sənə kömək edə bilməz. Haris dəryadakı son çöpdən yapışdı:

– Görürsən, ölürəm, Fənayə…

– Yaranan bir gün ölməlidir.

– Belə tez ölməyimi istəyirsən?

– Yox.

– Sən hələ də məni sevirsən?

Fənayə yara ağrısından daha çox qəlb ağrısı ilə istehza etdi:

– Sevirsən… Mən səni heç zaman sevməmişəm…

– Necə?! Aldatmısan? – o, qəzadan əvvəlki sağlam adam ehtirası ilə bağırdı.

– Yox, Haris, aldatmamışam. Ağıllı insan özünə vurulmaz. Sən mənim özüm, ruhum idin.

– Fənayə, mən ölmək istəmirəm.

– Ölünün ölümdən nə qorxusu…

– Eşit məni, inan mənə…

Haris canı üzülə-üzülə yalvardı.

Fənayə:

– Axı, nəyə inanım? – soruşdu.

– Səni sevdiyimə... Yaşamaq istəyirəm, Fənayə…

Haris son dəfə dilsiz baxışları ilə Fənayənin gözlərində mərhəmət axtardı. Ona elə gəldi ki, qıpqırmızı qan içində böyründə uzanan Fənayədə Tanrı gücü vardır. Bu qız istəsəydi, ona həyat verə bilərdi, tale kəndirini üzülməyə qoymazdı.

İnsanın ən böyük varidatı sən demə, onun sağlamlığı imiş. Doğrudanmı, Fənayə ona yardım göstərməyəcəkdi?! «Ay Allah, heç olmasa, Fənayə bircə anlığa ona mərhəmətlə baxaydı». Mərhəmət isə

qəhr olmuşdu, yox idi, bir damla da yox idi. Harisin gözündəki son ümid sönməkdə idi. Bayaq əlini Fənayənin qarnında gəzdirəndə, hər şeyin bitdiyini bilmişdi.

Fənayə Harisin nicat axtaran gözlərində tanış hərisliyi təkrar-təkrar gördü: «Yaşamaq! Yaşamaq!»

Haris, doğrudan da yaşamaq istəyirdi. Ancaq əlindən quş kimi uçurduğu həyatı təzədən kimdən istəmək olardı? Haris inadından asanlıqla əl çəkən deyildi, hələ də Fənayədən nicat umurdu. Yenidən ovuclarını xərəyin qırağına dirəyib qalxmağa çalışdı, bu vaxt sinəsindən başlayan güclü xırıltı onu boğdu. İki dəfə hıçqırdı. Ağzından çənəsinə, oradan da geri qanrılmış boğazına qan axdı. Əlləri boşaldı, hərəkətsiz halda xərəyin üstünə düşdü, gözləri bərələ qaldı…

* * *

Fənayəni xərəkdəcə əməliyyat otağına qaçırdılar. Xəstəxananın pilləkənlərində, dəhlizlərində böyük həyəcan var idi. Yaralılara yardım göstərilir, onların kimliyi müəyyən edilir, ünvanı məlum olan xəstə sahiblərinə xəbər verilirdi.

Harisi də xərəkdə əməliyyat otağına qaldırdılar. Onları gətirən təcili yardım həkimi Harisin biləyindən tutdu. Açıq gözlərini bir az da aralayıb baxdı, bəbəkləri hərəkətsiz idi. Birdən həkim diksinərək geri çəkildi. Donuq gözlərin içindən bir qız baxırdı.

Həkim istədi nəsə desin, mobil telefon zəng çaldı. Harisinki idi…

Təcili yardım həkimi sanki izn alırmış kimi cərraha sarı baxdı və düyməni basıb cavab verdi:

– Eşidirəm. Hər vaxtınız xeyir! Bəli, Təcili yardımdı. Hə, ağır yol qəzası olub. Xarici maşının sürücüsü keçinib. Yanındakı qız ağır vəziyyətdədir…

Telefonu bağlayıb stolun üstünə qoydu:

– Ölən kişinin qardaşı qızıdı. «Xəbərlər» proqramında maşının nömrəsi elan olunanda bilib. Bu qızı da yaxşı tanıyır. Deyir adı Fənayədir…

Əməliyyat otağının çarpayısında uzadılan Fənayə, dərin sükut içində gözlərini bir nöqtəyə dikmişdi. Eşitdiyi sözlərə qarşı reaksiyası yox idi, özünü hiss etmirdi. Hər şeyə, hətta bətnindəki taleyi bəlli olmayan körpəyə qarşı da biganə idi...

* * *

Səhər açılmışdı. Gecə baş verən dəhşətli qəzanı, xüsusilə Fənayənin demək olar ki, maşından çılpaq çıxarılmağını bütün şəhər əhli danışırdı.

– Bədbəxt hamilə imiş, – bunu pəncərədən həyətə boylanan cavan sanitar qadın dedi. Sonra da fikirli-fikirli əlavə etdi: – Həm də deyəsən, başı batmış oğlan karlı yerdən imiş. Bayaqdan gəlib-gedən xarici maşınların ardı-arası kəsilmir. Eh, bir tikə çörəyi Allah yetirir, təki vaxtsız ölüm-itim olmasın, adamı

şər tapmasın. O var-dövlətin, o sərvətin nə xeyri var daha? Öldü getdi, məhv oldu. Hələ heç qızı da bilmək olmaz ki, əməliyyatdan salamat çıxacaq, ya yox?..

O üyüdüb-tökürdü; həyatın vəfasızlığından, dünyanın faniliyindən. Bunları kimə və nədən ötrü danışdığını bəlkə heç özü də bilmirdi. Ancaq bir Allah şahiddir ki, o, yaralıların sağ-salamat qalmalarını ürəkdən arzulayırdı. Çox istəyirdi ki, onu içəri çağırsınlar. Qanlı parçaları götürsün, ondan xəstənin vəziyyətini soruşan olsun və o da desin ki, Allaha şükür, qorxusu yoxdu. Sağ olsun camaatı, sanitar şad xəbərlə çıxanda, pulu xəzəl kimi yağdırır.

…Fənayəyə narkoz verildi, həkim tamamlanacaq müddəti gözləyirdi. Qızın ünvanını tapa bilməsələr də, əməliyyata başlayacaqdılar. Lazımi hazırlıq görülmüşdü. Fənayənin vəziyyəti ağır idi; uşaqlıqda güclü qanaxma baş verdiyindən çoxlu qan itirmişdi. Ola bilsin ki, əlavə qan vurmaq lazım gələcəkdi. Bətnindəki uşaq isə ölmüşdü…

…Müstəntiqin iştirakı ilə tibbi ekspert komissiyası digər cərrahiyyə stolunda Harisin cəsədini yarıb, ölümün səbəbini protokollaşdırdı; «Döş nahiyəsi güclü təzyiqə məruz qalmış, ağciyəri, artelyar qan damarları partlamış, daxili qanaxmadan keçinmişdir».

Harisin cəsədini qohum-əqrəbasına verdilər. Gözləri yenə əvvəlki kimi açıq, əlləri yenə əvvəlki kimi yumulu idi. Məsciddə yuyulub, duası veriləndən sonra kəfənə tutulacaqdı.

Sanitar qadın dəhlizdə deyinirdi:

– Acgöz adama oxşayır. Dünyanı versən «bəsdir» deməz.

Dəhlizdən keçib, əməliyyat otağına dərman aparan baş tibb bacısı ona acıqlandı:

– Nə bildin, ay qız? Az danışsana…

– Niyə az danışım, gördüyümü deyirəm də. Acgöz, şorgöz olmasaydı, öz evində ölərdi.

– Ölüm Allahın işidir. Kimin vaxtı harada çatır, orada ölür.

Baş tibb bacısı əməliyyat otağına keçdi. Ancaq sanitar qadın onun son sözlərini də cavabsız qoymadı:

– Yönnü adam maşınında çılpaq qız gəzdirməz.

* * *

Zinayə cərrahiyyə şöbəsinin dəhlizindəki hay-küyü, həyəcanı eşidib palatadan çıxdı. O, lap tezdən, yəni bir neçə saat əvvəldən Qadirin yanında idi.

Qadir hələ ayılmamışdı. Ona dava-dərman köçürülmüş, lazımi tibbi yardım göstərilmişdi. Növbətçi həkim ürəyini, nəbzini, təzyiqini yoxlayıb demişdi ki, qorxulu bir şey yoxdur, sağalar. Yuxu mərkəzi zədə aldığı üçün bir az gec ayılacaq. Ola bilsin ki, nə baş verdiyini hələ dəqiq xatırlamasın, həyəcanlandırmaq, yanında səs-küylə danışmaq, ümumiyyətlə, heç nə soruşmaq olmaz.

Həkimlər Qadirin kəllə-beyin zədəsiylə xəstəxanaya gətirildiyini hüquq-mühafizə orqanlarına xəbər vermişdilər. Müstəntiq Qadirin vəziyyəti ilə maraqlanmış, həkimi, eləcə də «Satir»dən onunla gəlmiş adamı sorğu-suala tutmuşdu. Həmin adam ifadəsində bildirmişdi ki, Qadir təsadüfən çarpayıdan yıxılaraq başı dolaba dəymiş və dərhal da əlavə edibmiş ki, bu məlumatı ona Rufa adlı qız veribmiş…

Zinayə gecəki qorxulu yuxunu min səmtə yoza-yoza pəncərədən boylanıb bayıra baxdı. O bir qədər arxayınlaşıb palatadan dəhlizə çıxdı. Ağır yol qəzası barədə elə burada – tibb işçilərindən və xəstələrdən eşitdi. Cərrahiyyə şöbəsinə tərəf gedib qapını açanda, Rahibə ilə qarşılaşdı:

– Ay qız, sən burada nə edirsən?

Rahibə hönkürə-hönkürə özünü onun üstünə atdı:

– Zinayə xanım, əmim Haris… – sözünün gerisini deyə bilmədi.

– Bir açıq de görüm, nə olub, nə hadisə baş verib? – Zinayə onu silkələdi.

– Avariya. Əmimin maşını ilə «Qazel» toqquşub.

– Necə? Harada?

– Bakı–Ələt yolunda. Dəniz tərəfdən əsas asfalt yola dönən aralıqda.

Zinayə hadisədən tamam xəbərsiz idi. Harisin öldüyünü bilmirdi və belə hesab etdi ki, hər halda Haris təcrübəli sürücüdür onda təqsir olmaz.

Yavaş-yavaş qırışığı açılan Rahibə izahata keçdi:

– «Qazel» rayondan gəlirmiş.

– Bu rayon sürücüləri gecə-gündüz yolların şitini çıxarıblar. Yatarlar da. Darıxma, Allah qoysa, yaxşı olar.

Birdən Zinayə yuxudan ayılan kimi oldu:

– Bəs, Fənayə hanı? Bir yerdə olublar yəqin?

– Hə, hər ikisi bir yerdə olub.

– İndi buradadırlar?

– Əmim keçinib. Onu elə indicə apardılar.

– Necə?! – Zinayənin rəngi kağız kimi ağardı. Elə bil Harisin yox, yeganə, madar oğlu Nadirin ölüm xəbərini eşitmişdi.

* * *

Nadiri iki-üç ay əvvəl xaricə göndərmişdilər. Zinayənin ana qohumlarından biri Livanda yaşayırdı. Hərdən məktublaşırdılar. Zinayə övladları – Nadir və Fənayə haqqında məktub yazıb onlara məlumat vermişdi. Qohumları da yazmışdılar ki, Nadiri göndərin, burada ingilis dilini öyrənsin, Şərqi tanısın. Nadir xaricə gedəndən sonra oradakı qohumların himayəsinə keçmişdi. Onlar Zinayə ilə telefon əlaqəsi saxlayır, hal-əhval tutur, Nadirin Livanda inkişafı üçün hər cür şərait olduğunu söyləyirdilər.

Eşitdiyi xəbər sarsıdıcı idi. Rahibə onun qoluna girdi, çəkib qapının yanında, elə qapıçı üçün qoyulmuş stulda əyləşdirdi. Harasa zəng edən tibb bacısı

dəstəyi yerinə qoyub, dərman dalınca qaçdı. Naşatır spirti ilə isladılmış pambığı Zinayənin burnuna tutdular. Sonra da sakitləşdirici dərman içirtdilər. Zinayə özünə gəlib ayıldı.

– Fənayə… Hanı Fənayə? – Rahibədən soruşdu.

– Əməliyyat otağındadır…

Rahibə Zinayənin başını sinəsinə söykədi. Bir az əvvəl dərman gətirən tibb bacısı onlara nəsə sevindirici xəbər vermək istədi. Çünki hər gün baş verən gözlənilməz və anlaşılmaz hadisələr biçarələrin qəlbini parçalamış, gününü göy əskiyə bükmüşdü.

Tibb bacısı xəstəxanaya təzə işə düzələnlərdəndi. Gündə baş verən dəhşətli hadisələrin, qəzaların təsirindən sarsılır, bu amansız mühitə öyrəşməkdə çətinlik çəkirdi. Quş kimi yüngül tərpənişlərlə palatalarda, dəhlizlərdə oyana-buyana «uçan» təcrübəli ağxalatlıların dünya vecinə deyildi. Bəzənib, düzənib, elə bil toya gəlmişdilər. Vay-şivən qoparmağın yeri deyildi, onların işi soyuqqanlı olmağı tələb edirdi.

Üzü üzlər görmüş deyingən sanitar arvad onlara yaxınlaşıb, tibb bacısından soruşdu:

– Yaralıların hamısının qohum-əqrəbasına xəbər elədin?

– Bəzilərinə demişəm… Qalanlarını axtarıram.

– Bəs, burada niyə büzüşmüsən, gedib işini görsənə…

– Gedirəm, indicə gedirəm. Bu qadının halı xarab oldu, dərman gətirmişəm, – qız elə cavab verdi ki,

guya sanitar o özü, tibb bacısı isə həmin deyingən qadın idi.

Cərrahiyyə otağından çıxan iki həkim bir-birilə danışırdı:

– Əməliyyat yaxşı keçdi. Qızın üzü bəridi.

Zinayə tez özünü onlara çatdırıb soruşdu:

– Hansı qızın? Kimin?

– Adını bilmirlər. Vallah, deyirlər ki… – həkim elə bil ayılan kimi oldu və sözünün ardını demədi.

Artıq Rahibə həmin qızın Fənayə olduğunu bilirdi. Və bilirdi ki, həkim, qızın maşında lüt-üryan olub əynində paltarı-zadı olmadığını demək istəyir.

* * *

– Ona nifrət edirəm, elə sanıram ki, öz layiqli cəzasını aldı.

– Siz ona çoxdan nifrət edirdiniz? – müstəntiq elə zənn etdi ki, o artıq kələfin ucunu tapıb. Sonra da fikirləşdi ki, bəli, hər şey ola bilər… Ola bilər ki, maşında Harislə Fənayənin arasında nəsə bir münaqişə baş versin. Axı, o, maşında çılpaq olub. Belə bir vəziyyət də ola bilər ki, Fənayə sükanı Harisin əlindən çəkməklə, özü qəsdən qəza törətmək istəyib. Hər halda, Fənayənin Harisə olan nifrətini etiraf etməsi müstəntiqin belə düşünməsinə əsas verirdi.

Müstəntiq gənc idi. Bahalı boz kostyum, paltarının rənginə uyğun ayaqqabı və ağ köynək geyinmiş-

di, son vaxtlar dəbdə olan qalstuk taxmışdı. Deyəsən, geyiminə xüsusi diqqət yetirirdi. Ortaboylu idi, yaşına uymayan köklüyü ləngərini artırırdı. Üzü qız üzü kimi göyçək və təravətli olan müstəntiqin olduqca sərbəst davranmağından, dərin suallar verməyindən bilinirdi ki, peşəkardır, işdə xeyli təcrübəsi var. İndi də ağır-ağır ətrafa baxır, verdiyi sualın cavabını intizarla gözləyirdi.

– Tanışlığımızın tarixi elə də çox deyil. Ancaq ötən vaxt ərzində biz bir-birimizə çox yaxınlaşdıq, bağlandıq.

– Sizi kim tanış etmişdi?

– Onun qardaşı qızı, mənim tələbə yoldaşım Rahibə. Zənn edirdik ki, Allah bizi bir-birimiz üçün yaradıb. İdealımı tapdığımı düşünürdüm…

– Onu sevirdiniz? – müstəntiq danışmaq istəyən Fənayənin sözünü kəsdi. Sonra diqqətlə qızın gözlərinin içinə baxdı. Yəqin Fənayənin nə dərəcədə səmimi olub-olmadığını bilmək istəyirdi.

Fənayə cavab verməyə tələsmədi, xeyli fikrə getdi. Aradakı uzun sükutdan darıxan müstəntiq, qızın balışının üstünə qoyduğu diktafonu söndürmək üçün əlini uzatdı. Fənayə onun sualına məhəl qoymadı. Xəyalı neçə ay əvvələ uçdu. O günlərə ki, özünü həqiqətən xoşbəxt sayırdı, mavi səmanın yeddinci qatında süzürdü. Fənayəyə görə, insanın özünü xoşbəxt duyduğu anları «sevgi» adlandırmaq olardı. Bu, bəlkə sevgidən də

üstün bir hisdir. Bunu da Fənayə düşünmüşdü, o bəxtəvər çağlarda…

– Onunla hər görüş hislərimin, duyğularımın bayramıydı. Yerdən ayaqlarım üzülürdü, göy adamına çevrilirdim. O göy pak, ləkəsiz və məkrsiz idi, orada əylənmək, gəzmək, ömür sürmək mənə sevgidən də üstün idi. Hər görüşdən sonra özümü dünyanın ən zəngin adamı hesab edirdim. Nə üçün beləydi, heç özüm də bilmirəm. Bilmirəm…

– Ümumiyyətlə, Harisə qədər sizi sevən, yaxud belə bir etirafla sizə yanaşan olmuşdumu? – Müstəntiq çox istəyirdi bilsin ki, bu qızın sevgi haqqında təsəvvürü necədir?

– Düşündüyümü dilə gətirməyi xoşlayan adamam. Çünki daxilən buxovlanmağı sevməmişəm, ruhən azadam. Fikrimcə, azadlıq insanın daxilində olmalıdır. Üzdə bir, qəlbdə başqa cür olan adam şikəstdir.

– Fənayə xanım, onda sizin fikrinizcə, ruhi xəstələr, dəlilər dünyanın ən azad adamlarıdır?

Müstəntiqin primitiv məntiqi Fənayəyə təsir etdi. İncik halda dedi:

– Bəli, elə də fikirləşirəm. Çünki dəlilər heç bir qadağanın əsirinə çevrilmirlər. Ancaq siz bu sualınızla vəzifə borcunuzu unudursunuz… Belə mühakimələri təcrübəli müstəntiqə heç yaraşdırmıram.

Fənayənin cavabı müstəntiqə yaman toxundu. O, qulaqlarının dibinə qədər qızarsa da, özünü ələ aldı:

– Mənə dərs keçirsiniz? – deyə qızın gözlərinin içinə baxaraq soruşdu.

– Sizə, oxuduğunuz məktəbdə kifayət qədər dərs keçiblər, əlavəyə ehtiyac yoxdur.

– Bəs, onda…

Fənayə müstəntiqə soyuqqanlı tərzdə baxaraq, susdu.

Müstəntiq səsinə amiranə bir ton verərək, dilləndi:

– Gəlin, gizlətməyin, mənə hər şeyi açıq danışın.

Guya Fənayə nəyisə gizləyirmiş, o, bunun müqabilində açıq danışmağı tələb edirdi.

– Baş üstə, açıq danışaq. Ancaq bilin ki, mətləbə dəxli olmayan suallarınız sizin özünüzü dolaşdırar, çaşıb qalarsınız…

Çarpayıda ağır vəziyyətdə uzanmış və həm də baş vermiş cinayət hadisəsində şübhəli bilinən şəxsin bir növ nəsihət verməyi gənc müstəntiqin acığına gəldi. Ona görə də:

– Bütün hallarda siz şərəf və ləyaqətinizin təhqir olunduğunu qəbul edirsiniz, ya yox? – deyərək, hirslə soruşdu.

Gənc müstəntiq bayaqkı qızarmağının əvəzini çıxırmış kimi, Fənayənin hislərinə toxunmaq istədi. Bəs, necə eləsin, qızı ələ alsın? Çarpayı dustağına çevrilmiş bu gözəl qız özünü heç də hədəfdə hesab edənə oxşamırdı. Fənayənin laqeydliyi, baş vermiş hadisəyə biganə münasibəti müstəntiqi hövsələdən çıxarır,

daha kəskin və sərt söz axtarmağa vadar edirdi. Ancaq müstəntiq peşə borcunu yada salır, nə düşündüyünü dilinə gətirmirdi. Söylədiyinin üstündə dayanan Fənayənin danışığa asanlıqla gəlməməsi bir tərəfdən düşdüyü streslə, digər tərəfdən təbiətindəki təzadlarla bağlı idi.

Müstəntiqin verdiyi sualları könülsüz-könülsüz, süst halda cavablandıran yaralının biganəliyi anlaşılmazlıq yaratmışdı. O, özü sübut etmək, fürsətdən yararlanıb səlahiyyət həddini aşmaq istəyirdi. Əlacı olsaydı, Fənayənin boğazından tutub silkələyər, ondan açıq danışmağı tələb edərdi. Di gəl, sonrakı peşmançılıqdan qorxurdu, bilirdi, belə rəftara görə adama «sağ ol» demirlər.

– Yaxşı, Fənayə xanım, bəlkə davam edəsiniz? Harisin sizə qarşı hər hansı bir zor tətbiq etdiyi yadınıza gəlirmi? – gənc müstəntiqin səsində mülayimlik, yumşaqlıq vardı. Deyəsən, taktikanı dəyişmişdi. Stulunu yaxına çəkdi. Əlini uzadıb Fənayənin əlinin üstünə qoydu. Fənayə tərpənmədi, əslində gənc müstəntiqin bu jestini insani bir hərəkət kimi qəbul etdi. Bu xoş duyğunun təsiri altında söhbətinin əvvəlki ahəngini axtardı. Yenidən fikrə daldı. Müstəntiq on- on beş gün əvvəl qəzaya düşmüş, ağır cərrahiyyə əməliyyatından sonra yenicə özünə gəlmiş Fənayənin çöhrəsində insanı cəzb edən qeyri-adi işıq gördü. O, mənəvi və cismani yara almış, çoxlu qan itirmişdi. Bətnindən həlak olmuş körpəsi çıxarılmışdı. Ancaq

bu ağır sarsıntılar, əziz bir adamın itkisi onun üzündəki işığı söndürə bilməmişdi.

Qız isə bu an əlinə toxunan əlin Harisinki olduğunu zənn etdi. Çarpayıda çevrilmək, üzünü döndərmək istədi. Yarasının tikiş yerləri sancdı. Ağrıdan inildədi, gözlərini yumdu…

Gənc müstəntiq tez əlini çəkdi:

– Bəlkə, həkim çağırım?

Həyəcanlanmış müstəntiqin qıza canı yandı. Fənayə əli ilə yüngülcə «yox» işarəsi verdi, sonra da yavaşca:

– Mən onun əllərindən tutmuşdum. Onun nəfəsini hiss edirdim.

Fənayənin qeyri-adi danışığı, gözünü qeyri-müəyyən nöqtəyə zilləməsi gənc müstəntiqi çaşdırdı. O, indiyə qədər çox sayda ağır cinayətin üstünü açmış, çox insanla ünsiyyətdə olmuşdu. Ancaq belə qəribə və maraqlı insanla heç vaxt rastlaşmamışdı. Bəlkə ona görə də çaşıb qalmışdı. Bayaq söhbətinin əvvəlində Harisə nifrət etdiyini deyən adam, indi onun xəyalı ilə yaşayırdı. Hətta gənc müstəntiqin əlini Harisin əli hesab etdi. Yoxsa, elə həmin andaca onu rədd edər, bəlkə də palatadan qovardı. Baş vermiş hadisənin səbəbkarını axtaran gənc müstəntiq Fənayənin anlaşılmaz xarakteri qarşısında özünü yığışdırdı. Bayaq yaxına çəkdiyi stulunu da çarpayıdan bir qədər araladı.

– Bəlkə bir az dincələsiniz? Deyəsən, sizi yordum.

Fənayə yenə əli ilə «yox» işarəsi verdi və başını yüngülcə yellədi. Bununla, gənc müstəntiqin burada olmağından narahatlıq keçirmədiyini bildirmək istədi:

– Yorulmamışam, narahat olmayın. Əslində, siz mənə kömək edirsiniz. Yaşadığım günləri, keçmişi yenidən yaşayıram. Bu, sizin üçün gərəksiz şeydir. Ancaq mənə lazımdır. O, yoxdur, mən isə yaşayıram.

– Baş vermiş hadisədə – konkret desək, Harisin ölümündə özünüzü günahkar bilirsinizmi?

– Əsl günahkar mənəm.

Fənayə tərəddüd etmədən cavab verdi və gənc müstəntiq tez diktafona baxdı. Bu kiçik səsyazma aparatının işığı yanır, qapağın altından görünən disk də fırlanırdı. Müstəntiqin gözü fırlanan diskə ilişib qaldı. Şübhəsiz, bu yerdə Fənayə «yox» deməliydi. «Yox»larla «hə»lərin yerinin dəyişik düşməsi gənc müstəntiqi sonu görünməyən bir anlaşılmazlığa aparırdı. Üzbəüz qaldığı bu insan, daha doğrusu, onun özündən də gənc olan bu qız ya mələk idi, ya da mələk donunda iblis.

– Necə? Açıq danışın,– gənc müstəntiq təkid etdi. Onun gözlərində eynən diktafonun işığı kimi bir parıltı vardı.

– Bayaq dedim ki, yalan danışa bilmirəm. Haris gözlərimin qabağında öldü. Ancaq sizin düşündüyünüz kimi, həmin qəza vaxtı yox, ondan xeyli əvvəl, özü də tədricən, yavaş-yavaş. Bataqlığa düşüb boğu-

lan adam kimi. Bir fərqi vardı: batan adam batdığını biləndə haray salır, o isə belə güman eləmirdi. Bataqlığın dibinə gömülməyi yüksəliş bilirdi.

Gənc müstəntiq Fənayənin mücərrəd danışığından bir mətləb anlamadı. Az qala, yenə hirslənəcəkdi, hikkəsini boğdu. Yadına düşdü ki, Fənayənin həkimi ona tapşırmışdı ki, xəstəni əsəbiləşdirmək olmaz. Əks-təqdirdə dindirmə üçün daha xeyli müddət gözləməli olacaqdı.

Özünü toplayıb söhbəti münasib məcraya yönəltmək istədi:

– Fənayə xanım, sizi düzmü başa düşürəm; demək, özünüzü mənən günahkar hesab edirsiniz. Deyək ki, dostunuzu hansısa səhv yoldan vaxtında qaytara bilmədiyiniz üçün…

Fənayə onun üzünə rəğbətlə baxdı. Gənc müstəntiq bu rəğbəti belə yozdu: «axır ki, siz də adam kimi danışa bildiniz…»

Həqiqətən də, Fənayə onun son sözlərində bir səmimiyyət duydu:

– Ümumiyyətlə, insan insanı başa düşməlidir.

Müstəntiq bu sözləri də öz ünvanına götürdü.

Fənayə davam etdi:

– Münasibətlərimizdə qaranlıq heç nə yox idi. Yaxşı bilirdi ki, gələcək həyatımızda onun üçün buxov olmayacağam. Sadəcə, o zaman həyatını mənə sərf etməyini mükafat sayırdım, xoşbəxt idim.

– Elə isə aranızda ilk dəfə anlaşılmazlıq nə vaxt yarandı? O, sizinlə əriniz kimi yaşayandan sonramı?..

Kimsə qonşu palatada radionun səsini qaldırdı. Xanəndə muğam dəsgahı oxuyurdu:

Bülbülü-zarəm, deyil bihudə əfqan etdiyim,
Qalmışam nalan nəfəs qeydində gülzar istərəm,
Dəhr bazarında kasaddır mətai himmətim,
Bu matəi satmağa bir özgə bazar istərəm.

Müstəntiq sualın arasını kəsdi. Qəlb odlandıran muğamı dinləmək sadəcə, mümkün deyildi. Xanəndənin səsindəki kədər, ürəyi oyan, sonra da məlhəm qoyan yanıqlı zəngulə, qəzəldəki söz ovsunu, gileygüzar adamın anasını ağladırdı. Musiqi yerinə düşdü. Çünki ifaçının oxuduğu qəzəldə hasil olan mətləb, dünya malında tük qədər gözü olmayan Fənayənin gənc müstəntiqə cavabı ilə uyğunlaşdı.

Muğam qurtardı. Sehrli səsin yaratdığı sükut isə davam edirdi. Yəqin bir azdan tibb bacıları gələcəkdi. Axşam düşürdü. Həkim də xəstəni yoxlamalıydı.

Müstəntiq, demək olar ki, heç bir sualına düzəməlli, fərli cavab ala bilməmişdi. O, sükutu yenə narahat-narahat pozdu:

– Sizin onunla yaşadığınız ilk gecədən əvvəl məqsədiniz barədə valideynlərinizə bir söz demişdinizmi? Harislə yaşamağı əvvəlcədən qərara almışdınızmı?

– Nə üçün valideynlərimə deməliydim? Mənim kifayət qədər yaşım var. Özüm öz taleyim barədə götür-qoy eləməyə, düşünməyə haqqım var.

– Axı, adət-ənənə də var…

– Lənətə gəlsin adət-ənənə, – Fənayə bu dəfə həqiqətən əsəbiləşdi: – İndimi yadınıza düşdü bu adət-ənənələr? Soruşun, görün, gecə barlarına gedən qızlar bu barədə kiməsə nəsə deyirmi? Heç bir nikah, quru kağız insanı bir-birinə bağlaya bilmir. İnsan ağac deyil, budağından kəsib calaq eləyəsən, tutdu qatıq, tutmadı ayran. Bu sözlərlə özümə haqq qazandırmaq fikrində deyiləm. Harisə qədər çoxları mənimlə yaxınlıq etmək istəyib. Dalımca sürünüblər, günəbaxan kimi arxamca boylanıblar, söz atıblar, üzümə irişiblər, eşq elan ediblər. Mən qəlbimə yaxın qoymamışam. Mənəvi-əxlaqi normalar kitab cümlələridir, həyat başqa şey deyir.

Fənayə monoloqunu kəsdi. Bir qədər fikrə getdi. Gənc müstəntiqin daha bir yersiz sualını eşitməkdən ehtiyatlanırmış kimi, tez də davam etdi:

– Ancaq gizlətmirəm, başqası da olub. Həmişə sevdiyini dilinə gətirib. Sizinlə danışdığım anlarda həmin gözlər yenə mənə zillənib. O gözlərdə adilik var, hərislik yoxdur. Nədənsə, o gözlər o zaman mənə tamam başqa cür baxıb. Demirəm ki, onu başa düşmədim. Onun baxışları çox aydın idi, mənə dünyalarca sevgi vəd edirdi.

Fənayə həmsöhbətinin gözlərinin içinə baxdı. Müstəntiq diqqətini toplayıb dinləyirdi.

– O məni tac kimi başına qoymağa hazır idi. Bütün dünyanı da versələr, məni heç nəyə dəyişməzdi. Haris kimi yolundan asanlıqla azan deyildi, onun bircə yolu vardı. O yol mənim ürəyimin içindən keçirdi. Ancaq mən…

– Siz onu qəbul etmədiniz… – gənc müstəntiq qızın demək istədiklərinə yekun vurdu. Həm də bununla Fənayəni başa düşdüyünü onun nəzərinə çatdırmaq istədi.

– Bəli, mən onu qəbul etmədim. Qəbul edə də bilməzdim. Çünki bunun əvəzində o, məndən daha bahalı, daha qiymətli şeylər istəyirdi.

– Bəyəm, onlar çox kasıb idilər?

Müstəntiqin qeyri-həssaslığı, bəsit düşüncə tərzi, deyilmiş sözü hərfi mənada anlamağı Fənayəni pərt etdi. Açıq-aydın görürdü ki, müstəntiqin səviyyəsi onun düşündüyündən də aşağıdır. Yoxsa, özünü bu qədər korafəhmliyə qoymazdı ki?

Fənayə müstəntiqə ikibaşlı cavab verdi:

– Hesab edin ki, sizdən çox varlı idi.

O, bu cavabı ilə müstəntiqi yerində oturtmaq, onun bəsit, yersiz suallarının qarşısını almaq istəyirdi.

– Bağışlayın, Fənayə xanım. İnanın ki, sizin hislərinizə toxunmaq fikrində deyildim. Soruşmaq mənim vəzifəmdir. Bununla da müstəntiq Fənayə ilə arasında yaranmış ilıq münasibətin pozulmamasına çalışdı, söhbəti sülhə çəkmək istədi. O bilirdi ki, Fənayə varlı ailənin övladıdır.

Gənc müstəntiq Qadirlə də görüşmüşdü. Həmin qəza baş verən gecə Qadirin də başından zədə alıb xəstəxanaya gətirildiyini bilirdi. Ancaq ona demişdilər ki, Qadirin baş zədəsi ilə Harisgilin yol qəzası arasında heç bir əlaqə yoxdur. Əslində, hüquqi baxımdan burada elə bir bağlılıq da görünmürdü. Qadirin «Satir» restoranında Rufa ilə olan münasibətini rəis ona ətra
yol qəzası hadisəsinə qatmasın.

Amma gənc müstəntiq bu hadisə ilə Qadirin zədə alması arasında bir bağlılıq olub-olmadığını yoxlamalı idi. Onun məntiqinə görə, həmin gecə «Satir»də baş verən əhvalatla «Satir»in yaxınlığında baş verən qəza hadisəsi arasında əlaqə ola bilərdi. Qadir Fənayənin atasıdır. Onun «Satir»lə yaxınlığı var. Deyilənə görə, bu restoran elə Harisin imiş. Halbuki, sənədlərdə tamam başqa adamların adları göstərilirdi. Eyni zamanda Qadirin qızı onun özü ilə işbirliyi quran Harisin yanında olub. Daha doğrusu, Haris haqqında az-çox məlumatı olan həmkarları onu Qadirin kürəkəni hesab edirdilər, əlbəttə, istehzalı şəkildə. Şübhəsiz, Qadir də qızının Harislə münasibətlərindən xəbərsiz deyildi. Üstəlik, həmin gecə Qadirlə birlikdə olan Rufa öz izahatında göstərmişdi ki, Qadir həmin gecə Harisin qardaşı qızı Rahibə ilə də telefonla əlaqə saxlayıbmış. Guya ki, qızların xaricdə işə düzəlmələrini təşkil edən şirkətləri varmış. Razılıq verən qızlar ərizə yazaraq, xidmət haqqı

üçün şirkətin hesabına cüzi miqdarda vəsait köçürürlərmiş, vəssalam. Bəs, onda onlar necə, hansı yolla varlanırdılar? Deyilənə görə, hər birinin adına ayrı-ayrı banklarda kifayət qədər pulları vardı.

Harislə Fənayənin arasındakı münasibətin köklərini axtarmaq üçün gənc müstəntiq bütün bunları araşdırmaq, baş vermiş hadisənin rişələrinin hara gedib çıxdığını tapmaq istəyirdi. Ancaq hadisəni adicə yol qəzası kimi qələmə vermək istəyənlər daha çox idi. Niyə? Bu istəklərin arxasında nə dayanırdı? Bütün bunları gənc müstəntiq başa düşməyə çalışırdı.

…Hadisəni araşdırmaq üçün üzdən getməyə məcbur oldu. Heç olmasa, cavabını bilmək istədiyi bir sual onun varlığını didib-dağıdırdı. Nə üçün Fənayə maşında çılpaq olub? Və elə bu sualdan da başqa suallar doğurdu. Nə üçün Haris maşını belə yüksək sürətlə idarə edib? O, hara tələsirmiş? Onu düşündürən sualların hamısına cavab tapmalı idi. Fənayə isə müstəntiqin fikrincə, mətləbə dəxli olmayan şeylər haqqında danışırdı.

Fənayə nəyin ucbatından xəstəxanaya düşmüşdü? Ümumiyyətlə, bu qəza hadisəsi nə idi: onun taleyi, yoxsa, şəxsi həyatında buraxdığı səhvlərin nəticəsi? Fənayə keçdiyi həyat yolunun, xüsusilə də Harislə münasibətlərinin səhvlər üstündə qurulduğunu qəbul etmirdi. Baxmayaraq ki, Haris namərdlik etmiş, öz vədlərinə, ondan umulana, adi səmimiyyətə dönük çıxmışdı. Di gəl ki, qız onun hərəkətlərini

xəyanət kimi qəbul edə bilmirdi. Fənayə Harislə yaşadığı günlərdə onu özünə ər saymamışdı, heç bu fikrə düşmək istəyində də olmamışdı. Bəs, taleyinin qəzaya uğramasına səbəb olan bu addımların atılmasını, necə izah etməli idi? Baş verən hadisənin kökü bu sualla bağlı idi. Başqa suallar da çox idi və çözümünü tapmadığı bu suallar Fənayənin rahatlığını əlindən almışdı. Tənha qalanda da, gənc müstəntiqin konkret cavablar tələb edən suallarına istehza ilə qulaq asanda da, bu barədə düşünürdü.

Qızın cavabları gənc müstəntiqi qane etmirdi.

Fənayə yaxşı bilirdi ki, hadisə necə olub. O, konkret cavab verməli olsaydı, deməliydi ki, hadisə Harisin hikkəsi, onun cəmiyyətdən daha çox qoparmaq, daha çox faydalanmaq istəyindən, gənc qızların Dubaya göndərilməsi üçün qıcanan tamah dişlərinin hərisliyi və rəzilliyi sayəsində baş verib. Fənayə Harisi onun hamiləliyi ilə barışmaq istəmədiyi üçün rəzil hesab edirdi. O, çox ehtimal ki, yaxın günlərdə Fənayəni xaricə göndərəcəyi qızların siyahısına daxil edəcəkdi. Artıq Haris ona bazara çıxarılacaq mal kimi baxırdı.

Fənayə istəyirdi ki, gənc müstəntiq Harisin təbiətini dərk etsin. Onun maşını belə, əsəbiliklə idarə etməsinin mahiyyətini anlasın.

Şəhərin çox varlı sakinlərindən biri kimi tanınan Haris, Fənayədən özünə varis istəmirdi. Fənayə dərk

edirdi ki, o, Haris üçün kef-əyləncə mənbəyi olub və həm də ən başlıcası, öz missiyasını yerinə yetirdiyindən ona ayrılan vaxt başa çatıb. Daha sıradan çıxmalıdır.

Bir çox hallarda cinayət insanların xarakterindən, təbiətindən doğur. Fənayə təəssüf edirdi ki, gənc müstəntiq sözügedən həqiqəti dərk etmək istəmir. Bəlkə də bu gənc müstəntiq universitetdə əla qiymətlərlə oxuyub. Ancaq anlamayıb ki, ən kamil elmi insana həyat adlı müəllim öyrədir və bu müəllim nəsihət vermir. İnsan yaşadıqca, həyat ona öz təbiətinə, xarakterinə uyğun yol göstərir. Elə həyat ona görə şirindir ki, insan onda özünü, öz mücəssəm varlığını tapır.

…Dünən Rahibə yanına gəlmişdi. Əmisinin dəfni ilə bağlı danışarkən bildirdi ki, Harisin arvadı, qızı da dəfndə iştirak ediblər. Hüzr yerində çoxlu yad adam da olub. Çadır Rahibəgilin həyətində qurulub. Deyilənə görə, Harisin şəxsi mülkü, zəngin varidatı olsa da, bütün bunlar haqqında nə arvadının, nə qızının, nə də qardaşıgilin, yəni Rahibənin atasının xəbəri yoxdur. Oradan-buradan çox şeylər eşitsələr də, dəqiq heç nə bilmirlər. Harisin torpağa tapşırılmamış nəşi ortalıqda olanda belə, bu söz-söhbət kəsilməmişdi. İkrah edənlər, Harisin həyatına istehza ilə baxanlar da az deyildi: «Nə olsun ki, o qədər vardövləti olub? Bu dünyadan köçəndə beş arşın ağdan başqa kim nə aparır ki? Amma hamı heç olmasa, necə öldüyünü bilməlidir».

Harisin ölümündə kimlərinsə əlinin olması da şayiə kimi dolanırdı. Rahibənin dediyinə görə, onun Fənayənin atası ilə də əlaqəsi olub.

Rəfiqəsinin bu sözlərini Fənayə təəccüblə qarşılamadı. O bilirdi ki, bu həqiqətdir, Harisin yeddisində Qadir də özünə yaxın adamlarla birlikdə iştirak edib. Onları bağlayan əsas mərkəz isə «Satir» restoranı idi. Hətta həmin gecə onun «Satir»də olması, elə orada nə səbəbdənsə başından zədə alması da Fənayəyə məlum idi. Əvvəl anası danışdı, sonra Rahibə də onun atası ilə gecə telefonda söhbət etdiyini təsdiqlədi. Rahibə əmisinin dəfnindən sonra Qadirin yanına gələrək, xəstəxanada onunla xeyli söhbət etmiş və yaxın günlərdə görüşməyi qərara almışdılar.

Fənayə düşünürdü: «Dünyanın qəribəliyi həm də ondadır ki, heç bir bədbəxt hadisə insanları macəra axtarmaq hissindən döndərə bilmir».

Rahibə Fənayəyə deyəndə ki, atan məni xaricə göndərmək istəyir, o təəccüblənmədi. Çünki Fənayə atasının əməllərinin də elə Harisə tən gəldiyini bilirdi. Rahibənin məkr və hiyləgərliklə qurulmuş tələyə doğru getməsinə, sadəcə, acı təbəssümlə cavab verdi. İstədi desin ki, xoşları gələnə həmin o xaricdəki eyş-işrəti elə burada da yarada bilirlər, amma susdu.

Fənayə Rahibəyə öz atasının da, Harisin də nə işlə məşğul olduqları barədə danışmaq istəsə də, tərəddüd etdi. Əvvəla, ona görə ki, Rahibənin təbiətində macəraçılığa meylin olduğunu bilirdi. Həm də dərk edirdi

ki, bəşər övladı başqasına nəsihət verməyi sevsə də, özü qəbul etməyi xoşlamır. Onun Rahibəyə nəsihət verməyə heç mənəvi haqqı da yox idi. Hətta Rahibə Fənayəyə etiraz etməsə belə, düşünərdi ki, hansı haqla özünü ondan ağıllı sayır? Qoy hər kəs öz həyatını özü yaşasın. İnsanı mənəvi cəhətdən böyüdən də, kiçildən də başına gələn hadisələrdir. Baxır kim bu hadisələrdən necə nəticə çıxarır. Məsələn, indi Rahibə özünü daha ağıllı sayır. Çünki həyat onu öz ağuşuna çəkir, öz istəyinə doğru aparır. Fənayə elə bunun tərəfdarı idi. Onun fikrincə, insan o vaxt xoşbəxt olur ki, həyat onu istəyinə doğru yönəldir.

Fənayənin Harislə onun evindəki görüşü və həyatının həmin gündən başlayan şirin dadı yadından çıxmırdı. Hətta bu gün ona nə qədər nifrət etsə belə, həmin o ilk gecə üzüyünün qaşını itirməsini yaxşı əlamət kimi dəyərləndirməsə də, başına gələn bu əhvalatı həmin qaş məsələsi ilə bağlamağa çalışdı. Bu, bir nəhs idi. Bəlkə həmin nəhsdən nəticə çıxarmadığı üçün Allah onu cəzalandırdı. Həmin cəzanın ağrısını görəsən, hələ nə qədər çəkəcəkdi? Hər halda, gənc müstəntiqlə üzbəüz qaldığı xəstəxana palatasında keçmişini kələf kimi çözələyir, həyatının dolanbac yollarını ip kimi sarıya-sarıya çəkib ovcuna yığmaq istəyirdi. Özü də hiss etmədən yumruqları düyünləndi. Birdən hər iki yumruğunu yanlarına çırpdı. Gənc müstəntiq qızın bu qəfil, bir növ isterik hərəkətindən diksindi. Tez ayağa qalxdı:

– Sizə nə oldu, Fənayə xanım, sakit olun?!

Müstəntiq qalxıb ona su verdi. Fənayə bir qurtum alıb, dilini, dodaqlarını islatdı.

Xeyli vaxt keçəndən sonra qız yavaş-yavaş özünə gəlib ayaq üstə dayanan gənc müstəntiqə baxdı. Sanki baxışlarıyla ona «narahat olmayın, əyləşin» – deyirdi.

– Hə, deyəsən, hirsiniz soyudu. Nə qədər sakit və təmkinli olsanız, yaralarınız da bir o qədər tez sağalar.

Fənayə başını tərpətdi. Deyəsən, söhbət üçün münasib şərait yarandı. Ona görə də müstəntiq dedi:

– Eşitmişəm, gözəl şairəsiniz. Tezliklə sağalıb qalxar, yenə incə ruhlu şeirlər yazarsınız. Hiss olunur ki, azad, həm də ram olmayan ruhunuz var.

– Bax, həmin azad ruhu Haris əlimdən almaq, daha doğrusu, iç dünyamdan qoparmaq, sonra da məni köləyə çevirmək istəyirdi.

Gənc müstəntiq dərhal söhbəti konkret məcraya yönəltməyə çalışdı:

– Ancaq siz bayaq başqa adam haqqında danışırdınız.

– Bəli, belə bir adam olub. O, mənə dünyanı bağışlamağa hazır idi. Sözümü unutmamışam. Bayaq dedim axı. Əvəzində məndən…

Fənayə sözünün gerisini yenə saxladı.

Gənc müstəntiq yüngülcə gülümsədi:

– Hə, siz dediniz ki, o, nə isə istəyirdi?..

Daha müstəntiqin mühakimələri Fənayəni əsəbiləşdirmirdi, ona görə də, sakit-sakit sözünə davam etdi:

– O, mənim azadlığımı istəyirdi. Siz yəqin ki, dünya incəsənətinin nadir inciləri sayılan «Madonna»ya, «Mona Liza»ya baxmısınız. Rəssamların ilham aldıqları o qadınlar əxlaqsız idilərmi? Gözlərindən ehtiras yağan Çılpaq Maxa, Yatmış Venera, əllərini qarnının üstünə qoymuş Mona Liza… kimlərdi? Onlar saatlarla rəssam qarşısında uzana-uzana qənirsiz sənət incilərinin yaranmasına yardımçı olublar. Bu gün biz buna görə onları lənətləməliyikmi?

Bilirdim ki, məni sevən o gözlər hələ qanadlanmamış azad ruhumu öz içindəcə boğacaq. Özü də mənə verdiyi intəhasız məhəbbətin əvəzində! Qısqanmaqla, dünyada ondan başqa bir kimsəyə baxmamağımı tələb etməklə, istər-istəməz məni bezdirəcəkdi. Ona görə də, onu qəbul edə bilmədim.

Onu yaxşı başa düşürdüm. Bu cür sevgi – əgər sizin də taleyinizdə olubsa, – xoşbəxtlik üçün bəs etmir. Sevginin doğurduğu xoşbəxtliyi yaşamısınızsa, bəs, onda nə üçün əliniz mənim əlimin üstündə olanda başqa hislər keçirirdiniz? Sizin ruhunuzu ram olmağa qoymayan nə idi? Nə üçün ruhunuz əlinizlə ilan kimi mənə tərəf sürünürdü? Həm də hələ öz faciəsini yaşamaqda olan, dərdinin ağırlığını dərk etmiş, yaxud dərk etməmiş – bunun fərqi yoxdur – bir

qızın qaysaq bağlamış yarasının közünü qoparırsınız. Sizin guya, təskinlik üçün dediklériniz, yaralarımı duz kimi göynədir. Mən sizin düşündüyünüz kimi də sadəlövh deyiləm.

Fənayə susdu. Bu cür dərin düşüncəyə malik olan bir adamla müstəntiq ilk dəfə idi rastlaşırdı. Onun sözünü kəsməyə, demək olar ki, cəsarət etmirdi. Bir azdan Fənayə yenə asta-asta danışmağa başladı:

– Harislə könüllü yaşamışam. Və bu həyatın mənə qismət etdiyi ağrı-acılar barədə kimsəyə hesabat vermək fikrində deyiləm. Onsuz da təqib olunuram.

Gənc müstəntiq səksənən kimi oldu. Cavab istəyən gözləri ilə diqqətlə Fənayəyə baxdı.

– Narahat olmayın, cənab müstəntiq. Bu təqibdən mühafizə etməyinizə ehtiyacım yoxdur. Məni o gözlər təqib edir. Həmin gözlərin sahibi, bəlkə də gələcəkdə sizə haqqında ətraflı danışacağım adi bir qəzetsatan, Qarabağ müharibəsi əlilidi. Hansısa universitetdə oxuyur. Bütün bunların sizin üçün əhəmiyyəti yoxdur. Həmin gözlərin sahibi öz bəxtəvərliyini məndə tapmaq istəsə də, ona qarşı çox rəhmsiz oldum. Harisin qapısından içəri keçən gecə, şüşə nimçəni ayaqlarımın altında qıranda, o gözlər nimçənin içindən mənə zilləndiyi üçün onları basıb tökdüm. Və o basıb tökdüyüm gözlərin qanı hələ də üstümdədir.

O, bir anlıq danışığına ara verib, yenidən sözə başladı:

– Mən çox şeyə görə məsuliyyət daşıyıram, qardaş… Kaş, həmin qəza gecəsi hamilə olduğumu Harisə deyən vaxt onun necə əsəbiləşdiyini görəydiniz. Hə
mədi. O, cəzasını biz maşına minməmiş almalı idi. Mən onu qayanın üstündən itələmək istəyirdim. Yəqin ki, yıxılandan sonra da başını daşla əzəcəkdim. Onun hərislik yağan ilan gözləri həmin axşam mənim əllərimlə tökülməli idi. Heyf ki, bətnimdəki körpə buna imkan vermədi…

* * *

Həkimlər Zinayəyə bildirmişdilər ki, daha qızının uşağı olmayacaq. Qəza vaxtı uşaqlığı pis zədələndiyi üçün həkimlər yeganə çıxış yolunu seçərək, Fənayənin özünü xilas etməyə qərar vermişdilər.

Qəzanın törənməsinin, o cümlədən Harisin ölümünün səbəbi maşının yüksək sürətlə idarə edilməsi olmuşdu. Qayalıqdakı olaydan sonra Haris özündən çıxmışdı. O, zəncir gəmirirdi, gözünü qan tutmuşdu. Fənayə körpəlikdən sərt idi, ipə-sapa yatmırdı. Balaca olanda hər hansı şıltaqlığına görə anası onu danlayıb niyə belə etdiyini soruşanda, özünü günahkar saymaz, üz-gözünü turşuda-turşuda «ürəyim belə istədi», – deyərdi. Bu cavab, uşağın özünü yaşına uyğun olmayan tərzdə dartmağı, valideynlərin ürəyinə yağ kimi yayılardı. Şaqqanaq çəkib gülər, elə

sevinərdilər ki, deyirdin bəs, dünyanı bunlara bağışlayıblar. Fənayənin sərbəst, komplekssiz, diribaş böyüməyini arzulayırdılar. Böyüdükcə, bu ötkəmlik xasiyyətinə, bütün varlığına hopurdu. Bütün hallarda isə məsuliyyət hissi qeybə çəkilib gedirdi. Fənayənin qənaətinə görə, ata-ananın borcu uşağı böyütmək, həyata baxışını formalaşdırmaq idi. Daha o nə görəcək, nə eşidəcək – öz işi idi.

Fənayənin Harisə münasibəti sirr deyildi, əhvalatdan atası Qadir də xəbərdardı. Ata buna görə hərdən daxili narahatlıq, əsəbilik keçirirdi, ancaq bunu üzə vurmurdu. Qızının təbiətinə bələd idi. Zinayə də Fənayənin öz yolundan dönməyəcəyini əməllicə anlayırdı.

Qadiri xəstəxanada çox saxlamadılar. Tezliklə evə buraxdılar. Harisin dəfnində iştirak edə bilmədi. Xəbər gec çatmışdı. Uzun tərəddüddən sonra qızı ilə görüşə getdi. Harisin ölümü, Fənayənin ağır vəziyyəti, ailədaxili böhran, deyəsən, onu bir elə də narahat eləmirdi…

Fənayə qəfil sancılanan qadın kimi, əlini qarnının üstünə qoydu, sanki uşaq sağ idi. Və sanki bətnindən baş qaldırıb nəsə deyəcəkdi, anasını sorğu-suala tutacaqdı. Bəlkə o da Harisin ölümünə görə onu i ham etmək istəyirdi? Yox, yox, deyəsən, o, anasının harayına gəlmək, günahsız olduğunu isbatlamaq, həmin gecənin yeganə şahidi kimi söz deməyə can atırdı. Bəs, yaxşı, əslində kim idi günahkar?

Fənayəmi? Qanun kimi ittiham edirdi? Öləni, yoxsa qalanı, yaxud mikroavtobusu idarə edəni?..

Fənayə qəfildən dəli kimi qışqırdı:

– Bilmirəm, bilmirəm!..

Sonra sözünün gerisini gətirə bilməyib, hönkür-hönkür ağladı. Həkimlər, tibb bacıları qəfil qışqırığa tökülüşüb gəldilər…

* * *

Harisin ölümünün qırxıncı günü yas mərasiminin çadırı yenə Rahibəgilin həyətində quruldu. Qırx gün öncə meyitini də xəstəxanadan birbaş buraya gətirmişdilər. Dostları – Rahibənin atasının tanımadığı adamlar müxtəlif təkliflər irəli sürsələr də, axırda Harisin qardaşı ilə razılaşdılar. Dəfn, yas məclisləri üçün çəkilən xərclər həmin adamlar tərəfindən ödənildi. Bu gedib-gələn adamların arasında Qadir də vardı. O, yasda dəfnin yeddinci günündən, yəni xəstəxanadan çıxandan sonra iştirak edirdi. Qəribə idi ki, onlar heç kimlə artıq ünsiyyətə girmir, hadisənin təfərrüatı haqqında da danışmırdılar. Ümumi fikir belə idi: hadisə təsadüfi qəzanın nəticəsində baş verib.

Fənayə haqqında da bir kəlmə artıq-əskik danışılmırdı. Onsuz da xaricdə işədüzəltmə və viza xidmətləri özəl şirkəti adı ilə yaradılmış həmin müəssisənin əməkdaşları hadisənin hər üzündən xəbər-

dar idilər. Onlar ayrı-ayrılıqda fəaliyyət göstərir, özlərindən yuxarı şəxsə hesabat verirdilər. Gördükləri işin müqabilində əməkhaqqını da elə həmin şəxsdən alırdılar. Hüquqi baxımdan onların əməllərində qeyri-qanuni heç nə yox idi. Ərizə ilə müraciət edən qız, bir aylıq psixoloji hazırlıq mərhələsindən keçdikdən sonra sənədlərinin hazırlanması üçün cüzi haqq ödəyirdi. Qaldı ki, məsələnin Qadirgilə lazım olan tərəfinə, burada bir balaca çətinlik vardı. Çox az halda qızlardan hansısa biri məsələnin mahiyyətində nəyin durduğunu biləndə, etiraz edir, qaçıb uzaqlaşırdı. Ancaq nadir hallarda belə olurdu. Bu zaman «ovu qaçıran» şəxs cəzalanır, tanışlıq müddəti üçün ayrılan vəsait geri qaytarılır, həmin işçinin gələcək karyerası şübhə altına alınırdı. Dalbadal «ov qaçıran» şəxs şirkətdə əhəmiyyətsiz bir işə keçirilirdi.

Qadir xaricə yola düşən növbəti dəstəni demək olar ki, hazırlamışdı, bir nəfər də əlavə ediləcəkdi və həmin o bir nəfər Rahibə idi. Harisin qəzaya düşməsi, eyni zamanda Qadirin Rufa ilə həmin gecə «Satir» restoranında baş vermiş əhvalatı planları pozdu. Qadirin təhvil verəcəyi qızlar – sənədləri hazırlanmış qrup gecikirdi. Rahibə ilə danışıb işi sürətləndirmək lazım idi.

Qadir söhbət zamanı Harislə dostluğunu xüsusi vurğulasa da, Rahibə hiss etdi ki, artıq həyatda olmayan əmisi ilə o, elə də yaxın münasibətdə olmamışdı. Rahibə xaricə getməyə hələ də tərəddüd

edirdi. Görünür, onu inandırmaq üçün çox vaxt lazım idi.

Qadir qərara gəldi ki, Rahibə məsələsini növbəti dəstə hazırlanana qədər təxirə salsın. Bu işdə tələsmək olmazdı. Ümumiyyətlə, o, heç nədə tələsmirdi. Qızların hər biri ilə ayrı-ayrılıqda görüşür, onların fərdi keyfiyyətlərini nəzərə alaraq söhbət edir, ünsiyyət yaradır, qarşılıqlı inam əsasında məqbul münasibətlər qururdu. Ona görə də Qadir şirkətin inanılmış, etibarlı və nisbətən yuxarı təbəqəsinə aid işçisi sayılırdı. Doğrudur, bacarıq və istedad sarıdan Harisə tay ola bilməzdi, bununla belə, yenə də kifayət qədər nüfuzu vardı. Hələ bu günə qədər onun «ov qaçırmadığı» qibtə oyadırdı. Harisdən sonra o, birinci idi. Bu, şirkətin şefi ilə asanlıqla görüşməsindən də bilinirdi. Şirkətdə az-az adamların adına bank hesabı açılırdı. Həmin şərəfə birinci Haris, ikinci o nail olmuşdu…

* * *

Rahibə tez-tez Fənayəgilə gedir, xəstəxanadan yenicə çıxmış rəfiqəsi ilə görüşürdü. Həm də əmisinin başına gələn hadisənin təfərrüatından xəbərdar olmaq istəyirdi. Fənayə ayrı-ayrı vaxtlarda Harislə keçirdiyi günlər haqqında Rahibəyə danışırdı, çünki nəyisə gizləmək, nəyisə ört-basdır etmək xasiyyəti yox idi. Bunu Rahibə də bilirdi. Ancaq Fənayə Hari-

sə qarşı olan qəzəbi, nifrəti haqqında rəfiqəsinə bir kəlmə də deməmişdi.

Rahibə xaricə gəzməyə getmək, mümkün olsa, qalıb işləmək arzusunu Fənayəyə deyəndə, əslində onun fikrini öyrənmək istəyirdi.

– Mən də gedərdim.

– Bəlkə birlikdə gedək?

– Yox, Rahibə. Bilirsən ki, səhhətim buna yol verməz.

– Səni gözləyərəm, – deyə Rahibə dilləndi.

– Yox, əzizim, amma yəqin ki, Haris sağ olsaydı, elə bu yaxınlarda gedəcəkdim.

Onun istehzasını başa düşməyən Rahibə təəccübləndi:

– Yəni Haris razı olardı sənin getməyinə?

– Yəqin ki.

Fənayənin qeyri-müəyyən cavabı Rahibəni qane etmədi. Ona görə də özünün gedib-getməməsi ilə bağlı onun qəti fikrini bilmək üçün:

– İndi nə deyirsən, mən gedim, yoxsa getməyim? – soruşdu.

– Getsən, yaxşı olar. Gəzərsən, dünyagörüşün artar. Münasib iş təklif olunsa, qalıb işləyərsən. Özün də ingilis dilini az-çox bilirsən. Nisbətən hazırlıqlısan. Bizim qrupda ingilis dilini ən yaxşı sən bilirdin.

– Sən mənim tərəddüdlərimə son qoydun.

Rahibənin gözləri məchul bir nöqtəyə zilləndi. Deyəsən, uzaq dumanlıqlar içində aydın görünmə-

yən gələcək həyatına boylanırdı. Qazanc da, pul da, xaricdə yaşamaq da – bütün bunlar Rahibəni çəkən istəklər idi. Bu həyat ona daha nələr vəd edirdi? Uşaq deyildi, hər şeyi başa düşürdü. Bu dumanlı gələcəkdə çox şey görünürdü.

– Gedəcəyəm. Əmim hələ sağlığında mənə xaricə getməyi təklif etmişdi. Sənə dedim axı, Qadir müəllim həmin gecə mənə zəng vurmuşdu. Haqqımda ona Haris deyibmiş.

Fənayə bilirdi ki, Rahibə pula, var-dövlətə hərisdi. O, var-dövlət sahibi olmaq üçün hər şeydən keçməyə hazır idi. Nə etmək olar, bu da onun xasiyyətidir. Fənayə adamları sərbəst, azad görmək istədiyinə görə, Rahibənin bu xislətindən narahat deyildi. Onun xaricə getmək fikrini ən əvvəl ata-anası narazılıqla qarşılamış, amma sonra qızın iki ayağını bir başmağa dirədiyini görüb, açıqdan-açığa razılıq verməsələr də, susmuşdular. Rahibə də öz növbəsində bu susmağı razılıq əlaməti hesab eləmişdi. Həmin ərəfədə Qadir zəng vurdu. Dəstəyi Rahibə qaldırdı:

– Salam, Raha, sənsən?

– Mənəm, Qadir müəllim, salam.

Qadir qızın yüksək əhvalda olduğunu başa düşdüyündən əlavə söhbətə, dilə tutmağa, öz dillərində desək, onu «bişirməyə» ehtiyac duymadı.

– Nə vaxt gəlirsən?

– Nə vaxt istəsəniz. Hansı sənədləri gətirmək lazımdır?

– Raha, doğrusu, səni daxil etmək istədiyim qrup gedib. Elə özüm sənin üçün darıxmışdım.

– Baa, doğrudan?

– Bəs necə?

– Belə bilməzdim, – Rahibə telefonda bic-bic güldü.

Əlbəttə, Rahibə səmimi demirdi. Qadirin ona oğrun-oğrun baxdığını, qəribə ehtirasla süzməyini çox müşahidə etmişdi. Amma bilmirdi ki, bununla o, Rahibənin hansı yuvanın quşu olduğunu öyrənmək istəyirdi. O, özü də hərdən xumar baxışlarla süzgün-süzgün Qadirə baxır, bu adama doğru gedən yolu psixoloji maneələrdən təmizləyirdi. Rahibə məhz bu gün getməyi planlaşdırmadığından, qəti cavab verməkdə çətinlik çəkdi.

– Elə mənim də könlümdən sizi görmək keçir. Amma bilmirəm… Düzü, bu gün üçün planlaşdırmamışdım.

Qadir onun şübhə və tərəddüdlərini dağıtmaq üçün dedi:

– Əgər vaxtın varsa, gəl «Satir»ə, yaxud hara istəyirsən çıx, maşın göndərim. Axşam «Satir»də şam edərik. Sonra da rəqsə baxar, musiqiyə qulaq asarıq. Sənin gələcək planlarını müzakirə edərik.

Qadir birnəfəsə danışaraq, qızın düşünməsinə imkan vermədi.

– Yaxşı, axşam saat yeddidə «Satir»in girəcəyində gözlə. Ancaq çox ləngiyə bilmərəm.

– Oldu, bu axşam tez qayıdarsan, sonrasını fikirləşərik. Axı, sən uşaq deyilsən…

Bəli, həqiqətən də Rahibə uşaq deyildi. Hər şeyi əla başa düşürdü. İstər-istəməz yanaqları allandı. Telefon dəstəyini yerinə qoyanda bədənindən isti bir gizilti keçdi…

* * *

Yusifcan evdən tez çıxdı. Fikirli idi. Zərifə onu gözdən itənə qədər müşayiət edən vaxt, Yusifcan da arada dönüb geriyə – qapının ağzında dayanan arvadına sarı baxdı. Küçədə heç kim gözə dəymirdi. Yusifcan rahat nəfəs aldı; «bax buna deyərəm tənhalıq».

Binaların arası ilə dayanacağa tərəf addımladı. Yeni ilin ilk günlərində son dövr yaradıcılığını təqdim etmək üçün sərgi açmağı planlaşdırsa da, hələ qəti qərara gəlməmişdi. Bitirdiyi əsərlərini xəyalında saf-çürük edirdi. Ümumiyyətlə, adamları cəlb edəcək, bəlkə lap təəccübləndirəcək bir əsəri vardımı? Onun yaradıcılığında insanın konkret halı təbiətə üzvi bağlılıqda təqdim olunurdu. İnsanın daxili aləmi, onun arzuları, ümidləri təbiətə qovuşaraq açılırdı. Yusifcan həmişə düşünürdü ki, ən yaxşı əsərini hələ yaratmayıb. Özündə bu gücü, enerjini duysa da, nədənsə, xəyali əsərini kətana köçürə bilmirdi.

Hava küləkli olduğundan, zəif, xal atmış, saplaqları saralmış yarpaqlar davam gətirmir, budaqdan

qopub havada dövrə vurur, sonra da lap aşağı düşüb yerlə sürünürdü. Küçəsüpürən qadınlar kağız, zirzibil qırıntıları ilə birlikdə xəzan yarpaqlarını da uzun saplı süpürgələri ilə bir yerə toplayır, zibil qablarına doldururdular. Sonra fəhlələr o zibil qablarını maşınlara yükləyib şəhərin kənarındakı zibilxanalara daşıyırdılar. Zibilxanalarda həmin zibili ya yandırır, ya da torpağın altına basdırırdılar. Beləcə, budağından qopmuş yarpaqların ömrü başa çatırdı. Halbuki, yazın burnu dəlinəndə bu yarpaqlar tumurcuqdan çıxır, yaşıl, körpə zoğların üstündə açıldıqca, təbiətə gözəllik və təravət gətirirdilər.

Yusifcan havada uçuşan yarpaqlara baxdı. Yarpaqlar yaxındaydı, pal-paltarının üstündəydi, çiynindəydi, ayağının altındaydı… Uzaqda olan xəyallarıydı. O, asimana baxır, yerə diqqət yetirir, insan taleyi ilə yarpaq taleyi arasında bənzəyiş, fərq axtarırdı. İnsan da doğulur, böyüyür, elə bir gün bu yarpaqlar kimi saralıb-solur, ömür ağacının quru budaqlarından qopub, əl yetib, ün çatmayan gedər-gəlməzə uçur.

…Yusifcan metrodan çıxıb Elmlər Akademiyasının yanındakı bağa tərəf addımladı. Küçədə tək-tük adam gözə dəyirdi. Onlar da sərt Bakı küləyinin şıltaqlığından qaçırmış kimi harasa tələsirdilər. Hava çox soyuq idi. Yusifcan plaşının boynunu qaldırsa da, külək bədəninə yol tapır, canını üşüdürdü. Havanın özünəməxsus ləzzəti vardı. Yusifcan ətrafdakı adamlardan fərqli olaraq, heç yana tələsmirdi. İsti ayaq-

qabı geyinmişdi. Paltarları ütülü və səliqəli idi. Plaşının kəmərini də çəkib bərkitmişdi. Ağ köynək və əlvan qalstuk onu şux, yaşından xeyli qıvraq və cavan göstərirdi. Gur ağ saçlarını yanpörtü qoyduğu beretin altına elə yığmışdı ki, diqqətlə baxan olsaydı, fikirləşərdi ki, o, yəqin ağ saçlarını gizləyir. O, bütün qayğılarını başından qovaraq, gün uzunu gəzişmək istədi. Yorulub əldən düşəndən sonra rəsm əsərlərini nisyə verdiyi tanışlarına da baş çəkməyi planlaşdırdı. Necə deyərlər, həm səyahət, həm də ticarət.

Yusifcan əsərlərini satanda həmişə qəribə hislər keçirirdi. Satılan əsərlər adətən xarici ölkələrə aparılırdı. Ən yaxşı halda rəssamın əlində həmin nadir əsərlərin surətləri və ya kiçikölçülü fotoşəkilləri qalırdı. Müəlliflər bununla təskinlik tapırdılar. Hər dəfə əsəri satılanda, Yusifcanın qəlbindən kədərli bir gizilti keçir, qara qanlar axırdı. Elə bil canından bir parça qoparıb aparırdılar. Həmişə belə olub, girəvə düşən kimi, Avropadan, Amerikadan gələnlər bu əsərləri, bəzən heç yaxşısına-pisinə fikir vermədən şəxsi kolleksiyalarını, dövlət muzeylərini zənginləşdirmək üçün daşıyırdılar. Hansısa bir unikal əsərə ağzının suyu axa-axa baxan əcnəbi bilməyib ki, bunları ərsəyə gətirən müəllif kimdi, onun yarandığı ölkə haradı? Əvvəllər sənət incilərinin ölkədən çıxmağının səbəbi müharibələr, talanlar olurdu. İndi isə onları pulla alıb aparırdılar. Nə fərqi, ya zəlzələdən, ya vəl-

vələdən, bütün hallarda millət intellektual sərvətini itirirdi. Yusifcan varlığını didib-dağıdan düşüncələri özündən qovmaq istədi: «Eh, nə fərqi var, hamımız eyni dünyanın sakinləri deyilikmi? Kim qədrini bilir, kim yaxşı qorumağı bacarırsa, qoy ona da qismət olsun. Halal xoşu».

Yusifcanın tabloları həmişə diqqət mərkəzində idi. Onun əsərlərinin mövzusu müasir həyatdan götürülsə də, əcnəbilər bu süjetləri «Min bir gecə» hekayətlərinə bağlayırdılar. Görünür, keçmişin bu günlə sintezi sənəti duyan, rəssamlığın, ədəbiyyatın, incəsənətin tarixindən xəbərdar olan adamlara nəsə agah eləyirdi. O, bu məqama biganə deyildi. Yusifcanın əsərləri tez satılır, daha çox xaricə aparılır, müxtəlif müsabiqələrdə yüksək qiymətləndirilir, şöhrət, eyni zamanda qazanc gətirirdi. Bir çox həmkarları ona qibtə edir, həsədlə baxırdı. Yusifcan bəxti gətirmiş sənətkar sayılırdı.

Küləkli, soyuq havada dərin düşüncələrlə evdən çıxıb küçələri dolaşan, budağından qopan yarpaqların qüssə gətirən uçuşunu izləyən Yusifcanın, səbəbi özünə də qaranlıq olan axtarışı bitmək bilmirdi.

O, nə axtarırdı? Bu gün Allah bilir, neçənci dəfə xəyalən həmin sualı özünə verdi və yenə də cavab tapmaqda çətinlik çəkdi. Dayandı. Əlləri ilə üz-gözünü ovuşdurub düşündü. Bir anın içində şiddətlənən külək az qalırdı adamı aşırsın. O, yıxılmasın deyə, yaxınlıqdakı şamın gövdəsinə söykəndi. Bu, külək

deyildi, tufan idi, sanki şam ağacını kökündən qoparıb atmaq istəyirdi. Külək döyəclədikcə, ağacın gövdəsi cırıldayırdı…

Qəfil qalxan tufan birdən səngidi. Yusifcan ağacın budaqlarına, iri çətirinə baxdı. Nəhəng şax-şəvəl o qədər də zorba olmayan gövdənin üstündə yuva qurmuşdu. Ağacın gövdəsinə zəndlə nəzər yetirdi – zədələnmiş yeri vardı. Ona görə də külək şiddətlənəndə cırıldayır, can verən adam kimi haray salırdı. Yusifcan əlini uzadıb ağacın zədələnmiş gövdəsini sığalladı: «Hə, bunun bəlası da buradan gələcək». İnsan yarasına məlhəm çəkirmiş kimi əlini asta-asta ağacın gövdəsində gəzdirdi: «Yox, təbiət hökmünü verib». Yenidən bayaqkı sual yadına düşdü: külək, ağac, zədə yeri… Bunların hamısı məlum. Yaxşı, bəs, o, nə axtarır? Ümumiyyətlə, nə isə axtarırmı? Bəlkə xoşbəxtlik axtarır? Sağ ol, rəssam!.. İstehza ilə gülümsündü. Ailənin, çoxlu dost-tanışın arasında tapmadığı xoşbəxtliyi bu küləkli havada, heç kimin heç kimə baxmadığı, hamının bir-birinin yanından tələm-tələsik ötüb-keçdiyi soyuq havada hansı tində, hansı dalanda tapacaqdı? Ürəyini tənhalıq yükü didirdi. Bacısı bir dəfə ona demişdi: «Sən xoşbəxt adamsan, qardaş. Ancaq həm də xoşbəxtliyini görməyən bədbəxtsən. Sənin gözlərinin dərinliklərində bir kədər var. Elə olma, bu Allahın acığına gələr».

Yusifcan başını qaldırıb göy üzünə baxdı. Sanki Allahı başının üstündə görəcəkdi. İstəyirdi ki, görsün

Allahın ona qəzəbi tutub, ya yox? Bu vaxt kimsə qoluna toxundu. Yusifcan səksəndi.

– Nə yaman fikrə getmisən? Sabahın xeyir!

Yox, deyəsən, Allahın onunla işi yoxdu. Bu, rəssam dostu Vaqif idi.

– Hər vaxtın xeyir, Vaqif. Qışın gəlməyinə baxıram.

– Hə, qış təbiətin canını alır.

Onun cavabı Yusifcana xoş gəldi:

– Necə ki, Əzrayıl insanın canını alır.

– Yusifcan, lap filosoflar kimi danışırsan.

– Həyat özü fəlsəfədir, Vaqif. Onu oxumaq üçün bəsirət gözün olmalıdır.

Vaqif dostunun qoluna girdi. Küləyin istiqamətində addımlayıb üzü metroya tərəf getməyi təklif etdi. Yusifcan etiraz etmədi.

Vaqif arıq, balacaboy adam idi. Həmyaş olsalar da, onun yanında uşaq kimi görünürdü. Yusifcan bir az əvvəlki ahənglə sözünə davam etdi:

– Hə, dostum, təbiətə nə var ki, bir də yazda diriləcək. İnsanın işi müşküldü. Canını bir dəfə verdimi, qurtardı, bir də geri ala bilməz.

– Yusifcan, bəlkə mənim emalatxanama gedək? Onsuz da günortadır.

– Doğrudan a, gün nə tez gəlib keçib? – Yusifcan təəccübləndi.

– Hə, nə deyirsən? Birlikdə nahar edərik.

Yusifcan tələşlə universitetdən çıxıb metroya tərəf gələn tələbələrə baxdı:

– Yox, Vaqif, bir nəfərlə görüşüm var, gedə bilmərəm, – dedi.

O, Vaqifin təklifinə tutarlı bəhanə tapdığına sevindi.

Yusifcan:

– Sağlıq olsun, bir başqa vaxt – dedi.

Bir-birinin əlini sıxıb ayrıldılar.

Yusifcan universitetə sarı döndü. Dərsdən çıxıb axın-axın metroya, dayanacaqlara üz tutan tələbələrə qarışdı. Bir də gördü ki, universitetin giriş qapısının qarşısındadır. Əslində burada heç bir işi yox idi. Dönüb qayıtmaq istədi. Birdən doğma bir sima gördü. Bu, gənc bir qız idi; hündürboy, incə qamətli, qızılı saçlı, iri gözlü… Deyəsən, onu tanıdı. Axı, haradan? Qız onun yanına çatanda ayaq saxladı:

– Siz rəssam Yusifcansınız?

– Hə, hə, rəssamam, siz də Fənayə xanım. Çoxdandı sizi görmürəm. Elə bil xeyli dəyişmisiniz?

– Elədir, Fənayəyəm. Bir vaxt siz mənim rəsmimi kətana köçürəcəyinizə söz vermişdiniz.

Fənayə əlini ona sarı uzatdı. Yusifcan qızın əlini sıxdı. Onun zərif barmaqlarından duyduğu hərarət rəssamın ürəyini döyündürdü, sanki ömrü boyu onu üşüdən duyğular harasa uçub getdi.

– Doğrudur, sizə söz vermişəm. Az qala bir ildir ki, hər gün, hər saat yolunuzu gözləyirəm.

Fənayə ətrafa baxıb soruşdu:

– Kimisə gözləyirsiniz?

– Hə, gözləyirdim. Yox, əslində heç kimi gözləmirdim.

Yusifcan tez dediyini təkzib etdi. Sonra da sevincək:

– Yəqin sizinlə rastlaşmaq arzusu məni bura çəkib gətirib – dedi.

Fənayənin sifətində gördüyü və yaddaşına həkk olunduğu məftunedici təbii rənglərin yerində bir solğunluq qərar tutmuşdu.

– Nə yaxşı, düşünürdüm ki, yəqin məni unutmuş olarsınız, – deyəsən, Fənayə də bu görüşə sevinirdi.

– Yox, Fənayə xanım, bu neçə ay ərzində sizi bir an da unutmamışam. Sizin xəyalınız mənim ilham mənbəyim olub. Əsərlərimin əksəriyyətində sizin obrazınızı yaratmışam. İnana bilməzsiniz, necə məhəbbətlə işləmişəm.

– Bilməzdim, doğrusu, təsəvvür edirdim ki, bir rəssam kimi siz həmişə öz qəhrəmanınızı axtarırsınız. Ancaq onu belə tezliklə tapmağınız ağlasığan deyil.

Fənayənin səlis, arxayın danışığı Yusifcanın həyəcanlarını dəf etdi. İndi o da sərbəst və arxayın danışırdı.

Fənayənin telefonu zəng çaldı. O, balaca cib telefonunu çantasından çıxarıb qapağını açdı, – «metronun qabağında gözlə» – dedi və telefonu söndürdü.

Onlar yanaşı addımlayırdılar, yüz ilin yaxını, simsarı kimi. Yaş fərqləri çox olsa da, bu anda onlar həmyaş idilər. Yusifcan Fənayənin kefsiz olduğunu hiss edirdi, ancaq səbəbini soruşmağa ürək etmirdi. Metronun qarşısına çatdılar.

– İcazə versəniz, gedərdim. Əsərlərinizlə tanış olmağı çox istəyirəm. Sənətinizə marağım var.

– Bu yaxınlarda sərgim olacaq. İmkan tapsanız, gələrsiniz.

– Mütləq gələrəm.

Sonra Fənayə əlavə etdi:

– Sərgilərlə bağlı elanları izləyəcəyəm.

Yusifcan telefon nömrəsini və emalatxanasının ünvanını ona verdi.

Fənayə:

– Bu lap yaxşı oldu. Sizə zəng vuraram.

* * *

Rahibə qəti qərara gələ bilmirdi. Gedirəm demək ayrı, getmək ayrı. Axır ki, qərar verdi; həyatla ayaqlaşmaq gərək. İndiki zəmanə pul zəmanəsidi. Nə yolla olur-olsun, çoxlu pul əldə etmək! Yaxşı yaşamağın yeganə yolu puldur. Pullu adamı hamı ağıllı, namuslu hesab edir.

Divarda Fənayə ilə qoşa şəkli asılmışdı. Şəkildəki Fənayə elə bil onun gücsüzlüyünə gülürdü. Fənayənin nəyi pisdir? Hamıdan qürurlu, hamıdan ağıllı,

azad quş kimi sərbəst. Dünənə qədər Haris dilindən düşmürdü, bu gün isə onun yoxluğu vecinə də deyil.

Rahibənin əsəbləri anbaan gərilirdi. Otağından çıxanda əməlli-başlı hirsli idi. Anası mətbəxin açıq qapısından baxırdı. Elə bil qızı boğmuşdular, rəngi qaralmışdı. Həyatdan əli üzülmüş adamları xatırladırdı. Rahibə sevgini, məhəbbəti müasir zəmanəyə dəxli olmayan saxta bir hadisə sayırdı. Bəlkə hansı dövrdəsə insanlara sevgi gərək imiş. Nə vaxtacan oturub evdarlıq, rahibəlik edəcək? Hər kəs üçün açılmış qapı – öz qisməti, bəxtidir. Xaricə gedənlərdən nəyi əskik idi? «Gedib gəzərəm, xoşum gəlsə, qalaram, gəlməzsə, qayıdaram geri. Yaxşı iş taparam, işləyərəm, qazanaram. Pul, maşın, səyahət elə bu yaşda lazımdı adama, qocalıb əldən düşəndən sonra yox. Əvvəl-axır ürəyim istəyənin birinə qovuşaram. Pul gələndən sonra hər şey öz ayağı ilə adama doğru səmt götürəcək. Getmək, mümkün qədər tez aradan çıxıb getmək lazımdır!»

Rahibə özündən asılı olmadan son sözü ucadan dedi. Hətta anası da eşitdi və arvad çarəsiz halda tapşırdı ki, çox gecikməsin.

– Arxayın ol, ay ana, heç kəs məni zorla saxlayan deyil, yəqin gəlib çıxaram.

– Yolda-zadda özünü gözlə.

Rahibə son vaxtlar incə mətləblər barədə düşünürdü. Öz kökü üstündə solan gül kimə lazımdır? Gərək onu bir qoparan ola. Bir vaxt Fənayədən eşitdiyi bu

kəlmələr neçə gündən bəri həyatını, hərəkətlərini idarə eləyən başlıca məntiqə çevrilmişdi.

Anası nahaq yerə narahat olurdu. Artıq o, uşaq deyildi. Hərəkətlərinin ölçü-biçisini bilirdi. Axı, bu dünya monastr deyil ki, həyatını rahibəliklə keçirsin.

Son günlər ana qızının dilinə dil çatdırmırdı və yaxşı görürdü ki, Rahibə heç də sonu xoş olmayan bir yolu tutub gedir.

– Hə, ana, axır ki, gedəsi oldum.

Qapıdan çıxanda anasına əl elədi. Çaşıb qalan ana örtülən qapıya baxa-baxa qaldı. Qapı bağlı olsa da, ana Rahibəni aparan yolu açıq-aydın görürdü. Bu yol çox dumanlı idi və bəlli deyildi ki, haralardan keçəcək, qızın başına nə oyunlar gətirəcək? O, fikir-xəyal içində düşündü: «Mənim qaynımın dilindən-sirrindən Allah da baş açmırdı. Qız guya Harisin şirkətində işləyəcəkdi. Bu necə şirkətdi ki, işçiləri xaricə gedirdi. Rəhmətlik düz-əməlli adam olsaydı, arvadı, qızı üçün bir gün ağlayardı. Arvadından ayrılandan sonra bir dəfə də olsun, qızı ilə maraqlanmadı. Üstəlik, bir başqasını da bədbəxt günə qoydu».

Qızının son vaxtlardakı hərəkətlərindən duyğulanan ananın gözləri önündə arzusunda olduğu xəyali bir mənzərə canlandı: «Budur, Rahibə gəlinlik paltarındadır. O, tovuz quşu kimi bəzənib-düzənib. Onu ata evindən ər evinə gəlin köçürürlər. Şux geyimli nişanlısı – təzə bəy, təzə gəlinin qolundan yapışıb. Bir-birinə çox yaraşırlar. Cütlüyün yanında

gedən güzgü tutan qız pilləkəndən düşəndə, əyilib Rahibənin gəlinlik paltarının uzun ətəyini dəstələyib yuxarı qaldırır ki, yerə dəyməsin. Bu vaxt qızın ayağı nəyəsə ilişir…

Rahibənin anası qeyri-ixtiyari qışqırır:

– Yavaş, güzgünü qırarsan!..»

Özü öz səsinə diksindi. Yaxşı ki, evdə bir kimsə yox idi…

Yuxusuz gecələr hesabına, min bir əziyyətlə böyüdüb ərsəyə çatdırdığı qızının gəlinlik qiyafəsinin xoşbəxt xəyalı onu kövrəltdi. Elə bil bütün bunlar xəyal deyil, həqiqət idi, elə indicə baş verirdi. Gözləri yaşla doldu… Məhz qızının – Rahibənin gələcək taleyi ilə bağlı yaranmış və demək olar ki, hər gün təkrarlanan bu əndişə, təbdən-təbə düşən ananın əzablarını nə zamana qədər sürdürəcəkdi, bunu bir Allah bilirdi…

* * *

Rahibə tini burulub qarşıdakı parka girdi. Yanyörəsi qalın kölgəli sıx ağaclıq olan bu istirahət guşəsində yaşıl gül kolları ətrafı görünməz etmişdi.

Onuncu sinifdə oxuyanda, qonşu binada yaşayan və ondan bir sinif yuxarıda oxuyan Rafiqlə burada tez-tez görüşər, ağacların arasından qəribə duyğular içərisində ötüb-keçərdilər. Uzun müddət bir-birilərinə toxunmağa cəsarət etmədilər.

Bir dəfə Rahibənin əlindən nəsə yerə düşdü. Əyilib götürmək istəyəndə, Rafiq qoymadı… Qəfil hərəkətlə qızı bağrına basıb öpdü. Ayrılanda Rahibənin huşu başında deyildi… Sonralar da tez-tez bura gələr, vaxtlarını bir yerdə keçirərdilər. Axırda necə oldusa, Rahibə özü Rafiqdən soyudu. Rafiqin xəyalı, şirin sevdası gilə-gilə əriyib yaddaşından silindi. Görünür, bu qız həqiqi sevginin dadını hələ bilmirdi. Biləcəkdimi?.. Cəsarətsizin yekəsiydi o. Bəlkə Rafiq ötkəm oğlan olsaydı, Rahibə onu heç unutmazdı da. Bir neçə dəfə zəng etsə də, Rahibə onunla görüşmədi, çünki Rafiq onun gözündə uşaq kimi idi, uşaq kimi də qaldı. Elə buna görə, sonralar nə qədər istəsə də, ondan xəyalında belə kişi obrazı yarada bilmədi. Bunun əvəzində, başqa bir kişi obrazının ilk cizgiləri dumanlı şəkildə yavaş-yavaş üzə çıxdı. Könlündən keçdi ki, hər halda bir əcnəbi ilə əlaqələr qursun. Bəs, Rahibə onunla necə danışacaqdı? Əsas odur ki, ürək ürəklə danışsın, dil sonrakı işdir. İndi onun yaşadığı bu şəhərdə qayınatası, qayınanası alman, fransız, italyan, polyak olan o qədər oğlan, qız var ki, təki, bir fərasətli ağ, boz, qara… dərili kişi sinəsini qabağa verib təklifini bildirsin. O vaxt Fənayə də bu mövzuda bir şeir yazmışdı. Düzdü, həmin şeirlə Rahibənin nə əvvəlki, nə indiki duyğuları arasında konkret bir bağlılıq yoxdu, amma ümumi düşüncələr ulduz falı kimidi, həmişə üst-üstə düşürdü. Necəydi o şeir?..

Gəl kilsəyə gedək.
Sənlə kilsədən çıxmaq istəyirəm.
İstəyirəm
Görsünlər, belə görsünlər,
Bizi bir yerdə.
Kilsə zəngləri çalınsın,
Bakının küçələrində də,
Getməsin burnumuzdan
Kilsədə yanan şamların iyi.
Gəl gedək,
Sonra çıxaq kilsədən,
Şəhərə çıxaq birbaşa.
Və baxaq yanımızdan ötən
Adamların sifətinə.
Görək evə qədər
Gözümüzə dəyəcəkmi
İsa peyğəmbərə oxşayan
Bircə kişi, bircə qadın
İkimizdən başqa…

Rahibənin tələbə yoldaşları arasında da dostları olmuşdu. Təklikdə onlarla da kinoya getmiş, bulvar gəzintisinə çıxmışdı. Rafiqdə gördüyü cəsarətsizliyi, qorxaqlığı onlarda da görmüşdü. Rahibə onlardan da inciyib uzaqlaşmışdı. Xəyalında canlandırdığı, kilsəyə də lap birlikdə getmək istədiyi o əcnəbi kişi arzusu onu rahat buraxmırdı. Yaşının çoxluğuna baxmayaraq, toxunub-toxunmadığı, təmaslarının

dərəcəsi az və ya çox olan kişilərdən ən sərfəlisi Qadir idi. Məhz Qadir daha sərt, daha qəddar idi. Heç nəyə rəhm etmirdi. Bu arıq, uzunboy kişi Rahibənin real və xəyali pərəstişkarlarından daha cəsarətli və qoçaq görünürdü.

Yox, hələ ki o, Qadirin yanına gedəcək…

* * *

Qadir bir daha götür-qoy etdi; Rahibəni xaricə yola salsın, yoxsa yanında saxlasın? Tərəddüdlər səbəbsiz deyildi. Rufa ilə özü arasında baş verən əhvalatları unutmamışdı. Yaxşı bilirdi ki, Rufa onu qeyri-ixtiyari itələyib, əslində qızı həmin əsəbi vəziyyətə o özü gətirmişdi. Rufa sonra xəstəxanaya – onun yanına gəlmiş, hətta göz yaşları da axıtmışdı. Qadir «təhlükəli heç nə yoxdur» – desə də, o, yenə ağlamış, təkrar-təkrar bağışlanmasını istəmişdi.

Ümumiyyətlə, Qadir realist adam idi. Həyatı yaxşı duyur, işini də reallıqlar üzərində qururdu. Onun biznesindəki uğurunu təmin edən əsas amil elə bu idi. Rufanın səmimi etirafları Qadir üçün xoş olsa da, Rahibə fikrindən çıxmırdı. Ona görə də Rahibəni razılaşacağı təqdirdə Rufanın artıq yük olacağını düşünürdü. Yox, deyəsən, Rahibə işə daha çox yarayırdı. Hər halda, Harisin qardaşı qızı burada ona daha çox lazım ola bilərdi. Onun vasitəsilə «tora təzə balıqlar da düşərdi».

Qadir Rahibəni yaxşı müşahidə edə bilmişdi. Hərəkətləri, isti münasibəti göstərirdi ki, qız özü «qarmağa» sarı gəlir. «Satir»dəki istirahət otağında, tək-tənha rahat divanda dirsəklənib düşündükcə fikirlərinə aydınlıq gələn Qadir, yerindən qalxıb, əlini-əlinə sürtərək güzgüyə sarı getdi. Əksinə baxıb gülümsündü. İçində ləzzətli bir fikir «qızarırdı». «Tabaka… Özü də lap təzəsi». Gözünü otaqboyu gəzdirdi, sanki indicə içində «bişən» kəlmələr quş idi, pırıldayıb uçmuşdu, o da gözləriynən uçan quşun otağın hansı divarına qonduğunu axtarırdı... Deyəsən, tapdı. Yan otağa qonub, orada gizlənib. Quşun qonmağı üçün həmin yataqdan daha münasib yer hara ola bilər ki?! Divar saatına baxdı. Vaxta az qalırdı. Geyindi. Ağköynək, qalstuk, təzə kostyum… Demək olar ki, əyninə geydiyi bütün paltarlar təzə idi. Bir daha güzgüdə diqqətlə özünə baxdı. Sonra divardakı düyməni basdı. Xidmətçi oğlan gəldi.

– Giriş qapısına gedərsən. Beş dəqiqədən sonra bir qız gələcək, adı Rahibədir. Qoy gəlsin.

– Baş üstə, – oğlan qapının arxasında görünməz oldu.

Qadir intizarla dəqiqələrin ötməsini gözləyirdi. Bu ara xəyalında Harislə Fənayənin faciə ilə qurtaran macərası canlandı: «Bu macəranın əvvəli görəsən, necə başlayıb? Bəlkə bir vaxt elə Haris də mənim kimi bu yerdə intizarlı anlar yaşayıb? Hər halda, mənim qızım pula görə deyil, öz istəyinə görə onunla mü-

nasibətə girib. Fənayəni pulla yolundan döndərmək olmazdı. Fənayə Harisi həyatının mənası hesab edirdi. O alçaq isə qızın yüksək duyğularını qiymətləndirə bilmədi. Ancaq yox, mənim məqsədim Harisdən qisas almaq deyil, sadəcə, Rahibəni monastrdan çıxarmaqdır. Rahibə mənim olacaq. Həyatımın qalan hissəsini onunla yaşayacağam. Hər şey mənim istəyimlə olacaq. Hiss edirəm ki, Rahibənin pula ehtiyacı var. Pul isə problem deyil».

Qadir divardakı şəklə – dişlərini qıcamış əcaib heyvana – cüyürü boğazlayan yırtıcıya baxdı. Heyvani hislər varlığını bürüdü, səbri tükənmək üzrəydi. Stolun üstünə qoyulmuş «Narzan» suyundan büllur bakala süzüb bir qurtum içdi, elə bu vaxt qapı açıldı.

Rahibə qapının ağzında göründü.

* * *

Poçtalyonun Faiqə verdiyi teleqramda bircə cümlə yazılmışdı: «Zahir, tez gəl, xeyir işimiz var. Atan». Faiqin kefi duruldu: «Hə, Zahir də belə getdi».

Vaxt çox sürətlə ötüb-keçdiyindən, subay taytuşların cərgəsi də seyrəlirdi. Qrupdakı gənclərdən birinci olaraq Sərrafla Sadiqə ailə qurdu. Sərraf ki, Sərraf. Sadiqə çox ağıllı qız idi. Fənayə də pis qız deyildi. Pis nədi, lap yaxşı idi. Kim istəməzdi onunla evlənsin? Amma ona yaxşı bir cilov, eyni zamanda bir cilovdar lazım idi.

Xəyalı bir anlığa qanadlanıb uzağa – kəndlərinə, göydəmir ürgənin yanına uçdu. Atasının cilovsuz, örkənsiz saxladığı, qoruq-qaytaq bilməyən, atları döşləyib qabağına qatan göydəmir ürgə, indi yəqin ki, ayğır olub…

Faiqgilin bir dəlisov atı vardı. Atası atı ona verəndə həmişə tapşırırdı ki, cilovsuz minməsin. Faiq atın belinə qalxan kimi, at yerlə-göylə əlləşir, qanad açıb uçmaq istəyirdi, cilovu nə qədər çəksə də, onu ram edə bilmirdi. Neçə dəfə atın üstündə özünü saxlaya bilməmiş, yıxılmışdı. Doğrudur, həmişə xətasız sovuşmuşdu. Amma atası deyirdi ki, xəta bir dəfə olur. Yıxılanda daşa dəyərsən, kol-kosa düşərsən, ehtiyatlı ol.

Faiq də Borçalı dağlarında «havalanan» o atın başını həmişə buraxmaq istəyirdi. Atı dördnala çapdıqca, ürəyi köksünə sığmırdı. Ancaq yıxılmaq qorxusu canında qalmışdı. Həm də at «havalananda» Faiqə elə gəlirdi ki, daha onu saxlaya bilməyəcək. Qorxusundan cilovu o qədər çəkirdi ki, az qala atın cəhənglərindən qan sızırdı.

Qapıya çatanda atası rəngi qaçmış oğlunu tərli atın üstündən özü götürüb yerə qoydu. Atın yalmanına əlini çəkdi, tər axan sağrısını sığalladı: «Ay bala, bu sənin üçün deyil, sümüyün hələ bərkiməyib. At çox həssas heyvandır, biləndə ki, üstündəki təcrübəsizdi, naşıdı, yaxud yiyəsi deyil, ram olmur. Cəhəngini cilov paralasa da…»

Bu arada Faiqin balaca boyu bir az da balacalaşır, cılız bədəni büzüşürdü. Atası bunu duyub ürək-dirək verirdi:

– Darıxma, bir müddətdən sonra öyrəşəcək. Gələn dəfə qılçalarını atın sağrısına möhkəm sıxarsan.

Sonralar o, göydəmir ürgəni çox minib çapdı. Daha əvvəlki kimi qorxmadı. Atasının dediklərinə də əməl elədi.

«Fənayə lap həmin göydəmir ürgə kimidir. Onu ram etmək üçün gərək cəhənginə cilov keçirəsən. Yox əşi, onun cəhəngi cırılsa da, ram olan deyil. Dəlinin biridir. Nə istədiyini özündən başqa bəlkə Allah da bilmir. Yönlü olsaydı, Zaur ondan yapışardı. Haradan, heç Zauru yaxına qoydu ki? Onunku elə özü kimi avaragor adamlardı. Haris göydən düşməmişdi ki? Onu Fənayə özü tapmışdı də.

Bəs, Rahibə? Heç ondan da adamın ağlı bir şey kəsmir. Deyəsən, ayağı bir az o məsələ, indiyənəcən neçəsinin qolundan sallaşıb. Hər dəfə də təzəsini tapır».

Faiqin xəyali sevda axtarışı, sonalayıb seçməyi nəticə vermir, dağı arana, aranı da dağa qatırdı. Hərənin bir əmması çıxırdı. Belə getsə, o da öz kəndlərindəki qızlardan birini alıb gətirəcəkdi. «Odur ey, Zahir öz kəndindən tapıb. Nəyi pisdir? İnsan öz mühiti ilə nə qədər bağlı olsa, həyat onun üçün bir elə rahat olar».

Faiq teleqramı stolun üstünə atıb, paltarlarını geyinməyə başladı. Gedib Zahiri tapacaqdı.

Teleqramı da götürüb qapıdan çıxmaq istəyirdi ki, Zahir özü gəldi.

– Bay, nə yaxşı gəldin. Heç bilmirdim səni harada axtarım?

– Nəşriyyata getmişdim. Yazılarımın çap olunduğu qəzetlərin hərəsindən bir-iki nüsxə götürdüm.

– A kişi, sən yazılarının canı, bir dayan, teleqram var.

– Nə teleqram?

Zahirin gözləri böyüdü, batıq ovurdlarının çuxuru bir az da dərinləşdi. Deyəsən, ürəyi pis oldu. Faiq düşündü ki, geciksə, Zahir «əriyib, yox olacaq.»

– Yaxşı, ürəyin qopmasın, xeyir işdir.

Teleqramı verdi. Zahir həmin bircə cümləni oxuyan kimi, özünə gəldi. Sonuncu dəfə evlərində ona demişdilər ki, yazda nişan, yayda da toy edərik. Ancaq atası onu da əlavə etdi ki, orucluğa görə bəlkə nişanı qabağa çəkdik. Gələn həftə orucluq başlayırdı. Demək, bu şənbə evdə olmalıdır.

Faiq dostunun boynunu qucaqladı.

– Təbrik edirəm, Zahir!

– Sənin üçün də, Zaur üçün də olsun!

– Özün bilirsən ki, bizim jurnalistika fakültəsinin tələbələri bir-birilə tez-tez mübahisə edirlər. Mücərrəd məfhumların mənasını açmaq üstündə…

– Pah atonnan, kişi söz tapdı də!..

– Bəli, tapdım.

– Nəyi?

– Yox, Zaursuz olmaz. Mən onsuz da geyinmişəm. Gedim Zauru tapım, gətirim. Ona da göstərim.

Zahir intizarla, səbri tükənmiş halda soruşdu.

– Axı, nəyi?

– Xoşbəxtliyi, yoxsa, vaxt keçər, izah edə bilmərəm.

Faiq dostunun gözlərindəki xoşbəxtliyi aydın görürdü…

* * *

Yusifcan axşamdan bəri emalatxanasında yır-yığış edir, səliqə-sahman yaradırdı. Əslində məqsədi yır-yığış deyildi. İşləmək istəyirdi. İndiki ovqatında nəsə molbertə yaxın düşə bilmirdi, vurnuxurdu. Rənglər, müxtəlif ölçülü fırçalar stolun üstündəydi. Dönə-dönə molbertin önünə gəlir, eləcə gəldiyi kimi də geri dönür, nədən, haradan başlayacağını bilmirdi. Düşüncələri onu müxtəlif səmtlərə çəkirdi. Daxilindəki əzəmətli enerji onu sanki çəkmək, yaratmaq, zövq vermək, təsirləndirmək eşqinə səsləyirdi. Konkret mənzərələri rənglərin dili ilə təqdim etmək onun üçün heç vaxt çətin olmamışdı. İndi isə böyük sənət məbədinə aparan yolu itirmişdi sanki.

Gündüz Fənayə ilə təsadüfi görüş varlığını silkələmiş, onu elə bil özünə qaytarmışdı. Qızın gözlərində tapdığı parıltı əsl həyat sevgisi idi…

Neçə gündən bəri əl vurmadığı dibçək güllərini suladı, xırdaca buğumlarda saralmış yarpaqları bir-

bir qoparıb atdı. Emalatxanaya bir də göz gəzdirdi, yox, görüləsi başqa bir iş qalmamışdı. Küncə qoyduğu radionun düyməsini basdı. Musiqinin səsi emalatxananın sükutunu pozdu. Skripkada ifa olunan melodiya, sanki onun yaratmaq istədiyi əsərin musiqi dili ilə ifadəsi idi. Bəlkə artıq heç nə lazım deyil? Elə bu melodiyanı rənglərə çevirmək bəs edər?..

Rəssama elə gəldi ki, göylərin qoynundan bir mələk qanad çala-çala ona sarı uçur. Bu mələk hərdən ağ buludların arasında görünməz olur. Aşağıda təbiət dəhşətli tufanın əsarətindədir. Külək ağacları kökündən qoparır. Şəhər görünmür. Qasırğanın yalnız bir qocaya gücü çatmayıb. Külək əllərini göyə açıb Allaha yalvaran, ondan imdad diləyən qocanın ağ paltarlarını da dartıb əynindən çıxarmaq hökmündədi…

Külli-aləmdə tək-tənha qalmış qocanın yapışıb tuta biləcəyi heç nəyi yox idi. Bəs, niyə hər şeyi ağzına almış qasırğanın ona gücü çatmırdı? Qocanın gücü nədə idi? Dünyadan nə istəyirdi? Əgər bütün canlılar dünyanın şirin olan hər şeyindən əl çəkmişdilərsə, onda bu qoca dördəlli nədən yapışmaq istəyirdi?

Ömrünü sürmüş qoca, bəlkə də neçə yüz il idi yaşadığı bu dünyadan çox şey almışdı. Bir vaxt həmyaşıd olduğu insanlarla deyib-gülmüş, kimisə sevmiş, kimsə onu sevmişdi. Vaxtilə onun haqqında xoş sözlər deyilmiş, tərifi həmin o mələyin yol gəldiyi göylərə bülənd olmuşdu. Onu dünyanın ən ali mükafatlarına, təltiflərinə, gül-çiçək çələnglərinə qərq etmişdilər.

Lap min adamın içindən keçəndə də çoxları onu tanımış, barmaqla göstərmişdilər. Sevgi ilə dolu ürəyini övladlarına vermiş, ətəklərindən yapışıb çəkən balalarının gülüşlərindən, şirin dillərindən duyduğu hislərin aliliyini, müqəddəsliyini heç nə ilə ifadə edə bilməmişdi. Bəs, bütün bunlar indi haradadır? Necə olub ki, Allah ona bəxş etdiklərini əlindən alıb? Yox, qoca naşükür deyildi. Budur, Allah öz mələyini göndərmişdi…

…Göylərin qoynundan ona sarı uçmaqda olan mələk çathaçatda idi. Qasırğa hələ də davam edirdi və bəlkə bir az da güclənmişdi…

…Qocanın ağ saçları göylərə uzanan əllərinə və bir də ağ buludlara dolaşmışdı…

…Melodiya kəsildi. Emalatxanaya sükut çökdü.

Rəssam təəccüblə ətrafa baxdı. Deyəsən, çox gərgin işləmişdi. Bir az aralı çəkilib, yaratdığı əsərə diqqətlə baxdı. O, nə çəkib, nə demək istəyirdi? Suala cavab tapmaq iqtidarında deyildi. Sənətşünaslar, yəqin ki, baş sındıracaq, bir-birinə zidd olan rəylər yazacaq, amma onu tənqid edənlərin sayı daha çox olacaqdı. Yazacaqdılar ki, rəssam dünyanın taleyi haqqında bədbin fikirdədir. Lap bir az da dərinə gedənlər onu insanlara kədər aşılamaqda təqsirləndirəcəkdilər. Yəqin həssaslar da tapılacaqdı. Onlar deyəcəkdilər ki, əsərdəki qoca ömür boyu, həyat boyu xoşbəxtlik adlanan bir amala canatmanın timsalıdır. Bəs, o mələk nədir? Həmin mələk elə o müqəddəs

arzudur. Bəlkə də fani dünyada düzgün yaşanmış ömrə görə Tanrının son mükafatıdır o mələk…

Yusifcan yaratdığı əsərlə – qocanın özü ilə göz-gözə dayandı. Onun nə düşündüyünü gözlərindən oxumaq istəyirdi.

Yusifcanın yadından çıxmışdı ki, bu əsəri o özü yaratmışdı. Baxmayaraq ki, nə gərgin işin xoş yorğunluğu canını tərk etmişdi, nə də fırçaları sıxan barmaqlarının keyi açılmışdı. Ona elə gəldi ki, taleyini qasırğalara tapşırmış qoca ona gülür, hətta rişxənd edirdi. Qoca ona deyirdi ki, necə olub bu dəhşətli qasırğadan xilas olub qalmısan? Axı, bu qasırğa səni də aparmalı idi...

Yusifcanın üzündən üzüntülü bir kədər boylanırdı. Sanki gecənin bu səssizliyində qocanın ruhunu onun varlığına köçürmüşdülər. Rəssamın qəlbində bir təlatüm baş qaldırdı. Qəzəb və hirsqarşıq bir hikkə ilə əl atıb lövhəni götürmək, bir anda parça-parça etmək istədi, fikrindən döndü: «Yox, mən bu əsəri ona görə yaratmadım ki, insanlar həyatdan əllərini üzsünlər. Elə düşünməsinlər ki, onların taleyi hər an həyatlarını əllərindən alan qasırğaya tuş gələcək».

Əksinə, Yusifcan insanlara bu qocanın timsalında yaşamağın və həyatın şirinliyini anlatmaq istəmişdi. Lövhəni əlinə götürdü. Yenə də onu parçalayıb ayağının altına atmaq istəyirdi ki, ani bir tezliklə gözləri qocanın mərhəmət, təmənnasızlıq yağan nəzərlərinə dikildi. Yox, o bu qocanı məhv edə bilməzdi. Bu qo-

canın gözlərində əbədi yaşamaq, milyon illər boyu mövcud olmaq sirri var idi.

Anbaan əsəbləri sakitləşdi, qolları boşaldı. Sanki lövhə indicə əlindən yerə düşəcəkdi. Onu ehtiyatla molbertin üstünə qoydu. Elə bil bu an pillələri qalxa bilməyən, damarlarında gücü-qüvvəsi tükənən, həyatının mənəm-mənəmlik deyən çağlarını yola salan bir qocanın qolundan tutdu.

Yusifcan sevindi. Niyə də sevinməsin, axı, o, qocanı ölümdən xilas etmişdi, ona əbədiyaşarlıq bəxş etmişdi. Yox, həyatda baş verənlərin hamısı Allahın iradəsinə tabedir. Elə isə, qocanı o xilas etdi, yoxsa, Allah? Görünür, Allah hər bəndəsinə elə bəndənin öz əli ilə kömək edir.

Lövhənin altına əsərin adını yazmaq istədi. Tufanlar içində mələyə qovuşmaq istəyən qocanın xəyalından keçən duyğuları bir kəlmə ilə ifadə etməli idi. Bu ki, xoşbəxtlik idi. Hə, əsərin adını elə beləcə də qoymalıdır: «Xoşbəxtlik». İlk hərfi yazmaq üçün qələmi lövhənin üstünə gətirəndə, tərəddüd etdi. Yox, bu tamam başqa mənzərədir. Bu, fani dünyadakı insanların arzuladıqları xoşbəxtlik deyildi. Dəhşətli tufan və qasırğa həyat adlanan nə vardısa, hamısını məhv etmiş, süpürüb aparmışdı. Lövhədə qocanın özündən başqa, heç nə görünmürdü; bir qırpım ot da, bircə körpə çiçək də… Ağacların hamısı kökündən qopmuşdu. Küləyin tüğyan etdiyi səhrada saç-saqqalı da özü kimi fəryad qoparan qocadan və buludların

arasından ona sarı gələn mələkdən başqa heç nə görünmürdü. Bəlkə insanın məhşər ayağındakı son görüntüsü elə belə olur? Qələmin ucundakı mürəkkəb qurumuşdu. O, yazmaq istəsə də, qələm lövhəni cızdı. Bu vaxt düz qələmin ucuna bir az göz yaşına, bir az da alın tərinə bənzəyən bir damla, şəffaf, dumduru damla düşdü. Qurumuş mürəkkəb dirildi. Damladan islanan mürəkkəbin rəngi göy üzünün rənginə oxşadı. Masmaviydi, amma bir az da qırmızıya çalırdı. Üfüq qızartısı vardı mürəkkəbin rəngində.

Yusifcan əsərin adını asta-asta yazdı: «Ölümün gəlməyi».

O, bir sözlə yazmaq istədiyi əsərin adı, indi iki sözlə ifadə olundu. Elə iki sözü yazmağın aparacağı vaxt qədər olsa da, qocanın ömrünü uzatmaq istədi. Qələmi yerə qoyub, üzünü qocadan döndərdi. Yanaqlarından üzüaşağı süzülən göz yaşları üzünü də yandırırdı, içini də…

* * *

«Satir»in Qadirə məxsus otağında onlardan başqa kimsə yox idi. Əvvəlcə söhbətlərinin mövzusu ümumi oldu. Havalardan, fəsillərdən danışdılar. Sonra Qadir Rahibəyə tamam başqa suallar verdi. Deyəsən, söhbətləri tutdu.

Hər şey Rahibənin özündən asılı idi; istəyər Qadirin yanında qalıb işləyərdi, istəyər xaricə gedərdi. Yeni qrupların təşkil olunması, şirkətin reklamlarının

ali məktəblərin münasib yerlərində yayılması işinin təşkili, sənədlərin hazırlanması – bütün bunlar gündəlik qayğılar idi. Yəqin Rahibə elə burada da yaxşı işlə təmin olunar, ürəyi istəyəndə əlbəttə, xarici ölkələrə də səyahət edərdi. Bu işdə Qadir ona hər cür kömək göstərəcəyini bildirdi.

Qadir qızı hərtərəfli kəşf etmək üçün onu xüsusi müşahidə altına almışdı. Hiss edirdi ki, Rahibəni daha çox alacağı maaş, daha dəqiq desək, qazanacağı pullar maraqlandırırdı.

Qadir onun sənədlərinə baxıb ciddi bir problem həll edirmiş kimi müxtəlif blanklara, kağız-kuğuza göz gəzdirdi. Axır ki, sənədləri bir yerə topalayıb Rahibəyə baxdı:

– İndi isə adın, ünvan göstəricilərin yazılmış blanka imza atacaqsan. Demək, bizim şərtlərimizlə işə qəbul olunacaqsan. Hər halda, bundan sonra arzuna uyğun yaşayacaqsan. Səni bizim şirkətə işə qəbul edirəm.

Qadir yanındakı düyməni basdı. Qapıda görünən gənc qıza:

– Blankı doldurub gətir, – dedi və sonra Rahibənin pasportunu digər sənədlərlə birlikdə özünə qaytardı.

Belə görünürdü ki, Rahibə haqqında ümumi siyahıda kifayət qədər məlumat vardı. Hətta onun sənədləri də demək olar ki, hazır idi. Köməkçi qız bir az sonra Azərbaycan və ingilis dillərində yazılmış blankı Rahibənin sənədləri ilə birlikdə qaytardı.

Rahibə şirkətə işə düzəlmək üçün blanka qol çəkməli idi. Qadir gözlərindən sevinc yağan Rahibənin qabağına – stolun üstünə qoyduğu blankda imza atacağı yeri göstərdi və qələmi ona uzatdı. Rahibə sənəddə nə yazıldığını oxumadan qol çəkdi. Elə bil bir an geciksəydi, kağızı çəkib əlindən alacaqdılar. Blankı ondan alan Qadir dedi:

– Bundan sonra biz sənlə birgə işləyəcəyik. Daha doğrusu, sən mənimlə işləyəcəksən. İşini nə qədər çox bəyənsəm, qazancın da bir o qədər çox olacaq.

Rahibənin «çiçəyi çırtladı». İncə, ortaboylu bu qəşəng qızın gözəl sifəti, işvəli göz-qaşı çiyinlərinə tökülmüş qara saçlarının arasından «gəl-gəl» deyirdi. Əynində cins şalvar və dəri gödəkçə vardı. Deyəsən, isti oldu. Qız gödəkçəsinin yaxasını açdı. Qadir əlini uzadıb gödəkçəni çıxarmaqda ona kömək etdi. Yüngül dəri gödəkçəni ondan alıb asılqanın üstünə asdı.

Üzünə mehriban bir ifadə verib Rahibəyə baxdı:

– Hə, necə fikirləşirsən, Rahibə xanım, bizim birgə işimiz alınar?

– Ola bilsin, hər halda…

Deyəsən, Rahibənin müəyyən tərəddüdləri vardı. O, sənədə qol çəksə də, hələ nə iş görəcəyini dəqiq bilmirdi.

– Bilirəm. İstəyirsən ki, nə iş görəcəyini deyim. Tələsmə, hər şeyi biləcəksən. Elə bir çətinlik yoxdur. Həftədə bir-iki dəfə, mənə lazım olanda, burada görüşəcəyik.

Sözünü qurtarar-qurtarmaz divarın dibində qoyulmuş diplomatın qapağını qaldırdı, oradan bir yığın yüzlük dollar götürdü. Yığının kağızını cırıb, pulun təqribən yarısını ayırdı:

– Bu, sənin üçün avansdır. Puldan korluq çəkməyəcəksən. Sadəcə, biz bir olmalıyıq…

Rahibənin gözləri böyüdü. Pulları götürüb-götürməmək barədə düşündü. «Bu nədir, bu pul ona nə üçün verilir? Lap nə üçün verilsə də, almalıyam».

Rahibə pulu götürmək üçün ayağa qalxıb iki əlini də birdən irəli uzatdı. Qadir pulları əlindən tam buraxmasa da, demək olar ki, elə Rahibə ilə birlikdə onun çantasına qoydu. Pulqarışıq qızın əllərini ovucları arasında sığalladı. Rahibə Qadirin ürəyindən keçənləri duydu, qəlbi bərk-bərk döyünməyə başladı. İndi Rahibə həyəcanlı olsa da, artıq Qadirin təsiri altında idi. Qadir onun varlığına hakim olmuşdu və Rahibə görürdü ki, gəzdiyi oğlanlarda olmayan cəsarət əvvəllər xoşu gəlmədiyi bu kişidə var. Qadir onu gözləri ilə didib-parçalamağa hazır olan yırtıcıya oxşayırdı. Bu, Rahibəni qorxutmurdu, əksinə, xoşuna gəlirdi. Onun arzuladığı kişi – cəsarəti ilə bütün «sədləri uçurub-dağıdan», «əl-qolunu bağlayan zənciri qırıb atan» adam artıq qarşısında idi.

Rahibə təəccübünü gizlədə bilmədi. Ömründə bu qədər pula əli dəyməmişdi. Artıq Qadir onun gözündə tamam başqa cür görünürdü; xeyirxah, mərd, səxavətli. Qadirin bu şəkildə dəyərləndiril-

məsi, görkəmindəki qüsurları da görünməz eləyirdi. Onunla yaxınlıq qıza yeni bir dünyaya gedən yolu nişan verirdi. Bəlkə də onunla birlikdə lap Avstraliya, Cənubi Amerika cəngəlliklərinə, Afrika savannalarına da gedib çıxmaq olardı. Əsl həyat – insanda maraq doğuran, hər dəqiqəsi qəribə, anlaşılmaz, həyəcan yaradan həyatdır. Bu dəqiqə Rahibə «kenquru» ilə – əvvəllər onu elə-belə «Avstraliya kenqurusu» adlandırırdı – tez fikrini dəyişdi, kenquru yox, zürafə, «nəcib zürafə» ilə hara desən, getməyə razı olardı.

Rahibə üzünə yayılmış təbəssümün gətirdiyi xoş əhvalı əllərinin hərəkəti ilə özündən asılı olmayaraq, tamamladı:

– Qoy olsun, – dedi.

O, bununla daxilindəki mənəvi-psixoloji çəkişmələrdən xilas oldu. Bunu Qadir də hiss etdi. Həmin andaca tükü-tükdən seçən Qadir, anladı ki, Rahibə həyatının bundan sonrasını taleyin ümidinə buraxır. Həqiqətdə də, Rahibə kasıb, lüt, həmyaşıdı olan bir oğlanı sevməkdənsə, Qadir kimi bir iş adamı ilə əlaqələr qurmağa daha çox üstünlük verirdi. Onun üçün dünyanın ən qəşəng oğlanı elə bu, Qadir idi. Əvvəllər eybəcər, «nahamvar kenquru» hesab etdiyi Qadir.

…Süfrədə hər cür yemək və içki tapmaq olardı. Qadir Rahibə ilə tay-tuş kimi danışırdı. Stulları yaxın qoyub bir-birinə söykəmişdilər. Qadir tez-tez qızın çiyninə toxunur və o saatca da üzr istəyirdi. Şərabın

təsirindən Rahibə xeyli açılışmışdı, deyib-gülürdü. Qadir ara vermədən maraqlı lətifələr danışırdı. Sən demə, Qadirin əla aktyorluğu varmış. Lətifələrdəki obrazları mükəmməl təcəssüm etdirə bilirdi. O, meymundan, dovşandan, eşşəkdən danışırdı. Bu zaman çox məharətlə onların cildinə girir, hətta bəzən uyğun səslər çıxarırdı. Rahibə Qadirin yaratdığı bu səhnələrə hədsiz maraq göstərir, tez-tez uğunub gedirdi. Qadir daha bir lətifə danışdı:

– Bir dəfə mollanın arvadı rəhmətə gedir. Kənddə bir qadının da əri ölür. Sonra ağsaqqal, qarasaqqal yığılır ki, gəlin, sizi evləndirək, belə də olur. Toydan sonra molla arvada yaxınlaşmaq üçün bəhanə axtarır. Arvad da bilmir ki, molla ilə nə təhər yaxınlıq eləsin. Molla rəhmətlik arvadının necə mehriban olmasından danışır. Arvad da onun sözünü kəsib əlavə edir ki, rəhmətlik əri də çox mehriban idi. Molla qəzəblənir, arvadı itələyib çarpayıdan yerə salır. Arvadın qohum-əqrəbası hal-əhval üçün gələndə soruşurlar ki, nə olub? Arvad başlayır zarımağa. Molla deyir ki, heç, yıxılıb əzilib.

– Niyə?

– Çünki dördümüz bir çarpayıya yerləşmədik.

Soruşurlar ki, necə yəni dördünüz bir çarpayıya yerləşmədiniz?..

– Hə də, mən və mənim keçmiş arvadım, təzə arvadım və bir də onun keçmiş əri…

Lətifə ləzzət elədiyindən Rahibə qəhqəhə ilə gülürdü. Güləndə, arxaya – rahat kresloya yayxanır, cins şalvarı ilə gödək koftasının arası açıq qalırdı. Qadir bir əlini qızın göbəyinin üstünə çəkdi, o biri əli ilə də boynunun arxasından tutdu. Rahibə bu təmasdan xumarlandı, gözləri axdı.

Qadir qızın dodaqları arasından qeyri-ixtiyari çıxan «oy» nidasını eşitdi, sonra dodaqlarından öpmək üçün başını özünə tərəf döndərdi. Rahibə də bunu gözləyirmiş kimi, Qadiri ahənrüba kimi özünə çəkdi. Rahibənin qızğın ehtirası az qala Qadirin huşunu başından aldı. Bir əli ilə Rahibənin boynunun arxasından yapışıb öpüşlərə qərq edir, o biri əli ilə də şalvarının düymələrini, qayışını açırdı. Rahibəni yataq otağındakı çarpayının üstünə uzadanda, qız yarısərxoş baxışlarını dolandırıb əli ilə onu bir daha özünə tərəf çəkdi. Qadirin duyğulu öpüşlərinin əvəzində, Rahibə bir sözü üç dəfə təkrarladı:

– Qurtar, qurtar, qurtar…

* * *

İncəsənət Muzeyinin hansı salonundasa orqan çalınırdı. Ağır musiqi rəsm əsərlərinin lal sükutuna kədər çiləyirdi. Bu kədər salonlarda tək-tək gəzən adamların ovqatına hopurdu.

Fənayə «Fırtınaya düşmüş gəmi»nin – nəhəng tablonun önündə nə qədər dayandığını bilmədi. Əgər

qoluna toxunan olmasaydı, Allah bilir, hələ nə qədər dayanacaqdı.

– Qızım, sol tərəfdəki salonda müasir rəssamların son dövr yaradıcılığını əks etdirən sərgi açmışıq. Bəlkə ora da baxasan?

– Hə, necə, nə dediniz? – Fənayə səksəndi.

Muzey bələdçisi yaşlı bir qadın idi. Görünür, daim içəridə olduğundan, günəş işığına az çıxdığı üçün toppuş sifəti bəmbəyaz idi. Nədənsə, Fənayəyə elə gəldi ki, bir vaxt ondan izahat alan gənc müstəntiqlə muzey bələdçisinin arasında oxşarlıq var. Muzey bələdçisinin birdən-birə onun qolundan tutub başqa salona dəvət etməsi həmin müstəntiqin, Fənayənin fikrincə, məsələyə dəxli olmayan suallar verməsini xatırladırdı. Hə, doğrudan da, o vaxt müstəntiq də məsələnin mahiyyətini bilmədən üzdən gedir, ona boş-boş suallar verirdi. Bu muzey bələdçisi də elə bilirdi ki, Fənayənin bütün salonları gəzməsi çox vacibdir. Əvvəl istədi desin ki, lazım deyil, bura təsadüfən dönüb, bu dəqiqə çıxıb gedəcək. Amma demədi. Bunun bir səbəbi də muzey bələdçisinin bayaqkı boz, solğun sifətinin birdən-birə durulması idi. Həmin duruluq Fənayə ilə onun arasında ünsiyyət körpüsü yaratdı.

– Qızım, bura darıxanlar, tənhalar, hamının yadından çıxanlar, istəklilərindən əllərini üzənlər gəlir. Bəlkə səni də bir küsdürən olub? – görünür, Fənayənin donuq sifətindən, qüssəli gözlərindən oxunan bunlar idi.

Fənayə sıxıldı. Əlini paltosunun yaxasından sinəsinə, sol döşünün üstünə apardı. Elə bil ki, köksünə iynə batırdılar. Əli ilə əzələlərini ovuşdurdu. Bu, muzey bələdçisinin gözündən yayınmadı:

– Sənə nə oldu, qızım?

Muzey bələdçisi məhrəm və doğma adam kimi Fənayənin qolundan yapışdı. Fənayə təsirləndi:

– Heç, keçib gedər, narahat olmayın. Doğrusu, baxdığım rəsm mənim xəyalımı uzağa apardı. Elə bildim dənizdə fırtınaya düşən o gəmi deyil, mənəm.

Fənayə sözlərini toxtamış adam kimi deyirdi. Özünə gəlmişdi.

Muzey bələdçisi dilləndi:

– Görünür, sənəti çox dərindən duyursunuz. Bax, dediyim bu salonda da maraqlı işlər var. Gəl, gəl, gedək, onlara da bax.

Muzey bələdçisi təkidlə qabağa düşdü.

Fənayə qadının ardınca salona keçdi. Burada müxtəlif üslublarda çəkilmiş çoxlu əl işi vardı. Salonun qurtaracağında nəzərləri iri bir tabloya sancıldı. Tanış mənzərə onu maqnit kimi özünə çəkdi. Yaxına, lap yaxına getdi. Birdən Fənayəni dəhşət bürüdü. Divardan asılmış tabloda ay işığında dənizin yelləncək kimi yellətdiyi qayığın içində sevişən iki adam təsvir olunmuşdu. Hər şey ona tanış idi. Həmin sahil, həmin qayıq, həmin qayalıq. Fənayənin qayğısız, səadət dolu günləri… Rəssam həmin mənzərəyə xırda bir əlavə etmişdi; qayıqda – balaca məhəbbət mə-

kanında sevişənlərin başı üzərində, qoşa avarların ucunda dimdik-dimdiyə verən iki qağayı dayanmışdı. Ən başlıcası, tabloda təsvir olunan qız onun özü idi. Rəssam dəqiq işləmişdi. Yaddaşına hopmuş qadın obrazını, prototipə, demək olar ki, eynilə bənzər yaratmışdı. Amma Harisin əvəzinə, başqası – onu da tanıdı – rəssam Yusifcan təsvir olunmuşdu.

Fənayənin nitqi tutuldu. Rəsm barədə onun fikrini bilmək istəyən muzey bələdçisi quruyub qaldı. Heç nə deyə bilmədi. Bu görkəmdə qəribə tamaşaçıya bəlkə də birinci dəfə idi ki, rast gəlirdi.

…Fənayədə şübhə yeri qalmadı ki, müəllif onunla Harisin dəniz sərgüzəştlərinin şahidi olub. Bu tablonu yaradan rəssamdı… Özü də Yusifcan çox ehtimal ki, həmin mənzərəni təsadüfən seyr edib. Ən maraqlısı o idi ki, bu romantik və əbədi sevginin baş qəhrəmanı yerində Yusifcan özünü görmüşdü.

Rəsmə baxarkən Fənayə onun həyatı üçün hədsiz dərəcədə önəm daşıyan daha böyük həqiqəti dərk etdi; o, tək deyilmiş! Həyatda onun kimi düşünənlər, lap elə bir nəfər də olsa, onun kimi ruhu azad olanlar varmış.

Xeyli yüngülləşdi. Tablodakı mənzərə yaralı qəlbində yaşamaq, həyatdan doyunca həzz almaq istəyi oyatdı. Bəlkə də sənətin vəzifəsi elə budur. Neçə müddətdən bəri könlünün qırıq tellərini bir kimsə uc-uca calaya bilmirdi. Anasına qoşulub ad günlərinə, toy məclislərinə gedir, yenə eyni açılmırdı.

Fənayə Yusifcanla sonuncu görüşünü xatırladı. Sanki ruhu uzun illərin yuxusundan oyandı. Bu qəribə adam niyə bu qədər əlləşir, rəsmlər çəkir? Yəqin ona görə ki, Fənayə kimi o da yaşadıqları mühitdə tənhadır və onun da qəlbində acı küləklər əsir. Fənayə onun axtardığı adam ola bilərdi, amma onları dəfələrlə qarşılaşdıran təsadüfün yaratdığı imkanlardan yan keçmişdi. Əslində o yox, Fənayə yan keçmişdi. Fənayə ara-sıra baş tutan görüşlər zamanı hiss edirdi ki, Yusifcan onu bütün varlığı ilə istəyir. Rəssam ona başqa kişilər kimi həris gözlə baxmırdı, onun baxışları başqalarınınkı kimi deyildi. O, bütün təmiz adamlar kimi saf duyğuların əsiri idi…

Fənayə axtardığı işığı Yusifcanın gözlərində tapdı və dərhal da qərara gəldi ki, nə olsun ondan yaşlıdır, əlli yox ey, lap yüz yaşı olsa da, onu axtaracaqdır.

Keçirdiyi sarsıntılardan hələ də özünə gələ bilməyən Fənayə, çıxış yolu tapdığına şükranlıq edirdi. Yaşamaq gözəldir...

Fənayə Yusifcanı tapıb-tapmayacağının fərqinə varmadan emalatxanaya yollandı. Ora getməkdə məqsədi də bu idi ki, qəlbindən keçənləri çəkinmədən bildirsin. Desin ki, razı olsan, emalatxanada yanında qalaram. Hər işinə yarayaram. Yayda tərini silərəm, qışda pencəyini çiyninə ataram, «qa» deyəndə yeməyini, «qu» deyəndə suyunu verərəm, başına dolanaram, hayanın olaram. Elə bilmə istəyirəm ki, həyatını mənə həsr edəsən, yox, əksinə, həyatımı sənin

azadlığına – heç kimin sənətinə bənzəməyən sənətinə sərf etməyə hazıram. Bəlkə də məni bu dünyada duya biləcək yeganə adam sənsən.

Fənayə yaxşı bilirdi ki, həmin anda onu Yusifcanın yanına çəkən qadınlıq duyğusu deyildi. Çünki bu duyğular bir vaxt onu Harisə bağlayan duyğulara azacıq da olsa, bənzəmirdi.

Fənayəni Harisə bağlayan odlu ehtiras – o, bunu əsl qadınlıq duyğusu adlandırırdı – büsbütün sönmüşdü. Axı, nəyə görə Harisi xatırlamalıydı? İmkanı olsaydı, öz başını kəsib qabağına qoyar, onun içindən Harislə bağlı olan hər şeyi qaşıyıb atardı. Nə edəsən ki, yaddaş adamın iradəsinə tabe olmur, xüsusilə, o hələ pozulmayıbsa…

Fənayənin yaddaşı nəinki pozulmuş, əksinə, bir az da artıq oyanmışdı. Təkcə Harisin adı yox, Fədainin, tələbə yoldaşlarının, redaktor Sahil Əkbərlinin, professor Məhərin… başqalarının adları onun yaddaşında dirçəlir və hər biri Fənayə ilə haqq-hesab çəkirdi. Məhər barmağı ilə hədə-qorxu gələrək, «bu yaşlı rəssamı məndən üstün tutdun», – deyə gülürdü. Sahil Əkbərli xəbis gözləri ilə onu süzürdü və həm də deyəsən, Fənayənin başına gələnləri ətraflı bilirdi, üstəlik, bütün bu olmuşlara görə hələ bir sevinirdi də. İşıldayan daz başı ilə nağıllardakı cini xatırladırdı – qıyılmış gözlərinin dərinliyində gizlənmiş riyakarlığı başa düşmək çətin deyildi… Belə çıxırdı ki, hamı onun məhvini – ölümünü istəyirdi. Özü də

elə-belə ölümünü yox, dilə düşəcək, bütün məmləkətdə hamıya görk olacaq ölümünü.

«Yox, Fədai belə düşünməz. Fədai buna razı olmaz». «Yaddaş pəncərəsi»ndə Fədaini gördü. Həqiqətən onun xəyalı tutqun bir kədərə bürünmüşdü. Baxışlarından acı təəssüf yağırdı. O, Fənayəni bir yerdə xoşbəxt ola biləcəklərinə inandıra bilməmişdi. Buna cəsarəti çatmamışdı. Dünyada baş tutan sevgilərdə istəklə cəsarətin payı yarıbayarıdı…

Fənayə, xatirələri nə qədər acı olsa da, yolboyu onlarla «yoldaşlıqdan» nəinki usanmadı, əksinə, səbəbi özünə aydın olmayan bir təskinlik də duydu, üstəlik, bayaqkı hirsini, qəzəbini unutdu. Xəstəxanaya düşənədək yaşadığı həyatı uzaq keçmiş kimi təsəvvür etdi. Fənayə, hətta imkanı olsaydı da, həmin keçmişə qayıtmazdı. Əməliyyat nəticəsində bətnindəki uşağı – ona və Harisə məxsus uşağını öldürmüşdülər. Fənayə indi buna Allahın ədalətli cəzası kimi baxırdı…

Ən sonuncu görüşlərində Yusifcan emalatxanasının ünvanını Fənayəyə anlatmışdı. Ona görə rəssamın düşərgəsini tapmaq ona çətin olmadı. Pəncərədən zəif işıq düşürdü. O, emalatxanada olmalı idi. «Bəlkə yatıb, ya bəlkə istirahət edir, çox güman, belə zəif işıqda rəsm çəkmək mümkün olmazdı».

Fənayə pilləkənlərlə aşağı enib, qapını döydü. İçəridən boğuq bir səs eşidildi:

– Buyurun.

Qız onun səsini tanıdı. Səs bir qədər xırıltılı və boğuq idi, amma onun səsi idi. Ürəyi tez-tez döyünməyə başladı, elə bil min ilin həsrəti bir an içində əriyib yox olacaq, vüsalına qovuşacaqdı…

Fənayə qapını ehmalca açdı və içəri boylandı. Emalatxana kifayət qədər böyük idi. Elektrik lampasının zəif işığı küncü-bucağı zorla işıqlandırırdı. Böyük bir hissə demək olar ki, qaranlıqdı. Bir qədər zəndlə baxanda, divarboyu düzülmüş portretlər görünürdü.

Tavanın ortasından sallanan elektrik lampasının altında üstü qaralan kağızlar və müxtəlif eskizlər çəkilmiş vərəqlərlə dolu yazı stolu vardı.

Yazı stolunun yanında molbert, nisbətən aşağı tərəfdə – küncdə isə divan-çarpayı qoyulmuşdu. Yusifcan divan-çarpayıda uzanıb, üstünə nazik adyal çəkmişdi. Nədənsə, yerindən tərpənmədi, görünür, qonaq gözləmirdi. Axı, bir də indiyə kimi onun emalatxanasına arvadı Zərifədən başqa heç kim gəlməmişdi.

Yusifcan üzünü qapıya tərəf döndərəndə, Fənayəni gördü. Adyalı atıb dik qalxdı, paltarlı uzanmışdı.

– Bu, sənsən?! – o saat tanıdı.

Yusifcanın təəccübdən gözləri böyüdü:

– Fənayə! – bir daha həyəcanla dilləndi.

Fənayə:

– Hə, mənəm, – deyib özünü uşaq kimi onun qucağına atdı.

Uzun illərin həsrətliləri kimi qucaqlaşdılar.

Yusifcan qəhərdən boğula-boğula dedi:

– Axı, mən illər boyu səni gözləmişəm. Bəlkə də bir əsrdən çoxdur. Sən isə gəlmək bilmirdin.

Fənayə həyəcanla dedi:

– Doğrusu bilirdim ki, kimsə məni gözləyir. Amma bilmirdim ki, bu sənsən. Mən, məni gözləyən adamı – səni axtarmışam. Səni axtara-axtara neçə-neçə sifət görmüşəm, ürəklərə girmişəm, onları ələk-vələk eləmişəm, amma səni tapmamışam. Səni axtara-axtara insanları tanımışam. Doğrudur, bütün insanları yamanlamağa, lənətləməyə haqqım yoxdur. Onların içərisində hələ ürəklərinə xal düşməyənlər də var. Belələrinin gözlərindən könül dünyalarına gedən yollar açıq olur. Ancaq onlar qar altından çıxan çiçəklər kimidilər, tez məhv olurlar. Onlar bilmirlər ki, həyat amansızdır. Ancaq əzizim, sən tamam başqasan. İllərin tənhalığı, qar–soyuğu səni qorxuda bilməyib, məhv edə bilməyib, yaşamısan. Həsrətini, ürəyinin ağrısını rənglərin dili ilə kətana köçürmüsən. Mən bunu hiss edirdim – gözlərindən, təsadüfi görüşlərimizdən, yaddaşımda həkk olub qalan baxışlarından. Sən İlahidən olan qismətimsən. Qəlbimdə isə bir qorxu var. Bilmirəm öz qismətimə çatmışam, ya yox? Bu gün muzeydə bir əsərini gördüm və hər şeyi başa düşdüm…

Fənayə həyəcanla danışırdı. Deyəsən, tələsirdi. Elə bil ki, bütün sözlərini deyib çatdıra bilməyəcəyindən qorxurdu. Yusifcan ağ saçlarını geriyə sığallayan,

alnından, boyun-boğazından hərarətlə, məhəbbətlə öpən Fənayənin bəxş etdiyi xoşbəxtlik içində üzürdü. Fənayə bütün varlığı ilə ona vurğun idi. Yusifcan bunu görürdü. Və təsadüfün gətirdiyi xoşbəxtlik, az qala, huşunu başından aldı. O, özünü itirdi. Nə danışdığını, necə danışdığını bilmirdi. Eləcə Fənayəni nəfəsi kəsilə-kəsilə, həyəcanla öpüb-oxşayırdı. Axır ki, tale üzünə güldü. Zaman-zaman ideal olaraq əsərlərində vəsf etdiyi ehtiras mələyi indi onun yarıqaranlıq xanimanında idi. Neçə illər uzunu bu xaniman inləmişdi. O, burada yayın qızmarında da üşümüşdü. Yusifcan sanki özgə bir aləmə düşdü – divarlarından qəm-kədər, ab-havasından qəriblik yağan emalatxana, birdən-birə dünyanın ən gözəl guşəsinə çevrildi. Yusifcan dərk edə bilmirdi ki, gördükləri yuxudu, yoxsa həqiqət?

Fənayənin əynində paltar yox idi. Bu yerdə sevgi ehtirasa şahidlik edirdi. Yox, bu adi ehtiras səhnəsi deyildi, iki azad düşüncənin, ülvi duyğuların birlik təntənəsi, birlik qələbəsi idi. Bu coşqudan ölmək də olardı…

Yusifcan onun bütün bədənini əllərilə yoxlayır, sanki insan və ya mələk olduğunu dəqiqləşdirmək istəyirdi. Əlini Fənayənin bədənindəki nazik qırışın üstünə çəkdi. Bu təmas Fənayənin hələ də canında yaşayan ağrıları götürdü. Əməliyyat zamanı Fənayənin bədənində kəsilmiş əzaların yeri açıq-aydın görünürdü. Günün necə keçdiyini heç biri hiss et-

mədi. Daha axşamın nə vaxt düşməsinin, səhərin nə vaxt açılmasının, bir sözlə, zamanın onlara heç bir aidiyyəti yox idi. Beləcə, qışın oğlan çağında elektrik plitələrinin qızdırdığı emalatxanada, elə bu gün ən kövrək diləklərinə qovuşan iki nəfər – Yusifcanla Fənayə bəlkə də ömürlərinin ən gözəl gününü yaşayırdı. Hər ikisi talelərinə yazılmış bəxtsizlik əzabını yaddan çıxardı…

Yusifcanın emalatxanası möcüzələr adası idi. Bu məkanda heç kim onların rahatlığını poza bilməzdi. Fənayə qəti qərara gəldi: buradan heç yerə gedən deyil. Yox, daha anası Zinayənin dəbdəbə içində olan evini, atasının saysız-hesabsız pullarını, varidatını – heç nəyi görmək istəmirdi. Təki, bu emalatxananın – möcüzələr adasının hökmdarını – Yusifcanı onun əlindən almasınlar. O, burada qalıb, Yusifcana xidmət etməyə, onun köməkçisi olmağa razı idi. Ona hər şey vəd edən cəmiyyət, nəhəng şəhərin dəbdəbəli restoranları, xarici səfərlər, maşın, pul, bir sözlə, bu gün insanların gözündə qiymətli olan nə varsa, onların Fənayə üçün cəminin bir tük qədər qiyməti yoxdu.

Ömründə ilk dəfə olaraq, həmişə arzuladığı «gözdən-könüldən iraq bir ada»ya gəlib çıxmışdı. Həmin ada elə Yusifcanın bu yarıqaranlıq emalatxanası imiş. Özündən yaşca iki dəfə böyük olan rəssamın ona bəxş etdiyi bu xoşbəxtliyi itirmək, qıza görə, elə həyatın məntiqinə görə də yalnız ölüm, sonluq ola bilərdi.

Bu fikir onu qorxutdu. Fənayə ömrü boyu qorxu hissi keçirməmişdi. Bəlkə də ilk dəfə qorxunun nə olduğunu indi anladı. Büzüşüb Yusifcanın qucağına qısıldı. Yusifcan onun büzüşməyindən, ona qısılmağından narahat olaraq:

– Sənə nə olub, əzizim, üşüyürsən? – deyə soruşdu.

– Yox, üşümürəm, qorxuram.

– Nədən? Axı, emalatxanada ikimizdən savayı kimsə yoxdur. Həm də qış vaxtı bura heç kim gəlmir.

Fənayə hiss etdi ki, Yusifcan onu başa düşməyib.

– Yox, Yusifcan, kiminsə gəlməyindən qorxmuram. Qorxuram ki, xoşbəxtliyimizin ömrü az olar… Axı, Allah bəndələrinə xoşbəxtliyi bu cür asanlıqla bəxş eləmir.

Yusifcan Fənayənin narahatlığına son qoymaq üçün ona elə sözlər demək istədi ki, həyəcanı ötsün, qəlbini bürümüş qorxudan xilas olsun.

– Yox, sən səhv edirsən, Fənayə, biz dözülməz əzablar çəkmişik. Mən evlənmişəm, iki qızım olub. İndi onlar böyükdürlər. Bu illər ərzində qəlbimdə ağır yük daşıdığımı bilirdim. Hər gün, hər saat köksümdəki bu daşla birgə sənə doğru addımlamışam. Hərdən özümü aldadaraq, belə qənaətə gəlirdim ki, Zərifə ilə burada keçirdiyim günlərdə xoşbəxt olmuşam. Amma yox, bu özünü aldatmaqdı. Yəqin elə sən də özünü heç vaxt rahat hiss etməmisən? Həmişə nəyinsə intizarında olmusan?

– Düzdür, əzizim. Məni naz-nemət içərisində böyüdüblər. Qarşılaşdığım adamlar hər cür nəvaziş vəd etsələr də…

Fənayə susdu. Gözü yol çəkirmiş kimi bir xeyli sakit-sakit baxdı. Və asta-asta öz həyatını danışmağa başladı.

…Fənayə söhbətini qurtarıb yenidən sükuta daldı. Yusifcan ona toxunmaq istəmirdi. Qoy necə dayanıbsa, eləcə də qalsın. Fikrini dağıtmamaq üçün əlini ehtiyatla, yavaş-yavaş Fənayənin çiyinlərinə tökülən saçlarında gəzdirdi.

Fənayə ağır, üzüntülü əhvalatların gərək bildiyi məqamlarını danışıb bitirdi. Yumşaq, yaraşıqlı əli ilə bədənindəki tikiş yerlərinə məlhəm qoyurmuş kimi sığal çəkib dedi:

– Onun ölümünü istəmirdim. Amma deyirdim, nə cəza çəkəcəksə, gözləri baxa-baxa çəksin. Bir kimsə ürəyimin başına batan tikanı çəkib çıxara bilməyib. Hər kəs başqasının dərdinə, ağrısına yaddı, biganədi. Sən də olduğu kimi başa düşülməmisən. Özümü sənlə həmyaş hesab edəcəyəm, ruhun təzələnəcək, ömrünün ən gözəl çağlarını yaşayacaqsan. Bir daha deyirəm: özümü bu kimsəsiz, səndən və məndən başqa bir ins-cinsin olmadığı yarıqaranlıq zirzəmidə dünyanın ən xoşbəxti sanacağam. Bura emalatxana deyil, bura zirzəmi deyil, bura bizim guşənişinimizdir. Əgər bu dünyanın insanlarında zərrəcə insaf, rəhm varsa, gərək bizə toxunmasınlar.

Qoy göydələnlər, çilçıraqlı nəhəng şadlıq sarayları onların olsun, amma gözdən, könüldən iraq bu kaşanəni bizim əlimizdən almasınlar. Yarıac, yarıtox yaşayarıq, bizə heç nə lazım deyil. Bir udum hava da bəs edər. Heç kim qapımızı açmasın.

Yusifcan yataqdan qalxıb kənarda, yazı stolunun üstündə qoyulmuş gecə lampasını yaxına çəkdi.

Fənayə zəif, sarımtıl işıqda ilahəyə oxşayırdı. Bu ilahəni bir an da olsa, özündən aralı buraxa bilməzdi. Yoxsa, elə indicə bu ilahə gözlənilmədən gəldiyi kimi, gözlənilmədən də qanadlanıb uça bilərdi.

Yusifcan mələklər mələyinə heyran-heyran baxmaqdan doymurdu. Bu dünyada ona heç nə gərək deyildi. Qoy kim nə istəyir istəsin, təki özünü yanında asudə, rahat hiss etdiyi Fənayəyə, – illər boyu köksündə daşıdığı ağır daşı qoparıb bir kənara atmış Fənayəyə dəyməsinlər.

Yusifcan yenidən Fənayəni qucaqladı. Yox, daha qəlbindən küləklər əsmirdi, köksündən daş asılmamışdı. Onu həyata, yaşamağa-yaratmağa səsləyən ilham pərisi öz ayağı ilə pişvazına gəlmişdi.

…İnsanın ən əsas istəyi nədir? Bunu heç kim dəqiq deyə bilməz. Çünki bu ziddiyyətli məxluq bu gün istədiyinə nail olanda, sabah başqa bir istəyin eşqinə düşür. Yaxud biri var-dövlət hərisidirsə, digər birisi şöhrət, lap başqa birisi hakimlik iddiasında olur. Həm də heç kim nail olduğu mərtəbəylə, çatdığı qismətlə kifayətlənmir. Cahangirlər, dünya-

nı tapdaq altında qoyan fatehlər elə ona görə də doymayan gözləri ilə yeni-yeni yollar arayıblar. Fərqi yoxdur, döyüş meydanında ölsünlər, yaxud öz taxt-taclarında.

…Fənayə başını onun köksünə qoyub yatmış Yusifcana baxa-baxa düşünürdü. Görəsən, o, daha nə istəyir? Bundan sonra xəyalları onu yenidən fırtınalara salmayacaq ki? Onu əhatə edən mühit qəlbini sıxmayacaq ki? O isə indi, bu dəqiqələrdə öz mühitindən, onu bədbəxt edib faciələrə düçar edən aləmdən zərrə-zərrə qopmaqda idi. O mühitdən ki, orada Rahibə şirin xəyallar qanadında uça-uça xaricə getməyə hazırlaşırdı. Bəlkə heç xaricə getməyəcək, elə Qadirin, Fənayənin atasının yanında, «Satir»də qalacaq? Zahir nişanlanmaq üçün kəndə getməliydi. Zaurla Faiq də, Allah bilir, yəqin ki, yenə də öz aralarında Fənayə və Haris mövzusunu eşələyir, köhnə palan içi tökürlər. Bəlkə də təzə mövzunun, Rahibə mövzusunun müzakirələrinə başlayıblar. O mühitdə Sərrafla Sadiqə, yəqin ki, həmişəki kimi yenə unudulmaz toylarından, ailə-məişət məsələlərindən danışırlar. Bəs, anası Zinayə nə düşünür? Heç vaxt xoşbəxt olmadığından, onu bədbəxt edən taleyindən. Zinətlərinə, qızıllarına baxa-baxa olsun ki, yaşadığı həyata nifrinlər yağdırır. Sahil Əkbərlinin daz başı yenə də öz kabinetində, yanan lampanın altında par-par parıldayır. O, şorgöz baxışlarını qapıya dikib təzə gələn «ovu» gözləyir.

Bəs, Fədai neyləyir? Yəqin ki, nakam sevgisi ilə barışıb. Bəlkə onun da nişanı olub? Hər halda, Fədainin köksündə sevən ürək var. O, bu sevginin ağrısını ömrü boyu daşıyacaq. Demək, dolayısı ilə heç zaman xoşbəxt olmayacaq. Bəs, adı mühit kitabının son səhifələrinə yazılan Yusifcanın arvadı? Yəqin ki, ərə gəldiyi gündən özünü bədbəxt hesab edir. Çox güman, Yusifcanı günahkar bilir. Halbuki, günah özündədir. Yusifcanın onu sevmədiyini ilk gündən, tanış olduqları andan bilməli idi. Bəlkə də bilirdi, amma saxtakarcasına əlinə keçən şansı buraxmaq istəmirdi. Rahibə hələ hara, nə üçün getdiyini bilmir. Ölüm zərbəsini məqamında alacaq. Fənayə xəyalən yaxın simsarlarını təkrar-təkrar saf-çürük edir, kiminsə bəxtəvər həyatı ilə öz taleyinin müqayisəsini aparırdı.

Gözünün önündən daha bir kölgə keçdi. Harisin kölgəsi idi. Haris gözlərini ac canavar kimi ona zilləmişdi. Dünya malından doymayan, həyatda niyyətləri ilə uğurları heç vaxt uyuşmayan Haris, təbii görkəmində idi. Onun cəmiyyəti didib-parçalamağa hazır olan caynaqları, gərilmiş, qanlı dişləri bir-birinə dəyib şaqqıldayırdı. Parçalamağa, dağıtmağa, sökməyə təzə «ov» axtarırdı… Yox, daha gecdir, çünki o, yoxdur. Pis niyyətlərin qurbanı oldu. Həyatda izi qalmadı, çünki yeganə qızı onun ata adını dilinə gətirməyəcək. O ad qiyamətəcən nifrətlə yad olunacaq.

Harisin xəyalı qışqırmaq istəyir, Fənayəni öz hökmü ilə susdurmağa, yenidən ona nəsə deməyə,

bəlkə də onu nəyəsə inandırmağa can atırdı. Fənayə isə onu görmək, eşitmək istəmirdi. Haris inadından dönmürdü:

– Mən sənin üzüyünün qaşını…

Fənayə bağırmaq istədi. Yox, bacarmayacaq, çünki Yusifcan başını onun köksünə qoyub yatıb. O, yuxudan oyana bilərdi. Yusifcanın xətrinə hər cür əzaba dözməyə hazır idi. Dözəcəkdi.

«– Üzüyümün qaşını tapmısan?»

«– Yox, tapmaq niyə, onu elə mən götürmüşdüm. Sən həmin gecə mənim evimdə özündən gedib məst olanda…»

«– Lənətə gələsən. Hər iki dünyada lənətliksən. Sən həm bu dünyada, həm də o dünyada üzüqarasan».

«– Üzüqara sənin kimilərinə – kişilərin qucağını tez-tez dəyişənlərə deyirlər».

«– Yox, sənin kimi hər iki dünyada lənətlənmək, öz övladının qatili olmaq üzüqaralıqdan da betərdir. İndisə, gözlərimin qabağından rədd ol!»

Fənayə sanki səmada qanad çalırdı. Adamlardan, binalardan, hətta buludlardan da yüksəkdə idi. Adamlar aşağıda qarışqa kimi qaynaşırdı. Hərə bir tərəfə tələsirdi: kimisi işə, kimisi mağazaya… Birbirini aldadan, bir-birinin qanını soran, hər dürlü qənimət naminə tamah ucbatından bir-birinə tələlər quran bu adamcığazlar, görəsən, nə üçün yaşadıqlarını bilirlərmi?

Budur, Yusifcan da səmada Fənayənin yanındadır. Bu fərqli varlıqları yerdəkilərdən ayıran qanadlarıdır…

Yusifcanın başı onun sinəsi üstündə idi. Günlərlə oyanmasaydı, Fənayə tərpənməyəcəkdi.

Xəyalları qarışıq olsa da, Fənayə neçə aydan bəri ilk dəfə dərin yuxuya getdi…

* * *

Qışın nəfəsi hər yerə dəymişdi. Ağacların, güllərin əvvəlki təravəti solub, rayihəsi itmişdi. Sən demə, ağacların gözəlliyi elə yarpaqlarında imiş. Çılpaq qalmış qovaq ağacları indi skeletə bənzəyirdi.

Rahibə paltosunun yaxasını qaldırdı. Soyuq şimal küləyi daşı-divarı isladan narın qar dənəciklərini üzünə çırpırdı. Qadirlə gündüzdən zəngləşərək, axşam «Satir»də görüşməyi qərara almışdılar.

Rahibə «Satir»dən bir qədər aralıda taksidən düşdü. Hələ vaxta vardı. Dəniz sahilinə – qayalıqlara sarı üz tutdu.

Adətən tez gələndə, «Satir»ə gedər, tanış otaqda soyunub dincələr, istirahətini fövtə verməzdi. Bu dəfə adətinə xilaf çıxdı. Üşüsə də, küləklər onu döyəcləsə də, «Satir»ə vaxtından əvvəl getmək istəmədi. Daha doğrusu, heç vaxt qışda görmədiyi dənizə qarşı qəlbində birdən-birə qəribə bir maraq oyandı. Yayda əzəmətli görünən qayalar indi bikef görünürdülər. Rahibə ən hündür qayaya söykənib dənizə baxma-

ğa başladı. Dənizin üzü qonaq istəməyən adamlar kimi soyuq idi. Neçə ay bundan əvvəl burada iynə atsaydın, adam əlindən yerə düşməzdi. İndi sakit, dalğın, kimsəsizdi dəniz.

Birdən Rahibə səs eşitdi. Ətrafa göz gəzdirdi. Ondan başqa bir kəsin olmadığı yerdə bu nə səs idi?

Dənizin qırağında balaca bir gölməçə vardı. Neft buruqlarından süzülən mazutlu su gölməçəyə axırdı. Gölməçədə nə isə tərpənirdi. Rahibə yaxına getdi. Uzun boynu, nazik boğazı, caydaq ayaqları olan bir quş ora düşmüşdü. Durna idi, qatarını itirmiş durna.

Rahibə təəccübləndi. Axı, durnalar çoxdan köç ediblər. Necə olub bu qatarından ayrı düşüb? Bəlkə yemə aldanıb? Dəniz qırağında istirahət edən adamların süfrələrindən qalan qırıq-quruqlar quşların, heyvanların yemi olurdu. Bəlkə nə vaxtsa bir durna köçü elə bura düşübmüş? Sonra dəstə qalxıb gedəndə, bu durna ilişib qalıb. Ya bəlkə mazutlu çirkab gölünə düşdüyünə görə qanadları ağırlaşıb, uça bilməyib.

Durnanın gözlərindən peşmançılıq, yazıqlıq yağırdı. O, Rahibədən imdad diləyirdi. Rahibə əlini uzadıb qamışların arasına pərçim olmuş durnanın qanadlarından yapışdı. Durna heç çırpınmadı da, qımıldanmadı da. Əslində çırpına bilmədi, çünki qanadlarından mazut çirkabı süzülürdü.

Rahibə quşlar haqqında həvəslə baxdığı filmlərdə durnaları hər zaman uçanda görmüşdü. Onlar səmada çox gözəl görünürlər. Sən demə, durnaların gözəlliyi,

gücü elə qatarlanıb uçmağında, göy üzündə qanad çalan durna qatarının varlığındadı. Dəstədən ayrılmış durnalar çox vaxt mənzil başına yetişə bilmir.

Qayalıqlarda məskən salmış caynaqlı quşlar da yəqin ki, tənha durnanın havaya qalxmasına macal verməzdilər. Onu görən kimi şığıyıb ovlayar, sonra sakit, əldən-ayaqdan uzaq yuvalarına çəkilər, xəncər kimi iti dimdikləri ilə parçalayardılar.

Zəiflərin güclülərə yem olmağı əzəli qaydadı.

Rahibə durnanı dənizin qırağına gətirdi, suya saldı, mazutunu yumaq istədi. Durnaya bir az da yazığı gəldi – düşündü ki, dənizin şor suyu yarasını göynədər. Bununla belə, quşun mazutunu yumaq, çirkabını təmizləmək, qanadlarını açmaq istəyindən də vaz keçmədi.

– Səni kim bu hala saldı? – sualı ilə durnanın qırpılmayan gözlərinə baxdı. Ona elə gəldi ki, durna danışır:

«– Kimsəni günahlandıra bilmərəm».

«– Hə, demək, təqsir özündədir».

«– Belə çıxır...»

«– Dərd yolunu özün seçmisən».

Rahibə elə bildi ki, durna ağlayır. Amma deyəsən, ağlayan durna deyil, özü idi. Ürəyi sıxıldı. Caydaq ayaqları üstə güclə dayanan durnanın tir-tir əsməyi bütün varlığına sirayət etdi. Elə özü də ayaq üstə güclə dururdu, üşüyürdü.

«– Gərək dəstəndən ayrılmayaydın».

«– Biz hamımız gölə düşmüşdük. Başımız yemə qarışmışdı. Birdən güclü külək əsdi. Heç bilmədim ki, mazuta nə vaxt batdım. Çapaladım, çıxa bilmədim…»

«– Sənin xoşbəxtliyin qanadlarındadır. Gərək qanadlarını qoruyaydın. Sən səmada uçanda, pərvaz edəndə gözəl olursan… Hələ tellərin…»

Rahibə durnanın islanıb mazuta bulaşmış tellərini sığalladı, dəniz suyundan ovuc-ovuc götürüb yudu. Ancaq nədənsə mazutla birgə zavallı quşcuğazın tükü, telləri də qopub tökülürdü.

«– Səni isti yerlərə apararam. Qızınarsan, tükün quruyar, düşən lələklərin təzədən bitər».

«– Düz deyirsən, amma bil ki, dəstəsindən cida düşən durna yenidən qatarına dönə bilməz. Qırıq qanadım, yoluq lələyim, başımın tacı durna telim əzəlki görkəmini nə sayaq ala bilər?»

Bir zaman Rahibənin də xoşbəxt qatarı vardı. Tələbələrin durna qatarı. Onlar deyə-gülə universitetin foyesində, auditoriyalarda bir-biri ilə söz güləşdirər, yetənə yetər, yetməyənə bir daş atar, dərsdən çıxıb dəstə-dəstə metroya üz tutanda şən, qayğısız durna qatarına bənzəyərdilər. Bənzəmək nədi, lap elə Allahın bəxtəvər durna qatarıydı onlar…

İndi saysız-hesabsız günahları udub sonra içinin ağrısından zillət çəkən bu mazutlu, çirkli dənizin qırağında nə üçün tək-tənha dayanıb-durub? O ki, qərib durna deyil, şüurlu insandı...

Saata baxdı. Vaxt idi. Yəqin Qadir gözləyirdi. Durnanı qayanın dibinə – külək tutmayan dalda yerə qoydu. Taleyin qarğıdığı canlıya axırıncı kərə baxdı. Dönüb getmək istədi, amma Rahibəyə elə gəldi ki, durna ona yalvarır.

Qayıdıb durnanı yerdən götürdü, özü ilə «Satir»ə aparmaq istədi.

«– Gedək mənimlə. Ora istidi. Qızınarsan, tüklərin quruyar, yenə də həmişəki kimi qəşəng olarsan».

«Satir»də durnaya yem, ola bilsin, hər şey versinlər. Di gəl ki, kimsə onun nə qırılmış qanadlarını bitişdirmək, nə də həsrətində olduğu göy üzünə qaytarmaq gücündə deyildi…

* * *

Yusifcan gözlərini açdı. Görəsən, saat neçə olar? Nə qədər yatıb? Fənayə adlı nəhəng xoşbəxtliyin həqiqət, yoxsa xəyal olduğunu ayırd etmək istədi. Həqiqət daha necə olur? Bu elə-belə həqiqət deyil, başqa birisinin canında gələn, tamamilə başqa birisinin həyatını dəyişən bir həqiqətdir. Artıq o ruhdan düşən, həyatdan ümidi üzülən Yusifcan deyildi. Dünənə qədər fani dünyanın amansız boşluğu ilə çarpışan, tənhalıqdan bağrı çatlayan rəssam, ən azı özünü lap gəncliyindəki kimi qıvraq, gümrah hiss edirdi.

Əlini Fənayənin saçlarına çəkdi. Fənayə tərpənməsə də, saçları dəniz kimi dalğalandı. Üzünə xəfif

təbəssüm qondu. O, hələ də yuxuda idi. Dünyadan, həyatdan, insanlardan, ən əsası isə öz taleyindən əmin-arxayın yatırdı.

İllərdən bəri Yusifcanın damarlarında yığılıb qalmış ətalət əriyib getmiş, qol-qıçı açılmışdı. Canına güclü enerji, işləmək, yaratmaq həvəsi dolmuşdu. Yatmış gözəl – röyalı işıq, onun qaranlıq dünyasını nura bələmişdi. Gözü divarboyu – biri yuxarıdan, digəri ondan bir az aşağıdan asılmış portretlərə sataşdı. Bunların bir çoxuna görə beynəlxalq müsabiqələrin qalibi olmuş, mükafatlara layiq görülmüşdü. Birdən-birə bu günə qədər yaratdıqları onun gözündən düşdü. Dodaqaltı gülümsündü, həqiqətən bunlar onun yaradıcılıq imkanlarından çox aşağı idi. O, dünyanı heyrətə gətirən əsərlərini bundan sonra yaratmalı idi, artıq illər boyu gözlədiyi arzusuna yetmişdi. Budur, arzusunun mütləq hakimi onun yatağında uzanıb, yuxudadır…

Yusifcan yataqdan qalxdı. İmkan daxilində ehtiyatla tərpəndi. Elə bil qəflətən nəyisə salıb sındıracağından, taqqıltı salacağından və nəhayətdə Fənayəni yuxudan durğuzacağından qorxdu. Emalatxananın yuxarı başına – su kranının önünə getdi, suyu azacıq açıb əl-üzünü yudu, kranın üst tərəfindən asılmış dəsmalı götürüb boyun-boğazını, əlini quruladı. Molbertin yanındakı stulda oturmaq istədi. Ancaq nədənsə, fikrini dəyişdi və stulu götürüb

Fənayə yatan divanın yanına qoydu. Əyləşdi. Gözlərini yatmış ilahəyə zillədi.

Emalatxana isti idi. Ortalığa elektrik qızdırıcıları qoyulduğundan Fənayə hətta nazik adyalı da üstünə çəkməmişdi. Yusifcan ovsunlanmışdı. Bu an dünya onun üçün yox idi, yalnız… Ona elə gəldi ki, emalatxananın hər tərəfi bir anın içində tamam zülmətə qərq oldu. Ancaq bir parça yer nura, işığa büründü. İndi gur işıq altında yalnız o görünürdü – Fənayə. Sanki vadidəki gölün aynasında bədirlənmiş ay əks olunurdu. Ayın haləsi o qədər parlaq idi ki, Yusifcan emalatxananı da, özünü də unudub, ilahi varlıq önündə donub qalmışdı. Bəs, niyə quruyub qalıb, nəyi gözləyir? Bu ilahi mənzərə bir də təkrarlanacaqmı? İndi, elə indicə bu mənzərəni yaratmalıdır… Ətraf zülmətə bürünüb… Yalnız ayın şəfəqləri ilə işıqlanan möcüzəli nur gölü görünür.

Yusifcan molbertin yanına tələsdi. Projektoru yandırdı. Lövhənin yönünü özünə tərəf sahmanlayıb kompozisiyanı qurdu. Hərdən Fənayəyə tərəf baxır, onun hər bir xırda cizgisini belə əks etdirməyə çalışırdı.

Sürətlə işləməyə başladı. Köksü atlanıb-qalxır, həyəcanla nəfəs alırdı, sanki harasa tələsirdi. Əgər soruşan olsaydı, tələsməyinin səbəbini bəlkə də izah edə bilməzdi. Anlaşılmaz duyğular həm onu idarə edir, həm də fırçasını əsir götürdülər…

Yox, bu mənzərəni – zülmət içərisindəki nuru kətana köçürməyi Allah ona həvalə etdi. Həmin işı-

ğı həyatın mənbəyi, həyatın başlanğıcı kimi mənalandırmalı idi. Rəssam sanki dünyanın ən nadir musiqisini dinləyirdi. Həqiqətən, qulaqlarında ondan başqa özgənin eşitmədiyi musiqi səslənirdi. Həyata, yaşayıb-yaratmağa çağıran bu nəğməni o, bəlkə də qulaqları ilə dinləmirdi, gözləri ilə görürdü. Gözləri ilə gördüyü, özü də işıq fonunda gördüyü musiqini rənglərə çevirirdi. Həmin musiqi onun içindən səslənirdi, həmin musiqi onun özü idi. Yusifcan səsin içindən işığı, işığın içindən səsi ayırırdı. Bu dünyanın gəlib-gedən bir qonağının vücudundakı əbədiyyəti qoparıb kətanın üstünə yığırdı.

İşə başlamağından çoxmu, azmı keçmişdi, bilmirdi, ancaq kətanın üstündə diri bir möcüzə baş qaldırmaqda idi. Mərkəzdə parlaq işıq gölü, bu işıq gölünün üstündə uzanmış məleykə… O, nəyi və yaxud kimi gözləyirdi? Bu ilahi töhfə kimin idi? – Yusifcanın hər hansı bir suala cavab verməyə gücü yox idi. Bildiyi o idi ki, yaratdığı məleykə heç də fantastik, xəyali obraz deyil. Heç onun qanadları da yoxdu. Daha çox real, həyati varlıq olan bu obraz ətrafa özündən işıq saçırdı. İşıq tədricən uzaqları – yer səthini, sonra da bütün kainatı nura qərq edirdi. Sanki donmuş təbiət hərəkətə gəlmək üçün elə bu işığı gözləyirdi.

Yusifcan azcana uzaqlaşıb gözünü qıyaraq tabloya baxdı. Gölün suyu şəffaf və dumduru idi. İşıqlı su, nur gölü daha nə cür ola bilərdi ki?..

…Birdən köksündə güclü yanğı duydu. Əlini sol döşünün üstünə qoydu. Yanğı artırdı. Əli ilə əzələlərini ovuşdurmağa başladı. Yanğı səngimək bilmirdi, əksinə, daha da artırdı. Gözünü təsvir etdiyi göldən – dumduru sudan ayıra bilməsə də, sinəsindən püskürən yanğının göynərtisi üz-gözünü kölgələyirdi. Kaş, o gölün dumduru suyundan bir ovuc içəydi, üz-gözünə çırpaydı. Bəlkə onda ürəyinin yanğısı bir balaca səngiyərdi.

…Hələ də ağrının əzabları altında gözünü suya zilləyib baxırdı. Deyəsən, özünü bu cür ovundurmaq, bir təhər başını qatıb, ürəyinin ağrısını azdırmaq istəyirdi. Ancaq ağrı keçib getmirdi. Elə bil içində əlibıçaqlı vardı, sinəsi doğranırdı. Fırçanı rəng qutusunun üstünə atdı. Duydu ki, hərəkətlərini yönləndirmək iqtidarında deyil, müvazinətini itirir, səndələyirdi.

Bu cür ağrılar onda əvvəllər də olmuşdu. Hər dəfə elə bilirdi ki, bu, tənhalığı ilə bağlı keçirdiyi iztirabların, sıxıntıların nəticəsidir. Ağrının şiddətindən inildəyir, gözlərindən yaş gəlirdi. Ancaq gərginlik ötən kimi yüngülləşir, həkim yanına getməyi unudurdu. Budəfəki yanğı daha şiddətli idi, heç beləsi olmamışdı. Ağrı dözülməz idi. «Deyəsən, axırımdır», – düşündü. İşıq gölünə, çarpayıda yatan Fənayə tərəfə yenidən baxdı. Onun bu emalatxanada tapdığı xoşbəxtliyin ömrü nə yaman qısa oldu? Hər halda, sinəsindəki daşdan, çiynindəki yükdən onu Fənayə xilas elədi. İndi

neyləsin, son nəfəsdə onu oyadıb bu fədakarlığına görə təşəkkürmü etsin?

Yusifcanın şüuru dumanlanır, nə fikirləşdiyini bilmirdi. Yox, o, bir fikrə gəlməli, nəsə eləməlidi. Fikrini toplamağa gücü çatar, dumanı başından qova bilərdi. Bu an sanki onun beyninin dərinliyində xoş bir yel əsməyə başladı. Yel küləyə döndü, o külək düyülmüş dumanı qovub dağıtdı.

Şəhərin yuxarı Dağlıq məhəlləsindəki ata-baba mülkləri, həyət qapısını açıb küçəyə çıxanda, qonşu qızla göz-gözə gəlməsi, həmin qızla evlənməsi, sonrakı həyatı, o küləyin uzaq illərin o tayından qovub gətirdiyi şəkillər kimi gözünün önündə sıralandı. Şəkillərdə pis, utanc gətirən heç nə yox idi. Bəs, elə isə, həmin ömrü yaşayan Yusifcan, niyə bir dəfə də olsun, özünü bəxtəvər sanmadı? Allahım, necə dəyərli günlər yaşayıb! Doğrudanmı, gülüşləri ilə divarları güldürən, səsləri ilə evi sevincə qərq edən qızlarıyla xudahafizləşə bilməyəcək? Yox, yox, kaş ömrü bircə günlüyə – Zərifəni görənəcən uzanaydı. Onun əlindən tutub, bağışlanmağını rica edəydi. Zərifə həmişə barışıb, güzəştə gedib. Çox təəssüf ki, Yusifcan onu o sevdiyi qədər sevə bilməyib. O, bunu bilib, amma yenə də əri ilə fəxr edib. Bəlkə Zərifəyə zəng vursun? Səsini eşidən kimi, bilər ki, kişinin başında nəsə var. Görəsən, indi gecədir, yoxsa gündüz? Görəsən, axşam düşür, yoxsa səhər açılır? Zərifə üçün fərq eləməz. Necə olsa, özünü yetirər. Bəs, onda Fənayəni burada

görsə, nə düşünər, nə deyər? Yox, Zərifə ömrü boyu güzəştə gedib, yenə başa düşər. Yox, bacarmır, bu ona qarşı son bağışlanmaz bir pislik, riyakarlıq, zülm olar. Axı, bir az əvvəl bundan sonra qalan ömrünü Fənayə ilə birlikdə bu emalatxanada yaşamaq istəyirdi. Yalnız bu günü – Fənayə ilə keçirdiyi günü əsl ömür hesab edirdi…

Başı yenə dumanlanırdı. Onun bütün ömrü deyəsən, elə bircə bu gündən ibarət olmuşdu.

…Sağ əli köksündə Fənayəyə sarı bir-iki addım atdı. Daha bir addım da atsaydı, onun yanına çatardı. Bu an Fənayəni yuxudan oyadacağı fikri onu narahat etdi. Qızı yuxudan yarımçıq oyatmaq istəmədi. Əmin idi ki, Fənayə özünü dərk edəndən, dünyanın getgəlindən baş çıxarandan bəri birinci dəfə belə rahat və dərin yuxuya gedib. Ona görə də, qızı oyatmağa qıymadı. Geriyə – molbertin yanına qayıtmaq istədi. Birdən-birə ağrısı daha da şiddətləndi. Müvazinətini itirib, Fənayənin yanında yerə yıxıldı.

Fənayə yuxudan hövlnak sıçrayıb qalxdı. Yusifcanın açıq qalmış gözləri donuq və hərəkətsiz idi. Sanki sol döşünün üstünə düşən əliylə ürəyini tutub saxlamasaydı, ürəyi quş kimi pırıltı ilə uçub gedəcəkdi. Bu görkəmi ilə o, haradansa sinəsinə qəfil sancılmış oxu çıxarmaq istəyən döyüşçüyə bənzəyirdi…

Yusifcanı bu görkəmdə görən Fənayənin gözləri dəhşətdən böyüyüb hədəqəsindən çıxdı. Özünü hədsiz tənha, köməksiz hiss edən Fənayə, haray salmaq,

qışqırmaq, insanları köməyə çağırmaq istədi. Baş vermiş hadisənin mahiyyəti ona aydın deyildi. Axı, o, insanlara neyləmişdi ki, heç kim onun harayına gəlmək istəmirdi? Kimsə düz onun gözlərinin qabağında – Yusifcandan bir qədər aralıda dayanmışdı. Əlində musiqi aləti vardı. Deyəsən, skripka idi. O, skripkada həzin, kədərli, ayrılıq ifadə edən musiqi çalırdı. Fənayə onu çağırmaq, yardımçı olmasını xahiş etmək istədi. Həmin gənc heç nəyə baxmır, sakit-sakit öz kədərli musiqisini ifa edirdi. Fənayə yenə çığırmaq, haray salmaq istəyirdi ki, skripka daha da dəhşətli sızıltı ilə səsləndi. Bütün ətraf – aləm cana gəlib bağırsaydı da, bu səsi yarıb keçə bilməzdi. Skripkanın səsi qalın sipərə dönərək, Fənayə ilə Yusifcanı dünyadan təcrid etdi. Bu kim idi, niyə bu qədər soyuq və biganə görünürdü? Yox, o, biganə və soyuq olsaydı, belə yanıqlı çala bilməzdi. Deyəsən, onun skripkada ifa etdikləri Fənayənin fəryadları idi. Axı, o, kim idi? Fənayə əlini irəli uzadıb ondan yapışmaq, silkələmək, kimliyini öyrənmək istədi. Həmin adam çiyninin üstündən ona baxdı. İlahi, bu ki Fədai idi! Özü də ağlayırdı. Onu ağladan nəydi? İfa etdiyi musiqinin kədəri, yoxsa, Fənayənin acı taleyi?..

Fənayə əlini başına atdı. Beynində qopan uğultudan az qala huşunu itirəcəkdi. Bu vaxt eybəcər bir məxluq caynaqları ilə emalatxananın divarlarından yapışa-yapışa, Fənayənin gözləri önündə rəqs etməyə başladı. Fənayə əlini uzadıb onu Fə-

daiyə göstərmək istədi. Fədai tərpənmirdi. Deyəsən, skripkanın səsi də zəifləmişdi. Həmin eybəcər məxluq qəhqəhə ilə gülür və qızın ətrafında dolanırdı. Fənayə onu da tanıdı. Bu, Haris idi. Haris barmağını Fənayənin üstünə tuşlayıb iblis kimi qəhqəhə çəkirdi. Onun eybəcər gülüşü divarlarda əks-səda verə-verə skripkanın zəif, acı sızıltısını büsbütün batırırdı.

Fənayə əlləri ilə saçlarını tutub yanlara dartdı. Bir az huşu özünə qayıtdı. Yanında yıxılıb qalmış Yusifcana baxdı, onun heysiz başını özünə sarı döndərib köksünə sıxdı. Fənayənin çılpaq sinəsi istiləndi. Yusifcanın ağzından sızan qan qızın köksündə qırmızı iz saldı…

* * *

Dənizin üfüqlə birləşən yerində qızartı vardı. Qaranlıq gecənin bağrı sökülməkdə idi. Bir azdan dünyanın bu məkanında yeni bir gündüz doğulacaqdı. Övladın dünyaya gəlişi həmişə sevinclə qarşılanır. Canlılar doğduqları balalarını yalayır, analıq təması ilə rövnəqləndirir, nəfəsi ilə övladına güc verir, onu ayağa qaldırır, sonra da döşlərinə yığılmış südlə əmizdirirlər. Milyon ilin instinkti ilə yenicə doğulmuş körpə dirçəlib ayağa qalxan kimi, anasının döşlərini axtarır. Bəlkə də həyatın açılmamış sirlərinin kökünü elə burada axtarmaq lazımdır. Necə olur ki, şüuru olmayan, yenicə doğulmuş bala anasının döşlərini

axtarır? İnsan da belədir. Amma yenicə doğulan insan başqa canlılarla müqayisədə aciz olur. Onu həyatın bütün zərbələrindən – istisindən, soyuğundan anası qorumalıdır. Onun bütün əzablarını, hətta yuxusuz gecələri hesabına da olsa, çəkməlidir. Körpə gələcək həyatını necə qurmağın, ömrünü necə yaşamağın düsturunu anasından alır. Övladın gələcək taleyi uğrunda bütün mübarizələrə ata da şərik olur. Övlad – cinslərin bir-birinə olan intim və təbii hislərinin, həm də qeyri-iradi hislərinin bəhrəsidir. Bu toxumu kişi ilə qadın birlikdə əkir. Demək, övladın taleyinə də hər ikisi cavabdeh olur.

…Fənayə İçərişəhərin hündür bir yerində dayandı. Dənizin qara dərinliklərini və bununla belə, gecənin bağrına düşmüş közərtini seyr etdi. Demək, gecə öz övladını – günəşi doğurdu. İndi o öz övladını dünyaya gətirəndə, ömrünün qurtardığını, harasa köçüb getməli olduğunu bilirmiş kimi, qara çuxasını yığışdırmaqda idi. Hələ günəş bərq vurmasa da, süd kimi bir işıq dənizin üstündən şəhərə doğru axırdı.

Yox, Fənayə burada dayanıb qala bilməzdi. Ayaqlarının, əllərinin olduğunu hiss etməsə də, getməli, yeriməli idi. Şüuru onu hərəkətə vadar edirdi. Təkcə beyni işləyir, bir də gözləri görürdü. Bayaq onun yolunu kəsən, tələbə yoldaşlarının dəstəsindən ayıran Fədai, yenə gəlib çıxa bilərdi. O, Fədaini görmək istəmirdi. Ona görə yox ki, Fədaiyə nifrət edirdi. Xeyr, o, Fədaiyə nifrət etmirdi, sadəcə, onun ittihamlarına

cavab verməyə halı yox idi. Fədainin ittihamları sərtdir, ən başlıcası, həqiqətdir. Fənayə ağlı kəsəndən bəri həmişə yalana, riyakarlığa nifrət etmişdi. Ona görə də özünü sudan quru çıxarmaq, ittihamlara cavab xatirinə özündən nəsə uydurmaq, nəsə etiraf etmək fikrində deyildi. Fənayə hələ də özündə güc görürdü. Əgər şüuru itməyibsə, ayaqlarında təpər varsa, demək, yeriyə bilərdi. İçərişəhərin darısqal küçələrində, qaranlıq döngələrində azıb qalmayacaqdı. O, bir tərəfə çıxmalı idi. Fənayə sanki yerimirdi, arxasına baxmadan yüyürürdü. Ani olaraq dayandı, səs-küy də kəsildi. Yenidən qaçmağa başladı…

…Bura dar bir dalan idi. Balaca, taxta bir qapı gördü. Geriyə qayıtmaq istəmədi. Ona elə gəldi ki, geriyə qayıtsa, həmin ittihamlı baxışları – heç bir güzəştə, bağışlamağa yer qoymayan baxışları yenə görəcəkdi. Başlıcası, geriyə qayıtmaq, ona əzab verən xatirələri yenidən yaşamaq demək idi. Hələ yaddaşında oyanmamış xatirələr də çözülə bilərdi. O, bunu istəmirdi, istəmirdi… Onun üçün yaxşının, pisin fərqi yox idi. İndi hər şey Fənayəyə əzab verirdi.

İtələyən kimi, balaca, taxta qapı açıldı və içəri adladı. Daş pilləkənlər üzüyuxarı qalxırdı. Hər yan zülmət qaranlıq olduğundan, Fənayə vahimələndi. Geri çəkildi. Bayıra çıxıb gəldiyi yolla üzü geri qaçdı.

Fənayə həmişə istək və arzularına qovuşmaq üçün irəliyə getmişdi. Bəs, nədən bu kimsəsiz, bu

səssiz küçədə qorxdu? Yox, onu getdiyi yoldan döndərən amansız vahiməni öz içində boğmalı idi. Ona görə də dayandı. Dar, balaca qapının hara açıldığını, həmin pilləkənlərin onu hara aparacağını aydınlaşdırmaq istədi. Hava işıqlanmaqda idi. Dənizin bayaq gördüyü közərtisi lap çoxalmış, qaranlığın bağrından qopan qırmızı bir halə üz göstərmişdi. Bu, günəş idi. Bütün aləmi nura boyayacaq, insanlara hərarət, dünyaya həyat gətirəcək, can verəcək günəş!..

Qızılı-qırmızı şüaların altında İçərişəhərin daş binaları parıldamağa başladı. Uzaqdan daşların üstünə səpələnən şüalar güzgüyə düşən işıq kimi sınır və Fənayənin gözündə əks edirdi. Gözlərini yumub-açdı. Qapısından içəri keçmək istədiyi binanın hündür bir qüllə olduğunu gördü. Qıza elə gəldi ki, bu minaräni quran memar öz məhəbbətinin heykəlini yonub. Heç şübhəsiz, o memar bu minaräni yonduqca, sevgilisinin şirin xəyalları ilə yaşayıb. Bəlkə yaxınlıqdakı saraydan boylanan bir gözəlin məhəbbət dolu baxışlarından ilham alıb? Onun qədd-qamətini, boy-buxununu seyr edib? Və həmin gözəlin qənirsiz gözəlliyini daşlara köçürüb? Bəlkə bina o memarın bakirə məhəbbəti ilə süslənib?

Yəqin ki, elə belə idi, çünki sevməyən, qəlbi məhəbbətlə döyünməyən bir kəs sərt, köntöy daşlardan belə möhtəşəm heykəl yona bilməzdi.

Bəs, hanı o memar? Memarın gecəsini gündüzünə qatmağa vadar edən o gözəl hara gedib? Hansı tufanlar, hansı küləklər onlara qıyıb?

Zaman nə qədər də qəddardır. Heç nəyə, heç kimə güzəşt etmir. Fənayənin ağlına gəldi ki, bu gün zaman müxtəlif insan cildlərinə girib onu addımbaaddım izləyir. Və demək, geriyə yol yoxdur. Zaman həmişə irəliyə gedir, geriyə qayıtmaq, yaşamaq deyil, ölməkdir. Əgər geriyə qayıtsa, həyatının həqiqət adlanan bütün əzablarını, iztirablarını yenidən yaşamalıdır.

İnsanlar danışmaqları, gülməkləri, yeriməkləri və yatmaqları ilə bir-birilərinə çox oxşayırlar. Dəstə-dəstə bir tərəfə gedir, dəstə-dəstə haradansa qayıdırlar, amma onlar heç vaxt bir yerdə deyillər. Hər kəsin öz yolu var. Hər kəs öz yolunu, hər kəs öz ömrünü yaşamalıdır, – Fənayə belə düşündü…

...Sərrafla Sadiqə ötən gün əl-ələ tutub birlikdə getdilər. Hər bir kəs öz yolunu getsə də, sonda bir yerdə olacaqlar. Bilmək olmaz, bəlkə bir külək də onların üstündən əsdi. Bəlkə gücləri çatmayan o külək onları bir-birindən ayırdı?..

Hər halda, bir-birinin əlindən möhkəm yapışmışdılar. İnamlı görünürdülər. Və şəksiz ki, həyatın gözlənilməzliklərlə dolu küləklərinin əsəcəyini bilsələr də, qorxmurdular. Bu qorxmazlıq onları həmişə qoruyacaqdı. Fənayənin keçmiş tələbə yoldaşları, tay-tuşları da yollarının hara getdiyini yaxşı bilirmiş kimi, ondan

uzaqlaşdılar. Təkcə Fənayə qalmışdı bu dar küçələrdə. Bəlkə onu qorxudan elə bu tənhalıqdır? Yox, Fənayə heç bir qorxuya baş əyməyəcək! Keçmişdəki güclü, iradəli Fənayə, cəmiyyətin heç bir qadağasına tabe olmayan, heç kəsə əyilməyən, ürəyi arzulara təşnə olan Fənayə, ömür yoluna çıxan, zülmət qaranlığa qalxan pilləkənlərdən nəyə görə qorxmalı idi? Bu dünyanın ən qorxunc yollarına könüllü şəkildə üz qoyan, o qorxunc yollarda başı bəlalar çəkən Fənayə deyildimi o?!. Fənayə nədənsə, kimdənsə qorxa bilərdimi? Əksinə, o gün işığı kimi azad və yandırıcıdı. Necə ki, kölgələr gün işığı gələndə yox olur, qorxu da eləcə, Fənayəni görəndə ilim-ilim itib qeybə çəkilirdi.

Fənayə ayağının birini zərblə yerə vurdu. Sanki yolunun üstündə dikəlib boy vermək istəyən qorxunun başını əzirdi. Üzündə mərdlik qığılcımı vardı. Gözləri közə düşən ocağın atəşi kimi bərq vururdu. Bir az da irəliyə yeridi. Bayaq itələyib açdığı qədimi taxta qapıdan içəri keçdi, qaranlıqda pilləkənləri üzüyuxarı qalxmağa başladı. Minarənin içi ilə qalxan pillələr dolandıqca dolanır, Fənayəni də özü ilə çəkib aparırdı. O, yerdən qopurdu, dünyadan və onun insanlarından aralanırdı. Bu günə qədər yaşadığı həyatdan, şəhərdən, xatirələrdən, bir sözlə, hamıdan və hər şeydən uzaqlaşırdı. Və uzaqlaşdıqca da yüngülləşir, ağrı-acıları, incikliklərі, başqalarının qınağı, paxıllığı, ata, ana borcları, bir sözlə, insanın canı olan ətdən, sümükdən və nəfəsdən savayı nə

daşıya bilərsə, hər şey pilləkənlərə ilişib geridə qalırdı. Fənayə canından qopanları az qala gözləri ilə görürdü. Bir azdan ətini, sümüyünü də hiss etmədi. Qalan yalnız nəfəs idi. O, bir burum hava kimi qədim gümbəz divarının içiynən qalxan pilləkənlərin üstüylə burula-burula yuxarı, lap yuxarı qalxırdı. İçində göyün sonuncu qatına qədər qalxıb, göylərin dərgahına yetişmək istəyi vardı.

Yuxarı, yalnız yuxarı – minarənin sonuncu pilləsinə, sonuncu qatın və oradakı balaca, azad meydançaya doğru! O meydançadan yuxarı pillələr də tükənirdi, tavan da. Baxan gözləri dibsiz bir boşluq çağırırdı. Nə olsun? O çağırışa yalnız quşlar qanadları ilə cavab verə bilərdi. Göy üzünün çağırışının cavabı uçuş idi. İnsan isə… Uça bilmir, çünki onun qanadı yoxdur. Yoxdu, vəssalam.

Bu nədi, yavaş-yavaş gücü tükənir. Canlı deyil ki, gücü tükənə, o bir burum havadı. Yuxarıya qalxdıqca, hava seyrəlir axı... Hava atmosfer qatındadı, o bitəndən sonra çəkisizlik, havasızlıq qatı başlayır. Fənayə ora gedirdi – çəkisizliyə, havasızlığa, yoxluğa… Amma xəyal hələ də var. Yox, yox, onun həyatından ötübkeçənlər ömür sayılmasın gərək. Ömür sondadı, lap sonda. Hər insan Allah-taala tərəfindən layiq olduğu ölümlə mükafatlandırılır. Fənayə də ömür qatarının bu son dayanacağına çatanda, bambaşqa bir insana çevriləcəkdi. O, ölümün əlini şəstlə sıxacaqdı, qorxub çəkinmədən. Deyəsən axı, Fənayənin bu günə qədər

rastlaşdığı kişilərin ən güclüsü, ən mərdi bir başqası deyil, məhz ölüm idi. Qoy olsun! Əgər belədirsə, o, ölümü hamıdan, hər şeydən daha çox sevəcək! Onu soyuq daş pillələrlə addımlamağa nə sövq edirdi ki? Axı, o, bu gənc ömrünün hər anında xoşbəxtlik axtarırdı. Bəs, hanı axtardığı? Əslində Fənayə o pünhan, ehtiraslı gecələrdə də səadətini soraqlayırdi? Bəs, indi nə axtarırdı?

Gözlərini yumdu. Göz qapaqları ağappaq bir lövhəyə çevrildi. Cürbəcür biçimdə bəyaz, qırmızı, qızılı rəngli gəlinlik paltarları yan-yana düzülmüşdü. Sərrafla Sadiqənin toyunda Sadiqənin əynindəki gəlinlik paltarı ona gülməli, zindan kimi ağır və cansıxıcı görünmüşdü. Bəs, necə oldu ki, birdən-birə onun gəlinlik paltarına gizli, həm də ülvi bir sayğısı yarandı? Elə indi də xəyalında canlanan bu bəyaz, qırmızı, qızılı rəngli gəlinlik paltarlarını xoşbəxtlik rəmzi kimi hiss etməyə başladı. Deməli, onun erkən yaşlarından gəlinlik paltarlarını ikrahla süzməyində bir yalan varmış. O, bunu indi, «yüksəldiyi bu ucalıqda» daha dərindən dərk etdi. Axı, o da əyninə gəlinlik paltarı geyinə bilərdi. Axı, o da «Vağzalı» sədaları altında ər evinə gəlin köçə bilərdi. Axı, o da halal, namuslu, nəcib bir oğlanın yarı, ömür-gün sirdaşı ola bilərdi. Axı, o da başqa qızlar kimi dünyaya ana olmaq üçün gəlmişdi. Niyə bu müqəddəs borcu yerinə yetirməkdən ağılsızcasına imtina etdi? Analıq şərəfinə, bir evin xanımı, sahibi olmaq səadətinə təpik atdı. Bət-

nindəki körpəni itirdi, saf, ləyaqətli ömrünü ehtirasın güdazına verdi…

İçi isindi, xoş istilik bütün bədəninə yayıldı, sifəti allandı. Ani bir tezliklə də bənizi ağardı, qəfil qorxu və soyuq yel vücudunu titrətdi. Bir anın içində həm istilənir, həm də üşüyüb nanə yarpağı kimi əsirdi. Görəsən, niyə belə oldu? Yadına gəldi, hamilə vaxtı bu halları keçirirdi. Yox, o hara, hamiləlik hara? Ömür-billah ola bilməzdi bu!..

O, daha heç vaxt ana olmayacaqdı! Döşləri əbədi olaraq ana südünə həsrət qalacaqdı, boynundan körpə qolları asılmayacaqdı… Hönkürdü. Əlbəttə, vaxtın bu vədəsi onun hönkürtüsünü özündən başqa bir kimsə eşidə bilməzdi.

Get-gedə hər tərəf onun gözündə büsbütün gəlinlik paltarına bürünürdü, – mavi, qırmızı, bəyaz güllərə qərq olurdu. O, ağlayır və ağladıqca toxtayır, arxayın olur, ağlına gələn hansısa qorxulu fikirlərə haqq qazandırır, beyninin dumanını təmizləyirdi… Təbiət də başdan-başa gəlinlik paltarı geyinməkdəydi. Bəs, Fənayə nə üçün onu özünə yaraşdırmadı? Nə üçün xoşbəxtliyin əlvan rəngini bəyənmədi? Budur, bu an ona elə gəldi ki, daş pillələri balaca bir uşağın əlindən tutaraq qalxır. Uşağın toppuş əli ürəyini isitdi, quş kimi çırpınan qəlbinə təskinlik gətirdi. Bir qədər toxdadı. Onunla yanaşı yeriyən oğlana baxdı. Baxdı və diksindi; «İlahi, bu uşaq kimə oxşayır? Harisəmi? Yox, zərrəcə! Bəs kimə?.. Fədaiyə

oxşayırdı. Oxşayır nədi, özüdü ki, var. Həmin duruş, həmin boy-buxun…»

Diksinib əlini çəkdi. Əli boşa çıxdı… Yer-göy başına fırlandı...

Minarənin nəm çəkmiş divarına söykəndi. Qızdırmalı canı yenə üşüdü. Fədai… O, özünə bir aylıq, bir illik məşuqə yox, ömür-gün sirdaşı axtarırdı. Söz deyəndə, yanaqları allanan, ismətli, həyalı, bakirə qız sorağındaydı. Əsl xoşbəxtlik sorağındaydı, yalançı, saxta bəxtəvərlik yox…

Sübh namazının vaxtıydı. Az sonra azançı bu pillələrlə minarənin ən uca nöqtəsinə çıxacaq, səsinə özünəməxsus avaz verəcək və bütün müsəlmanları müqəddəsliyə, paklığa, Allaha itaətə çağıracaqdı…

Bir-iki pilləni də adlayıb, minarənin ən uca nöqtəsinə çatacaqdı Fənayə. Axı, o nə üçün yuxarı qalxırdı? Yuxarıda nə işi vardı? Ölməyəmi yüksəlirdi? Ölümə qovuşmaq üçün də zəhmət çəkəsən gərək? Məgər ölməyə yermi qəhətdi? Bu sənin ağlına haradan gəldi, Fənayə? Gedib öz atanın xarabasında ölə bilməzdinmi? Məgər, sən ölümünü də xalqa nümayiş elətdirirsən?

Yox, o, hamı kimi «atasının xarabasında» ölə bilməzdi. Məgər başına gələn müsibətlərin baiskarı «o xaraba» və oradakılar deyildimi?..

…Yusifcanın yanına gedəndə, onun emalatxanasına daxil olanda, qəlbində tərtəmiz yaşamaq eşqi vardı. Ancaq bəxtsiz taleyi onu bir gecənin məstedi-

ci, bihuşedici, bütün ömrünə bərabər və əbədiyyətə qovuşacağı xoşbəxtliyin içindən çəkib kənara atdı…

…Pillələr bitdi, divar qurtardı, bu da son... Bir zaman Harisin evinin astanasında da dayanmışdı. Onda önündə göy boşluğunun yaratdığı uçurum yox idi. Əynində gəlinlik paltarı nə gəzirdi? Köhnə donunda, gündəlik libasında idi. Haris onun ayaqları altına çini nəlbəki qoydu. «Çıx üstünə, sındır, Fənayə!» – dedi. Ayaqları altındakı nəlbəkidən ona bir cüt qara göz zillənmişdi. Nifrəti mərhəmətə qarışan bu gözlər qəzetsatan oğlanın, Fədainin gözləriydi.

Fənayə qışqırmaq istədi, ancaq səsi çıxmadı. «Sındır! Vur, sınsın!» – bu da Harisin ehtirasdan təntimiş gur səsiydi. Fənayə ayağını ixtiyarsız qaldırıb dabanını nəlbəkiyə çırpdı. Ona zillənmiş bir cüt göz bəbəyindən çıxıb ayaqları altına düşdü. Fənayə bu gözləri ayaqlayıb əzməsin deyə, qəribə bir xof içində kənara sıçradı…

Ağlamaq istədi, bacarmadı, hıçqırmaq istədi, bacarmadı. Səsi öz içində qırılıb qaldı…

Günəş elə bil dənizdə çimib çıxırdı, üst-başı tərtəmiz, qıpqırmızıydı, təndir kimi alışıb-yanırdı. Fənayə gözünü göydən çəkə bilmədi, bəlkə də son dəfə şəhərə baxdı. Günəşin şəfəqləri altında ləpələnən dənizi bir daha seyr etdi. Mavi Xəzərin sahibi günəş idi sanki. Orada, sular qucağında Yusifcanın yağlı boya ilə işlənmiş portreti görünürdü. Şəkil dümdüz səmaya doğru, işıqla, nurla dolu günəşə doğru ucalırdı.

Yox, Yusifcan cansız rəsm deyildi, əlində fırça tutmuşdu. Yəqin o, Fənayənin rəsmini çəkməyə hazırlaşırdı. Bu istəkdən başqa, daha heç nə haqq dünyasına qovuşan Yusifcanı bu dünyaya dartıb gətirə bilməzdi…

Əyilib aşağılara baxdı… Məscidin ətrafı qara, boz rəngli daşlarla örtülmüşdü. Ona elə gəldi ki, qara daşların üstündə artıq can verir... Ağzından da qan axırdı. Adamlar cəsədinin ətrafında yığışıblar. Camaatın arasında Harisə oxşayanlar vardı. Onların necə də murdar və həris sifətləri vardı. Kaş, o, Fədaini son dəfə görüb ona deyə biləydi ki, tüpür bu həris və murdar sifətlərə… Bəlkə də Fənayənin son istəyi, son arzusu buydu. Ayrı bir dilək ola bilməzdi, ruhu onu müqəddəs minarənin başından günəşə doğru çəkirdi. Daha doğrusu, yerdən, insanlardan çox-çox uzaqlarda olan bakirə, tərtəmiz günəşə sarı. Uçmaq istəyirdi. Həm də arzulayırdı ki, əynində bəmbəyaz gəlinlik paltarı olsun.

Qızın sinəsi göy rəngli məhəccərə söykəndi. Qağayılar, qumru quşları, göy göyərçinlər dövrəsində qanad çalırdılar. Ağaclar, binalar yellənir, çiyin-çiyinə verib rəqs edirdi. Bu an, elə bil dəniz ləpələndi, sular cilov gəmirən at kimi şahə qalxdı, aşıb-daşdı. Deyəsən axı, yer üzündə nə vardısa, hamısı onunla birlikdə ələlə verib günəşə doğru can atdılar. Fənayə də onlara qoşulmaq, qanadlanmaq istədi. Ancaq uça bilmədi… Axı, sınmış qanadlarıyla necə uça bilərdi?..

… Arxası üstə yerə düşdü. Elə bil heç nə olmamışdı. Heç nə! Batan gözləri günəşi axtarırdı, qan rəngli səmanı süzürdü. Günəş də, səma da həyəcanlı, narahat, tələtümlü idi. Bəlkə heç canından sonuncu nəfəsi üzülən Fənayə deyildi, dünya idi can verən?

Elə bil göydə tənbəl-tənbəl süzən bəyaz buludlara da, səmaya da qan çilənmişdi…

Günəş – nəhəng, parlaq güzgü sanki bir göz qırpımında parçalandı, çilikləndi, qırıq-qırıq olub onun üstünə töküldü. Sanki o, bu sınmış, bu çiliklənmiş, bu yaralanmış işıq selinin içində əriyərək yox oldu.

Fənayə son arzusuna çatdı. Əynində «günəşdən biçilmiş» qırçınlı gəlinlik paltarı vardı…

Baxışlarında son ümidin, son arzunun işığı, nuru öləziyib sönürdü... Üşüdü. İsinmək üçün son dəfə günəşə boylandı. Günəşə nəsə demək istədi. Ancaq heç nə deyə bilmədi Fənayə!.. Heç nə!..

Bakı – 2009